ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 1 (19)

BAKI – 2023

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya elmləri doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, professor*

**MƏSUL KATİBLƏR:**
**Vilayət İsmayılov,** *iqtisad elmləri doktoru*
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov – Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev – AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov – Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., professor Fəhrad Möhbalıyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.e.d., professor Qənimət Səfərov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Həmkarlar İttifaqları Hərəkatı və Sosial fənlər kafedrasının müdiri

i.ü.f.d., dosent Hicran Mirzəyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Nurəngiz Mikayılova – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə və Mühasibat uçotu" kafedrasının müdiri

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Magistratura şöbəsinin müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev – Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail:* ***jurnal@aesma.edu.az***
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (protokol №, ........2023)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə, sosiologiya və iqtisadiyyat*** *elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Qənimət Səfərov, Səbinə Sadıqova**
Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadi-ekoloji-sosial məsələlərin həllinə dair..................................................................................................................
**Faiq Əliyev**
Postmüharibə dövründə ekoloji tarazlığın qorunması prioritet məsələlərdən biri kimi.........
**Faiq Ələkbərli**
Yusif Vəzir Çəmənzəminlinin dünyagörüşündə fəlsəfə tarixi və sosial-siyasi məsələlər..................................................................................................................
**Hörmət Cavadova**
Qaçqın və miqrantların uşaqlarının sosial adaptasiyası və təhsil problemləri.......................
**Məhsəti Cəfərova**
Müstəqil Azərbaycanda mədəniyyətlərin milli özünüdərki sosial-psixoloji kontekstdə.......
**Günay Ağayeva**
Ailədaxili münasibətlərin uşaq şəxsiyyətinin formalaşmasında rolu....................................
**Nuray Qibləliyeva**
Dəyər insan fəaliyyətinin requlyativ əsası kimi.....................................................................

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Vilayət İsmayılov, Teymur Kərimov**
Azərbaycanda turizm müəssisələri fəaliyyətinin proqnozlaşdırılması..................................
**Hicran Mirzəyeva**
Resurs təminatı və aqrar sahədə innovasiyalı inkişaf imkanları...........................................
**Nurəngiz Mikayılova**
Heydər Əliyevin Azərbaycan iqtisadiyyatına verdiyi töhfələr.............................................
**Rəfail Əsgərov, Nicat Rzayev**
Gəlmə turizmin sosial iqtisadi inkişafda rolu........................................................................
**Pərviz Məmmədov,**
**Elmi rəhbər: Zakir Əlizadə**
İşsizliyə ümumi konspetual yanaşma.....................................................................................
**Səbinə Sadıqova, İlahə Əliyeva**
Müəssisənin biznes strategiyasının təhlilində istifadə edilən metodlar.................................
**Rövşən Məmmədov, Asif Məmmədov**
Qlobal iqtisadiyyat qarşısında mövcud müasir risklər..........................................................
**Esmira Həsənzadə**
Ərzaq təminatı və ərzaq təhlükəsizliyinin təmin edilməsində maliyyə siyasətinin iqtisadi əhəmiyyəti...........................................................................................................
**Sevil Balayeva, Zöhrab İbrahimov**
Maliyyə dayanıqlılığına dair konseptual yanaşmalar və bankların maliyyə dayanıqlılığının əsas göstəriciləri.............................................................................
**Rüzgar Məhyəddinli**
**Elmi rəhbər: Hicran Mirzəyeva**
Azərbaycanda kənd təsərrüfatının bazar və rəqabət qabiliyyətinin analizi...........................
**Soltan Hüseynov**
**Elmi rəhbər: Nurəngiz Mikayılova**
Vergitutmanın formalaşmasının nəzəri əsasları.....................................................................
**Əsgər Əliyev, İashar Gasimovi**
Azərbaycanın modern dövlət quruculuğunda turizmin yeri...................................................

**Nurlana Teyyubova**
**Elmi rəhbər: Səadət Quliyeva**
Dövlət maliyyə nəzarəti və audit orqanlarının fəaliyyətinin standartlaşdırılması.................
**Фахри Саттаров**
Перспективы развития рынка ценных бумаг в Азербайджане……………………........
**Aysun Bünyətova**
**Elmi rəhbər: Təranə Əliyeva**
İşğaldan azad edilmiş ərazilərdə əhalinin məskunlaşması və sosial inkişaf layihəsi istiqamətində strateji yanaşma...............................................................................................
**Əli Hüseynli**
**Elmi rəhbər: Amal Həsənli**
Xarici ticarətin mahiyyəti.........................................................................................
**Vüsalə Babayeva, Elnur Cavadov**
Qarabağ xarici investorların maraq dairəsində.....................................................................
**Aysel Eminova**
Environmental sustainability as a competitive advantage of enterprise in the global market……………………………………………………………………......………
**Şahin Məmmədov**
**Elmi rəhbər: Söhrab İsayev**
Təbii resurslarin qeyri-qanuni istismarı nəticəsində dəymiş zərərin ödənilməsi məsələləri (Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü timsalında)..............
**Mehin Abbasova**
**Elmi rəhbər: dos. Elşad Yusifov**
Artan rəqabət mühitində kadr potensialının gücləndirilməsinin müəssisələrin fəaliyyətinə təsiri.........................................................................................................

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT 316.33**

**Qənimət Səfərov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.e.d.,professor,*
*e-mail:seferov.qenimet@aesma.edu.az*
https://orcid.org/0000-0001-7291-8572

**Səbinə Sadıqova**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*i.f.d., assistent,*
*e-mail:sabina-w@mail.ru*
https://orcid.org/0000-0002-0752-5630

## AZƏRBAYCANIN İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİNDƏ İQTİSADİ-EKOLOJİ-SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİNƏ DAİR

*Müstəqilliyin ilk illərində respublikada daxili çəkişmələr, ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması ölkədə tənəzzül yaratmışdır. Məhz belə bir vaxtda ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Hedər Əliyev ölkə iqtisadiyyatını necə dirçəltmək lazımdır sualı qarçısında qaldı.Uzun illər Azərbaycan Respublikasına rəhbərlik etmiş bir şəxs kimi Heydər Əliyev bu sualın cavabını neft sənayesinin inkişaf etdirilməsində tapdı. Belə ki, bu sənaye sahəsində infrastruktur qisməndə olsa qalmışdır və orada yüksək ixtisaslı kadrlar fəaliyyət göstərirdi.*

*Ölkənin inkişafına mənfi təsir göstərən mühüm və həmdə böyük amil isə mənfur Ermənistanın Dağlıq Qarabağda işğalçılıq siyasətini həyata keçirmək üçün ərazilərimizin işğal edilməsi idi.*

***Məqsəd –*** işğaldan azad olunmuş ərazilərdə mövcud olunmuş iqtisadi potensiala nəzər salmaq, əldən verilmiş imkanlar və postkonflikt şəraitində quruculuq işlərinin istiqamətlərini müəyyənləşdirməkdir.

***Metodologiya*** – tarixi, qruplaşdırma, müqayisə metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** işğal zonalarında mövcud olmuş iqtisadi potensialın bərpa edilməsi, onun Azərbaycan iqtisadiyyatının inkişafına təsiri istiqamətləri və bu ərazilərdə görülməsi vacib olan məsələlər müəyyən edilmişdir.

***Açar sözlər:*** *Azərbaycan Respublikası, işğal, Dağlıq Qarabağ və ətraf rayonlar,əldən verilmiş imkanlar, torpaqların işğaldan azad edilməsi*

**Giriş**

Azərbaycan Respublikası 1918-ci ildə mayın 28-də yaranmış və qısa zaman müddətində fəaliyyət göstərmiş, müstəqillliyini 1991-ci ilin 18 oktyabrında bərpa etmişdir. Müstəqilliyini elan edərkən Azərbaycanın ərazisi 86.6 min kvdrat kilometr olmuş, bunlardan 12% meşələr, 1,7 % su hövzəsi, 54,9 % yararlı torpaqlar(o cümlədən 31,1% otlaq və biçənəklər), 31,4 %isə sair torpaqlar təşkil etmişdir.

Həm keçmiş ittifaq dövründə, həmdə müasir dövrdə Azərbaycan aqrar-sənaye ölkəsi

kimi fəaliyyət göstərmişdir. Bununla belə Azərbaycanın inkişaf tarixində neft sənayesinin rolu çox böyük olmuş, ikinci dünya müharibəsi dövründə cəbhədə qazanılan qələbənin reallaşmasında ölkəmizin neft sənayesi müstəsna rol oynamışdır.

Müstəqilliyinin ilk illərindən ölkədə aparılan islahatlar nəticəsində Azərbaycan artıq investisiya alan ölkədən, investisiya qoyan ölkəyə çevrilmiş, dünya iqtisadiyyatına inteqrasiya etmişdir. Bütün bunlar isə qeyri-neft sektorunun inkişafına rəvac vermişdir. Keçmiş ittifaqın süqutu başqa respublikalar kimi Azərbaycandanda yan keçməmiş, onun iqtisadiyyatındada tənəzzülə səbəb olmuşdur. Beləki, ittifaq dövründə elə bir idarəetmə üsulu qurulmuşdurki, faktiki olaraq heç bir respublika sərbəst yaşaya bilməzdi. Yəni iqtisadiyyatın planlaşdırılmasında bütün respublikaların bir-birindən asılı omlası prinsipi "gizlicə" olaraq həyata keçirilmiş, bu isə müstəqilliyin ilk illərində çox böyük çətinliklərə gətirib çıxarmışdır.

**İnkişafa aparan yol**

Müstəqilliyin ilk illərində həm də ölkədaxili çəkişmələr də tənəzzülün dərinləşməsində böyük rol oynamış, kritik bir situsaiya yaranmışdır. Bu situasiya həmdə onunla şərtlənirdiki Azərbaycanda mövcu olan və ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan neftmaşınqayırma sənayesi də iflic vəziyyətinə düşmüşdür. Beləki bu sənaye sahəsinin məhsulları keçmiş ittifaqın neft rayonlarının bu məhsullara olan tələbatlarının 75-85 % -ni odəməklə, həmdə digər neft hasil edən ölkələrə ixrac olunurdu.

Daxili didişmələrin dərinləşməsi, tənəzzülü dahada qaçılmaz edir, ölkənin müstəqilliyi artıq şübhə altına düşürdü. Azərbaycanda milli valyutanın qiymətdən düşməsi, iqtisadi əlaqələrin qırılması da iqtisadiyyatın staqnasiyasını şərtləndirirdi.

Bütün bunlarla yanaşı yüz illərin bir müdhiş problemidə ölkəni çıxılmaz vəziyyətə salmışdır. Beləki, ermənilərin "dənizdən-dənizə" ideyasının "reallaşdırılması" xülyası baş qaldırmış, rus ordusunun köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar işğal olunmuş, bu isə müstəqil ölkəmizin fəaliyyətini şübhə altına qoymuşdur.

Müstəqilliyin ilk illərində mənfur ermənilərin işğalçı siyasəti nəticəsində Azərbaycanın torpaqları zəbt edildi və oradan azərbaycanlılar qovuldu. Azərbaycanın son tarixində bu ərazilərə Qazax rayonuna aid kəndlər, Naxçıvan Muxtar Respublikasının bir kəndi, birdə Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon daxil idi.

Məlumdur ki, Azərbaycan Respublikasının iqlim şəraiti, onun ərazilərində kənd təsərrüfatına aid bütün işləri görməyə imkan verir. Beləki.bu torpaqlar çox münbit və yararlıdırlar. İşğal olunmuş ərazilərimizdə həm kənd təsərrüfatı, həm də sənayenin inkişaf etdirilməsi üçün bütün lazımi ehtiyatlar mövcuddur. Bəs bu torpaqların işğalı Azərbaycanı hansı imkanlardan məhrum etmişdir?

Məhz belə bir vaxtda ikinci dəfə ölkə rəhbərliyinə gələn Ulu öndər Heydər Əliyev "haradan başlamalı?" sualına neft sənayesindən başlamalı kimi cavab verdi.

Onun yaradıcısı və memarı olduğu "Yeni neft siyasəti" 1994-cü ildə rallaşdı və "Əsrin müqaviləsi" kimi tarixə daxil oldu. Bu strategiyanın reallaşdırılması ölkəyə nə verdi? Hər şeydən əvvəl ölkə iqtisadiyyatının inkişafinin əsasını qoydu. İkincisi, bu müqavilə müxtəlif aparıcı dövlətlər arasında bağlandı və onlar düz və dolayısı ilə ermənilərin bizə olan yersiz ərazi iddiaları haqqında məlumatlı oldularki, bu da özünü sonralar biruzə verdi. Üçüncüsü, bu müqavilənin reallaşdırılması sonradan neft sənayesində onlarla yeni müqavilənin başlanmasını şərtləndirdi. Dördüncüsü, dünya ölkələrinin Azərbaycana marağı artdı və iqtisadiyyatın müxtəlif sahələrinə investisiya axını başladı. Büşincisi, Azərbaycan dünyaya investisiya cəlbediciliyinə malik bir ölkə kimi tanındı. Altıncısı, neftdən gələn neft-dollar ölkə iqtisadiyyatının digər sahələrinə, sosial məsələlərin

həllinə, çoxsaylı qacqın və köçkünlərin problemlərinin qisməndə olsa həllinə yönəldi. Yeddincisi, Azərbaycan bu gəlirlərdən istifadə edərək əvvəllər öz mütəxəssislərimiz tərəfində kəşf edilmiş, lakin müvafiq avadanlıqların olmaması ucbatından istismar edə bilmədiyimiz, Xəzər dənizinin dərin sulu qatlarının mənimsənilməsinə gətirib çıxardı. Neft-dolların Dövlət Neft Fondunda yığılması ölkənin çoxsaylı problemlərinin həllində mühüm rol oynadı.

Bütün bunlar ölkə iqtisadiyyatının inkişafı üçün çox zəruri idi, lakin həlledici deyildi, beləki iqtisadiyyatın təkcə neftdən asılı olması dünyanın müasir inkişaf meyllərinə uyğun deyildir.Məhz bu asılılığın aradan qaldırılması üçün ölkə başçısı iqtisadiyyatın diversifikasiyası (şaxələnməsi) məsələsinin həll edilməsini prioritet kimi qarşıya qoydu. Bu problemin həlli istiqamətində xeyli işlər həyata keçirildiki bunlardan ən əsası “Strateji yol xəritələrinin” hazırlanması idi. Bu xəritələr iqtisadiyyatın butun sektorlarını əhatə edir və onu reallaşdırılması ölkədə dayanıqlı iatisadiyyatın davamlı inkişafa keçməsini təmin etməlidir. Strateji xəritələrə uyğun olaraq sənaye parkları və məhəllələrinin yaranması, yeni sənaye müəssisələri və logistik mərkəzlərin fəaliyyətə başlaması, aqrobiznesin inkişafı və digər məsələlər qisməndə olsa reallaşır. Olkədə aparılmış və aparılan iqtisadi islahatlar bütövlükdə makrosəviyyədə sabitləşməni, rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasını şərtləndirir. Bununla belə Azərbaycan iqtisadiyyatının inkişaf meyllərinə zərbə vuran bir böyük məsələ isə Dağlıq Qarabağ və onun ətrafındakı işğal olinmuş rayonların iqtisadiyyatının bütövlükdə nəzərə alina bilinməməsi idi.

**İşğal faktı və postkonflikt inkişaf**

Mövzuya keçməmişdən əvvəl göstərəkki, keçən əsrin 80-cı illərinin axırında Azərbaycan iqtisadiyyatı nə ilə səciyyələnirdi. Mərkəzi Statistika Komitəsinin məlumatlarına əsasən 1988-ci ildə Milli gəlirin 40%-dən çoxu sənaye sektorunun payına düşürdü, beləki, həmin il ölkədə fəaliyyət göstərən 1005 sənaye obyektindən 52,63 %-i (yəni 529-u) ağır sənaye, 20,5%-i (yəni 206-sı) yüngül, 26,17%-i (yəni 263-ü) kənd təsərrüfatı ilə bağlı ərzaq məhsulları istehsal edən, 0,7%-i (yəni 7-i) digər müəssisələrə aid idi.Bununla yanaşı, başqa sektorlarıda nəzərə alaraq keçən əsrin 90-cı illərinin əvvəlində işləyən müəssisələrdən 3800-ü 1995-ci ildə fəaliyyətini dayandırmışdır. Həmçinin, müstəqilliyin ilk illərində keçmiş ittifaq respublikaları və sosialist düşərgəsi ölkələrinin neftmaşınqayırma avadanlıqlarına olan təlabatlarının

70-85 %-ni təmin edən ölkəmizin neftmaşınqayırma sənayesi də tənəzzülə uğradı. Neft sənayesinin inkişafında da müəyyən geriləmələr oldu, bütün bu geriləmələr həmçinin emal, yüngül, yeyinti sənaye sahələrində də baş verdi. Müstəqilliyimizin ilk illərində Azərbaycanın əsas sektorlarından olan kənd təsərrüfatının inkişafında da geriləmə meyli müşahidə olunurdu.

Bütün bunlar ölkənin “özünəməxsus” olan problemlərdir, lakin özümüzdən asılı olmayan problemlərdə mövcud idi. Beləki, mənfur ermənilərin ölkəmizə ərazi iddiaları davam edir, onlar 90-cı illərin əvvəlində rus qoşunlarının bilavasitə iştirakı ilə bir sıra rayonlarımızı işğala məruz qoyaraq zəbt etmişdilər. Birləşmiş Millətlər Təşkilatının (BMT) 4 Qətnaməsi və digər Qurumların bizim ərazi bütövlüyü çərçivəsində bu problemin həllinə dair qəbul etdikləri heç bir sənədə erməni separatçıları məhəl qoymur, dünya birliyi də özünü “görməməzliyə” vururdu.

Ölkə Prezidenti mərhum Heydər Əliyevin bütün səylərinə baxmayaraq təcavüz davam edirdi. Nəhayət Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu istiqamətdə xeyli işlər görsədə mənfur düşmən heç cür razılığa gəlmirdi.Bütün bunlar yeni bir situasiyanın yaranmasını şərtləndirirdi: 1920-ci ilin 28 sentyabrında düşmən

təmas xəttində təxribat törətdi və buna cavab olaraq Ali Baş Komandan “Əks əməliyyat” keçirmək üçün Silahlı Qüvvələrin Komandanlığına tarixi əmr verdi. Vətən müharibəsi dövründə Ali Baş Komandan Dünyanın bir sıra aparıcı dövlətlərinin televiziya kanallarına onlarla müsahibə verdi, bizim haqq işimizin məğzini onlara çatdırdı. Vətən müharibəsi 44 gün davam etdi və düşmən layiqli cəzasını alaraq məğlub oldu. Məhz müharibənin bitməsi Dağlıq Qarabağ və onun ətrafındakı işğaldan azad olunmuş torpaqlarda hansı işlərin görüləcəyini qarşımızda qoyur.

Azərbaycan iqtisadi baxımdan Abşeron, Gəncə-Qazax, Naxçıvan, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın və Dağlıq Şirvan olmaqla on regiondan ibarətdir. Yuxarı Qarabağ İqtisadi Regionu: Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli inzibati rayonları və Xankəndi şəhərindən ibarətdir. Kəlbəcər-Laçın İqtisadi Regionu isə Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edir [4,s.152, 165]. Hazırda bu bölgələrdə iki iqtisadi region: Qarabağ və Şərqi Zənqəzur yaradılmışdır. Bu məqalədə məhz axırıncı İqtisadi Regionlar haqqında danışacağıq.

Ölkə Prezidentinin dediyi kimi, Beynəlxalq ekspertləri də dəvət etməklə işğalla əlaqədar olan ərazilərimizdə Azərbaycana dəyən ziyanın qiymətləndirilmsi həyata keçiriləcəkdir. Bu qiymətləndirmənin nəticəsi Beynəlxalq Məhkəmədə Ermənistana qarşı qəbul olunacaq qərarlarda öz əksini tapacaqdır. Odurki burada biz hər hansı konkret rəqəmlər deyil, ümumi halda dəyən ziyandan danışacağıq. Bu qiymətləndirməni gözləmədən fikrimizcə, aşağıdakılara nəzər yetirilməsi vacibdir. Beləki, Ermənistan bu illər ərzində işğal etdikləri torpaqlara maddi, ekoloji, mənəvi ziyanlar vurmuşdur.

Bu ərazilər işğal altında olarkən, orada yerləşən ev təsərrüfatı, kənd təsərrüfatı, sənaye , turizm və s. sahələrə ciddi ziyan vurulmuşdur. Beləki, işğal dövründə bu obyektlər “əldən verilmiş imkanlar” a məruz qalmış,bu təsərrüfatlara aid gəlir (mədaxil, mənfəət) ermənilər tərəfindən mənimsənilmişdir.İşğal dövründə həmin ərazilərdə yerləşən 8376 yaşayış məntəqəsi ermənilər tərəfindən darmadağın edilmiş, talan olunmuşdur. Belə ki, həmin təsərrüfatlarda yaşayan soydaşlarımıza məxsus olan evlər, onlara aid evləvazimatları, mal-qara və quşlarını ermənilər mənimsəmiş, keçən dövr ərzində bu təsərrüfatlardan həmin vətəndaşlarımıza gəlir daxil olmamış, bu isə dolayısı ilə onların istehlak təlabatlarının ödənilməməsi ilə bir başa dövlət büdcəsinə daxil olmaları azltmışdır. Bunu orada fəaliyyət göstərən sənaye müəssisələri. Turizm obyektləri üçün də demək olar.

Azərbaycan iqtisadiyyatında mühüm rol oynayan on iqtisadi regionu fərqləndirirlər: Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Dağlıq Şirvan, Aran, Naxçıvan, Lənkəran, Quba-Xaçmaz, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın. Tədqiqat obyektimiz üçün maraq doğuran isə axırıncı iki iqtisadi regiondur.

Yuxarı Qarabağ iqtisadi rayonuna Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli inzibati rayonları daxildir və bunlardan Cəbrayılın Cocuq Mərcanlı kəndi, Ağdam və Füzulinin bəzi kəndlərinin çıxmaq şərtilə bütün ərazi erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bu regionun əsas məşğuliyyəti heyvandarlıq, üzümçülük,meyvəçilik, tütünçülük, buğda istehsalı və s. kənd təsərrüfatı məhsulları təşkil edir. Bununla bərabər bu regionda arıçılıq, baramaçılıq istahsalı və sənaye məhsullarının istehsalı da xarakterikdir.

Kəlbəcər-Laçın iqtisadi regionuna Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir. Bu regionun ərazisi 6500 kvadrat kilometr və ya respublika ərazisinin 7,5 faizini təşkil edir. Bu iqtisadi region müxtəlif təbii sərvətlərlə məşhurdur: qızıl, mərmər, civə, kobalt, inşaat daşları və s. Burada qida və yüngül sənaye səciyyəvidir.

Bu iqtisadi regionlar təkcə sadaladıqlarımızla zəngin deyildir. Burada böyük potensialı olan dağ çayları, mineral sular, meşə massivdə vardırki , bu da regionun iqtisadi potensialını xarakterizə edir. Bu regionun ixtisaslı kadrları, onların əmək qabiliyyəti də

iqrisadi potensialın ayrılmaz hissəsidir.

Bu rayonların iqtisadi fəaliyyət növlərinə diqqət edək. Kəlbəcər rayonu 1930-cu ilin avqust ayının 8-də inzibati rayon statusu almış və 1993-cü ildə ermənilər tərəfindən işğal olunmuşdur. Hesablamalara görə işğal nəticəsində Kəlbəcərə milyard manatlarla ziyan dəymişdir. Kəlbəcərin ərazisi 3064 km2, əhalisi 77003 nəfər, əhalinin bir kvadrat kilometrə düşən sıxlığı 39,66 nəfər/km2, kişilərin sayı 38396, qadınların sayı 38607 nəfər, müharibədə 511 nəfər öldürülmüş, 321 nəfər əsir götürülmüş və ya itkin düşmüş. şəhid ailələrinin sayı 488 ailə, Qarabağ qazilərinin sayı isə 75 nəfərdir. Kəlbəcərdə meşə örtüyü çox böyük ərazini əhatə edir, ərazisindən Tərtər çayı axmaqla aşağıdakı adda heyvanlar mövcuddur: dağ keçisi, cüyür, qonur ayı, çol donuzu, daşlıq dələsi, ular, toğlugötürən, qartal və s. Kəlbəcərin zəngin bitki örtüyü vardır: enliyarpaqlı meşələr (bura daxildir: palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, alp və subalp çəmənlikləri.Kəlbəcər faydalı qazıntıları ilə də məşhurdur: qızıl, civə, qum, çınqıl, mişar daşı, mineral sular.

Kəlbəcərin iqtisadiyyatı aşağıdakılarla səciyyələnir:

- ehtiyatı 112,5 ton təşkil edən, istismar edilən Söyüdlü (Zod) qızıl yatağı,
- ehtiyatı 13 ton olan Ağduzdağ və Tutxun qızıl yataqları,
- Ağyataq, Levçay, Çorbulaq yataqları- ehtiyatı 850 ton,
- Qamışlı və Ağqaya yataqları- ehtiyatı 200 tondan çox,
- mişar daşı istehsalı üçün yararlı olan, ehtiyatı 10941 min $m^3$ olan Kilsəli yatağı,
- kərpic istehsalı üçün yararlı olan, ehtiyatı 1312 min $m^3$ olan, Keşdək gil yatağı,
- Çəpli qum-çınqıl qarışığı yatağı – ehtiyatı 4473 min $m^3$,
- ehtiyatı 1756 min $m^3$, əla dekorativliyə malik olan 4 mərmər oniksi,
- nefroid yatağı - ehtiyatı 801 ton,
- ehtiyatı 2337 ton olan 1 obsidian Dərə düzü yatağı,
- ehtiyatı 1067 min $m^3$ olan 1 listvenit yatağı,
- çox məşhur olan və Kəlbəcərə dünya şöhrəti gətirmiş Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu, ehtiyatı 3093 $m^3$/gün olan mineral su yataqları.

Kəlbəcər öz geologiyası ilə də məşhurdur, beləki, ərazidə Yura, Təbaşir, Paleogen, Neogen və Autropogen çokmə, vulkanogen çökmə, vulkanik suxurlar geniş yayılmışdır.

Kəlbəcərdə əkinçilik və heyvandarlıq geniş təşəkkül tapmış, həmçinin 1980-ci ildə İstisu bulağının üstündə kurort və mineral su doldurma zavodu tikilmiş, onun istehsal gücü 800 min litr/gün təşkil edirdi. Kəlbəcərin ərazisində 2 İstisu sanatoriyası fəaliyyət göstərirdiki, burada da ildə 50 min nəfərdən çox insan müalicə olunurdu.İşğaldan əvvəl Kəlbəcərdə 97 məktəb, 4 uşaq bağçası,116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, Tarixşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min baş qaramal, 500 min baş qoyun-quzu, yüzlərlə maşın, texnika və s. talan edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Ağdərə rayonunun əksər hissəsi Kəlbəcərə verilmiş və 57 kəndi əhatə edir. Bu ərazinin faydalı qazıntıları: Mehmana polimetal yatağı və gipsdən ibarətdir.Ərazidən 2 çay: Tərtər və Xaçın çayı axır. Tərtər çayı üzərində 1976- cı ildə Sərsəng su qovşağı inşaa edilmiş, anbarda suyun həcmi 560 min m3 olmaqla, işğaldan əvvəl ildə 125 mln kvtsaat elektrik enerjisi verirdi.Bu su anbarının hesabına düzən Qarabağ və dağətəyi zonanın 120 min hektar sahəsi suvarılırdı.Ağdərənin 76 min hektarı, daha doğrusu ərazinin 44 %-i meşəlikdir. Burada taxılçılıq, üzümçülük, heyvandarlıq, tütünçülük inkişaf etmişdir.

Laçın rayonunun ərazisi 1883 $km^2$, əhalisi 65430 nəfər, işğaldan əvvəl rayonda 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyakti, 133 ümumtəhsil məktəbi, 1 orta texniki peşə

məktəbi, 5 məktəbəqədər müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 rabitə müəssisəsi fəaliyyət göstərirdi. İşğaldan əvvə Laçında 1 ədəd avtovoğzal, 82 avtobus dayanacağı, 2130 km avtomobil yolları, 92 körpü, 1187 km su kəməri, 33 su anbarı, çamaşırxana, 15 km-lik mərkəzi kanalizasiya xətti, 20 km istilik şəbəkəsi, 14 hamam, 8 yanacaqdoldurma stansiyası, 1020 km radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası mövcud olmuşdur. Laçın rayonunda toxuculuq sənəti geniş təşəkkül tapmış, danyada məşhur olan “Qasımuşağı” xalçası məhz bu rayona məxsusdur.Laçın rayonunun əhalisi 65507 nəfərdir və ilkin hesablamalara görə erməni işğalı nəticəsində bu rayona dəymiş ziyan 7,1 mlrd AB, dolları təşkil edir.

Zəngilan rayonunun ərazisi 707 $km^2$ təşkil edirvə bu rayonun ərazisindən Həkəri, Oxçu, Bəsit, Araz çayları axır. Zəngilan rayonu aşağıdakı faydalı qaıntıları ilə məşhurdur: tikinti daşı, əhəng xammalı, qızıl, qara mərmər. İşğaldan əvvəl Zəngilan rayonunda 66 məktəb bunlardan: 39 orta, 15 əsas (səkkizillik), 12 ibtidai məktəbfəaliyyət göstərmiş və burada 5852 nəfər şagird təhsil almış, 1280 nəfər müəllim isə çalışmışdır. Zəngilanda işğaldan əvvəl 21 dəmiryol müəssisəsi, 6 dəmiryol voğzalı, 29 kolxoz-sovxoz, 1 arıçılıq təsərrüfatı, 4 kooperativ, 3 kəndli fermer təsərrüfatı fəaliyyət göstərirdi. Zəngilanın Bəsitçay hövzəsində dünyada məşhur olan unikal təbii çinar meşəsi var idi.

Qubadlı rayonunun əsası 1933-cü ildə qoyulmuş, əhalisi 37433nəfər təşkil edirdi. Qubadlının ərazisindən Bazarçay (Bərgüşad), Həkəri, Kiçik Həkəri, Meydan dərəsi çayları axır. İşğaldan əvvəl Qubadlıda 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi, 115 iri və orta müəssisə, 11 məktəbəqədər uşaq müəssisəsi, 56 ümumi təhsil məktəbi, 1 texniki peşə məktəbi, 4 xəstəxana və tibb müəssisəsi, 111 mədəniyyət ocağı var idi.

Qubadlı rayonunun iqtisadiyyatı taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük olmuş, rayonda 31 süd-əmtəə ferması, üzümün ikin emalı üzrə 2 zavod, yağ-pendir və asfalt zavodu, inkubator-quşçuluq fabriki, balıqyetişdirmə vətəgəsi, daş karxanası, mərmər sexi, “Neftqazavtomat” təcrübə zavodunun filialı olmaqla, bütölükdə rayonda 62 idarə və müəssisə fəaliyyət göstərirdi.

Qubadlıda 111 mədəni-maarif müəssisəsi, o cümlədən, 60 kitabxana, 10 mədəniyyət evi, 28 klub, 125 ticarət, 96 iaişə obyekti, 8 avtomat stansiya, 33 səhiyyə müəssisəsi, 56 həkim, 511 tibb işçisi, 4 xəstəxana, 5 həkim ambulatoriyası,54 feldşer-mama məntəqəsi, 4 aptek 1 mərkəzi, 82 kənd kitabxanası xalqa xidmət edirdi.

Cəbrayıl rayonunun ərazisi 1049 $km^2$ olmaqla erməni faşizminin təcavüzü nəticəsində, ilkin hesablamalara görə rayona 13,928 mlrd ABŞ dolları ziyan dəymişdir. Cəbrayıl rayonu ərazisində yaşı 400-500 il olan 14 iri diametrli çinar ağacı, 104 kəhriz və 99 bulaq var idi. Cəbrayıl rayonunun iqtisadyyatı əsasən sement istehsalı üçün qiymətli xammal, mərmər, başqa tikinti materialları, dəmir filizi və hətta neft yataqlarının olduğu güman edilir. Cəbrayılda heyvandarlıq, üzümçülük, baramaçılıq, pambıqçılıq, xalça toxuculuğu geniş təşəkkel tapmışdır. İşğaldan əvvəl Cəbrayıl rayonunda 60 min tondan çox üzüm istehsal olunurdu. Rayon ərazisində işğaldan əvvəl üzümün ilkin emalı üçün zavod, tikiş, xalça və cihazqayırma sexləri, bütövlükdə isə 8 sənaye obyekti mövcud idi və rayonun ərazisindən Araz çayı axır.

Füzuli rayonunun ərazisi 1386 $km^2$, əhalisi 144 min nəfər, 2 şəhər, 16 qəsəbə, 82 kənddən ibarətdir və rayonun ərazisindən Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən və Araz çayları axır. Füzuli rayonunda əsasən heyvandarlıq, taxılçılıq, bostan-tərəvəz, pambıqçılıq, şəkər çuğunduru, üzüm və meyvə istehsalı ilə məşğul olurlar. Qeyd edəkki, rayon ərazisinin 70%-i kənd təsərrüfatına yararlı sahələrdir və 16 təsərrüfatda islahat aparılmış, bir ailəyə orta hesabla 0,40ha olmaqla 5437 ailəyə 8804 ha torpaq sahəsi paylanmışdır.

Ağdam rayonunun əhalisi 174575 nəfər, onlardan 59261 nəfər şəhərdə, 115314 nəfər

isə kənddə yaşayır. İşğaldan əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı, 15 şərab zavodu, 1 şampan zavodu, 10 istirahət mərkəzi fəaliyyət göstərmişdir. Ağdam rayonunun iqtisadiyyatında işğaldan əvvəl dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metiz-furnitir, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları, 2 dəmiryolu voğzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi, musiqi texnikumu, 1700 ha meşəlik, 91,3 ha kənd təsərrüfatına yararlı torpaq sahəsi var idi. Rayonda pambıqşılıq, üzümçülük, heyvandarlıq da inkişaf etmişdir.

Xocavənd rayonunun ərazisi 1458 km$^2$, əhalisi 41725 nəfərdən (onlardan 10648 nəfər Azərbaycanlılardır) ibarət olmaqla burada 1 şəhər (Xocavənd), 2 qəsəbə (Hadrut və Qırmızı Bazar). 81 kənd mövcuddur. Rayonun 10 kəndində erməni təcavüzkarları 1723 yaşayış evini yandırıb və əmlaklarını talan edilmiş, 47 sənaye. 144 kənd təsərrüfatı obyekti viran olunmuş, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə dağıdılmışdır.

Xocəvəndin faydalı qazıntılarına üzlük daşı, tikinti daşı aiddir, üzümçülüyü və yaşıl mərməri çox məşhurdur. Rayonda üzümçülük, quşçuluq, bostançılıq, taxılçılıq, tərəvəzçiliklə məşğuliyyəti vardır.

Şuşada erməni işğalı nəticəsində 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, Mədəni Maarif və Kənd Təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 22 klub, 31 kitabxana, 2 kinoteatr, 8 muzey, Şərq musiqi alətləri fabriki məhv edilmişdir. Şuşanın həyatında heyvandarlıq əsas yer tutur və kənd təsərrüfatına yararlı torpaqlar 20,9 min ha, ondan 3,8 ha şum yeri, 16,7 min ha otlaqlar təşkil edir.

Şuşada 5.2 min baş mal-qara, 15,2 min baş davar var idi və işğal nəticəsində ermənilər özününkiləşdirdilər. Şuşada istehsalat kombinatı, çörəkbişirmə müəssisəsi, məişət xidməti kombinatı, kurort ticarət müəssisəsi, Bakı “Radioquraşdırma” İstehsalat Birliyinin 1№li istehsalatı, Qarabağ ipək kombinatının 3№li toxuculuq sexi, elektrik şəbəkəsi, rayon maddi- texniki təchizat bazası, Şuşa tikinti birliyi, Təsərrüfatlararası tikinti idarəsi, Təmir tikinti idarəsi, Yol istismar idarəsi vəs. erməni terrorizmi nəticəsində məv edimişdir. Şuşada dünyada məşhur olan Turşsu yataqları mövcuddur.

Xocalı rayonunun sahəsi 0,94 km2, əhalisi 24417 nəfər , 1 şəhər. 1 qəsəbə (Əsgəran). 50 kəndə malik olmuşdur. Xocalıda 1 tibb müəssisəsi, 59 mədəniyyət ocağı olmuş, erməni işğalı nəticəsində tamamilə yerlə yeksan edilmiş və qətliam törədilmişdir.

Xankəndinin sahəsi 8 km2, əhalisi 53,3 min nəfər, Kərkicahan qəsəbəsində isə 2 min nəfər yaşayırYüngül və yeyinti sənayesi inkişaf edib Xankəndində elektrotexnika, avtomobil təmiri, asfalt- beton zavodu, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris kombinatı, 3 sovxoz və 1 kolxoz mövcuddur.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidən qurma işlərini həyata keçirərkən dünya təcrübəsindən bəhrələnərək dəymiş ziyanın hesablanması həyata keçiriləcəkdir. Bu fünksiyanı ölkə Prezidentinin yratdığı Komissiya yerinə yetirəcəkdir ki, bu komissiyayada müəyyən funksiyalar həvalə olunacaqdır.

Yerinə yetiriləcək funksiyanın izah edilməsi üçün iqtisadi ədəbiyyatda [3] “mitiqatsiya” (ingilis. mitigation) terminindən istifadə edilir. Bu məfhum özündə müharibənin nəticələrinin aradan qaldırılması və regionun yenidənqurulması üçün zəruri olan bütün kompleks tədbirləri özündə birləşdirir. Kompleks mitiqatsiya tədbirlərinin əsas funksional məzmunu müharibədən sonrakı rejimdir, fəaliyyətin bütün sonrakı aspektlərini əhatə etməklə, daha çox işin görülməsi və vəsaitlərin sərfini özündə ehtiva edir. Bu isə öz

növbəsində idarəetmənin səmərəliyi məsələsini gündəmə gətirirki, o da çoxlu sayda dövlət və qeyri-dövlət təşkilatlarının işinin koordinasiyasının təmin edilməsini aktuallaşdırır. Çoxlu təşkilat və şəxslərin bu işə cəlb edilməsi stress vəziyyəti yaratmaqla tam informasiyaya malik olma şəraitində səmərəli ola bilər. Bunun üçün bütün görüləcək işlərin əvvəlcədən monitorinqini aparmaq üçün xüsusi komissiya yaradılır, beynəlxalq ekspertləri də dəvət etməklə regiona və ölkəyə dəyən ziyan hesablanılır.

Mitiqatsiya fəaliyyətində bütün iqtisadi, daha doğrusu ekoloji-iqtisadi-sosial məsələlərin həllini təmin və informasiya bazasının əsasını təşkil edən iqtisadi ziyanın hesablanmasına yönəlmiş qiymətləndirmə mühüm əhəmiyyət kəsb edir.

İqtisadi ziyanın düzgün hesablanmasından Beynəlxalq məhkəmədə təcavüzkar ölkə tərəfindən (Ermənistan) Azərbaycana ödəniləcək kompensasiyanın miqdarı, habelə konflikt regionunda bərpa içlərinin həyata keçirilməsi üçün logistika məsələlərinin düzgün həlli, onun maliyyələşdirilməsi və s. məsələləri bilavasitə asılıdır. Ziyan göstəricisi, istehsal vasitələri və yerinə yetiriləcək işlərin keyfiyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün əsas etalon göstəricidir.

Bununla bərabər müharibədən sonra konflikt regionuna dəyən ziyanın təyin edilməsi ən çətin və mürəkkəb məsələlərdən biridir. Fikrimizcə bu ziyan müxtəlif istiqamətləri nəzərə almaqla hesablanır: regionun meşə, çay, torpaq sahələrinə dəyən ziyan; regionda fəaliyyət göstərmiş ev təsərrüfatı, fermer təsərrüfatı, müəssisə və təşkilatlara dəyən ziyan; mədəni-maarif, tarixi abidə, təhsil, səhiyyə təşkilatlarına dəymiş ziyan; müharibə ilə əlaqədar o regionların işğalçı dövlət tərəfindən zəbt edilməsi ilə əldə olunmayan məhsula (əldən buraxılmış imkanlar) görə dəymiş ziyan; müharibə dövründə həmin regionlarda məhsul istehsalının artırılmasına yönəldilən tədbirlərin yerinə yetirilə bilməməsi ucbatından əlavə məhsul istehsalının mümkün olmaması səbəbindən dəyən ziyan; zəbt olunmuş rayonlarla kooperasiya əlaqəsində olan müəssisə və təşkilatlarda işğalla əlaqədar müqavilənin yerinə yetirilə bilməməsi ucbatından dəyən ziyan; heç bir şeylə kompensasiya edilə bilməyən insanlara dəyən mənəvi ziyan. Erməni qəsbkarları məhz yuxarıda sadaladıqlarımız ziyanı Azərbaycan Respublikasının müharibə zonasındakı və ondan kənar zonalardakı regionlara vurublar. Təbiidirki, dünya ədəbiyyatında müharibə dövrübdə vurulan ziyanın hesablanması üçün yanaşmalar mövcuddur [1-3].

Məhz bu baxımdan həmin iqtisadi regionlarda 2020-ci il noyabrın 8-nə qədər keçən dövrdə Azərbaycanın itirilmiş potensialını hesablanması çox vacib problemdir. İşğal dövründə Azərbaycanın itirdiklərinə nəzər yetirək: baxılan regionlarda şəhər, qəsəbə və kəndlərin yerlə yeksan edilməsi, bu regionlarda bütün infrastrukturların məhv edilməsi, bu regionlarda torpağın vəhşicənə istifadəsi, bu regionlarda meşə massivi, su hövzəsinə vurulan ziyan, bu regionlarda yaşayan insanlara düzəldilməsi mümkün olmayan vurulmuş mənəvi ziyan.

Bu ziyanlar təkcə yuxarıdakılarla məhdudlaşmır. Beləki, adlarını çəkdiyimiz və işğalda olan iqtisadi regionlarımıza aid torpaqlar Azərbaycanın ən münbit ərazisidir. Məhz bu ərazilərdən hər il min tonlarla kənd təsərrüfatı məhsulları istahsal edlir, insanların məşğulluğu məsələsi həll edilirdi. İşğal dövründə bu məhsullar Azərbaycan insanının rifahına qulluq etmədiyi üçün bunlar əldən verilmiş imkanlara aid edilir ki, bu da ölkə büdcəsinə çatmayan hissədir.

Bütövlükdə işğal ərazisində yerləşən su elektrik stansiyaları, xammal-material ehtiyatları ermənilər tərəfindən mənimsənilmiş, bu ərazilərdə olan kurort-sağlamlıq müəssisələri bu illər ərzində ermənilərin nəzarətində olmuşdur. İşğal olunmuş ərazilərimizdə bu illər ərzində ermənilərin mənimsədiyi qızıl, mineral su və digərləri haqqında aşağıdakıları demək olar: işğal olunmuş ərazilərdə 155 növ müxtəliffaydalı qazıntı yataqları, o cümlədən

5 qızıl (ehtiyatı 132,6 ton; 6 civə (1898,4 ton); 2 mis; 1 qurğuşun (37,3 min ton); 19 üzlük daşı (432 min $m^3$); 10 mişar daşı (189 mln $m^3$); 4 sement xammalı (147mln108 min ton); 13 müxtəlif növ tikinti daşları (57 mln 965 min ton); 1 soda istehsalı üçün xammal (129 mln 833 min $m^3$ əhəngdaşı); 21 pemza və vulkan gili (2 mln 144 min $m^3$); 10 gil (23mln 243 min $m^3$); 9 qum-çınqıl (96 mln 987 min ton); 5 tikinti qumu; 9 gips, anhidrid və gəc; 1 perilit (4 mln 473 $m^3$ perilit); 1 obsodion; 3 vermikulit; 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s.) yataqları yerləşir [2].

Məhz bu sərvətlərimiz ermənilər tərəfindən son 30 ilə yaxın dövrdə mənimsənilmişdir.

Ancaq bu işğal daimi ola bilməzdi, beləki, Azərbaycan Respublikası heç vaxt bu işğalla barışa bilməzdi. Uzun illərcə aparılan danışıqlar, bəhrə vermədiyi üçün Azərbaycan hərb yolunu seçdi və qısa bir müddətdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 gün ərzində işğalda olan torpaqlarımızı işğaldan azad etdi və tarixi sərhədlərimiz bərpa olundu. Bəs postkonflikt dövründə nə ediləcək, hansı içlər yerinə yetiriləcək?

Bu çox çətin, böyük məsrəflər tələb edən və eyni zamanda çıx qürur verici bir prosesdir. Azərbaycan vətəndaşının əzmkarlığı ilə işğaldan azad olunan ərazilər qisa müddətdə bərpa olunacaqdır. Bu işlərin həyata keçirilməsində hansı məsələlər həll olunmalıdır. Fikrimizcə, işğaldan azad olunan torpaqlar ilk növbədə minalardan təmizlənməlidir, adətən minalanmış torpaqların xəritəsi məğlub olan ölkə tərəfində qalib olkəyə verilməlidir. Lakin erməni xisləti bu məsələnin həllindədə militarist bir mövqe sərgiləyir. İkincisi, minaların təmizlənməsindən sonra infrastruktur obyektlər bərpa olunmalı, bütün kommunikasiyalar işə düşməlidir. Bundan sonra ayri -ayri rayon və kəndlərdə məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılması və özəlləşdirmə məzələsi həll olunmalı, insanlar torpaq sahələri ilə təmin olunmalıdır. Bundan sonra isə bölgələrdə sahibkarlıq subyektlərinin yaradılması və inkişafı üçün ssudaların verilməsi məsələsi həll olunmali, istehsal olunan məhsulların tədarükü və emalı üçün müvafiq infrastruktur qurulmalıdır. Daha sonra uyğun yerlərdə sənaye obyektlərinin işə salınması məsələsi həll olunmalıdır, yəni təbii resursların hasil edilməsi və onun emalı. Bərpa edilmiş bölgələrdə məşğulluq məsələsi həll edilməli, insanı torpağa "bağlamaq" üçün müvafiq işlər görülməlidir. Fikrimizcə, aşağıdakı sahələrə üstünlük verilməlidir: heyvandarlıq, arıçılıq, baramaçılıq, bitkiçilik, tütün və buğda istehsalı, sənaye müəssisələri, o cümlədən kənd təsərrüfatı və sənaye üzrə emal müəssisələri.

Postkonflikt dövründə bərpa olunmuş iqtisadi regionlarda Milli Elmlər Akademiyasının müvafiq Elmi-Tədqiqat institutlarının filiallarının açılması (aqrar, informasiya və s) həm məşğulluq, həmdə tədqiqat obyektinə yaxınlıq baxımından mühüm əhəmiyyət kəsb edir. Çox mühüm məsələlərdən biri də bu bölgəlrədə universitet və ya onların filiallarının açılmasıdır.

Bəs işğaldan azad olunandan sonra bu ərazilərdə hansı işlərn yerinə yetirlməsi prioritet təşkil edir:

- ilk növbədə bu ərazilərin minalardan təmizlənməsi;
- həmin ərazilərdə infrastruktur obyektlərinin inşaası;
- insanların hissə-hissə o yerlərəköçürülməsi.

Burada həyatın bərpa edilməsi və perspektiv inkişaf üçün daha nə etmək lazımdır:

- bu ərazilərdə özəlləşdirmənin aparılması;
- yeni iş yerlərini açılması məsələlərinin həlli;
- burada yaşayıb çalışacaq insanlardan 5 il müddətində gəlir vergisindən azad edilməsi;

- insanların bu ərazilərə axınını təşkil etmək üçün onları əmək haqlarına əlavələrin edilməsi;

- müxtəlif universitetlərdən təyinatla bu ərazilərə gənc mütəxəssislərin cəlb edilməsi. Burada bir məqama fikir vermək lazımdır: indiki qaydaya görə pedoqoji ixtisasları bitirən məzunlar bu və ya digər məktəbdə boş qalan yerlərə imtahan verməklə yerləşdirilirlər. Fikrimizcə, işğaldan azad olan ərazilərdə universitetin verdiyi təyinat əsas götürülərək işə qəbul həyata keçirilərsə bu daha məqasədəmüvafiq olar. Bir məqamada baxaq: təyinatla işğaldan azad olunmuş ərazilərdə işləməyə gələn gənc mütəxəssislərə Bələdiyyə torpaqlarından ev tikmək üçün sahə ayırmaq, evin tikintisini müxtəlif qurumlara həvalə etməklə gəncləri bu torpaqlara bağlama mexanizmini həyata keçirmək. Əgər gənc mütəxəssis digər gənc mütəxəssislə ailə həyatı qurarsa onların sosial məsələlərinin həll edilməsi növbədənkənar həyata keçirilməlidir.

- bu ərazilərdə bitkiçilik, heyvandarlıq, əkinçilik, arıçılıq , baramaçılığın xüsusi olaraq inkişaf etdirilməsi üçün şəraitin yaradılması (fermer təsərrüfatı, icmalar və s.)

- Bakı şəhərində yerləşən universitetlərin işini yüngülləşdirmək, regionların inkişafını təmin etmək məqsədilə işğaldan azad olunmuş ərazilərdə 2 universitetin yaradılmasını təklif edirik: birinci universitet Ağdamda açılsın. Nə üçün məhz Ağdam? Əlbəttə yaxşı olardıki bu universiteti bizim mədəniyyət mərkəzimiz olan Şuşada açaq. Lakin Şuşanın ərazisi məhduddur və müsir universitet qurularkan orada kompusların tikintisi də nəzərə alınır və buna görədə Ağdamı seçirik. Bu universitet Ağdam, Tərtər, Bərdə, Xocavəndin bir hissəsi, Füzulinin bir hissəsi, Beyləqanın bir hissəsi, Xankəndi, Xocalı, Şuşa, kəlbəcərin bir hissəsinin və digər rayonların məzunlarının təhsil alması üçün nəzərdə tutulur. Bu universitetlərdə həmçini Respublikamızım bu və ya digər universitetlərində çalışan professor-müəllim heyətinin də çalışaağını qeyd etmək lazımdır. Nəhayət Ağdamda yaradılacaq universitetin adının "QARABAĞ" olmasını təklif edirik. İkinci universitetin Cəbrayılda açılmasını təklif edirikvə bunu belə əsaslandırırıq: əvvala Cəbrayılda universitet üçün kompus tikilməsinə əla şərait vardir; ikincisi Cəbrayıl mənfur düşmənimiz ermənistandan xeyli uzaq məsafədədir; üçüncüsü Cəbrayılda Cənubi Azərbaycanla bizi bağlayan yeganə "XUDAFƏRİN" körpüləri varki bu da çox simvolikdir. Bu universitetdə Cəbrayıl, Beyləqan rayonunun bir hissəsi, Füzulinin bir hissəsi, Xocavəndin bir hissəsi, Qubadlı, Zəngilan,Laçın, Kəlbəcərin bir hissəsi, Naxçıvan Muxtar Respublikası və nəhayət Cənubi Azərbaycandan olan soydaşlarımız təhsil ala biləcəklər. Universitetin adının isə "XUDAFƏRİN" olmasını təklif edirik.

Bütün sadaladıqlarım və söyləmədiklərim fikirlərin hamısını həyata keçirilməsi işğaldan azad olunmuş torpaqlarımızda həyatın öz axarına düşməsi və bütövlükdə Azərbaycan adlı məmləkətin dünyada söz sahibi olacağına hamımızda inam yaradır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Агаева Г.Г. Регулирование формирования и использования ресурсного потенциала аграрного сектора экономики / Дисс. на соиск. к.э.н. Махачкала: ИСЭИ ДНЦ РАН, 1998,176 с.
2. Багомедов М.А. Причины кризиса мировой и российской экономики и меры выхода // РППЭ, 2009, с. 248-259
3. Вакарев А.А. Методические подходы к определению экономического ущерба от чрезвычайных ситуаций для региональной экономики // Вести Волгоградского государственного университета Сер.3, Экономика, Экология, 2011 №1 (18), с.54-60
4. Osman Nuri Aras, Elçin Süleymanov Azərbaycan iqtisadiyyatı // Bakı: "Şərq və Qərb" mətbəəsi, 2016, 412s.

5. 5.http://www.iqtisadiyyat.org/news/işğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir-1059

**Ганимат Сафаров**
**Сабина Садыгова**

**О РЕШЕНИИ ЭКОНОМИЧЕСКИХ-ЭКОЛОГО-СОЦИАЛЬНЫХ ВОПРОСОВ НА ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ**

***РЕЗЮМЕ***

В первые годы независимости внутренние междоусобицы в республике и разрыв экономических отношений с союзными республиками создали в стране спад. Именно в такое время перед Великим Лидером Гедаром Алиевым, пришедшим к власти во второй раз, встал вопрос о том, как возродить экономику страны. Как человек, долгие годы руководивший Азербайджанской Республикой, Гейдар Алиев нашел ответ на этот вопрос в развитии нефтяной промышленности.Однако инфраструктура в этой отрасли сохранилась частично и работали высококвалифицированные кадры.

Важным и большим фактором, оказавшим негативное влияние на развитие страны, стала оккупация наших территорий ненавистной Арменией с целью осуществления своей оккупационной политики в Нагорном Карабахе.

***Цель*** – посмотреть экономический потенциал освобожденных территорий, определить упущенные возможности и направления строительных работ в постконфликтных условиях.

Использовались методологически-исторический, группировочный, сравнительный методы.

***Результаты исследования*** – восстановление существующего экономического потенциала в оккупированных зонах, определены направления его влияния на развитие экономики Азербайджана и вопросы, которые важно сделать в этих областях.

***Ключевые слова:*** *Азербайджанская Республика, оккупация, Нагорный Карабах и прилегающие районы, упущенные возможности, освобождение земель от оккупации*

**Qanimat Safarov**
**Sabina Sadiqova**

**ON THE SOLUTION OF ECONOMIC-ECOLOGICAL-SOCIAL ISSUES IN THE TERRITORIES OF AZERBAIJAN FREED FROM OCCUPIATION**

***ABSTRACT***

In the early years of the republic's sovereignty, internal intrigues and the termination of economic ties between the union republics led to stagnation in the country. Coming to power for the second time. General national Leader Heydar Aliyev, as a person who has been leading the country for a long time, found the answer to this question: we must start with the oil industry. Since this industry had a good infrastructure and highly qualified personnel worked there.

One of the negatively and strongly influencing factors on the development of the country was the separatist actions of Armenia in Nagorno-Karabakh with the aim of seizing lands.

***The goal*** is to look at the economic potential in the liberated territories, to determine the missed opportunities and directions of construction work in post-conflict conditions.

***Methodology*** – historical, grouping, comparison methods were used.

***The results of the research*** – restoration of the existing economic potential in the occupied zones, the directions of its impact on the development of the economy of Azerbaijan and the issues that are important to be done in these areas have been determined.

***Key words:*** *the Republic of Azerbaijan, seizure, Nagorno-Karabakh and adjacent areas, missed opportunities, liberation of lands from invaders*

**UOT 32**

**Faiq Əliyev**
*Azərbaycan Neft və Sənaye Universiteti,*
*tar. f. d., dosent*

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ EKOLOJİ TARAZLIĞIN QORUNMASI PRİORİTET MƏSƏLƏLƏRDƏN BİRİ KİMİ

*Məqalədə bildirilir ki, Ermənistan Respublikası 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində təbiətə amansız zərbələr vurmuş, ekosistemi məhv etmişdir. Çaylar çirklənmiş, meşələr qırılmış, yaşıllıqlar məhv edilmiş, parklar, bağlar dağıdılmış, sərvətlər talan edilmişdir. Qeyd olunur ki, şanlı qələbə nəticəsində torpaqlar işğaldan azad edilmiş, meşələr salınmağa başlamış, öz ərazisində ekoloji tarazlığı qoruyub saxlamaq üçün Azərbaycan lazımı tədbirlər görməyə başlamışdır. Bu prosesi uğurla həyata keçirmək üçün bu işə mütəxəssislər cəlb olunmuşdur. Qarabağın ekoloji turizm məkanına çevrilməsi üçün zəruri fəaliyyət planı hazırlanmış, dövlət proqramları həyata keçirilməyə başlanmışdır.*

***Açar sözlər:*** *işğal, ekosistem, erməni vandalizmi, meşələrin qırılması, çaylar çirklənməsi, qələbə, yeni parklar, turizm məkanı, inkişaf, birgə fəaliyyət*

**Giriş.** XXI əsrin əsas problemlərindən biri də ekoloji tarazlığın qorunmasıdır.Bunun üçün bəzi təxirəsalınmaz məsələlər öz həllini tapamlıdır. Buraya təbii resursların intensiv istismarının, neft-qaz və kömür hasilatının məhdudlaşdırılması, bərpaolunan enerji növlərinə, yaşıl və mavi iqtisadiyyata üstünlük verilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, karbon qazının həcminin azaldılması, təkrar emal və digər məsələlər daxildir. 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğalda saxlanılan Azərbaycan ərazilərində ekoloji mühitdən söz açmaq belə mümkün deyil. Belə ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanın deyil, ümumilikdə bölgənin təbii ekoloji mühitini təhlükə altına alınıb.

Qlobal iqlim dəyişikliyi, torpaqların səhralaşması proseslərini və təmiz içməli su çatışmazlığını nəzərə alsaq, bu gün ekologiya bütün dünya ictimaiyyətini narahat edən əsas məsələlərdən biridir. Bununla bağlı BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədləri sırasında mühüm nüanslar öz əksini tapıb. Daha dəqiq desək, məqsəd 6 su ehtiyatlarından səmərəli istifadənin və su təchizatı, sanitariya və gigiyenaya çıxışın zəruriliyindən, məqsəd 13 iqlim dəyişikliyinə qarşı mübarizədən, məqsəd 15 isə quru ekosistemlərinin qorunması və bərpa edilməsinin, meşələrdən səmərəli istifadənin, səhralaşmaya qarşı mübarizənin, habelə torpaqların deqradasiyasının dayandırılmasının zəruriliyindən bəhs edir (1).

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən, ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə Əməliyyat Qərargahları yaradılmışdır. Bu qərargahlarda tanınımış mütəxəssislər, QHT nümayəndələri və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları fəaliyyət göstərirlər. Bu Əməliyyat Qərargahlarında fəaliyyət göstərən mütəxəssislər tərəfindən Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlanılmış və müxtəlif nəticələr əldə edilmişdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında da ayrıca bir fəsil işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr olunub.

Qeyd etmək zəruridir ki, şanlı qələbəmiz ilə Vətən müharibəsinin başa çatması torpaqlarımızın işğaldan azad edilməsi ilə bərabər təcavüzkar Ermənistan Respublikasının torpaqlarımızda apardığı amansız ekoloji terror aktlarına və talanlarına da son qoymuş oldu. Belə ki, 30 il ərzində erməni vandalları qeyri-qanuni əməllər törətmiş, təbii ehtiyatları kütləvi şəkildə istismar etmiş, şəhərlərimizdə, kəndlərimizdə dağıntılar törətmiş, meşələr qırılmış, yandırılmış, fauna və floraya zərbə vurulmuş, biomüxtəliflik məhv edilmiş, çaylar qurudulmuş, ekoloji vəziyyət gərginləşmiş, ekosistem çirklənmiş, yaşıllıqlar, zəngin təbiət ehtiyatları məhv edilmiş, ekoloji tarazlıq pozulmuş, ətraf mühitin deqradasiyası ilə nəticələnən fəsadlar yaranmış, təbiətə amansız divan tutulmuşdur. Azərbaycanın təbiəti üçün xarakterik olan landşaftlar, yüzillik ağaclar, bitki örtüyü, çəmənliklər, yamaclar, şəlalələr, təbii mağaralar, mədəni park nümunələri,bağlar, unikal geoloji çıxıntılar, qayalar, paleontoloji laylar da məhv edilmişdir. İşğal edilmiş ərazilərdəki 260 min hektara yaxın meşə ərazisindən bir neçə min hektar ərazi qalmışdır. Ermənistan qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaları, o cümlədən, “Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi” haqqında BMT konvensiyasını kobudcasına pozaraq işğal etdiyi ərazilərdə ekosistemi məhv etmişdir. Mütəxəssis hesablamalarına görə, təbiətə, ekologiyaya dəyən ziyanın həcmi 244 milyard ABŞ dollarını ötmüşdür.

Avropa Şurası Parlament Assambleyasının 2016-cı ilin yanvarında qəbul etdiyi 2085 saylı qətnaməsində Ermənistan rəhbərliyini su resurslarından siyasi təsir vasitəsi kimi istifadə etməməyə də çağırsa da bu çağırışa məhəl qoyulmamışdır. Qətnamədə bildirilirdi ki, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik rayonlarını işğal altında saxlaması nəticəsində Azərbaycanın Aşağı Qarabağda yaşayan vətəndaşları üçün ekoloji və humanitar problemlər yaranıb. Ermənistanın həyata keçirdiyi ekoloji cinayətləri “Azercosmos”un peyk şəkilləri də sübut edir.

Müharibə dövründə ermənilər qadağan olunmuş fosfor bombalarından istifadə etməklə həmin ərazidəki bütün bitki örtüyünü məhv edib. Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən törədilmiş yanğınlar nəticəsində, təxminən 110 min hektar ərazi sıradan çıxıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxışında bu məsələyə toxunaraq bildirmişdi ki, Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Göründüyü kimi, Ermənistanın həyata keçirdiyi terror siyasəti yalnız şəhərləri, kəndləri və ya orada yaşayan insanları hədəfə almır, həm də ekoloji tarazlığın pozulmasına yönəlib. Bu isə olduqca təhlükəli bir amildir. 44 günlük Vətən müharibəsində məğlub olan Ermənistan həm də bu hərəkətinə görə, beynəlxalq qanunlar qarşısında cavab verməlidir. Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş 6 yanvar 2021-ci il tarixli müşavirədə bildirib ki, bu ərazilərdəki təbii sərvətlərin qeyri-qanuni istismar edildiyi danılmaz faktdır. Bizim əlimizdə şirkətlərin adları var. Qeyd etməliyəm ki, əgər qızıl və digər yataqlarımızı qeyri-qanuni istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə veriləcək, orada isə onları biabırçılıq gözləyir.(2)

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyət" adlı hesabatında işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyətin ekoloji nəticələrinə həsr

olunmuş ayrıca bir fəsil vardır. Hesabatda bildirilir ki, beynəlxalq hüquq istənilən hərbi işğalı öz xarakterinə görə "müvəqqəti işğal" kimi təsnif edir və işğalçı ölkənin işğal edilmiş ərazi üzərində suverenlik əldə etməsini nəzərdə tutmur, buna görə də işğal faktı ilə əlaqədar həmin ərazinin hüquqi statusu dəyişmir.

İşğaldan azad edilmiş ərazilərimizdə 42 min hektardan çox sahəsi olan xüsusi mühafizə olunan təbii ərazi – 2 dövlət qoruğu və 4 dövlət yasaqlığı yerləşir. Bu qoruq və yasaqlıqlar tamamilə ermənilər tərəfindən məhv edilib. Son 5 ildə əgər Ermənistan ərazisində 175 min kubmetr meşə məhv olubsa, Dağlıq Qarabağda isə bu rəqəm 404,8 min kubmetrdir. Təkcə 2017-ci ildə Qarabağda 102 488 kubmetr meşə qırılıb. 2012-2016-cı illəri əhatə edən dövrdə də Qarabağda meşələrin qırılmasının həcmi Ermənistandakından 2,3 dəfə yüksək olmuşdur(2). Ermənilərin törətdiyi yanğınlar nəticəsində təbiətə misilsiz ziyan dəymiş, meşə örtüyü tamamilə yanıb kül olmuşdur. Bitki və kollarlla bərabər canlı orqanizmlər də məhv edilmişdir. Üzümlük sahələri qırılmış və beton dirəklərdən hərbi məqsədlə mühəndis istehkam işləri üçün istifadə edilib. İnfrastrukturun qəsdən məhv edilib yandırılması Rusiya, Azərbaycan və Ermənistan liderlərinin hərbi əməliyyatların tamamilə dayandırılmasına dair 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli sazişə nail olmasından sonra da davam etmişdir.

Müharibənin gedişində ermənilər beynəlxalq səviyyədə tətbiqi qadağan olunan ağ fosforlu mərmilərdən istifadə etmişlər. Bu silahın çox ağır fəsadlarının olması hamıya məlumdur. Belə ki, silahın tətbiqi zamanı ətraf zəhərlənir, təhlükəli yanıq izləri qalır və güclü yanğınlar baş verir. Hərbi əməliyyatlar zamanı ermənilərin belə silahdan istifadə etməsi Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən aşkar edilmişdir.

6426 km uzunluğunda suvarma kanalları şəbəkəsi, 185 km uzunluğunda kollektor və drenaj kanalları, 1429 artezian quyusu, 539 hidrotexniki tikinti obyekti, 220 su elektrik stansiyası, 88 nasos stansiyası, habelə ümumi həcmi 640 milyon $m^3$ olan 8 su anbarı uzun illər ərzində işğal altında olub.

Həmçinin əvvəllər ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 10 su anbarı, o cümlədən Tərtər çayı üzərində yerləşən Sərsəng su anbarı (hazırda Rusiya sülhməramlılarının məsuliyyəti zonasındadır) yerləşir. 500 milyon kubmetr tutumu olan Sərsəng su anbarı Aşağı Qarabağ ərazisində 100 min hektar əkin sahəsinin suvarılması üçün nəzərdə tutulmuşdur. Bununla belə, o, uzun müddət texniki xidmətin göstərilməməsi səbəbindən qəza vəziyyətindədir ki, bu da regionun dağətəyi və mərkəzi Aran ərazilərində yaşayan 400 min sakin üçün təhlükə yaradır (3).

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnib.

2020-ci il 10 noyabr sazişinin tələblərinə görə həmin il dekabrın 1-nə qədər Ağdam, Kəlbəcər, Laçın rayonları qeyri-qanuni olaraq burada məskunlaşmış erməni qəsbkarlarından təmizlənməli və onlar işğal altında olan həmin rayonları tərk etməli idilər. Erməni qəsbkarları ərazilərimizi tərk edərkən bütün əmlaklarını özləri ilə daşımışlar. Apara bilmədiklərini – evlərini, sahələri, avadanlıqları, meşələri, ağaclıqları yandırmış, ev heyvanlarını güllələməklə bar-barlığını bir daha dünyaya nümayiş etdirmişlər. Onların bu vandalizmi ilə Reuters, BBC, StraitTimes, Euronews, France24, РБК və bir çox digər KİV vasitəsilə bütün dünya bir daha tanış olmuşdur. “Azərbaycalılara hec nə qalmasın” deyən bu qəddar insanlar yüzlərlə arı pətəyinə od vurub yandırmışlar.

İşğaldakı ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən

həddindən artıq çirklənməyə məruz qalıb. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranıb.

Bəsitçay Dövlət Təbiət Qoruğundakı şərq çinarlarının bəzilərinin yaşı 1200-1500 ilə çatır, onların gövdələrinin diametri 4 m, hündürlüyü 54 m-dən yuxarıdır. Avropada analoqu olmayan bu nəhəng ağaclar işğalçılar tərəfindən qəddarlıqla məhv edilmişdir.Araz palıdını orada müvəqqəti məskunlaşmış ermənilər ilboyu yanacaq kimi istifadə etmişlər. Nəzarətdən kənarda qalmış, dünyada yalnız bu ərazidə bitən endemik bir növün kütləvi şəkildə doğranmasını ekoloji genosid kimi qiymətləndirmək olar.

İşğal altında olmuş torpaqlarda ermənilər Mesomor AES-dən gətirilmiş radioaktiv tullantıları basdırmaqla buraları zəhərləyəyərək istifadəyə mümkünsüz etmişlər. Belə tullantılar Ağdam rayonu ərazisində daha çox yerləşdirilib. Bu ərazilərdə olan 250 min hektar meşə sahəsi nüvə tullantıları ilə çirkləndirilib.

İşğal olunmuş ərazilərdən axan çayların ermənilər tərəfindən müxtəlif mənşəli tullantılarla və çirkab suları ilə çirkləndirilməsi faktları mövcuddur. Xonaşen, Qar-Qar çayı, Xaçınçayı, Tərtər çayı öz mənbələrini işğal olunmuş ərazilərdən götürür və həmin çaylara məişət tullantıları və çirkli sular axıdılıb.

Naxçıvan Muxtar Respublikasının təbii mühitində mühüm rol onayan Araz çayının ekoloji vəziyyəti daha acınacaqlıdır. Belə ki, Ermənistan tərəfindən Araz çayının uzun illər boyu çirkləndirilməsi, qiymətli balıq növlərinin kökünün kəsilməsinə və azalmasına səbəb olub. Əvvəllər qeydə alınmış 21 balıq növünün son 10-15 il ərzində məhv olması nəticəsində 16 növə enməsi müəyyənləşdirilib (4). Artıq Vətən müharibəsindən ötən iki ildən çox müddətdə işğaldan azad edilən torpaqlarda xeyli işlər həyata keçirilib. Quruculuq-bərpa işləri ilə paralel olaraq, müxtəlif qurumlar tərəfindən monitorinq tədqiqat işləri də davam etdirilir. Xüsusilə vurğulamalıyıq ki, ötən dövrdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Medianın İnkişafı Agentliyinin təşəbbüsü ilə jurnalistlərin də azad edilmiş ərazilərə çoxsaylı səfərləri həyata keçirildi. Buradakı vəziyyəti əyani şəkildə müşahidə edən jurnalistlər Ermənistanın Qarabağda törətdiyi ekoloji terrorla bağlı aydın təsəvvürə malik oldular.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirəcəkdir.

Torpaqları işğaldan azad etdikdən sonra Azərbaycan həmin ərazilərdə ekovəziyyəti yenidən bərpa etmək üçün də mühüm addımlar atmaqdadır. Füzuli, Zəngilan və Ağdam rayonları ərazilərində, əsasən, Şərq çinarı olmaqla, minlərlə müxtəlif növ ağac əkilib, palıd və digər meşə ağaclarının toxumları səpilib. Ağacəkmə aksiyaları Qubadlıda, Cəbrayılda da davam etdirilməkdədir. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə ağacəkmə tədbirləri də davam etdirilir(5).

Yeni yaradılacaq milli parkların ərazisi də müəyyən edilib. Bunlar 20 min hektar Laçın rayonu, 20 min hektar Qubadlı rayonu, 107 hektar Bəsitçay qoruğu ərazisi, 2000 hektar Daşaltı dövlət təbiət qoruğu və Arazboyu təbiət yasaqlığının əraziləridir.

İşğaldan azad edilən ərazilərdə meşələrin bərpa olunması ilə yanaşı, ağacların kökləri və bitki örtüyü torpaq ehtiyatlarının qorunması, sürüşmələrin və eroziyanın qarşısının alınması, ağaclar həmçinin çay və çay sahil zonalarında suyun saxlanması, keyfiyyətinin qorunması, yeni ağaclıqların salınması, tinglərin əkilməsi kimi məsələlərə üstünlük verilir.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də, məhz həmin ərazilərdə təbii və keyfiyyətli ekosistemin, bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Bu ərazilərdə müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə regionun “yaşıl zona”ya çevrilməsinə şərait yaradacaqdır. Artıq işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması istiqamətində genişmiqyaslı tədbirlərə başlanılıb.

İşğaldan azad olunmuş ərazilərin, o cümlədən təbii sərvətlərimizin vəziyyətinin qiymətləndirilməsi və bərpa edilməsi istiqamətində görülən işlərə dövlətlə bərabər ictimai birliklərin, vətəndaş cəmiyyəti institutlarının da cəlb edilməsini nümunə kimi göstərmək olar. Belə ki, bu tədbirlərə gənc ekoloqların cəlb edilməsi məqsədilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Gənclər Fondu tərəfindən “Gənclərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin ekoloji qiymətləndirilməsində iştirakı” adlı birgə layihəyə start verilmişdir. Layihədə iştirak etmək hüququ qazanmış gənc mütəxəssislər bioloji müxtəliflik, geologiya, su ehtiyyatları, meşələrin qorunması, hidrometeoroloji və monitorinq xidməti, topoqrafiya və xəritəçəkmə üzrə qruplara bölünmüşlər. “Qarabağı qoru” şüarı altında həyata keçirilən layihənin gənc iştirakçıları ekoloji qiymətləndirilmə və monitorinq üzrə bilik və təcrübələrini artırmaq, eyni zamanada azad olunmuş ərazilərdə bərpa və mühafizə işlərinə töhfə vermək imkanı əldə etmişlər.

İnanırıq ki, həyata keçirilən məntiqli siyasət və birgə fəaliyyət nəticəsində tezliklə problemlər, təbiətə vurulan ziyan və zədələr aradan qaldırılacaq, beynəlxalq standartlara uyğun gələn yeniliklər tətbiq olunacaq və Qarabağ müasir ekoturizm məkanına cevriləcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Arslan A. İşğaldan sonra Qarabağ: ekoloji terrordan yaşıl dünyaya. https://modern.az/media/328427
2. az.president.az
3. https://story.karabakh.center/az/qarabagda-ekosid
4. Hüseynov H. İşğal dövrü ərzində təbiətə dəyən ziyan 244,4 milyard dollardır. “Xalq cəbhəsi” qəzeti, 21 fevral 2021-ci il
5. Sadayoğlu P. Qarabağın ekoloji vəziyyəti bərpa olunur. https://www.yeniazerbaycan.com/MEDIA_e72834_az.html


**Фаиг Алиев**

## СОХРАНЕНИЕ ЭКОЛОГИЧЕСКОГО РАВНОВЕСИЯ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД КАК ОДИН ИЗ ПРИОРИТЕТНЫХ ВОПРОСОВ


***РЕЗЮМЕ***

В статье повествуется об осуществлении необходимых мер для охраны экологической безопасности. Заявлено о том, что данный вопрос находится под постоянным контролем руководства республики. Отмечается, что Республика Армения нанесла колоссальный урон природе территории Азербайджана, которую она держала в течение 30 лет под оккупацией, и уничтожила безразличие данной территории. Лесной массив и флора были уничтожены,

парки, сады разгромлены, природные богатства и ресурсы ограблены. Впоследствии Славной победы земли были полностью освобождены от оккупации, начаты работы по восстановлению лесных массивов, и Азербайджан принимает все необходимые меры для сохранения экологического равновесия на собственной территории.

***Ключевые слова:*** *экологическая безопасность, экологический террор, армянский вандализм, уничтожение лесных массивов, растительного покрова, новых парков и садов, флоры*

**Faig Aliyev**

## PROTECTION OF ECOLOGICAL BALANCE AS ONE OF THE PRIORITY ISSUES IN THE POST-WAR PERIOD

### *ABSTRACT*

Article is devoted to realizing of necessary measures for protection of ecological safety. It is indicated there that, this case is under constant control of the republican leadership. Moreover, it is noted there that, the Republic of Armenia has inflicted merciless blows on the nature and destroyed the biodiversity in the territories of Azerbaijan, which he kept under occupation for 30 years. Forests were cut down, greenery was destroyed, parks and gardens were destroyed, wealth was looted. As a result of the glorious victory, the lands were freed from occupation, forests began to be planted, and Azerbaijan began to take necessary measures to maintain the ecological balance in its territory.

***Keywords:*** *ecological safety, ecological terror, armenian vandalism, deforestation, destruction of vegetation, new parks and gardens, greenery*

**UOT 1(091)**

**Faiq Ələkbərli**
*Azərbaycan Əmək Münasibətləri Akademiyası,*
*fəl.f.d., dosent*
*faikalekperov@mail.ru*
http://orcid.org/0000-0002-8865-568x

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN DÜNYAGÖRÜŞÜNDƏ FƏLSƏFƏ TARİXİ VƏ SOSİAL-SİYASİ MƏSƏLƏLƏR

*Məqalədə göstərilir ki, Y.V.Çəmənzəminlinin fəlsəfi və ictimai-siyasi görüşlərindəki ziddiyyətlər onun ən azı üç fərqli quruluşda yaşayıb yaratması ilə bağlı olmuşdur. Onun Çar Rusiyası və Azərbaycan Cümhuriyyəti dövründə ictimai-siyasi və fəlsəfi baxışlarında türkçülük və yeniləşmə ideyaları ön planda olmuş, islamçılıq məsələsində isə loyal mövqedən yanaşmışdır. Ancaq dövlətin süqutundan sonra bir müddət Avropada yaşayan Çəmənzəminli daha sonra zorla sovetləşdirilmiş Quzey Azərbaycana qayıtmışdır. Çəmənzəminli islamçılığa münasibətdə daha radikal mövqe tutmaqla yanaşı, “azəriçilik” nəzəriyyəsini də təbliğ etmişdir. Onun Sovet Azərbaycanı dövründə təbliğ etdiyi “azəriçilik” nəzəriyyəsi türklüyə əsaslansa da müəyyən qədər qüsurlu olmuşdur. Belə ki, Azərbaycan dövlətinin adından qaynaqlanan azəriçilik nəzəriyyəsinə əsasən antik dövrdə mövcud olmuş mağların təlimini zərdüştlüklə əlaqələndirmiş və qədim Azərbaycan xalqının dini-fəlsəfi təliminin də atəşpərəstlik olduğuna inanmışdır. Doğrudur, o bu zaman zərdüştlüyün farslara aid olmadığını, ancaq Midiyanın süqutundan sonra farslar tərəfindən təhrif olunduğunu iddia etmişdir. Bu baxımdan onun qədim dövrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini araşdırlmağa yönəldilmiş tədqiqatlarında muğlar və ona aid etdiyi zərdüştlük mühüm yer tutmuşdur. Bütövlükdə, Y.V.Çəmənzəminlinin Türk dünyagörüşünün, Türk fəlsəfəsinin, türk mədəniyyətinin yenidən dirçəlişində xeyli payı olmuşdur. O, Türkçülük və Azərbaycanın milli istiqlalı məsələsində səmimi olmuş, bu yolda uzun müddət mücadilə vermişdir.*

***Məqsəd*** – Y.V.Çəmənzəminlinin fəlsəfi və ictimai-siyasi görüşlərini, o cümlədən türkçülük, turançılıq ideyalarını təhlil etmək.

***Metodologiya*** – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

***Tədiqatın nəticələri*** – Y.V.Çəmənzəminlinin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

***Açar sözlər:*** *islamçılıq, milli maarifçilik, tənqidçilik, avropaçılıq, türkçülük, azərbaycançılıq*

## Giriş

Azərbaycan mütəfəkkiri Yusif Vəzir Çəmənzəminli 12 sentyabr 1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Yusif Vəzirin atası Məşədi Mirbaba Mirabdulla oğlu Vəzirov Şuşa bəylərindən olub, onun bəyliyi 1873-cü ilin aprelində Şuşa qəza idarəsi tərəfindən təsdiq edilmişdir. Onun daşıdığı Vəzirov soyadı 18-ci əsr Qarabağ xanı İbrahimxəlilin nüfuzlu vəzirlərindən biri olan Mirzə Əliməmmədağanın tutduğu vəzir vəzifəsinə bağlı olaraq ortaya çıxmış, daha sonra nəsildən-nəsilə keçmişdir.

Həyatının ilk iyirmi ilini Şuşada keçirən Yusif Vəzirin yaşadığı dövrdə Şuşada

“Məclisi-üns”, “Məclisi-fəramuşan” kimi ədəbi məclislər fəaliyyət göstərir, ziyalıların “üçüncü qrupu” - “teatr xadimləri” yetişirdi. O, sonralar yazırdı ki, Haşım bəy Vəzirov Şekspirin “Otello”sunu türkcəyə çevirmişdi, xalq ədəbiyyatını toplardı. Yayda Ə.Haqverdiyevin və şəhərə dönmüş müəllimlərin köməyi ilə teatr tamaşası verərdilər. Geniş kütlə Mirzə Fətəlinin və Ə.Haqverdiyevin əsərləri ilə ilk dəfə tanış olurdu. Y.V.Çəmənzəminli “Teatr pərəstişkarı” adlı məqaləsində “təbiətən mütəvaze, demokrat bir adam olan” Ə.Haqverdiyevin 1905-ci ildən etibarən onları da səhnəyə cəlb etdiyindən söhbət açırdı. Ədibə daha çox təsir edən hadisə “Molla Nəsrəddin”in nəşrə başlaması olub. Jurnalın ilk nömrəsi ilə tanışlıq Y.V.Çəmənzəminlidə yazıçılıq arzusunu gücləndirmiş o, karikatura və yazılarını bu jurnala göndərmişdir (1, s.6).

1905-1906-cı illərdə erməni silahlı dəstələri, terror təşkilatları Quzey Azərbaycanın bir çox bölgəsində olduğu kimi, Şuşada da azərbaycanlıları qətl edir, dəhşətli cinayətlər törədirdi. Şəhərdə vəziyyət həddindən artıq gərgin idi. Buna görə Şuşa realnı məktəbini tərk etmək məcburiyyətində qalan Yusif Vəzir, 1906-cı Bakıya gələrək buradakı Bakı Realnı məktəbin altıncı sinfinə daxil olmuşdur.

1909-cu ildə Bakı Realnı məktəbini bitirib, təhsilini davam etdirmək üçün öncə S.Peterburqa üz tutan Yusif Vəzir sənədlərini Mülki Mühəndislər İnstitutuna versə də, daha sonra bundan vaz keçib. S.Peterburqda qaldığı vaxtdan istifadə edib məşhur “Cənnətin qəbzi” hekayəsini və ...Qafqazın məşhur milli qəhrəmanı olan Şeyx Şamili yada salaraq ona şeir həsr edib (2, s.20).

Daha sonra o, Peterburqdan Aşqabada qayıdır və burada qaldığı müddətdə latın əlifbasını öyrənməyə başlayıb. Sonra isə Özbəkistanın hazırki paytaxtı Daşkəndə gedib altı ay kursda oxuyur və Daşkənd gimnaziyasında imtahan verib universitetə girmək hüququ qazanıb.

Yusif Vəzir 1910-cu ildə Kiyevə gedərək Müqəddəs Vladimir adına İmperator Universitetinin Hüquq fakültəsinə daxil olmuş, Bakıda nəşr olunan qəzet-jurnallara məqalələr göndərmişdir. O, Kiyevin ali məktəblərində təhsil alan Azərbaycanlı tələbələrdən ibarət xüsusi nəşriyyat heyəti təşkil etmişdi. Yusif Vəzirin xalq nağıllarından götürülmüş uşaqlar üçün yazdığı məşhur “Məlik Məmməd”nağılı 1910-cu ildə Kiyevdə yazılmış və 1911-ci ildə kitabça şəklində həmin nəşriyyatda çap olunmuşdur. Qeyd edək ki, Yusif Vəzir “Məlik Məmməd” adlı xalq nağılını “Əli Xan Çəmənzəminli” imzası altında yayınlamışdır.

Yusif Vəzir 1912-ci ildə “Yeddi hekayə”, 1913-cü ildə isə “Həyat səhifələri” adlı kitablarını Kiyevdə çap etdirib. Onların hər nüsxəsinin Qori Müəllimlər Seminariyasının müəllimi, görkəmli ədəbiyyatşünas Firudin bəy Köçərliyə göndərib. Firudin bəy Köçərli kitabçaları aldıqdan sonra Qoridən Kiyevə göndərdiyi məktublarla Yusif Vəzir yaradıcılığına, onun mədəniyyət sahəsində xidmətlərinə yüksək qiymət verib.

Beləliklə, Yusif Vəzirin Kiyevdəki 5 illik tələbəlik həyatı ədəbi və elmi sahədə çox əlverişli olmuşdu.O zaman o, dini məsələ, qadın məsələləri və uşaq tərbiyəsi ilə son dərəcə maraqlanmışdı. Nəticədə “Arvadlarımızın halı”, “Qanlı göz yaşları”, “Ana və analıq” kitabları meydana çıxıb. 1915-ci ildə IDünya müharibəsinin gedişi ilə əlaqədar olaraq Almaniya hücumundan çəkinən çar hökuməti Kiyev Universitetini müvəqqəti olaraq Saratova köçürdüyü üçün Yusif Vəzir universiteti 1915-ci ildə Saratovda bitirib. O, universiteti bitirdikdən sonra Saratov məhkəmə palatasında hakimlik vəzifəsinə namizəd qəbul olunmuşdur. Yusif Vəzirin tutduğu vəzifə maaşsız olduğu üçün bir neçə aydan sonra başqa iş axtarmaq üçün Kiyevə qayıtmış və “Zemstvo” təşkilatına daxil olub cəbhəyə getmişdir.

1917-ci il Fevral burjua inqilabı baş verən zaman Yusif Vəzir Kiyevdə oxuyan azərbaycanlı tələbələri ətrafına toplayaraq Türk Ədəmi Mərkəziyyət Firqəsi “Musavat”ın Kiyev şöbəsini yaratmışdır. Həmin şöbəyə sədr seçilən Yusif Vəzir Ukrayna Respublikası ya-

randıqdan sonra Azərbaycan Cumhuriyyətinin Kiyevdə diplomatik nümayəndəsi təyin olunmuşdur. Yenicə işə başlamış diplomatik nümayəndəliyin əsas məqsədi Azərbaycanı Ukrayna ictimaiyyətinə tanıtmaq idi. Ona görə də onlar müsamirələr təşkil etməklə bərabər, Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, ticarəti və iqtisadiyyatı haqqında çoxlu məqalələr yazıb mətbuatda çap etdirmişlər.

Beləliklə, 1917-ci ilin əvvəllərində Kiyevdə siyasi fəaliyyətə başlayan Azərbaycan Koloniyası Rəyasət Heyətinin 1919-cu il sentyabrın 21-də Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda bildirilirdi ki, Ukrayna Mərkəzi Radası günlərində "Müsavat" partiyasının Kiyev komitəsinin sədri Yusif bəy Vəzirovun başçılığı altında buradakı Azərbaycan Koloniyası komitə ətrafında birləşərək Ukraynanın siyasi həyatının bütün sahələrində fəal iştirak edirdi (1, s.8).

O, 1919-cu ilin yazında Quzey Azərbaycana-Bakıya qayıtdıqda öncə"Azərbaycan" qəzetində "Xarici siyasətimiz", "Milli və mədəni islərimiz" başlığı ilə silsilə məqalələrini çap etdirib. Daha sonra Azərbaycan Cumhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəylinin təklifi ilə o, 1919-cu ilin payzında respublikanın səfiri kimi İstanbula göndərilib. Yusif Vəzir İstanbulda diplomatik işlə məşğul olmaqla yanaşı, öz ədəbi fəaliyyətini də davam etdirmişdir. Belə ki, Azərbaycanı və ədəbiyyatımızı Türk aləminə tanıtmaq üçün elmi müşahidələrlə zəngin olan "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" adlı kitablarını yazmışdır.

Azərbaycan Cümhuriyyəti Sovet Rusiyası tərəfindən ilhaq olunub sözdə "Sovet hakimiyyəti" qurulduqdan sonra Yusif Vəzir İstanbulda tutduğu elçi vəzifəsinin artıq bitmiş olduğunu elan edib, Parisdə Siyasi Elmlər İnstitutunun Diplomatiya fakültəsində təhsil alan kiçik qardaşı Mirabdulla Vəzirovun yanına getmişdir. Fransada hər hansı bir əcnəbinin hüquq sahəsi üzrə işləməsi qeyri-mümkün olduğu üçün Yusif Vəzir maddi vəziyyətinin ağır olması ilə əlaqədar məcbur olub Paris yaxınlığındakı Klişi adlı şəhərə köçüb öncə Lokomativ, sonralar isə avtomobil zavodlarında fəhləlik etmişdir. O, "Paris xəbərləri" qəzeti ilə də əməkdaşlıq edib "Şərq məktubları" başlığı altında müxtəlif yönlü məqalələr yazmışdır. Yusif Vəzirin qardaşı Mirabdulla 1922-ci ildə təhsilini başa vurub Paris banklarının birində məmur işləməyə başlasa da, 1924-cü ildə qəflətən xəstələnmişdir. Mirabdullanın on üç ay davam edən xəstəliyi ölümlə nəticələnmişdir (3, s.57-61).

1925-ci ildə yeganə qardaşı Mirabdulla Vəzirov Parisdə vəfat etdikdən sonra Yusif Vəzir vətəninə qayıdır.

Qürbət ellərdən vətəninə qayıtmış Yusif Vəzir ilk öncə "Bakı işçisi" nəşriyyatında bədii şöbənin redaktoru, sonralar Dövlət Plan Komitəsinin ictimai-mədəni bölməsində ixtisası üzrə vəkil işləmiş və eyni zamanda müəllimliklə də məşğul olmağa başlamışdı. Öncə, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft İnstitutlarında Azərbaycan və rus dilləri kafedrasında dərs demişdi. Eyni zamanda Yusif Vəzir Ruhulla Axundovun redaktəsi ilə çıxmış "Rusca-Azərbaycanca lügət"in müəlliflərindən biri olmuşdu. Azərbaycan dilində terminologiyanın yaradılmasında da Yusif Vəzir Çəmənzəminlinin böyük xidməti olmuşdur.

Yusif Vəzir 1930-35-ci illərdə Azərbaycan Neft İnstitutunda işləyərkən, (o vaxtlar) həmin institutda çıxan "Əzizbəyov adına Azərbaycan Qızıl bayraqlı Neft İnstitutunun əxbari" jurnalında "Neft və onun tarixi" adlı məqaləsi ilə bərabər bir çox məqalələr yazıb çap etdirmişdir. Yusif Vəzir bir çox hekayələrini "Maarif və mədəniyyət" jurnalında və başqa mətbuat orqanlarında çap etdirir. Sonralar isə "Qızlar bulağı", "Studentlər", "1917-ci il" adlı romanlarını çap etdirmişdir.1935-ci ildə "Həzrəti-Şəhriyar" adlı komik pyesini bitirən Yusif Vəzirin bu komediyası, ilk dəfə 1980-ci ildən incəsənət toplusu "Qobustan" jurnalının 4-cü sayında çap olunmuşdu.

Dünyada geniş tanınmış və bestsellerə çevrilmiş “Əli və Nino” əsərinin Yusif Vəzir Çəmənzəminlinin qələmindən çıxdığını iddia edən ədəbiyyatşünaslar var.

Yusif Vəzir tərcümələr üzərində də işləmiş, L.Tolstoyun, İ.Turgenevin, A.Neverovun, N.Qoqolun, B.Lavrenevin, L.Seyfulinanın, V.Hüqonun və başqa yazıçıların bir neçə əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi. O, kino-ssenarilərin tərcüməsi işində də fəal iştirak etmişdi. Yusif Vəzir 1937-ci ilin aprel ayında tamamladığı “İki od arasında” adlı tarixi romanı işdən çıxarıldığı üçün çap etdirə bilməmişdi.Öz sağlığında nəşr etdirmək qismət olmayan Yusif Vəzirin bu tarixi romanı ilk dəfə 1964-cü ildə “Azərbaycan” jurnalında müəyyən ixtisarla “Qan içində” adı ilə çapdan çıxmışdı.

1937-ci il Sovet repressiyasının ən çətin illərindən biri idi ki, Azərbaycan Yazıçılar İttifaqı da öz növbəsində (digər sovet qurumları kimi) ciddi cəhdlə “sıralarını təmizləyirdi”. Qeyd edək ki, Yusif Vəzir də hədəf alınmış ziyalılar arasında idi. O, Azərbaycan Cümhuriyyətinə qədərki dövrdə xurafatı, mövhumatı tənqid edəcək qədər cəsarətli yazıçı olduğunu deyərək özünü müdafiə etməyə çalışmışdır. Azərbaycan Yazıçılar İttifaqının III Plenumunda (mart, 1937-ci il) İttifaqın sədri,Yusif Vəzir dədaxil olmaqla bir sıra yazıçını tənqid atəşinə tutmuşdu. 1937-ci ilin yayında“Ədəbiyyat” qəzetində Çəmənzəminlini əksinqilabçı olmaqda ittiham edən yeddi məqalə çap edildi.Onu “Studentlər” və “Qızlar bulağı” kimi romanlarında mənfi obrazlar vasitəsilə əks-inqilabi fikirlər təbliğ etməkdə ittiham edirdilər. İçində olduğu təhlükəni dərk edən Çəmənzəminli əlyazmalarının böyük bir hissəsini yandırıb. Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən çıxarılan Yusif Vəzir,bununla da iş tapmaq imkanını itirmişdir.

Həyatını xalqın istiqlaliyyətinə və tərəqqisinə həsr edən Yusif Vəzir 1937-ci il may ayının 20-də Azərbaycan K(b)P-nın Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırova ərizə ilə müraciət etmişdir. Yusif Vəzir M.C.Bağırova yazdığı ərizənin cavabının gəlməsindən əlini üzərək 1937-ci il iyun ayının 8-də Ümumittifaq K(b)P-nın baş katibi İ.V.Stalinə də ərizə ilə müraciət etmişdir. Bu ərizədən də cavab ala bilməyən Yusif Vəzir 20–25 gün Moskvada qalıb Stalinə yazdığı ərizə barədə Mərkəzi Komitəyə üz tutmuşdur. Lakin ordan da heç bir cavab ala bilməyən Yusif Vəzir çarəsiz vəziyyətdə Bakıya qayıtmışdır.

1938-ci ildə “Kommunist” qəzetində çıxan bir elanda bildirilirdi ki, Özbəkistan SSR-nin Urgənc şəhərindəki Xarəzm Vilayət Pedaqoji institutunda rus dilində dərs deməyə müəllim yeri tutmaq üçün müsabiqə elan olunub.Yusif Vəzir sənədlərini toplayıb Urgənc şəhərinə göndərir və müsabiqədən keçib rektorluqdan dəvət alır.1938-ci ilin avqust ayında Yusif Vəzir Urgəncə yola düşür. O, Urgənc Pedaqoji İnstitutunda baş müəllim və eyni zamanda institut kitabxanasına müdir təyin olunur.

1940-cı il yanvar ayının 25-də Yusif Vəzir Ürgəncdə həbs edilib Bakıya gətirilir (4, s.200). O, altı aya yaxın Keşlə həbs düşərgəsində saxlanıldıqdan sonra 1940-cı il iyunun 11-də *“Xüsusi müşavirə”*nin qərarı ilə 8 il müddətinə islah-əmək düşərgəsində həbs cəzasına məhkum edilir (4, 203).

Beləliklə, Yusif Vəziri iyul ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndərirlər...O, 1943-cü il yanvar ayının 3-də Nijni Novqorod vilayətinin Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsində ürək tutmasından (ya daaclıqdan) vəfat etmişdir. 1943-cü il yanvarın 4-də Yusif Vəzir Çəmənzəminli Betluqa çayının sahilindəki qəbristanlıqda dəfn olunub.

Onun əsas elmi və bədii əsərləri aşağıdakılardır: “Azərbaycan ədəbiyyatına bir nəzər”, “Tarixi, coğrafi və iqtisadi Azərbaycan”, “Qızlar bulağı”, “Studentlər”, “Qan içində” (“İki od arasında”), “Əli və Nino” (müəllifi mübahisəlidir), “Azərbaycan muxtariyyəti”, “Xarici siyasətimiz”, “Milli və mədəni işlərimiz”, “Litva tatarlarının tarixi”, “Biz kimik və

istədiyimiz nədir” və b.

**Y.V.Çəmənzəminlinin fəlsəfə tarixinə aid baxışları**

Azərbaycan Türk mütəfəkkiri Yusif Vəzir Çəmənzəminli Azərbaycan Türk fəlsəfə tarixində mühüm yer tutmuş aydınlarımızdan biridir. O, “Azərbaycan ədəbiyyatına bir nəzər” əsərində Türk ədəbiyyat tarixini araşdırmış, bu zaman müəyyən qədər ictimai-fəlsəfi fikir tariximizə aid şərhlər vermiş, eləcə də sosial fəlsəfə ilə bağlı bəzi mülahizələr irəli sürmüşdür.

Y.V.Çəmənzəminliyə görə ədəbiyyat iki qismdən, yəni şifahi və yazılıdan ibarət olub, onun birincisi birmənalı şəkildə Türk xalqının fikir qüvvəsinin və zehninin məhsuludur: “Şifahi ədəbiyyatımız Türk milləti qədər qədimdir. Yazılı ədəbiyyatımız başqa bir yolla inkişaf edib. Ədəbiyyat getdikcə saraylardan; əşrəf və əyan məclislərindən xalqa doğru enməyə başlayıb. Və uzun müddət fars bürokratizmi ilə Türk demokratizmi mübarizə etmiş və axırda Türk xəlqçiliyi qələbə çalmışdır” (5, s.117).

Əvvəlcə, şifahi ədəbiyyatla bağlı məlumat verən, nümunələr gətirən Çəmənzəminli daha sonra yazılı ədəbiyyata müraciət etmiş, bu zaman ilk olaraq Nəsiminin, Xətayinin, Füzulinin ictimai-fəlsəfi görüşlərini şərh etməyə çalışmışdır. Məsələn, Nəsiminin hürufi, müəlliminin də Fəzlullah Nəimi olmasını diqqətə çatdıran Çəmənzəminliyə görə, onun fəlsəfəsi elə Fəzlullah Nəiminin fəlsəfəsidir. Onun fikrincə, Fəzlullaha aid “Cavidannamə”ni oxumaqla Nəsiminin fəlsəfi dünyagörüşünü dərk etmək mümkündür: “Nəsimi diyari-Rumə səyahəti əsnasında hürufiliyi açıqcasına nəşr eyləyirdi. Hələb şəhərində bulunarkən cəzbiallahiyə məğlub olur” (5, s.124).

Daha sonra Şah İsmayıl Xətayinin tərcümey-halı haqqında qısa məlumat verən Çəmənzəminliyə görə, böyük hökmdar Şah İsmayıl ilə böyük şair-mütəfəkkir Xətayi arasında fərq azdır; eyni mətnaət və qüvvətli iman da şeirini başdan-başa doldurur. O, yazırdı: “Xətayinin şeirlərini üç qismə ayırmaq olar: dini, fəlsəfi və eşqə dair. Bizcə ən əhəmiyyətli şeirləri də fəlsəfəyə dairdir. Bu şeirlərdə Xətayi böyük, qəvi və mətin şəxsiyyətdən bəhs edir. Qəvi şəxsiyyəti tərif etmək üçün bu misralara müraciət edilməlidir:

*Cümlə əşyadə zühur edən kəlamımdır mənim,*
*Xələti-ərzi-səma sirri qiyamımdır mənim.*
*Vaqif oldum çün zəminü asimanın gəncinə,*
*Cismimin sultanıyam, aləm qulamımdır mənim (5, s.127).*

Xətayinin bu fikirləri ilə əsasən razılaşan Çəmənzəminli də hesab edirdi ki, qəvi şəxsiyyət əzəlidir: “Varlıq eylə var idi, onun sirrlərinə vaqif idi və bütün kainatı vələlərin şahididir. Həqq ilə şəxsiyyət dostdurlar, yaxındırlar. İki qüvvə ümumi sirrə malikdir. Şəxsiyyəti yaradan Həqdir, lakin Həqdən şəxsiyyəti vücuda gətirən səbəb inkardır” (5, 127-128). O, buna misal kimi Xətayinin “Ey Xətayi, həqqi bilib tanımışam bigüman, Onun üçün ox yaratdı, mən ona inkar idim”, – beytini göstərmişdir.

Çəmənzəminli daha sonra Füzulinin həyatı və yaradıcılığı haqqında da bilgi vermiş, onun Türk şair-mütəfəkkirləri arasında tutduğu yüksək mövqeyi ifadə etmişdir.

Onun fikrincə, milliyyət hissini birinci dəfə hiss edən, intibahın dəlili olan kritisizmdən istifadə edən Azərbaycan Türk mütəfəkkirlərindən Mirzə Fətəli Axundzadə ilə Qasım bəy Zakir birlikdə tənqid dövrünün nəsr və nəzmdə banisi sayılır. Çəmənzəminliyə görə, Axundzadə və Zakir ictimai həyatımızın qüsurlarını görüb, eynilə göstərən mütəfəkkirlər olublar (5, s.133-134). O, yazırdı: “Zakiri tam mənası ilə milliləşdirən, bizim ağacın meyvəsi edən şeirlər onun həzliyə və həcvləridirlər. Azərbaycan təbiətinə məxsus zərafət, kina-

yə, kəlayə və bəzən acı rişxənd və köhnələri bəyənməyib, yeni bir şey axtarmaq... Bu nöqtələrdə Zakir bizim ilə həmruh və həmdərddir” (5, s.136).

Daha sonra Mirzə Kazım bəy, S.Ə.Şirvani və M.Ə.Sabirlə də bağlı məlumatlar verən Çəmənzəminli bir qədər Sabirin yaradıcılığı üzərində çox dayanmışdır. O, yazırdı: “Sabir filosofdur, mürəbbidir, inqilabçıdır, nihilistdir, hamısında da səmimidir... Sabir Zakirin həcvlərindən doğma bir şairdir. Aralarındakı fərq budur ki, Zakir xəstə millətin bir əzasiylə məşğul olmuş, onu məhv edən mikrobları göstərmiş. Sabir isə bütün millət vücudunu təşrih edib onun çürümüş cəhətlərini meydana çıxarır. Zakir məhəlli şairdir; onun əsərlərində “provinçializm” (əyalətçilik) çoxdur. Sabir isə başqa bir zamanda vücuda gəlib, ümumşərqin intibahının şahidi olduğu üçün mövzularını geniş sahələrdən alır. Odur ki, bəzən Sabir azərbaycanlılıqdan çıxıb ümumislam və bəlkə ümuminsaniyyət şairi olur. Sabir ruhən şərqlidir, təmayülün Avropa mədəniyyətinin üftadəsidir. Millətinin mütərəqqi olmasını istər, mədəniləşməsini arzu edər” (5, 140-141).

A.A.Bakıxanov, Nəbati, A.Səhhət, Hadi, H.Cavid, Ə.Cavad və başqa ziyalılarımızın isə adlarını çəkməklə kifayətlənən Çəmənzəmənli, “Osmanlıda yetişmiş azərbaycanlı müəlliflər” bölümünə isə Şirvanlı Fətullah, Baba Nemətullah, Yusif Ziyaəddin Məxdun, Azəri İbrahim Çələbi, Sadiq Əfəndi Şirvani, Mir Həmzə Nigari, Əli bəy Hüseynzadə və başqalarını aid etmişdir.

Çəmənzəminli “Azərbaycan ədəbiyyatına bir nəzər” əsəri ilə yanaşı, digər məqalələrində də milli fəlsəfə və ictimai fikir tariximizlə az-çox bağlı olan mövzulara toxunmuşdur. O, bu məqalələrində (“Azərbaycan nağıllarının əhval-ruhiyyəsi”, “Azərbaycanda Zərdüşti adətləri”, “Folklor yolunda” və b.) daha çox qədim dövr və antik çağ Azərbaycan Türk fəlsəfə tarixindən bəhs etmişdir.

Onun fikrincə, Azərbaycan türklərində fəlsəfi fikirlərin rüşeymləri şifahi ədəbiyyatda öz əksini tapmış, daha sonra yazılı ədəbiyyatda inkişaf etmişdir. O, yazırdı ki, bu fəlsəfi fikrin rüşeymləri isə Kür-Araz mədəniyyətindən başlamış, eyni zamanda İran ilə Turan arasında gedən mübarizələrin zəminində və Böyük Midiya dövründə davam etmişdir: “Tarix göstərir ki, bu mübarizə üçün Şimali Azərbaycan mərkəz təşkil etmiş və nəticədə türk dili qədimdən “Böyük Midiya” adlanan Qaf dağı ilə Həmədan arasında hökmran bir vəziyyət almışdır... Xalq ədəbiyyatımızın tədqiqi yalnız bizim üçün deyil, bütün insaniyyət tarixinə yeni bir səhifə əlavə edəcəyinə iman edənlərdənəm, çünki dünyanın ən qədim mədəniyyətlərindən birinin beşiyi Kür ilə Araz çaylarının arası olmuşdur. Bu mədəniyyətin əsrarını bilmək üçün xalq ədəbiyyatımız, bilxassə nağıllarımız qiymətli vasitə ola bilər” (5, s. 277).

Beləliklə, o, qədim dövrdə Türk fəlsəfəsinin təşəkkülü ilə bağlı yazırdı ki, bunun izinə, ilk növbədə şifahi ədəbiyyata aid olan nağıllarda rast gəlmək mümkündür. O, yazırdı: “Nağıl xalq ədəbiyyatının qeyri-ənvaindən daha da qədim olmalıdır, çünki fikir, etiqad və fəlsəfə etibarilə Zərdüştün “Avesta” və hindi-qədimin “Veda”sına yavıqlaşır” (5, s.278).

Maraqlıdır ki, Çəmənzəminli bir tərəfdən Azərbaycan türklərinin qədim fəlsəfi fikir tarixindən bəhs etdiyi halda, digər tərəfdən bu fəlsəfi fikrin Zərdüştün “Avesta” və hindlilərin “Veda”sı ilə yaxınlığından bəhs etmişdir. Məsələn, o iddia edirdi ki, bütün Azərbaycan Türk nağılları içində tanınmış olan “Məlik Məmməd” nağlında da zərdüştlük və vedalarda olduğu kimi, əsas fikir haqqın nahaqqa qələbə çalmasından ibarətdir. O, yazırdı: “Məlik Məmməd”in fəlsəfəsi təbiətdəki ikiliyi təsvir eləyir. Bir tərəfdə Hürmüzd və onun xəlq etdiyi nur, əbədi həyat, haqq və ədalət, o biri tərəfdə də Əhrimən və güruhu: qaranlıq dünyanın məhsulu divlər, əjdahalar, büxl, həsəd, fəna fikirlər. Bir-birilə əbədi çarpışmada olan bu iki qüvvə Hürmüzdün qələbəsilə nəticələnir. Əbədi həyat bəxş edən, almanı oğurlayan divlər, Zümrüdün balalarını öldürmək istəyən əjdahalar, büxl və həsədə qapılan iki

şahzadə məhv olub gedirlər. Zirək, qüvvətli, təmiz ürəkli Məlik Məmməd isə qurtarır və işıqlı dünyanın bütün səadətinə nail olur” (5, s.278).

Bizcə, Çəmənzəminlinin Türk fəlsəfi fikrini bu formada “Avesta” və “Veda”ya bağlaması məntiqə uyğun deyildir. Çünki burada bəhs olunan “Məlik Məmməd” nağlının özü də İran-aryançı zərdüştülərcə təhrif olunmuş, Türk düşüncəsindən kənara sapdırılmışdır. Bu baxımdan Çəmənzəminlinin əvvəlcə “Məlik Məmməd” nağlı ilə “Avesta” fəlsəfəsini eyniləşdirməsi, üstəlik tək Tanrıçılığı Sami irqinə aid etməsi, daha sonra da Zərdüştü və onun “Avesta”sını Azərbaycan mədəniyyəti ilə əlaqələndirməsi doğru sayıla bilməz. O, yazırdı: ““Məlik Məmməd”dəki mücadilə haqq və işığın hakmranlığı ilə nəticələnir. “Avesta”nın fəlsəfəsi də bundan ibarətdir. Sami irqindən zühur etmiş dinlərin (yəhudilik, xristianlıq və müsəlmanlıq) tövhidi zərdüştlükdə yoxdur. Vəhdət əvəzində ikilik, kainatda ikilik var və mübarizə hər şeyə əsas olaraq vəz olunmuşdur. Bu mübarizə getdikcə inkişaf edib böyüyür və axırda qaranlığın, div və əjdahaların, paxıl vücudların yox olub, yer üzündən qaib olması ilə qurtarır. Zərdüştlükdə dini məfkurə dünyada əbədi bir həyat, əbədi işıq, əbədi istirahət və səadət təmin etməkdir. Lakin buna mane olan qara qüvvələr var” (5, s.278-279).

Doğrudur, o, bəzən etiraf edirdi ki, “zərdüşti fəlsəfə və etiqadından doğma nağıllarımız  yalnız dil etibarilə türkləşmişlər” (5, s.282). Deməli, onun düşüncəsindən çıxış etsək, birincisi qədim Azərbaycan xalqına aid nağıllar “zərdüşti fəlsəfə və etiqadından doğur”, ikincisi nağıllar dilcə türkcələşir mahiyyətcə yox, üçünçüsü tərəfdən isə nağılların qaynaqları olan zərdüştlük farslara aid olunmur. Maraqlıdır ki, Çəmənzəminli eyni formada “Novruz” bayramını da İran-Aryan mədəniyyətinə deyil Azərbaycan mədəniyyətinə aid edib, hətta iddia edir ki, ümumiyyətlə “İran mədəniyyəti”ni Midiya və Azərbaycan yaratmışdır. O, yazırdı: “İran mədəniyyətinin Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti münqəriz olduqda bu mədəniyyət zərdüştlüklə bərabər İrana keçmiş və əsrlərcə pars səltənəti ilə yan-yana azərilər (muğlar) məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər. “Novruz” və başqa adətlərimiz də o zamanlardan qalmadır. “Novruz” adətinə “Avesta”da rast gəlmiriksə də, fəlsəfəsi tamamilə oradan alınmışdır” (5, s.309).

Buradan belə anlaşılır ki, Çəmənzəminli zərdüştlüyü, nağılları, Novruz bayramını azəri ya da muğ adlandırığı qövmün adına çıxmış, Midiyanın süqutundan sonra parsların hakimiyyət başına keçməsinə baxmayaraq, ancaq ruhani və mədəni həyatın yenə də muğların (azərilərin) əlində qaldığına inanmışdır.

Beləliklə, Çəmənzəminliyə görə atəşpərəstlik və zərdüştilik kimi təlimlər Midiya dövründə, ya da ondan öncə meydana çıxmış, əsas ideoloqları isə muğlar olmuşdur. Onun fikrincə, Zərdüşt də Aranda muğlar arasında dünyaya gəlmiş, “Avesta” və atəşpərəstlik də Azərbaycanda yaranmışdır. Ona görə, bu baxımdan qədim Yunan fəlsəfəsinə ciddi təsir göstərən dünyanın dörd: od, su, hava və torpaq kimi ünsürlərdən ibarət olması nəzəriyyəsi də farslara/parslara deyil, qədim Azərbaycan xalqı olan muğlara, onların mağlar təliminə aid olunmalıdır. Sadəcə, yunan tarixçiləri başda Herodot olmaqla, Əhəmənilər dövründə parslar hakimiyyət başında olduğu üçün, bu fəlsəfəni parsların ya da İranın adına çıxmışlar. Çünki Çəmənzəminliyə görə, Midiyanı məhv edən parslar, çox keçmədən Midiya və Azərbaycanın din və ayinlərini, o cümlədən dörd ünsürlə (od, su, hava və torpaq)  bağlı nəzəriyyəni də mənimsəmişlər: “İrandan əvvəl də bu nəzəriyyə (dörd ünsürə aid olan nəzəriyyə nəzərdə tutulur-F.Ə.) Kürlə Araz çaylarının arasında doğulmuş olacaq, çünki Midiya dövlətini inqiraza uğradan parslar, Midiya və Azərbaycanın din və ayinlərini və bütün mədəniyyətini iqtibas etdilər. Zərdüştiliyi İrana bəxş edən azərbaycanlılar İrandakı müəssisələri əsrlərcə idarə etmişlər. Hətta bəzən hökuməti də ələ almağa qalxmışlarsa da, müvəffəq olmamışlar” (5, s.314).

Deməli, onun sözlərindən belə anlaşılır ki, üç min il bundan öncə Azərbaycanda məskən salan muğlar zərdüştlüyün, Novruz bayramının yaradıcısı olmuş, Midiyaya qədər və Midiya dövründə həm hakimiyyəti, həm də ruhani sahəni idarə etmişlər. Ancaq farslar e.ə. 6-cı əsrin ortalarında (e.ə.550-548) Midiyada hakimiyyəti zəbt etdikdən sonra, muğların sadəcə ruhani və mədəni sahələr əllərində qalmış, dəfələrlə cəhd göstərsələr də hakimiyyəti isə yenidən ələ keçirə bilməmişlər. Üstəlik, bizim eranın 7-ci əsrin ortalarında Ərəb Xilafəti yalnız parslara məxsus Sasanlı hakimiyətini deyil, muğlara aid olan dini-mədəni hakimiyyəti (zərdüştlüyü) də aradan qaldırmışlar. O, yazırdı: "Bu fəlsəfə və yaratdığı zehniyyət sayəsində Aran, Muğan və bütün Azərbaycan mədəniyyəti həyatında yüksək dərəcələrə çıxmışdır. Lakin ərəb istilası Zərdüştün atəşi ilə bərabər ölkəmizin mədəniyyət işığını da söndürdü. Dərbənddən Həmədana qədər sərf olunan əməklər məhv oldu" (5, s.315).

Bizcə, Çəmənzəminlinin Zərdüştü və zərdüştlüyü (atəşpərəstliyi) qədim Azərbaycan xalqına aid hesab etməsi doğru deyildir. Burada qədim Azərbaycan türklərinə aid olanyalnız Muğların, ya da Mağların təlimidir. Bizcə, Zərdüşt hind-aryan kökənli olub Muğların təlimini təhrif etmişdir. Muğların təlimində heç bir maddi ünsürü, o cümlədən atəşə zərdüştülərdə olduğu kimi, Yaradan səviyyəsində bir inam olmamışdır. Muğların dörd maddi ünsürə, o cümlədən oda olan qutsal baxış daha çox fəlsəfi xarakter daşımışdır. Ancaq Zərdüşt və zərdüştilər fars Əhəmənilərin Midiya üzərində xaincəsinə hakimiyyəti ələ keçirməsindən sui-istifadə edərək dini-fəlsəfi dünyagörşüdə ciddi təhriflərə əl atmışlar. Bununla da Midiyaya və Mağlara aid dini-fəlsəfi təlim çox keçmədən farsçı zərdüştilərin assimliyasiyasına uğramış, yeni bir şəkil almışdır. Çox təəssüf ki, Çəmənzəmənli bunu dərindən idrak edə bilmədiyi üçün irançı zərdüştliyi mağların/muğların təlimi ilə eyniləşdirərək qədim Azərbaycan Türk xalqına aid etmişdir.

Artıq Midiyaya qədər Qamlar/Ğamlar Turan İmperiyalarında müdriklik funksiyasını daşıdığı üçün, onların özünəməxsus bir yer tutmaları təbii idi. Yəni Midiyaya qədər də Qamlar/Ğamlar türklər arasında bilginlər kimi müstəsna yerə malik idilər. Məhz bu statuslarına görə də, Qamlar/Maqlar ayrıca bir Türk boyu kimi tanınmışılar. Turan (Saka-İşquz) İmperiyası dövründə daha çox Q(k)amlar kimi tanınan bu Türk boyu, Turan Midiyası dövründə isə Qamla yanaşı, Mağ adıylada məşhurlaşmışdır. Bəzi müəlliflərin yazması ki, Midiyanın idarəçiyində mağlar mühüm rol oynamışlar, əslində Qamlar əvvəllərdə Türk dövlətlərində yüksək vəzifə almışdılar. Yəni Mağların Türk dövlətçiliyində yüksək vəzifələr tutması Midiyayla başlamamışdır.

Bu anlamda Turan Midiyası dövründə də fəlsəfə, din və mədəniyyətin əsas daşıyıcıları Oğuz və Turanlı maqlar /qamların olduğuna inanırıq. Çox yazıqlar olsun ki, Kuti, Turukki və Manna türklərinin qohum etnoslar olan İşquz və Turan Midiyası qamlarının/maqlarının əsərləri ya məhv edilmiş, ya Zərdüşt kimi İran/Arian mütəfəkkirləri tərəfindən dəyişdirilərək yeni məna kəsb etmişdir. Bir sözlə, Turanlılar iranlılarla təmasda olmamışdan öncə, onların fəlsəfi, dini və mədəni həyatı farsların/iranlılarında xeyli dərəcədə fərqli olmuşdur. Bunu, Turanlıların Qam/Maq fəlsəfəsinə (Tanrıçılığa) zidd yeni din yaratmaq istəyən Zərdüştə və onun tərəfdarlarına açıq şəkildə düşmən münasibəti ortaya qoyur. Bu anlamda Turan Midiyasında fəlsəfi, dini və mədəni həyatın öncüllərinin Qamlar/Maqların olması, yalnız Turan/İşquz və Turan-Midiya imperiyalarının süqutundan sonra onların yerini iranlıların zərdüştü kahinlərin tutması qənaətindəyik. Başqa sözlə, İşquz, Midiya Maqları/Qamları Əhəmənilər dövründən sonra "İran maqları"na çevrilmişlər.

Əsas odur ki, Maqların/Qamların təliminin Zərdüştlükdən qədimliyini, eyni zamanda Zərdüştliyin ortaya çıxmasında Maqların mühüm rol oynamasını bir çox alimlər qəbul edirlər. Başqa sözlə, çoxluq qəbul edir ki, Mağlar təlimi, yəni Qamların fəlsəfəsi Zərdüştlükdən çox öncə mövcud olmuş və Ön Asiyanın aparıcı dini-fəlsəfi təlimlərindən biri ol-

muşdur. Bu isə o deməkdir ki, Ön Asiyaya gəlmə olan iranlılar/aryanlar Mağların/Qamların təsiri altında yeni din, yəni zərdüştliyi/atəşpərəstliyi yaratmışlar. Şübhəsiz, onlar zərdüştliyi yaradarkən də Mağlar təlimindən faydalanmaqla yanaşı, onu tamamilə təhrif etmişlər. Məhz indiki tədqiqatçıların çoxu da Türklər/Turanlılara aid əsil Mağlar/Qamlar təlimini deyil, sonralar İranlılar/Aryanlar tərəfindən mahiyyəti və mənası xeyli dərəcədə təhrif olunmuş Mağlar təlimini önə çəkirlər. Şübhəsiz, Turan İmperiyaları olan Saka-İşquz və Midiya-Mada dövründəki Maqlar/Qamlar təlimiylə, Əhəmənilər dövründəki Mağlar təlimi arasında yerlə göy arasında fərq vardır. Hər halda Maqlar təlimində Zərdüştlüklə üst-üstə düşməyən, kifayət qədər fərqli olan məsələlər var. Məsələn, Mağların od, su, hava və torpağa münasibətiylə, Zərdüştilərin münasibəti tamamilə fərqlidir (6, s.117-118).

Burada bir məqama diqqət yetirmək lazımdır ki, "Avropa mərkəzçilər"in maqlarla zərdüştliyi eyniləşdirib İran mədəniyyətinə aid etmələri yanlış olduğu qədər, bəzi türk araşdırmaçıların da maqlarla zərdüştlik arasında oxşarlq "tapıb" hər ikisini Türk mədəniyyətinə daxil etmələri də doğru deyildir. Başqa sözlə, haqlı olaraq Maqlar təlimini iranlılara, İran mədəniyyətinə aid etməyən Türk araşdırmaçıların, ancaq daha sonra zərdüştlüyü Maqlar təliminin davamı hesab etmələrini isə yanlış hesab edirik. Sadəcə, Əhəmənilər dövründə Mağlar təlimi irançı zərdüştilər tərəfindən elə bir şəkildə təhrif olunaraq mənimsənilmişdir ki, indi onları biri-birindən ayırmaq çox çətindir. Məhz Maqlar təliminin zərdüştilər tərəfindən təhrifli şəkildə mənimsənilməsinin nəticəsidir ki, bəzi tədqiqatçıların fikirlərinə görə "Maqların təlimi" və zərdüştilik Azərbaycan Türk xalqının sitayiş etdiyi dinlər olmuşlar (6, s.123).

Çəmənzəminli də belə tədqiqatçılardan biri olub, bir tərəfdən mağlar və mağların təlimini Azərbaycan xalqına aid etməkdə haqlı olsa da, ancaq mağları daha sonra zərdüştlük və onun "Avesta"sı ilə tamamilə eyniləşdirməsi doğru deyildir. Eyni zamanda, o, muğların və onların təliminin Azərbaycan Türk xalqı və onun milli fəlsəfi fikir tarixi ilə nə dərəcədə bağlı olub-olmaması kimi məsələlərə isə dərindən aydınlıq gətirməmişdir. Ancaq bütövlükdə məlum olur ki, Çəmənzəminli azəri ya da muğ adlandırdığı xalqın kökünü, o cümlədən zərdüştlüyü türklərə aparıb çıxartmışdır. Bizcə, bu səbəbdən də Çəmənzəminlinin çağdaşı olmuş Əmin Abid yazırdı ki, onun Zərdüştü türk zənn edib, azərbaycanlıları da atəşpərəst olaraq qələmə alması, üstəlik "azəri" sözünü türklüyə aid etməsi kökündən yanlışdır: "Bu vaxta qədər yapılan tədqiqlər əsasında: birisi qədim dövrlərdən zamanımıza; o biri zamanımızdan əski əsrlərə doğru yürüyən iki hərəkət xətti hiss edilməkdədir. Yalnız Azərbaycan kəliməsi ətrafında dönüb dolanan hər iki xəttin gəlib dayandığı bir nəticə nöqtəsi var: qurduğumuz dövlətin həqiqi adı "Azərbaycan" və bu dövlətin hakim olduğu yerlərdə oturan türklər (şimali-qərbi "İran"da yaşayan türklər kibi) "azəri"dir; azərilər də atəşpərəstlik sistemi ilə əlaqədardır" (7, s.29).

Yeri gəlmişkən, Çəmənzəminli Azərbaycan Türk xalqının qədim əcdadı hesab etdiyi muğlar, ya da azərilər, eləcə də onların dini-fəlsəfi dünyagörüşü ilə bağlı məqalələri və bədii əsərləri Sovet Azərbaycanı dövründə qələmə almışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, bu dövrdə Sovet Rusiyasının ideoloqları da hələlik, Azərbaycan türklərinin türklüyünün, müsəlmanlığının üstündən bir çox səbəblərə görə, qəti xətt çəkə bilmədikləri üçün daha çox "azərilik" nəzəriyyəsi adı altında oyun oynayıb "xalqın öz tarixini qədimləşdirmə" niyyətinə uyğun olaraq zərdüştlüyün, atəşpərəstliyin təbliğinə şərait yaradırdılar. 1918-ci ildə qurulan yeni Türk dövlətinin adı "Azərbaycan" adlandırılması prinsipindən çıxış edən türkçülərin əksəriyyəti də mümkün olduğu qədər, "xalqın tarixini qədimləşdirmə" prosesinə uyğun olaraq onu zərdüştlüklə, atəşpərəstliklə bağlayıb, Zərdüştün də ya Türk olmağını, ya da ən azından Midiyada, ya da Azərbaycanda doğulduğu (yəni buna inanaların düşüncəsində) üçün azərbaycanlı olduğunu əsaslandırmağa çalışırdılar. Çəmənzəminli də, məhz

"azərilik" nəzəriyyəsinə uyğun olaraq muğları və Zərdüştü əsasən "azəri", midiyalı, bəzi hallarda da Türk kimi qəbul etmişdir.

Bu baxımdan Çəmənzəminli Sovet Azərbaycanı dövründə yazdığı "Qızlar bulağı" adlı romanında da zərdüştlüyün, atəşpərəstliyin yaradıcısı saydığı Midiyanın aparıcı tayfalarından biri olan muğları/mağları qədim Azərbaycanın yerli xalqı hesab etmiş, eyni zamanda onların parslar, iskitlər, misirlilər, yunanlar, babillər, yəhudilərlə münasibətlərindən bəhs etmişdir (8, s.345-450).

Bu bədii əsərdə ən çox diqqəti çəkən odur ki, Çəmənzəminliyə görə, öncə zərdüşti inanclı muğlar arasında atəşpərəstliyin bəzi ayin və adətlərinə (məsələn, yaxın qohumlarla evlənmək, ölünü basdırmamaq və s.) etirazlar olub dəyişikliklər edilmiş, daha sonra da başqa xalqlarla, özəlliklə də turanlı iskitlərlə qaynayıb-qarışma baş vermişdir. Guya, zərdüşti inanclı oturaq, yerli muğlar, ya da azərilər iskitləri xaqanlıqdan, köçərilikdən, döyüşkənlikdən və xüsusi əmlaka rəğbətdən uzaqlaşdıraraq xeyli dərəcədə özləri kimi oturaq həyata və ictimai əmlaka alışdıra bilmişlər (8, s.445).

Yuxarıda qeyd etdiyimiz kimi, bu əsərini Sovet Azərbaycanı dövründə yazan Çəmənzəminli bir tərəfdən Azərbaycan xalqının kökünü farslardan uzaq tutub muğ/mağ mənşəli hesab etdiyi Midiyaya və türk mənşəli İskitlərə, eləcə də onların dini-fəlsəfi təfəkkürünə bağlamağa çalışdığı halda, digər tərəfdən kommunizm təliminə uyğun olaraq sosial bərabərlik məsələsini də ən olana çıxartmağa çalışmışdır. O, yazırdı: "Ümumi qəbilə xalqı səhər tezdən işə çıxar: kimi ilxıya, kimi bağ-bağçaya gedər. Daimi vəzifə yoxdur, vəzifələr dəyişilir. Dünən hərəm ağası ilə tarlada çalışdıq, bu gün isə ilxıda idik... Səadət şəxsi "mən"dən, şəxsi təmayüldən, şəxsi arzudan əl çəkərək ümumi "mən"liyə, ümumi təmayülə və ümumi arzuya xidmət etmək deməkdir" (8, s.449-450).

Beləliklə, Çəmənzəminlinin milli fəlsəfi fikir tarixi ilə bağlı apardığı tədqiqatları ümumiləşdirərək hesab edirik ki, o, muğları, muğların təlimini tamamilə zərdüştülüklə eyniləşdirməkdə, eləcə də Qərb tarixçiliyinin təsiri altında Türk-Turan mənşəli iskitləri köçəri və vəhşi kimi qələmə verməkdə səhvlərə yol vermişdir. Doğrudur, Çəmənzəminli haqlı olaraq muğları, midiyalıları birmənalı şəkildə irandillilərdən, o cümlədən farslardan da uzaq tutmuşdur. Ancaq bütün bunlarla yanaşı, onun daha çox irandillilər, o cümlədən farslara aid edilən qeyri-əxlaqi adətləri (məsələn, yaxın qohumlarla evlənmək, ölünü basdırmamaq və s.) muğlara aid edib, ancaq sonralar muğların bundan üz döndərməsini yazması da, çox ziddiyyətlidir. Bütün hallarda, o məsələdə Çəmənzəminli ilə razılaşırıq ki, məhz Muğların fəlsəfəsi yunan, fars, yəhudi, qibti və digər xalqların dünyagörüşünə xeyli dərəcədə təsir göstərmişdir.

### Y.V.Çəmənzəminlinin türkçülük görüşləri

Onun ictimai-siyasi yaradıcılığında **türkçülük** məsələsi xüsusi yer tutmuşdur. Çəmənzəminliyə görə, Azərbaycan türkləri başqa Türk xalqları ilə müqayisədə yad millətlərin təsirlərinə daha çox məruz qalmışlar. Çünki özgə millətlər, xüsusən də farslar əsrlər boyu azərbaycanlıların mədəniyyətinə, ədəbiyyatına, dilinə, hətta dini düşüncəsinə mənfi təsir göstərmiş, nəticədə bir çox milli-mənəvi dəyərlər unudulmuşdur. Məsələn, o, "Əcəmilik möhürü və onunla mübarizə" məqaləsində yazırdı ki, türklərin dini həyatı heç bir zaman farsın, ərəbin, yunanın, romalının və başqalarının dini həyatına bənzəməyib: "Türküstan qövmlərinin ruhani həyatını nəzərə aldıqda onların qeyri-dindar olduqlarını bilirik. Qırğızlar müsəlman adını daşıdıqda dinə əsla möhtac deyillər. Türkmən obalarını dolandıqda məscidə rast gəlməzsən. Təkə nişanlarının (müsəlmanlarının) özlərinə məxsus libasları olmaz. Camaat geyinən çapandan geyib başlarında da dəri papaqları olar. Mollaya müqəddəs bir nəzər ilə baxıb onları uca mərtəbələrə mindirən müridbazlıq ömürlərini boş-boş dini

mübahisə, cənnət və cəhənnəm məsələsi ilə keçirmək – türkmən arasında adət deyil. Bu sağlam qövm dünya ilə məşğuldur. Bunların qayələri – şücaətli ömür sürüb şan və şərəfə malik olmaqdır” (5, s.335).

Onun fikrincə, Azərbaycan türklərinin əsil türkə yaraşan törələrdən xeyli dərəcədə uzaq düşməsinə səbəb fars, irançı düşüncə olmuşdur: “Azərbaycan türklərində bu əsl türkə mənsub nişanələr qalmamağına səbəb yenə İran hökmranlığının mənhus nəticəsi olan riyakar xəlifəsidir ki, başımıza çəkib cənnətə yol axtarırıq. Özümüzün də əqidəsi budur ki, bizdən pak, doğruçu millət dünyada yoxdur. Bizdən savayı dünyada hamı murdardır, dünya da “darfənadır”. Bundan başqa, bir darbəza da vardır ki, gərək ora üçün çalışasan. Bu da əcəmlərdən iqtibas olunan bizim şiəçilik fəlsəfəmizdir. Bu fəlsəfə sayəsində murdarları darfənaya verib özümüz gözümüzü darbəzayə dikmişik. Ümidimiz də budur ki, hər mömin qardaşa darbəzada bir neçə gözəl huri verəcəklər, əbədi ləzzətə nail olacayıq. Məzhəbbazlıq, dərviş, duaçı, seyid və mərsiyəxan kimi ixtira və icadlar da İran həyat əqliyyə məhsulları olub iradan bizlərə töhfə olub.

Yuxarıda söylənəndən məlum oldu ki, əcəmin pozğun mədəniyyəti Azərbaycan Türk həyatına bir elə ağır möhür basıb ki, indi də onun nüfuzundan xilas ola bilmirik. Heyif ki, bu nüfuz ilə mübarizə etməyə hələ bizdə qüvvə yoxdur. Zənnimizcə, onda mübarizə müqənnid ola bilərik ki, aşağıda bəyan olan fikirlər qüvvədən felə keçə. Fikirlərim səkkiz fəsildən ibarətdir:

1. Gərək bizim bir cəmiyyətimiz olsun ki, dilimizi farslıqdan xilas eləsin. Bu da onda mümkündür ki, cəmiyyəti fəal və kamil alimlər təşkil edələr. Və hər müəllif kitabını çapa verməkdən qabaq cəmiyyətə göstərib qüsurlarını düzəltdirə...
2. Gərək müstəid və geniş məlumatlı münəqqidlərimiz ola, qələmləri qüvvəsi ilə dil və ədəbiyyatımızı düz yola çıxardalar. Ədəbi dil el ədəbiyyatından götürülməlidir. Bunun ilə ehtiyaclar dəf olmasa, fars və ərəb sözlərinə əl atmaq olar...
3. Milli musiqimiz türkləşməlidir. Bunun ilə həm farsa qalib gələrik, həm də Türk mədəniyyətini ləzzətli bir mövqeyə gətirərik ki, hamı məhəbbət və rəğbət gösətərib yavuqlaşar...
4. Qızlarımızı mükəmməl surətdə oxutmalıdır. Onları hüquqsuzluq təzyiqindən qurtarmalıdır. Arvad elmli və əri ilə müsavi olsa milli ruhlu və tərbiyəli övladlar yetirər. Təbiidir ki, belə uşaqlar gələcəkdə öz tərbiyələri sayəsində nə farslığın və nə qeyri millətlərin nüfuzu altına düşməyib öz milli yolu ilə milli qayələrə (ideala) doğru gedər.
5. Türk məktəblərinin sayını artırmalıdır. Onların içində ruhani sinfi yetirmək üçün orta və ali məktəbi bina etməlidir ki, oradan kamil mollalar çıxıb biçarə camaatımızı İrandan gələn əcəm ətvarlı mollanümalardan və mərsiyxanlardan xilas etsinlər.
6. Bizi farsların nüfuzu altına salanlardan biri də fars ədəbiyyatıdır. Lazımdır farsların Firdovsi, Sədi Şirazi kimi dahilərini Azərbaycan türkcəsinə tərcümə etməklə daha fars dilində onları oxumağa ehtiyac olmasın. Tərcümə əlbəttə, “dəhri-həqai” kimi olmamalı, tərcümənin birinci şərti düzgünlük və sadəlikdir...
7. Firdovsi və Sədilərin öz millətlərini nəşr etməkdə müvəffəqiyyətlərini gördükdə biz də çalışıb dahilər yetirmək lazım gəlir. Bunların vasitəsi ilə həm özgələrin mənəvi təsirindən qurtararıq, həm də öz nüfuzumuzu qonşularımız arasında artırarıq.
8. Azərbaycan türklərinin tarixini sadə bir dildə yazdırıb nəşr etrməlidir ki, camaat özünün Türk olmağını bilsin. Keçmişini öyrənsin və milli vəzifələrini düşünüb gələcək üçün çarələr arasın. Yoxsa hər kəsdən soruşursan: “Sən kimsən?” Deyir:

“Müsəlman”. Tahı bunu bilmirlər ki, dinimiz müsəlman dinidir, millətimizsə Türk millətidir” (5, s.335-337).

Maraqlıdır ki, Cümhuriyyətə qədərki dövrdə farsların, irandillilərin mədəniyyətini “əcəmin pozğun mədəniyyəti” adlandırıb onun Azərbaycan Türk həyatına çox mənfi təsirindən bəhs edən Çəmənzəminli, ancaq Sovet Azərbaycanı dövründə yuxarıda da gördüyümüz kimi, bir qədər bu məsələyə fərqli yanaşmış, muğları və guya, onlara aid zərdüştliyi onlardan ayırararq onun sonralar farslar tərəfindən təhrifə uğradıldığından bəhs etmişdir.

Tədqiqatçı Nazim Cəfərova görə, Yusif Vəzir də Azərbaycan Türk mütəfəkkiri, milli ideoloq, ictimai-siyasi xadim, Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadə kimi, xalqın savadlı şəxslərinə böyük ümidlər bəsləmişdir. N.Cəfərov yazırdı: “Yusif Vəzirovun M.Ə.Rəsulzadə təkin xalqın savadlı şəxslərinə böyük ümid bəsləməsi əbəs deyildi. Qeyd olunduğu kimi, yerli əhali o zamanlar savadsızlıqdan daha çox əziyyət çəkirdi. Bir tərəfdən də çarizm müsəlmanların, xüsusilə də türklərin maariflənməsinə heç bir həvəs göstərmirdi. Hər ikisi – M.Ə.Rəsulzadə də, Yusif Vəzirov da məhz milli kökündən üzülməyən savadlılara bel bağlayırdılar” (9,s.63).

Yusif Vəzirə görə iki mənbə var ki, buradan “millət” – nə olduğunu öyrənib onun mühafizə və tərəqqisi üçün çalışacaq idi – biri ana tərbiyəsi, biri məktəb. Onun fikrincə bunların ikisindən də millətin şüurunda acı yaddaşdan başqa bir şey qalmayıb. O, yazırdı: “Millətin ruhu, canı və bəlkə cəmi vücudu hesab olunan – ana dilini bizə lazımınca öyrədən bir vəsilə olmadı. Daha dilsiz də nə etmək olar. Hər yerdə dil və savad lazım, nəşriyyat bunlar ilə olar. Camaatın dərdinə əlac aramaq, məişətimizin fəna tərəflərini tənqid etmək... Bunların hamısına dil və savad lazım. Bir də bir camaata yol göstərmək fikrində olan lazımdır ki, o camaatın adət və qaydalarından müxbir olsun, tarix və ədəbiyyatı bilsin. Bunları bilmək camaatın məişətini bilmək, onların qüsurlarını və qüsurlarının səbəblərini bilmək deməkdir!Burada da ki, yenə Türk savadına möhtacız! Savaddan və dildən də ki ana dilindən müsəlman studentləri məhrumdurlar!!! Hər bir qüsurun bir səbəbi, bir mənbəyi olan tək, müsəlman studentlərinin böyük qüsuruədd olunan “nəfs”sizliyin, camaatımızın dərdlərinə yaramadığının səbəbi və mənbəyi yuxarıda göstərdiklərim olub” (10, s.9-10).

Çəmənzəminli “Qulluq və əsrlik” (1914, Aşqabad) adlı məqaləsində isə türkçülük nəzər nöqtəsindən daha çox müsəlmanlıq adı altında baş vermiş ərəbləşməyi tənqid etmişdir. O, yazırdı ki, türklərin təbiətində Allaha qul olmaq, ya da başqa xalqların əsarəti altında yaşamağa razılaşmaq olmayıb. Onun fikrincə, islamiyyət dövründə bu kimi hallara rast gəlindi ki, bu isə türkün təbiətinə zidd idi. O, yazırdı islamiyyətə qədər türklər övladlarına Allahqulu, Hüseynqulu, Əliqulu, Rzaqulu kimi adlar deyil, “Dağ”, “Qaya”, “Dəniz”, “Gün”, “Ay”, “Ulduz” kimi adlar qoyar, adlarına da uyğun şan və şərəflə ömür sürərdilər: “İnsana qul sənəti vermək Allaha nasaz gələn hərəkətlərdən biridir. Biz buna baxmayaraq yenə özümüzə qulluq isnad veririk. Bircə kişilərə verdiyimiz adlara diqqət edin: “Allahqulu”, “Məmmədqulu”, “Həsənqulu”, “Hüseynqulu”, “Əliqulu”, “Vəliqulu”, “İmamqulu” və qeyri. Hələ bu Allah, peyğəmbər və imam quluları dursun kənarda, biz özümüzü adi şəxslərin də qulu hesab edirik. Məsələn, “Şahqulu”, “Ağaqulu”, “Xanqulu”. İnsanın şəni, qədr və qiyməti müsəlman aləmində o qədər alçaq tutulur ki, bunları pir və ocaq kimi cansız və mənasız şeylərə də qul verirlər: “Pirqulu”, “Ocaqulu” kimi.Biz Türk ola-ola mən güman eləmirəm ki, bizim təbiətimizdə qulluq və ocaqlıq olsun. Bu adlar da bizə ərəblərdən qalmadır. Din-islamın intişarından qabaq ərəblər bir xeyli allah və ilahələrə iman edirdilər. Bunların ən böyüyü yeri və göyü xəlq edən idi ki, adına “Allah-taala” deyirdilər...

İslamiyyət “Allah-taala”nın sifətlərini artırdı. Bu da kişi adlarına sirayət etməmiş

olmadı: “Əbdülkərim”, “Əbdüləzim”, “Əbdüləziz”, “Əbdülbaqi” kimi bir xeyli yeni adlar əmələ gəldi. Bu yolda ərəbləri təqlid etmək, şiəlik aləmində daha da tərqqi edib ifrata üz qoydu: “Əbdüləli, Qulaməli, Əliqulu”, “Əbdülrza, Qulamrza, Rzaqulu”, Əbdülhüseyn, Qulamhüseyn, Hüseynqulu”... kimi adlar icad olundu. Cail mütəəssiblər bu yerə gəldilər ki, özlərini “Kərbəlayi”, yəni Əlinin iti də adlandırdılar... Bəs bu alçaqlıq da bizə bizə bir xeyli qüsurlar ilə özgələrdən qalmadır. Ulu babalarımız oğullarına “Dağ”, “Qaya”, “Dəniz”, “Gün”, “Ay” və “Ulduz” kimi adlar qoyardılar. Onda adlarına müvafiq də şan və şərəf ilə ömür sürərdilər. O zamanlar türklük dağ kimi qüvvətli və qaya kimi möhkəm idi; fikirlər gün kimi parlaq, niyyətlər ulduzlar kimi yüksək idi” (5, s.347).

Yusif Vəzirə görə, biz həmin türklərin övladlarıyıqsa, o zaman ən əvvəl lazımdır ki, özümüzü qulluqdan, köləlikdən xilas edək. Başqa sözlə, yenidən Türklüyümüzə dönək və Türk törəsinə əməl edək. O, yazırdı: “Dürüst düşünməlidir ki, biz insanlar qulluq üçün yaranmamışıq, şan və şövkət ilə ömür sürməyə gəlmişik. Bunu düşündükdə türklərə məlum olacaq ki, şan və ad ilə ömür sürmək meylində olan bir millət gərək mədəni olsun. Gərək, “fəqirlik”, “yoxsulluq” və “alçaqlıq” kimi sözlərdən nifrət eləsin. Həmişə dövlətli, qüvvətli və salamat bir millət olmağa çalışsın; çünki təbiət qanunu zəiflik tərəfdarı deyil, zəif gərək fot olsun! İnsaniyyət sürətlə qabağa getdikdə zəiflər ancaq ayağa dolaşırlar; belə mənalar ortalıqdan götürülməlidir. Fəal və dünyaçı Avropanın tənbəl və axirətpərvər Şərqə axıb gəlməsi həmın təbiətin qanununa tabedir; parlaq ömürdən gözləri qamaşıb, dünyaya “darfəna” ad qoyanlar yox olunacaqlar!..Bir də deyirəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəvək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxartmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixləri oxuyun. Məzhəbbazlıq yuvası olan İranın hal-hazırdakı zəlalətinə nəzər yetirin. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir.

Türk oğlu Türk olun!. Türklər heç vədə dünyanın şövkətli həyatından əl çəkib axirət yolu üçün çalışmayıblar. Həmişə ağalıq ediblər. Şanlı yaşayış üçün qılınc vurublar. Bu fikrin doğruluğunu türk və islamın düşmənləri belə inkar etmirlər. Böyük Volter deyir: “Türk həyatında dini məsələ ilə üstdə baş vermiş bir qafilə görünməmişdir. Qafilə dursun kənarda, türk arasında dini müsahibə, bir üsyan, bir qarışıqlıq isə də tarixdə qeyd olunmayıb”” (5, s.347-348).

O, “Studentlər” romanında isə həqiqi və yalanıçı millətçiliyi, milliyyətçiliyi təhlil etməyə çalışmışdır. Əsərin qəhrəmanlarından biri olan Rüstəmbəy əsil Azərbaycan türkü həm vətənpərvər, millətpərvərdir, həm də türk törəsini gözləyən biridir. Eyni zamanda, o, sözdə millət, xalq adından danışanları deyil əsil millətpərvərləri müdafiə etməkdədir. Rüstəmbəy və Cəlal hesab edirlər ki, sözdə “millətpərəstlik” bir pərdədir ki, bəziləri bütün hiyləgərlikləri onun arxasında edirlər. “Din və millət adı daşıyan cəmiyyət və müəssisələrimiz al – “İslamiyyə mehmanxanası”, “İslamiyyə limonadı”, “Milli papiros”... Bunlar lotuluq deyilmi? Tacir pul qazanıb kef çəkmək üçün din və milləti əlində oyuncaq edir. bakıda qoçular evlərində tələbə yurdu açır, hərəsi beş-on tələbəyə aylıq verir. Bu əxlaqsızlıqdır, yoxsa millətpərəstlik? Yoxsul gənclərin maddi vəziyyətindən istifadə edilərək, namusları ləklənir. Bu rüsvayçılıqlara millətpərəstlik deyirlər” (11, s.46). Əli İbrahimliyə görə, Yusif Vəzir yalançı millətpərəstlərin iç üzünü böyük ustalıqla aça bilmiş, onların şəxsi maraqları naminə hər cür fırıldaqlara əl atmasını doğru təhlil etmişdir (12, s.53).

Y.V.Çəmənzəminliyə görə, Türklüyə dönüşün ilk yollarından biri odur ki, Azərbaycan xalqı milli və dini kimliyini bir-birindən fərqləndirməlidir. Bu mənada o, soydaşlarına üz tutaraq bildirmişdir ki, onlar milli mənsubiyyət baxımından müsəlman deyil, türkdürlər. Hətta elələri də tapılır ki, ana dillərini də “müsəlman dili”, milli komitələrini də “müsəl-

man komitəsi” adlandırır. Y.Vəzir yazırdı: “Qürbət bir şəhərdə oturub istəyirəm Vətənimizin halından xəbərdar olam. Bakı komitəsinin məlmatını əlimə alıram (“Kaspı”nin dal vərəqəsindədir), başlayıram öz-özümə danışmağa, suallar verirəm, özüm də cavabını axtarıram.

1. Niyə “Müsəlman” komitəsinin cəmi üzvləri türk ola-ola buna Türk komitəsi demirlər?
   Cavab: Bizdə hələ din ilə millət mənaları bir-birindən ayrılmayıb, biz hələ özümüzü tanımamışıq. Biz hələ həddi-büluğa çatmamışıq. Biz hələ köhnə yol ilə gedirik.
2. Niyə Türk komitəsinin məlumatı rus dilində verilir?
   Cavab: Bizdə milli dil qədri bilmək qabiliyyəti hələ yoxdur. Biz o qədər ruslaşmışıq ki, Nikolaydan sonra yenə köhnə işlərdən əl çəkə bilmirik
3. Niyə biz öz adımızı bilmirik? Niyə özümüzə Türk deməyə ərinirik?
   Cavab: Yuxarıda söylədik ki,biz hələ özümüzü tanımamışıq ki, adımızı da bilək.
4. Niyə “Müsəlman” komitəsinin məlumatı zəmanəyə dair yazmır?
   Cavab: Məsələ aydındır...” (10, s.15-16).

Yusif Vəzirə görə milli kimliyimizin müsəlman deyil türk olmağını dərk etməyimiz üçün də, ilk növbədə, ana dilimizin, yəni Türk dilinin qayğısına qalmalıyıq. Çünki ana dilin tənəzzülü millətin çöküşü deməkdir. Ona görə də hər kəs dilini sevməli, bu dildə danışmağı eyib yox, fəxr hesab etməlidir. Bu baxımdan osmanlı türk ləhcəsinin bütün türklərin ortaq dili olması fikrinə qarşı çıxan Çəmənzəminli “Dil məsələsi” (1914) məqaləsində yazırdı: “Dilin birliyi üç-dörd adamın bir dildə yazmağı ilə olmaz: dil gərək işlənsin, mürurla gəlib birləşsin. Dil qayırmaq zəiflik sevməz, zor gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsil dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içindədanışılmaqdadır. Qələm sahiblərimiz buralara yönəlib bunları öz dilləri ilə danışdırıb yol göstərməkdənsə, özləri düz yoldan çıxıb, camaatı da avara qoymaq istəyirlər. Hərgah yazıçılıq etməkdən məqsəd fars və ərəb sözləri işlədib bilik satmaq isə, bu ayrı bir məsələdir. Yoxsa camaatın mənfəəti də mülahizə olunursa, gərək o camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub, bundan bir hissə götürsün.Gərək yaddan çıxmasın ki, Azərbaycanda neçə milyon adam var və onların çoxu geridə qalıblar. Bu səbdən də gün-gündən əsir olub, əcnəbilərin ayağının altına düşürlər. Torpaqları, əkin yerləri əllərindən çıxır, ticarət gedir, sənətdən xəbərləri yox, milliyyət və tərəqqi nə olduğunu bilmirlər... Bu camaatı qaranlıqdan çıxartmağa ən əvvəl dil lazımdır ki, deyəsən: “Ay qardaş, uşaqlarını məktəbə qoy, əkin yerlərini satma, gözü açıq ol...”. Bunları hansı dildə danışdırmalı ki, başa düşsün? Əlbəttə, camaatın öz dili ilə, Azərbaycan türkcəsində. Osmanlı dilini bunlar bilməzlər.Belə olan surətdə qəzet və jurnallarımızı osmanlı dili ilə doldurmaq camaata yol göstərmək olmayıb, onu yoldan çıxartmaq deməkdir. “Necə” sözü əvəzində “nasıl”, “arvad” əvəzində “qadın”, “ata” yerinə “baba” və ya “pədər” yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirməkdən savayı bir şeyə yaramır.Yaxşı olardı yazıçılarımız ata-baba dilimizə qayıda idilər. Onda mətbuatımız bir ovuc savadlının malı olmayıb, ümumin, yəni az savadlıların və heç savadı olmayanların da mənfəətinə qulluq edərdi” (5, s.338).

Burada o, Osmanlı türkcəsinin Azərbaycan xalqının ədəbi dilinin olmasının əleyhinə çıxsa da, ümumilikdə Azərbaycan və Türkiyə xalqlarının eyni dilə, soykökə, mədəniyyətə və s. sahib olmalarını da dəfələrlə ifadə etmişdir. Sadəcə olaraq, Yusif Vəzir də hesab edirdi ki,

Osmanlı türkcəsinin İstanbul şivəsini anlamaq Azərbaycan türkləri üçün çox çətindir. Bu baxımdan o, ən yaxşı variant kimi xalqın anladığı bir dildə yazıb oxumağı uyğun görmüşdür.

Ümumiyyətlə, Yusif Vəzirin türkçülük görüşləri ilə bağlı milli kimlik, milli dil, milli mədəniyyət, milli birlik və digər məsələlərə baxışı doğru və dəqiq olmuşdur. Hər halda, o, Şuşada, Aşqabadda, Daşkənddə, Ağməsciddə, Ürgəncdə, İstanbulda, Bakıda və digər Türk şəhərlərində yaşayan bir ziyalımız olaraq ümumtürk problemlərini dərindən anlamışdır. Bu baxımdan Yusif Vəzirin türkçülük məsələsini dərindən anlamaqla yanaşı, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və digər aydınlarımız kimi müstəqil Türk dövlətlərinin yaranmasından yana olması doğru bir seçim olmuşdur. Başqa sözlə, Yusif Vəzir bir tərəfdən müstəqil Türk dövlətlərini və onların özlərinə məxsus dəyərlərini qəbul etməklə yanaşı, ümum Türk birliyinə də isti yanaşmışdır.

**Yusif Vəzirin müstəqil Azərbaycan Türk dövlətçiliyi ilə bağlı görüşləri**

Yusif Vəzir Azərbaycan türklərinin, Azərbaycan xalqının müəyyən bir fasilədən sonra yenidən müstəqil dövlət yaratmasının səbəblərini də göstərmişdir. Onun fikrincə, böyük bir ərazidə yaşayan, dili bütün yad tayfalar üçün belə ortaq dilə çevrilən, eyni zamanda ədəbiyyatı, musiqisi, operası, teatrı olan bir camaat , yəni Azərbaycan xalqı da “millət” adını daşımağa haqlıdır (5, s.349). O bildirirdi ki, Azərbaycanın dövlət dili də Azərbaycan Türk dili olmalıdır. Çünki Azərbaycanın əhalisinin çoxu türkdür (5, s.229). Ümumilikdə, Çəmənzəminli milli-demokratik cərəyanın tərəfdarı kimi özünün mürşidi hesab etdiyi Azərbaycan Cümhuriyyətinin qurucusu, dövlət başçısı, mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin milli istiqlal yolunu tutmuş, onun milli dövlətçilik ideyasını dəstəkləmişdir. O, 1917-ci ilin noyabrında Kiyevdə olarkən qələmə aldığı “Azərbaycan muxtariyyəti” məqaləsində Azərbaycan türklərinə müraciət edərək yazırdı: “Əsrlərlə qılınc zərbəsi ilə istila olunub, millətlərin qan və göz yaşları ilə bir-birinə bitişdirilən torpaqlar başsızlıq sayəsində məhv olub gedir. Şəddadın zülmü ilə abad olunmuş imarəti uçur, dağılır. Böyük ölkə bir-birinə dəyir: Rusiyanın qiyaməti qopur. Geniş bir dövləti mərkəz bir orta idarəyə qadir deyil. Hökumətə gündə bir adam daxil olub, biri çıxır. Sabit idarə yox, nizam yox, qayda yox, əmin-amanlıq yox. Güclü gücsüzü döyür, əzir və təhqir eləyir; abrı və namusu ara yerdə gedir. Başsızlıq gün-gündən ölkəni ağzına alır; nahaq qanlar tökülür, abadanlıqlar talan olur. Bu hal getdikcə şiddət eləyir və eləyəcək, aləm viran olur və olacaq. Rusiya hökumətindən cəmi millətlər ümidini çəkib öz başını öz ətəginə bükməyə başlayır. Rusiya millətləri hərə öz cəmiyyət və şuraları ilə idarə olunmağa üz qoyur, qoşun toplayırlar. Hər millət öz fərdini axtarıb tapır; əl-ələ verib camaatın halına qalır. Çünki milli himmətdən savayı özgəsi milləti bu dəhşətli zamanda müdafiə eliyə bilməz!” (10, s.23).

Y.V.Çəmənzəminliyə görə, Qafqazda sayca üstün, mal-dövlətcə varlı olan, əlahiddə bir millət təşkil edən Azərbaycan türklərinin indiyə qədər ciddi bir formada nə bir mərkəzi şurasının, nə də milli bir idarəsinin olmaması qəbuledilməzdir. O, yazırdı: “Ey nəcibTürk milləti, ayıl! Bir rəşadətli balalarını balalarını yad et!Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalandığın kifayət edər. Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır. Ədəmi mərkəziyyət binası qurulur. Ölkə federasion üsulu ilə idarə olunmaq istəyir. İndiyə kimi Peterburq hər millət üçün qanun yapıb, əmrlər veriyordu, imdi isə qanunları millətlərin milli məclisləri yazacaq. Hərənin öz malı, öz dövləti, öz səadəti özünə məhvəl olacaq” (10, 2.23-24).

Çəmənzəminli marksizm-leninizmin Azərbaycandakı nümayəndələrinə, yəni yerli bolşeviklərə üz tutaraq deyirdi ki, milli qüvvələrin istiqlal ideyasına qarşı çıxmasınlar: “Ey hümmətçilər! Ukraynanın cəmi firqələri ittifaq edib. Ukrayna muxtariyyətini yapdılar.

Muxtariyyət olmasa, ölkə başsızlıq bəlasından xilas olmasa, orada firqə həyatı da olmaz. Bəs əqidə davası eyləmək zamanı deyil. Mərkəziyyəti öldürüb, yerində ədəmi mərkəziyyət payidar edilməlidir. Milli idarə qoy çöl tərəfdən düzəlsin, sonra içini düzəltdikdə mübahisə edərik” (10, s.24).

Yusif Vəzir milli dövlətçiliyin yaranmasında “Müsavat”ın rolunu görür və gəncləri bu siyasi quruma yardım etməyə çağırırdı. O, yazırdı: “Ey cavanlarımız! Eyş-işrət zamanı deyil! Hər millətin cavanları millət üçün imarətlər yapırlar. Gecə-gündüz çalışırlar. Məgər siz onlardan əskiksiniz? Onlarda olan zor, qüvvə sizdə də var. Rəşadət və cürətdə siz onlardan da irəlidəsiniz. Böylə olduqda pəs sizin səsiniz niyə gəlmir? Niyə Azərbaycan türklərinin bayrağını uca tutmursunuz? Ey cavanlar! Cəmi millətlər sizin işə diqqətlə baxır. Sizdən qeyrət gözləyirlər. Pəs siz haradasınız? Ədəmi mərkəziyyət fikrinin başında toplaşın: “Müsavat” firqəsinə yazılın! Yatmışları oyadın. Onları federasion nuru ilə işıqlandırın! Durmaq zamanı deyil. Bir mərkəzə tabe Rusiya uçurum qarşısında durub, bizi də çəkib aparmaq istəyir. Məmləkəti bu haldan qurtarın; onun idarə ixtiyarının bir hissəsini Qafqaza gətirib öz əlinizə alın" (10, s.24-25).

O, daha sonra üzünü Azərbaycan Türk ziyalılarına tutaraq yazırdı ki, Qafqazın böyük və bərəkətli bir qismi Azərbaycan türklərinindir: “Burada torpağın və mülkün çoxu bizim, dövlət bizim, onda yaşayan millətin çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim... Pəs Allahın o gözəl nemətindən niyə üz döndərirsiniz? Cürət ediniz iş görünüz! “Müsavat” şöbələrini hər şəhər və kəndlərə yayınız! Durmaq zamanı deyil; bir az səbr eləsəniz, gözəl ölkəmiz fot (puç) olub əldən gedər!” (10, s.25).

Eyni zamanda, Yusif Vəzir yazırdı bəylər, xanlar, mülkədarlara da müraciət edərək deyirdi ki, Azərbaycan muxtariyyəti onları uçurub-dağıtmaq fikrində deyil. O, yazırdı: “Muxtariyyət uçurmaq üçün yaranmayıb, bəlkə yaratmaq və bina etmək üçün yaranıb. Muxtariyyət onun üçün düzəlir ki, dərəbəyilik zamanında millətin mal və canı sağ və salamat qalsın. Muxtariyyət onun üçündür ki, namusumuz ayaqlar altına düşməsin. Ey türklər! Qars-Ərdahan müsibətləri, Urmu, Qəsri-Şirin və qeyri yerlərin talanı sizə bunu öyrətdi ki, başsız və pərakəndə milləti hər yetən döyür, incidir və öldürür.Zəmanə böylə xarab zəmanədir ki, ağlamaqla, göz yaşlarına qulaq asan olmur. Zəmanə iş zəmanəsidir. Məgər neçə milyon türkün gücü yoxdur? Güc var. Ancaq dağınıq gücdür. Böylə güc faydalı olmaz. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik. Ədəmi mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, İrəvan, Batum və Qars vilayətlərindəki türklər mal və namusunu mühafizə eləsin. Həm hal-hazırda, həm gələcəkdə asudə və səadətli yaşamağını təmin eləsin” (10, 25-26).

Yusif Vəzirə görə, Azərbaycan türkləri, bir millətdən ibarət olub, geniş bir torpağa malik olduğu üçün muxtariyyət binası qurmaq istəyir. O, yazırdı: “Ölkəmizin sərhədi Dərbənd şəhərindən tutmuş Osmanlı məmləkətinə qədər və Batumdan tutmuş Xəzər (Kaspi) dənizinin qiblə tərflərinədəkdir. Paytaxtımız Bakı şəhəri olacaq. Çünki bu şəhər bizə həmişə yol göstərib və bizə kömək əli uzadıb. Bakı şəhərində millət məclisi qurulacaq və bu məclisə Azərbaycanın hər bir guşəsindən camaat vəkilləri göndəriləcək. Vəkillər o məclisdə camaatın dərdlərini və diləklərini bildirəcək və ona görə əlaclar ediləcək. Millət məclisi Azərbaycanımız üçün qanunlar yazacaq, biz də ona əməl edəcəyik. Millət məclisinin buyruqlarını yerinə yetirmək üçün milli hökumətimiz olacaq. Millətə lazım olan tədbirləri millət vəkilləri tökəcəklər və əmələ gətirmək üçün milli hökumətə veriləcək. Milli hökumətimiz bizim malımızı, canımızı, namusumuzu hifz eləmək üçün var qüvvəsilə çalışacaq” (10, s.28).

Yusif Vəzirə görə, bir millətin varlığı üçün milli marş, milli nəğmənin olması çox vacibdir. Bu baxımdan o, hesab edirdi ki, milli nəğmə dəzəruri məsələlər cərgəsinə gələ

bilər. O, yazırdı: “Bunu bizim köhnə fəallarımız da beləcə düşünmüşdülər. Zərdablı Həsən bəy “Milli nəğmələr” məcmuəsini əmələ gətirmişdi. Lakin ümurət qazanan bir şərqi imdiyədək ortalığa çıxmadı. Şərqisiz də bizim siyası coşğunluğumuz və milliliyimiz ortalığa çıxmır. Hər bir millətin özünəməxsus bir milli nəğməsi var. O nəğmə oxunduqda millət fərdlərinin ruhu ucalır. Mübarizə edib öz xalqını mühafizə etmək xahişi artır. Bizimsə bu nəğməmiz yoxdur. Odur ki, milli sərxoşluğumuz və nəşəmiz də yoxdur. Düşməni yıxmaq üçün də milli sərxoşluq lazımdır.Bolqarlar “Şumey murpeçə” nəğmələrini oxuduqda intiqam hissi ürəyi dəlir. “İşşənəvimala Ukrayna” şərqisi adamda elə qüdrətli birlik doğduru ki, doğrudan da Ukraynanın həmişə diri qalıb səadətdə yaşamağına iman edirsən...

Bizim hələ milli nəğməmiz yoxdur. Biçarə cavanlarımız milli hiss coşğunluğunda bilmirlər nə oxusunlar. Kiyevdə inqilabın əvvəl günləri təntənəli nümayişlər yapılanda tatarlar “..sübhanallah” oxuyurmuşlar. Bizim studentlər isə nəğməsizlikdən nümayişi sükut içində keçiriblər.Bizə milli şərqi lazımdır. Bu da bu saatın məsələsidir. Milli şərqi bizim yatmış hisslərimizi oyadar. Bu şərtlə ki, məzmunu və havası ayıq olsun, oxunduqda “Segah” kimi ruhumuzu boaşaltmasın. Milli tərəqqi əmələ gətirmək üçün şairlərimiz və musiqişünasımız Üzeyir bəy Hacıbəyov cənabları çalışmalıdırlar” (10, s.21).

O, Azərbaycan Cümhiriyyətinin müstəqilliyi dövründə qələmə aldığı “Xarici siyasətimiz” məqaləsində yazırdı ki, bugünkü Azərbaycan ən sağlam vücuda malikdir. O yazırdı ki, burada tam əksəriyyəti təşkil edən Azərbaycan türküdür: “Bu millətin özünəməxus mədəniyyəti var. Mədəniyyətimiz o qədər qüvvətlidir ki, buzdən başqa qonşularımızı təsir altında saxlayıb və saxlamaqdadır. Dilimiz Qafqazda, Xəzər arxasında və Şiçali İranda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri, ermənilər, bir çox gürcülər və rus mühacirləri danışırlar; musiqimizdən və teatromuzdan qonşularımız da faydalanırlar. Milli operamız vətəndən dışarılarda da şıhrət tapmağa başladı... Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlildir. Indiyə kibi biz məhkum idik, lakin mədəniyyətimiz hakim idi. Yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırd. Bundan sonra ehya olunmuş istiqlaliyyətimiz sayəsində mədəniyyətimiz geniş meydan alacaqdır. Böyük Türk irqinə mənsub olduğumuz üçün Türk idarəsinin ədalətini saxladıq; bu gün vətənimizdəki xırda millətlər bizim ilə bərabər yaşamadadırlar, buların hüquqları heç bir qanunla təhdid olunmuyub və olunmayacaqdır. Hökumətimiz ədalət hökmranlığını daimi surtədə təmin etməyə çalışmalıdır” (10, s.45).

Yusif Vəzir “Xarici siyasətimiz” başlıqlı məqaləsinin “Əfkari-ümumiyyə” yarımbaşlığında yazırdı ki, dünyada ən böyük qüvvələrdən birisi əfkari-ümumiyyədir. Topdan, tüfəngdən zirehlilərdən də bu qüvvə böyükdür. Odur ki, hər kəs istər ki, bu qüvvəni əlində saxlasın. Istər məhkum, istər hakim. Hökumətlər rəsmi qəzetlər nəşr etməyi və ajansi-teleqraflar ilə əfkari-ümumiyyəni öz tərəfinə çəkmək istəyir. Məhkum millətlər bu yolda daha da çox çalışırlar. Əfkari-ümumiyyəni qazanmaq üçün məhkumların hərəkətləri bəzi vaxt qəribə hallar alır. Avropa şəhərlərindən birində bir erməninin bir cocuğa güllə atdığını qəzetdə oxumuşdum. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: “Bu cinayət ilə erməni cocuqlarının halından sizi xəbərdar eləyirəm, onları osmanlıda qırırlar”. İştə əfkari-ümumiyyə cəlbi üçün qəribə bir hərəkət, lakin bu, adətdənkənar bir işdir. Amma bunun ilə də istifadə edirlər” (10, s.51).

Eyni zamanda, o, bu məqaləsində Qacarlar dövləti, Ermənistan və Gürcüstanla Azərbaycan Cümhuriyyətinin münasibətlərindən bəhs etmişdir. Yusif Vəzir yazırdı ki, Qacarlar dövlətinin rəhbərliyinin Azərbaycan Cümhuriyyətinin varlığına narahatçılıqla yanaşmasının əsası yoxdur. Çünki Azərbaycan dövlətinin hədəfində Təbriz və ətrafını özündə birləşdirmək deyil, mövcud sərhədləri çərçivəsində yaşamaqdır. O, yazırdı:

“Dövlətimiz Azərbaycan adlandığı üçün sui-təfhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamaışıq və olmayacağıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır” (10, s.56).

Yusif Vəzir hesab edirdi ki, Gürcüstan ilə dostluğumuz isə ən təbii bir haldır. O, yazırdı: “Şimalda rus qorxusu və cənubda ola biləcək intriqalar gürcülər ilə azərbaycanlıları kip dostluğa məcbur edir. İki müstəqil dövlət üçün də hürriyyətlərinə təcavüz edən qüvvələrə qarşı bir hazırlıq lazımdır. Bu dövlətlər hücum üçün deyil, müdafiə məqsədilə birləşdilər və əqd yapdılar. Bu əqdin sabit qalacağına əminik. İki dövlət arasında olan dostluğun yalnız faydaya bağlı olduğunu söyləmişdik. Gürcüstan-Azərbaycan dostluğunun iki tərəf üçün də böyük faydası var. Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda Gürcüstan üçün bir qorxu baş versə, axırda xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirərsə, o biri də itirmək məcburiyyətindəbulunar. Qafqazın dağlarını Qara dəniz iləXəzər dənizi arasında mütəfiqqə müdafiə etməliyik. Açıq dənizə yolumuz olmadığı üçün ölkəmizin mal ixrac və idxalını Gürcüstan təriqi ilə edəcəyik. Dost bir ölkə bu yolda bizə bizə maneələr təşkil etməyəcək və ya ağır şərtlər qoymayacaq” (10, s.58).

Ermənistanla münasibətlərə gəlincə, o yazırdı ki, ermənilər uydurma “Böyük Ermənistan” iddiasından əl çəkməlidir. Yusif Vəzirə görə, ermənilər bu iddiasından əl çəkərlərsə o zaman Azərbaycanla normal münasibətlərin qurulması da mümkün olacaqdır. Y.Vəzir yazırdı: “Bizim etiqadımız bunadır ki, Qafqazda yaşayan üç böyük millətin faydası yalnız qarşı anlaşmaya bağlıdır. Köhnə ədavəti unutmalıyıq. Siyasət kin və intiqam bilməz. Bugünkü gün həmsərhəd Ermınistan ilə Azərbaycanın faydası nələr tələb edirsə, onu əmələ gətirməyə çalışmalıyıq. Erməni ilə Azərbaycan müsəlmanının təbiətində bir çox ümumi nöqtələr var. Ermənilər bizim dil və adətləri gözəlcəsinə bilirlər, bizim mədəniyyətimizi təqdir edirlər; məsəl, musiqi və teatromuzdan həzz alırlar. Söz arasında “türkasala” deyə bizim məsəslələri işlətməyə alışmışlar. Çox vəqt türkcə danışırlar... Bunlar bunu göstərir ki, iki millət arasında sıxı bir rabitə var. Dostluq ilə yaşamaq üçün böyük bir zəmin mövcuddur. Lakin siyasətin əyri yol ilə getməsi iki millətin dostluğunu və asayişini pozur. Erməni rəhbərləri bizə əl uzatmalıdırlar, kin-kidurəti buraxıb doğru yola gəlməlidirlər. Və əmin olmalıdırlar ki, biz erməni dərd və istəyini avroplaılardan tez başa düşürük” (10, s.57-58).

Beləliklə, Yusif Vəzirin Yusif Vəzirin müstəqil Azərbaycan Türk dövlətçiliyi ilə bağlı görüşləri türkçülük çərçivəsindən kənara çıxmamışdır. Belə ki, o, müstəqil Türk dövlətlərinin olması və onların bərabərhüquqlu şəkildə əməkdaşlıq etməsinin tərəfdarı olmuşdur. Ən əsası odur ki, Çəmənzəminli müstəqil bir Türk dövləti kimi Azərbaycan Cümhuriyyətinin həm daxili, həm də xarici siyasəti ilə bağlı məqalələr yazmış, bununla bağlı fikirlərini təhlil etməyə çalışmışdır. Hər halda Yusif Vəzirin Cümhuriyyətin daxili və xarici siyasəti ilə bağlı gəldiyi nəticələr, mülahizələr olduqca önəmli olub, bu gün də aktuallığını qoruyub saxlamaqdadır.

**Y.V.Çəmənzəminlinin islamçılıq ya da dini görüşləri**

Y.V.Çəmənzəminli hesab edirdi ki, Azərbaycan Türk mütəfəkkirləri arasında din probleminə münasibətdə Türk ictimai fikir tarixində yenilikçi ruh M.Ş.Vazeh, Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, M.Ə.Sabir və başqaları ilə başlamışdır. Belə ki, bu mütəfəkkirlər ilk dəfə, dini xurafat və mövhumata, xüsusilə ikiüzlü ruhanilərə qarşı daha kəskin tənqidi mövqe tutmuşlar. Başqa sözlə, XIX əsrdən başlayaraq Azərbaycan Türk mütəfəkkirləri dini sxolastikadan, ilahiyyatçı düşüncə tərzindən müəyyən qədər uzaqlaşa-

raq dünyəviliyi müdafiə etmişlər. Çəmənzəminli yazırdı ki, M.F.Axundzadəni, Q.Zakiri və başqalarını məşğul edən millətə nifaq salan mollanümalar, xalqı cəhlilə qırıb öldürən hakimlər, şərarəti özünə sənət edən xainlər, oğrular, əyrilər olmuşdur. Çəmənzəminliyə görə, axundzadələr, zakirlərdən sonra dinə münasibətdə daha obyektiv mövqe tutan, dini xurafat və mövhumatı açıb göstərənlərdən biri milli şairimiz Sabir olmuşdur. Çəmənzəminli yazırdı: “Sabir riyakar zahidlərilə daima düşmən idi. Millətin qəflətdə yaşamasını onlara istinad edirdi. Zahidlər də Sabiri təfkir etməkdən çəkinmirdilər” (5, s.142).

Onun fikrincə, müsəlmanla Allaha arasındakı münasibətə qarışan, möminləri İslamın əsil mahiyyətindən uzaqlaşdıran riyakar ruhanilər elə şərait yaratmışdılar ki, heç kəs cəsarət edib onların doğru olmayan sözlərinə qarşı fərqli, əks söz də deyə bilmirlər. Çəmənzəminli “Qulluq və əsrilik” (1914, Aşqabad) adlı məqaləsində yazırdı: “Bir müsəlman cəmiyyətinin məclislərinə gedərdim. Otağın yuxarı tərəfində həmşə iki molla oturardı və onlardan aşağı sağ və sol divarların qabağındakı döşəkcələrin üstündə cəmiyyətin qeyri-üzvləri əyləşərdilər. Bir məsələ müzakirəyə qoyulduqda ən əvvəl, əlbəttə, molların rəyi sual olunardı. Bunların hərəsi öz rəyini bildirərdi. Qeyri üzvlərə gəldikdə biri öz fikrini bəyan etməyə cürət etmirdi” (5, s.340).

“Bunun səbəbi nədir ki, yazıq üzvlər fikirsiz, şəxsi rəysiz, cəsarətsiz qul halına gəliblər?”- deyə sual edən Çəmənzəminli özü buna belə cavab verirdi ki, islamın mahiyyətini dərindən bilməməyimiz, eləcə də “böyük dura-dura kiçik danışmaz” kimi ev tərbiyəmiz biz türkləri bu hala gətirib çıxarmışdır. Onun fikrincə, milli-dini adət-ənənələrimizdən uzaqlaşmağımızın nəticəsidir ki, indi sözün həqiqi mənasında müdriklər deyil, hansısa təsadüfi “mollalar” və “ağsaqqallar” məclislər də baş tərəfdə otururlar. Bu baxımdan o, sözünün doğruluğunu isbat etmək üçün yazırdı ki, bir müsəlman məhəlləsinə gedin, oturun otağın bir guşəsində qapıdan girənə diqqət yetirin: “Molla içəri girən kimi gedəcək yuxarı başa. O ki qaldı qeyri adamlara, bunlar otağa daxil olduqda, bir az duruxacaqlar. Bilirsiniz, duruxanda nə fikir eləyirlər? Özlərinə yer axtarırlar. Məclisin yuxarı başı (mollanın ətrafı) həmişə boş olar, lakin oraya getməyə cürət etməzlər: orada “böyük” oturar” (5, s.340).

Çəmənzəminli hesab edirdi ki, müsəlmanlar dünyəvi elmləri öyrənmədikləri, nadan qaldıqları müddətcə ruhanilər və despotik şahların əllərində oyuncaq olacaqlar. Onun fikrincə, bundan qurtumaq üçün müsəlmanlar, o cümlədən Azərbaycan türkləri elm və mədəniyyət arxasınca getməlidirər. O, yazırdı: “Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxarmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixlərini oxuyun. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir” (5, s.347).

O, ümumilikdə dində islahatın aparılması fikrini qəbul etmirdi. Çəmənzəminli yazırdı: “Bəzi mütəfəkkirlərimizin “müsəlman Lüteri” gözləməsi də yaxşı fikir gərək olmasın. Özündən müştəbeh olmuş bir divanə çıxıb yeni bir məzhəb icad etməsindən başqa Lüter məsələsi ayrı işə müvafiq ola bilməz. Mühüm bir Lüter axtarıb ona tabe xəyalında olunca, yaxşı deyilmi hər bir dolaşıq dini və milli məsələlərimizi zəmanəyə və ağıla müvafiq özümüz həll edək?” (5, s.348).

O, yazırdı: “Ey dini firqələr! İslamiyyəti hər şeydən qabaq tutursunuz. Bizim dediyimiz sizin əqidəyə zidd deyil. Əlimizdə milli idarə olsa, din şərafəti də artar. Köhnə idarə tərəfindən dinimiz hər an, hər dəqiqə təhqir olunurdu. Yeni idarə üçün çalışılmalı ki, tahı bir də o qədim vaxtlat geri qayıtmasın” (10, s.24). Onun mülahizələrindən belə anlaşılırdı ki, ümumiyyətlə tamamilə dindən imtina edilməsə də, ancaq dini ictimai-siyasi həyatdan uzaqlaşdırıb məscidlərdən kənara çıxmasına yol verilməməlidir.

Bu prizmadan Azərbaycan Cümhuriyyəti dövründə Çəmənzəminli yazırdı ki, Türk-

Müsəlman aləmində Azərbaycan xalqı milli və dini kimliyini dövlət səviyyəsində müəyyənləşdirmiş, ölkənin idarə olunmasında şəriətə deyil, dünyəvi qanunlara, yəni sekulyar dövlət quruluşuna üstünlük vermişlər: “Burada Rusiya və Avropada məşhur olan qanun məhkəməsi daha da ədalətli şəkildə qoyuldu. Millətlər, cinslər və siniflər bərabərliyi də felən tanındı” (5, s.256). Bir sözlə, Azərbaycan Cümhuriyyətinin dinə münasibəti dünyəvi modellə üst-üstə düşmüşdür.

Ümumilikdə, Çəmənzəminlinin dinə münasibəti ondan ibarət idi ki, bu məsələdə etiqad azadlığı olmalıdır. Yəni heç bir fərd inancna görə hər hansı təzyiqə və zorakılığa məruz qalmamalı, ölkədə dini dözümlülülk hökm sürməlidir. O, yazırdı: “Çünki din insan ilə Allahın əlaqəsinə dair bir şeydir. Din müqəddəs bir yoldur ki, insanın gizli sirlərini, dua və diləklərini Allahın hüzuruna aparır. Bu yolu hərə özünə bir növ təsəvvür edir. Din bir aləmdir ki, oraya dünya qanunlarının qarışmağı lazımsızdır. Allah ilə insanın arasına girmək  insanın azadlığına xətər yetirir” (5, s.222).

Deməli, Çəmənzəminli ictimai-siyasi görüşlərində əsasən türkçülüyü və müasirliyi müdafiə etmiş, milli dövlət tərəfdarı olmuşdur. Xüsusilə, o, Sovet Azərbaycanında yaşayana qədər türkçülük və yeniləşmə məsələsində dəyişilməz mövqe sərgiləmiş, islamçılığa isə bir qədər fərqli yanaşmışdır.

**Nəticə**

Ümumiyyətlə, Y.V.Çəmənzəminlinin fəlsəfi və ictimai-siyasi görüşlərində bəzi hallarda ziddiyyətlər müşahidə olunur. Buna əsas səbəb də, digər mütəfəkkirlərimiz kimi, onun ən azı üç fərqli quruluşda yaşayıb yaratması olmuşdur. Bu baxımdan deyə bilərik ki, onun Çar Rusiyası və Azərbaycan Cümhuriyyəti dövründə ictimai-siyasi və fəlsəfi baxışlarında türkçülük və yeniləşmə ideyaları ön planda olmuş, islamçılıq məsələsində isə loyal mövqedən yanaşmışdır. Ancaq Cümhuriyyətin süqutundan sonra bir müddət Avropada yaşayan və daha sonra zorla sovetləşdirilmiş Quzey Azərbaycana dönən Çəmənzəminli islamçılığa münasibətdə daha radikal mövqe tutmaqla yanaşı, “azəriçilik” nəzəriyyəsini də təbliğ etmişdir.

Qeyd edək ki, onun Sovet Azərbaycanı dövründə təbliğ etdiyi “azəriçilik” nəzəriyyəsi türklüyə əsaslansa da müəyyən qədər qüsurlu olmuşdur. Belə ki, Azərbaycan dövlətinin adından qaynaqlanan azəriçilik nəzəriyyəsinə əsasən antik dövrdə mövcud olmuş mağların təlimini zərdüştlüklə əlaqələndirmiş və qədim Azərbaycan xalqının dini-fəlsəfi təliminin də atəşpərəstlik olduğuna inanmışdır. Doğrudur, o bu zaman zərdüştlüyün farslara aid olmadığını, ancaq Midiyanın süqutundan sonra farslar tərəfindən təhrif olunduğunu iddia etmişdir. Bu baxımdan onun qədim dövrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini araşdırlmağa yönəldilmiş tədqiqatlarında muğlar və ona aid etdiyi zərdüştlük mühüm yer tutmuşdur.

Bütövlükdə, bəzi yanlışıqlara baxmayaraq Y.V.Çəmənzəminlinin Türk dünyagörüşünün, Türk fəlsəfəsinin, türk mədəniyyətinin yenidən dirçəlişində xeyli payı olmuşdur. O, Türkçülük və Azərbaycanın milli istiqlalı məsələsində səmimi olmuş, bu yolda uzun müddət mücadilə vermişdir. Doğrudur, Sovet Rusiyasının işğalı alıtında olan Quzey Azərbaycana döndükdən sonra bu məsələlərdə müəyyən korrektələr etmək məcburiyyətində qalmışdır. Ancaq Yusif Vəzir hər nə qədər türkçülük və Azərbaycın milli istiqlalı məsələsində müəyyən qədər fikirlərində dəyişikliklər etmək məcburiyyətində qalsa da, Sovet Rusiyasının repressiyasından qurtula bilməmişdir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Yusif Vəzir Çəmənzəminli: biblioqrafiya /tərt. ed.: M.Vəliyeva, L.Şirinova, G.Misirova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2017
2. Məmmədov Kamran. Yusif Vəzir Çəmənzəminli (həyatı və yaradıcılıq yolu). Bakı, Elm, 1981
3. Vəzirov Orxan. Atam Yusif Vəzir Çəmənzəminli haqqında. Bakı, Azərnəşr, 1997
4. Bünyadov Ziya. Qırmızı terror. Bakı, Azərnəşr, 1993
5. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç clddə. III cild. Bakı, AVRASİYA-PRESS, 2005
6. Ələkbərli Faiq. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, Xan nəşriyyatı, 2017
7. Abid Əmin. Azərbaycan türklərinin ədəbiyyatı tarixi. Bakı, Elm və təhsil, 2016
8. Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. II cild. Bakı, AVRASİYA-PRESS, 2005
9. Cəfərov Nazim. Milli-ictimai fikir tariximizdən (1914 – fevral, 1917). Bakı, Azərnəşr, 1993
10. Çəmənzəminli Yusif Vəzir. Müstəqilliyimizi istəyiriksə... Bakı, Gənclik, 1994
11. Çəmənzəminli Y.V. Romanları. Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1968
12. İbrahimli Əli. Yusif Vəzir Çəmənzəminli və milli məsələ. Bakı, “Qartal”, 2002


**Фаиг Алекперли**

## ФИЛОСОФСКИЕ-ИСТОРИЧЕСКИЕ И ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВОПРОСЫ В МИРОВОЗЗРЕНИИ ЮСИФА ВАЗИРА ЧАМАНЗАМИНЛИ


### *РЕЗЮМЕ*

Противоречия в нравственных и социальных воззрениях Ю.В.Чеманзаминли – это как минимум три его отличия, связанные с проживанием и творчеством в этой структуре. Турецкий в своих общественно-политических и философских воззрениях в царской России и Азербайджанской республике на первом плане стояли идеи новаторства и модернизации, а в вопросе исламизма он с лояльной позиции подходил. Однако после обретения государством независимости Чаманзаминли, некоторое время проживший в Европе, был насильственно депортирован в Советский Союз, а господин Гузей вернулся в Азербайджан. Что касается более радикальной позиции по отношению к низовому исламу, то он также проповедовал «азербайджанскую культуру». Теория «азеризма», которую он проповедовал во времена Советского Азербайджана, основана на тюркизме, но даже в этом случае она в определенной степени ошибочна. Таким образом, азербайджанская политика, которая кипит от имени Азербайджанского государства, в основном заключается в том, что образование магов, существовавших в период тиков, было связано с зороастризмом и древним народом Азербайджана. Он считал, что его религиозно-философское образование было также верно. Правда, в то время зороастризм принадлежал не персам, а мидийской династии, после чего персы утверждали, что он испорчен. С этой точки зрения его исследования истории философии и общественной мысли народа Азербайджана в древности, Великих Моголов и приписываемого им зороастризма заняли важное место в направленных на это исследованиях. В целом возрождаются тюркское мировоззрение, турецкая философия, турецкая культура Ю.В.Чеманзаминли, в котором он внес немалый вклад в шину. Он был искренен в вопросе тюркизма и национальной независимости Азербайджана и долго боролся на этом пути.

***Цель*** – проанализировать философские и социальные взгляды Ю. В. Чамензаминли, в том числе идеи тюркизма и туранизма.

***Методология*** – сравнительный анализ, преемственность, передача идей, анализ.

***Результаты исследования*** – поиски согласования идей Ю.В.Чамензаминли с общественно-политическими и идеологическими требованиями современной эпохи.


***Ключевые слова:*** *исламизм, национальное просвещение, критика, европеизм, тюркизм, азербайджанство*

**Faiq Alekbarly**

# IN THE WORLDVIEW OF YUSIF VAZIR CHAMANZAMINLI PHILOSOPHICAL-HISTORICAL AND SOCIO-POLITICAL ISSUES

***ABSTRACT***

The contradictions in Y.V.Chemanzaminli's moral and social views are his at least three differences. It is related to living and creating in this structure. Turkish in his socio-political and philosophical views in Tsarist Russia and the Azerbaijan Republic. The ideas of innovation and modernization were in the foreground, and in the matter of Islamism, he was from a loyal position. has approached. However, after the independence of the state, Chamanzaminli, who lived in Europe for a while, was forcibly deported to the Soviet Union. Mr. Guzey returned to Azerbaijan. Regarding taking a more radical position in relation to grass-roots Islam, "He also preached" Azeri culture". The theory of "Azeriism" that he preached during the Soviet Azerbaijan era is based on Turkicism. Even so, it has been flawed to a certain extent. Thus, the Azeri policy, which boils on behalf of the state of Azerbaijan, is mainly The education of the Maghs, who existed in the Tic period, was connected with Zoroastrianism and the ancient people of Azerbaijan He believed that his religious-philosophical education was also true. It is true that at that time Zoroastrianism did not belong to the Persians, but to the Midian dynasty. After that, the Persians claimed that it was corrupted. From this point of view, his research of the history of philosophy and social thought of the people of Azerbaijan in ancient times. Mughals and the Zoroastrianism they attributed to him have occupied an important place in the studies directed to this. On the whole, Y.V.Çamen's Turkish worldview, Turkish philosophy, and Turkish culture are revived. He had a considerable share in the tire. He was sincere in the issue of Turkism and Azerbaijan's national independence, and fought for a long time on this path.

***Purpose*** – The goal is to analyze Y.V.Çamenzaminli's philosophical and social views, including the ideas of Turkism and Turanism.

***Methodology*** – comparative analysis, succession, transfer of ideas, analysis.

***The results of the research*** – searching for reconciliations between the ideas of Y.V.Çamenzaminli and the socio-political and ideological requirements of the contemporary era.

***Keywords:*** *Islamism, national enlightenment, criticism, Europeanism, Turkism, Azerbaijanism*

**UOT 101.1**

**Hörmət Cavadova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*fəl.ü.f.d.,dosent,*
*cavadova22@mail.ru*

# QAÇQIN VƏ MİQRANTLARIN UŞAQLARININ SOSİAL ADAPTASİYASI VƏ TƏHSİL PROBLEMLƏRİ

*Məqalədə müasir dövrün qlobal problemlərindən olan qaçqın və miqrantların uşaqlarının məskunlaşdığı ərazidə sosial adaptasiyası və təhsil problemləri araşdırılmışdır. Müxtəlif fiziki və psixoloji sınaqlar qaçqın və miqrantların uşaqlarının vəziyyətində öz əksini tapır və onların psixikasına və sonrakı inkişafına öz təsirini göstərir. Bir çox hallarda qaçqın və miqrantların uşaqları sosio-mədəni risklərə məruz qalırlar. Uşaqların məktəbdəki vəziyyəti çox vaxt onların özünütəsdiqinə xələl gətirir. Yeni məskunlaşdığı ölkənin dilini və mədəniyyətini bilməməsi onların özlərini yöndəmsiz hiss etmələrinə, məktəb fənlərinin öyrənilməsində digər şagirdlərdən geri qalmalarına səbəb olur. Travmatik, stres vəziyyətləri, məsələn, ölümün şahidi olmaq, fiziki işgəncələrə məruz qalmaq böyüklərlə yanaşı, uşaqların da səhhətinə pis təsir göstərir. Fövqəladə vəziyyətlərdə uşaqların keçirdiyi psixi stressin gücünü yumşaldan amil valideynlər və ailələridir. Uşaqların belə riskli vəziyyətlərdən çıxması üçün onlara sosial iş sahəsinin peşəkar mütəxəssisləri kömək etməlidirlər.*

***Məqsəd*** – Qaçqın və miqrantların uşaqlarının sosial adaptasiyası və onların təhsil problemlərinin araşdırılması və təhlil edilməsi

***Metodologiya*** – Qaçqın və miqrantların uşaqlarının sosial adaptasiyası və təhsil problemləri kimi kifayət qədər mürəkkəb problemin tədqiqində sistemli yanaşma, müqayisəli-tarixi təhlil və s. ümumelmi və xüsusi elmi metodlardan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – qaçqın və miqrant uşaqlarla iş aparan sosial iş sahəsinin mütəxəssisləri uşaqların üzləşdiyi problemlərin öyrənilməsi və onlara kömək olunması üçün effektiv proqram hazırlamalıdırlar.

***Açar sözlər:*** *qaçqın,miqrant,travmatik hadisə, sosial adaptasiya, peşəkar mütəxəssis*

## Giriş

Qaçqın – irqi, milli, dini mənsubiyyətinə, müəyyən sosial qrupa məxsus olmasına və yaxud siyasi baxışlarına görə təqib olunan və ya əsaslı olaraq təqib olunmaq təhlükəsi ilə üzləşməkdən çəkinərək digər ölkə ərazisində məskunlaşmış, vətənə qayıtmaq imkanı olmayan və yaxud bundan imtina edən şəxsdir (6, s.8).

Qaçqınların statusu haqqında əsas hüquqi sənəd – 1951-ci ilin Cenevrə Konvensiyası və 1967-ci ilin protokolu çıxış edir. BMT sistemində qaçqınların problemləri ilə məşğul olan orqan Qaçqınların işləri üzrə BMTnin Ali Komissarlıq İdarəsidir. Hərbi münaişələr nəticəsində qaçqın və məcburi köçkün olanlara Qırmızı Xaç Beynəlxalq komitəsi də yardım göstərir. 2001-ci ildən dünya ictimaiyyəti 20 iyunu qaçqınların Ümumdünya günü kimi qeyd edir **(9, s.153).**

Məcburi miqrasiyanın səbəbləri hərbi-siyasi, etnik və dini münaqişələr, təbii və texnogen fəlakətlər şəraitində insanların qorxusu olmuşdur.

**Etnik-siyasi münaqişələr və müharibələr şəraitində qaçqın və məcburi miqrasiyalar**

XX əsrin 80-cı illərinin sonlarında dünyada baş verən dəyişikliklər, sosializm sisteminin çökməsi keçmiş Sovet İttifaqında etnik-siyasi münaqişələrə səbəb oldu. Bir sıra ölkələrin ərazilərində etnik-seperativ ocaqlar yaranmağa başladı.

Etnik təmizləməyə, əraziləri işğala məruz qalan ölkələrdən biri də Azərbaycan olmuşdur. Keçən əsrin 90-cı illərində ölkəmizdə bir milyon iki yüz mindən çox qaçqın və məcburi köçkün olmuşdur. XX əsrin sonunda Azərbaycan adambaşına düşən məcburi köçkün sayına görə dünyada ən böyük didərgin yükünə sahib ölkələrdən biri olmuşdur. Sözsüz ki, ilk dövrlərdə Azərbaycan xalqı çətin dövrlərini yaşadı. Azərbaycanda qaçqın və məcburi köçkünlərin sosial, mənzil-məişət problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradıldı, bu istiqamətdə dövlət proqramı təsdiq edildi. Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi tədbirlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir və oxşar problemlə üzləşən ölkələr üçün nümunə göstərilir. Azərbaycan dövləti bir milyondan çox qaçqın və məcburi köçkününün bütün problemlərini özü həll etdi.

20-ci əsrin sonunda artıq dünyada 150 milyon insan öz ölkələrindən kənarda yaşayırdı, yəni, dünya əhalisinin 2,5%-i, yəni, 40 nəfərdən biri. 150 milyon miqrantının 10%-i və ya 15 milyonu qaçqındır(12).

21-ci əsrin iki onilliyində dünyada yaranan siyasi gərginlik ocaqlarının, müharibələrin, etnik münaqişələrin davam etməsinin nəticəsində məcburi miqrasiyanın (qaçqınlar, sığınacaq axtaranlar, köçkünlər və s.) artmasına və coğrafiyasının genişlənməsinə səbəb olmuşdur. Dünyada miqrasiya axınları qlobal xarakter almışdır. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatlarına görə, 2020-ci ilin ortalarında dünyada 280,6 milyon immiqrant var (IOM, 2021). 2020-ci ilin sonuna kimi 82,4 milyon insanın məcburi köçkün edildiyi təxmin edilir və onlardan təxminən 35 milyonu məktəb yaşlı uşaqlardır (18 yaşdan kiçik) (UNHRC, 2021). Bu uşaqların təhsilə çıxışı mühüm məsələdir. Çünki təhsilə çıxış immiqrantların öz həyatlarında fürsətlərdən istifadə etmə qabiliyyətinə, iqtisadi və vətəndaş iştirakına töhfə verən və bununla da onların iştirak proseslərinə təsir edən həyati əhəmiyyətə malikdir. Miqrasiya və təhsil vasitəsilə fərdlər bilik, bacarıq və səriştələri inkişaf etdirə və sosial və iqtisadi inkişafa töhfə verə bilərlər. Bunun üçün miqrasiya təcrübələri ixtisaslı təhsillə dəstəklənməlidir.

Hal-hazırda Ukrayna xalqı Rusiyanın təcavüzü nəticəsində ölkələrini tərk etmək məcburiyyıtində qalmışlar. Ukraynada son 12 ayda gedən müharibə nəticəsində azı 8006 dinc sakin həlak olub, 13287 nəfər isə yaralanıb. Bu statistikanı isə fevralın 21-də BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türk səsləndirib. Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) ekspertləri Rusiyanın Ukraynaya genişmiqyaslı işğalının başladığı 24 fevral 2022-ci il və 2023-cü il fevralın 15-i arasında mülki əhali arasında itkilər barədə məlumatları açıqlayıb. Müharibə qurbanlarının real sayı daha çox da ola bilər – hələlik bütün məlumatlar rəsmi təsdiqlənməyib deyə bu rəqəmlərlə kifayətlənirik. Məlumata görə, cinsiyyəti müəyyən edilə bilən qurbanların 61,1 faizi kişi, 39,9 faizi qadınlardır. Silahlı aksiyalar nəticəsində 487 uşaq həlak olub, 954 nəfəri isə yaralanıb. Və bu məlumatlar aysberqin yalnız görünən hissəsidir. Mülki əhalinin itkisi çoxdur – soyuq qış aylarında elektrik enerjisi və su çatışmazlığı səbəbindən 18 milyona yaxın insanın humanitar yardıma ciddi ehtiyacı var. Təxminən 14 milyon insan evlərini tərk etmək məcburiyyətində qalıb (11).

Müharibə bu və ya digər şəkildə əhalinin bütün qruplarına təsir edib. Bir çox məktəbli və tələbələr təhsil müəssisələrinə hücumlar səbəbindən təhsillərini davam etdirə

bilməyiblər. Yaşlılar və əlillər çox böyük çətinliklərlə üzləşiblər - bəziləri bomba sığınacaqlarına gedə bilməyiblər və ya uzun müddət zirzəmilərdə, sağlamlıqları üçün təhlükə yaradan şəraitdə qalmalı olublar (11).

**Qaçqın və miqrantların uşaqlarının psixoloji vziyyəti və təhsil problemləri**

Bu gün əhalinin silahlı münaqişələr zonasından öz yaşayış yerlərini tərk edərək dünyanın digər ərazilərinə miqrasiyası ilə əlaqədar olaraq övladlarının psixoloji yardıma ehtiyacı olan çoxlu sayda qaçqın və miqrantlar ordusu yaranmışdır. Qaçqın və miqrant uşaqların psixoloji vəziyyətində gələcəyə dair qeyri-müəyyənlik, bir çox real problemlər qarşısında çaşqınlıq, yaxınları üçün narahatlıq, məyusluq, əhval dəyişikliyi - təşviş, aqressivlik, depressiya, apatiya yaranır. Araşdırmalar göstərir ki, travmatik hadisələr uşaqların psixikasında dərin iz buraxır və uzun müddət yaddaşlarında qalır.Travmatik hadisələrə reaksiya uşaqların yaşından və inkişaf mərhələsindən asılıdır. Kiçik yaşlı məktəblilər stres situasiyalarını yaşadıqdan sonra daha tez qıcıqlanan olurlar. Belə hadisələrdən sonra uşaqların məktəbdəki davamiyyəti aşağı düşür, yeniyetmələrin reaksiyası isə böyük adamların reaksiyasına bənzəyir (2, s.27)

Təəssüflər olsun ki, qaçqın uşaqlar həmçinin, qida, su, tibbi ləvazimat çatışmazlığı səbəbindən ciddi məhrumiyyətlər yaşayırlar. Bütün bunlar orqanizmin fiziki tükənməsinə gətirib çıxarır. Nəticədə uşağın inkişafı ləngiyir, onun emosional potensialı da tükənir. Qaçqınların uşaqlarının sonrakı vəziyyəti, onların təhsili bir çox ölkələr xalqlar üçün səciyyəvi olan müasir dövrün qlobal problemlərindən biridir. Müxtəlif fiziki və psixoloji sınaqlar qaçqınların uşaqlarının vəziyyətində öz əksini tapır və onların psixikasına və sonrakı inkişafına öz təsirini göstərir. Bir çox hallarda qaçqınların uşaqları sosio-mədəni risklərə məruz qalırlar. Belə vəziyyətlərdə uşaqların normal inkişafı üçün onlara lazım olan sosial və psixoloji şəraitlər olmur. Bu və ya digər riskin güclənməsi psixi xəstəlik, davranışın pozulması, narkotik maddələrə alkoqola aludəçiliyə gətirib çıxara bilər. Uşaqların belə riskli vəziyyətlərdən çıxması üçün onlara sosial işçilər kömək etməlidirlər. Travmatik, stres vəziyyətləri, məsələn, ölümün şahidi olmaq, fiziki işgəncələrə məruz qalmaq böyüklərlə yanaşı uşaqların da səhhətinə pis təsir göstərir. Fövqəladə vəziyyətlərdə uşaqların keçirdiyi psixi stressin gücünü yumşaldan amil valideynlər və ailələridir. Məcburi köçkünlərin və qaşqınların problemlərini araşdıran tədqiqatçıların praktikası göstərir ki, stress vəziyyətində valideynləri ilə bir yerdə olan uşaqlar valideynlərdən ayrı qalan hərbi münaqişə regionlarında olan uşaqlarla müqayisədə ağır sınaqları daha rahat keçirirlər. Onlar özlərini bəzən qeyri-şüuru aparırlar, öz hərəkətlərinə cavabdeh olmurlar və gələcəklərinə bədbinliklə baxılar. Onları cəmiyyətdən təcrid olunmaq qorxusu narahat edir, psixoloji şok yaşayan bütün uşaqlar onun fəsadlarından əziyyət çəkilər. Fiziki və psixi pozuntularla yanaşı belə uşaqlarda dərketmə prosesinin və cəmiyyətdə davranışının pozulması müşahidə olunur. Qaçqın uşaqların məktəbdəki vəziyyəti çox vaxt onların özünütəsdiqinə xələl gətirir. Yeni məskunlaşdığı ölkənin dilini və mədəniyyətini bilməməsi onların özlərini yöndəmsiz hiss etmələrinə, məktəb fənlərinin öyrənilməsində digər şagirdlərdən geri qalmalarına səbəb olur. Qaçqın uşaqların məktəbdəki problemləri uşağın ailədən kənarda müsbət təcrübələr yaşamaq qabiliyyətini zəiflədə bilər.

Qaçqın və məcburi köçkünlərin statusunu müəyyən edən səciyyəvi cəhət “itki” kateqoriyasıdır. Valideynlərini itirən uşaqlarda nevroz, depressiya, fəallığın zəifliyi, əqli qabiliyyətlərin pisləşməsi müşatət olunur. Qaçqın uşaqların tibbi xidmətin, daimi yaşayış yerinin, qidanın çatışmazlığından əziyyət çəkirlər. Bunların hamısı uşaqlarda orqanizmin zəifliyinə, emosional potenisialın zəifliyinə gətirib çıxarır ( 9, s.169).

Tədqiqatçılar təsdiq edirlər ki, sabit ailənin mövcudluğu uşağa ən ağır psixoloji şok

vəziyyətində dəstək olur. Hər bir uşaqda yaşamağa davam etmək üçün, böhranlı vəziyyətlərdə sağ qalmaq üçün mühafizə amilləri var. Belə amillərə uşağın xasiyyəti, ətraf mühiti və ailəni aid etmək olar. Ailənin sosial statusu, həmrəylik səviyyəsi nə qədər yüksək olarsa uşaqlar da bir o qədər çətinliklərə qalib gələcəklər. Çox vaxt elə olur ki, ailə stress yaşadığına görə uşaqlarına lazımı dəstəyi verə bilmir. Belə vəziyyətlərdə uşaqlar çox zaman lap erkən yaşlarında özlərini böyük insan kimi aparmağa məcburdurlar. Əgər ailədə valideynlər uşaqlara qarşı zor tətbiq edirlərdə belə ailənin mühafizə potensialı xeyli zəifləyir. Belə vəziyyətlərdə uşaqlar bu boşluğu ətraf mühitlə, məktəbdə müxtəlif əlaqələrin qurulması ilə kompensasiya edirlər. Qaçqınların uşaqlarının məktəbdəki vəziyyəti onların özünü təsdiq etməsinə bəzən mənfi təsir göstərir. Belə uşaqların əvvəlki dəyərlərə bağlılığını qoruyub saxlamağa meyl onların məktəbdəki vəziyyətini və təhsilini davam etməsini gərginləşdirir. İnsanların yaşadığı məkanla əlaqələri itiriləndə onlar digər insanların və sosial institutların dəstəyindən məhrum olurlar. Nəticədə belə insanlarda və uşaqlarda qorxu hissi, əsəbilik, qorunmazlıq hissi yaranır(1,s.131)

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 26-cı maddəsində təsbit olunmuş təhsil hüququ insan ləyaqətinin qorunması üçün əsas vasitələrdən biridir(13). İnsan hüquqlarına, o cümlədən təhsil hüququna hörmətin vacibliyi danılmazdır, lakin bəzən təhsil hüququndan istifadə tam təhlükə altında olur. Bu vəziyyət tez-tez həm təqiblər və ya silahlı münaqişələr nəticəsində öz doğma yurdlarını tərk etmiş məcburi köçkünlərdə, həm də sosial və ya iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq ümidi ilə başqa ölkəyə köçməyi seçənlərdə rast gəlinir.

Təhsil, qaçqınlara ev sahibi ölkənin həyatında tam iştirak etmək üçün qapılar açа bilər. Sadə əməkçi miqrantlar və onların uşaqları üçün ev sahibi ölkədə təhsil almaq onlara yaşayacaqları cəmiyyət haqqında bilik verir, onların tam intellektual potensialını inkişaf etdirməyə kömək edir və sosial inteqrasiyanı təşviq edir. Belə mənfi halların, stresli vəziyyətin nəticələrinin aradan qaldırılması üçün, ünvanlı sosial- psixoloji yardım tələb olunur. Nəzərə alınmalıdır ki, qaçqın və miqrant uşaqlarda yaranan travmatik vəziyyət uzunmüddətli ola bilər.

Yuxarıda qeyd etdiyimiz halların aradan qaldırılmasın üçün ali məktəblərdə müvafiq sahə üzrə peşəkar mütəxəssislər hazırlanmalıdır ki, onlar yalnız hər bir qaçqın və miqrant uşağın sosial adaptasiya problemi ilə yox, həm də onlar üçün mümkün olduğu bir atmosferin təşkili, bərabər təhlükəsiz təhsil məkanında uşaqların normal fəaliyyətini təmin etmək imkanlarının yaradılması, hər kəsin maraqlarının qorunması, uğurlu sosial adaptasiyanın təmin edilməsi, uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsi, onların inkişafında sapmaların qarşısının alınmasını təmin təmin edə bilsin.

**Nəticə**

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olur ki, qaçqın və miqrant uşaqlarla iş aparan sosial iş sahəsinin mütəxəssisləri uşaqların üzləşdiyi problemlərin öyrənilməsi və onlara kömək olunması üçün effektiv proqram hazırlamalıdırlar. Bu baxımdan sosial iş mütəxxəssisləri aşağıdakıları bilməlidir:

1. Qaçqın və miqrant uşaqların təhsil mühitinə uyğunlaşmasının spesifikliyini nəzərə alaraq, onlara hərtərəfli sosial-psixoloji dəstək üçün və onun həyata keçirilməsini nəzərdə tutan kompleks proqram hazırlanması zəruridir.

2. Qaçqın və miqrant uşaqlarının adaptasiya prosesi bütövlükdə şəxsiyyətin inkişafı kontekstində yaş fərqi və fərdiliyi nəzərə alınmaqla həyata keçirilməlidir.

3. Qaçqın və miqrant ailəsindən olan uşaqlar üçün hər bir konkret halda təhsil müəssisələrində uyğunlaşmanı təşviq edən fərdi sosial-psixoloji dəstək proqramı işləyib

hazırlamaq lazımdır. Bu da uşağa inamlı davranmağı, özünə hörmət və özünüdərkə, öz bacarıqlarını inkişaf etdirməyə imkan verəcək və şəxsiyyətin pozitiv sosiallaşmasını təmin edəcək.

4. Hazırlanmış proqram adekvat olaraq qaçqın və miqrant ailəsindən olan uşaqların özünü qimətləndirməsini və iddia səviyyəsinin artıracaq, onların yerli əhali ilə qarşılıqlı tolerantlığının formalaşmasına, narahatlığın aradan qaldırılmasına, adekvat “mən” obrazın formalaşmasına töhvə verəcək.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Актуальные вопросы социальной поддержки детей и семей мигрантов : сб. науч. практ. ст. / ред. М. М. Эпштейн. СПб., 2009. 225 с.
2. Буслаева М.Е., Макарова В.А. Проблемы социальной адаптации детей беженцев и мигрантов в контексте профессиональной подготовки студентов. Педагогическое образование в России, 2016, №1
3. Акмалова А. А., Капицын В. М. Социальная работа с мигрантами и беженцами : учеб. пособие. М. : ИНФРА-М, 2011. 219 с.
4. Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin vəziyyəti, sosial təminatı və mövcud problemləri haqqında Məlumat.http//www.refugees-idpscommitee.qov
5. Göç, yerinden edilme ve eğitim: duvarlar yerine, köprüler inşa etmek.(2019)Küresel eğitim izleme raporu.
6. Ferah Özden, Ali Özdemir (2021)Mülteci öğrencilerin okula uyum süreçlerine yönelik gerçekleştirilen eğitsel etkinliklerin incelenmesi yüksek lisans tezi İstanbul.
7. Həsənov R.M. Sosial siyasət.Bakı-“Avropa” nəşriyyatı, 2016, 310 s.
8. Qaçqınların və məcburi köçkünlərin statusu haqqında Azərbaycan Respublikasının Qanunu.http//www.e-qanun.az/framework/7750
9. Məmmədova R.O.Sosial işə giriş,Bakı, “Ecoprinq”,2019,s.167
10. Rəcəbli, H.Azərbaycan respublikasının sosial müdafiə sistemi, Bakı,”MBM”,2012,408
11. https://www.yeniazerbaycan.com/Analitik_e81477_az.html
12. https://worldmigrationreport.iom.int/wmr-2022-interactive/
13. https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version-

**Хормат Джавадова**

### СОЦИАЛЬНАЯ АДАПТАЦИЯ И ОБРАЗОВАТЕЛЬНЫЕ ПРОБЛЕМЫ ДЕТЕЙ БЕЖЕНЦЕВ И МИГРАНТОВ

***РЕЗЮМЕ***

В большинстве случаев дети беженцев и мигрантов подвергаются социокультурным рискам. В таких случаях у детей отсутствуют социально-психологические условия, необходимые им для нормального развития. Обострение того или иного риска может привести к психическим заболеваниям, нарушениям поведения, злоупотреблению наркотиками и алкоголем. Травматические, стрессовые ситуации, такие как смерть или физическое насилие, могут повлиять на здоровье как взрослых, так и детей. Именно родители и семья снижают психическое напряжение детей в чрезвычайных ситуациях.

Эти дети иногда действуют неосознанно, не несут ответственности за свои действия и пессимистично смотрят в будущее. Их беспокоит страх изоляции от общества, от последствий которого страдают все дети, пережившие психологический шок. Помимо физических и психических расстройств, такие дети нарушают когнитивные процессы и поведение в обществе. Положение детей-беженцев в школе часто подрывает их уверенность в себе. Недостаток знаний о языке и культуре новой страны заставляет их чувствовать себя неловко

и отставать от других учеников в изучении школьных предметов. Проблемы детей-беженцев в школе могут подорвать способность ребенка получать положительный опыт вне семьи.

Образование может открыть беженцам возможность полноценного участия в жизни принимающей страны. Для обычных трудящихся-мигрантов и их детей обучение в принимающей стране знакомит их с обществом, в котором они будут жить, помогает им полностью раскрыть свой интеллектуальный потенциал и способствует социальной интеграции.

***Цель*** – Исследование и анализ проблем социальной адаптации и образования детей беженцев и мигрантов.

***Методология*** – системный подход, сравнительно-исторический анализ и др. При изучении такой достаточно сложной проблемы, как социальная адаптация и проблемы воспитания детей беженцев и переселенцев. использовались общие и специальные научные методы.

***Результаты исследования*** – специалисты по социальной работе, работающие с детьми беженцев и мигрантов, должны разработать эффективную программу изучения проблем, с которыми сталкиваются дети, и оказания им помощи.

***Ключевые слова:*** *культура, психическое напряжение, травматическое событие, социальная адаптация, профессиональный специалист*

**Hormat Javadova**

## SOCIAL ADAPTATION AND EDUCATIONAL PROBLEMS CHILDREN OF REFUGEES AND MIGRANTS

### *ABSTRACT*

In most cases, migrant children are exposed to socio-cultural risks. In such cases, children do not have the social and psychological conditions they need for normal development. Exacerbation of this or other risk can lead to mental illness, behavioral disorders, drug and alcohol abuse. Traumatic, stressful situations, such as witnessing death or physical abuse, can affect the health of both adults and children. It is parents and families who reduce the mental stress of children in emergency situations.

These children sometimes act unconsciously, are not responsible for their actions, and are pessimistic about the future. They are concerned about the fear of isolation from society and all children who experience psychological shock suffer from the consequences. Besides physical and mental disorders, such children impair cognitive processes and behaviors in society. The situation of refugee children at school often undermines their self-confidence. The lack of knowledge about the language and culture of the new country makes them feel awkward and lag behind other students in learning school subjects. Refugee children's problems at school can undermine a child's ability to have positive experiences outside the family.

Education can open the door for refugees to participate fully in the life of the host country. For ordinary migrant workers and their children, studying in a host country teaches them about the society in which they will live, helps them develop their full intellectual potential and promotes social integration.

***Purpose*** - Research and analysis of the problems of social adaptation and education of children of refugees and migrants.

***Methodology -*** a systematic approach, comparative historical analysis, etc. İn the study of such a rather complex problem as social adaptation and the problems of raising children of refugees and migrants used general and special scientific methods.

***Results of the research*** - social workers working with children of refugees and migrants should develop an effective program to study the problems faced by children and provide assistance to them.

***Keywords:*** *culture, mental stress, traumatic event, social adaptation, professional specialist*

**UOT 316**

**Məhsəti Cəfərova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*f.f.d., müəllim*
*E-mail: ceferovamehseti@inbox.ru*

# MÜSTƏQİL AZƏRBAYCANDA MƏDƏNİYYƏTLƏRİN MİLLİ ÖZÜNÜDƏRKİ SOSİAL-PSİXOLOJİ KONTEKSTDƏ

*Mədəniyyətdə milli-psixoloji xarakter xalqın milli şüuru, özünümühafizəsi, özünütəsdiqi, milli adət-ənənələri, milli psixologiyası, milli özünüdərki ilə sıx bağlıdır. Milli özünüdərk həm milli, həm də ümummilli şüurun fəaliyyətindən bu və ya digər dərəcədə bəhrələnir. Milli xarakterdə mədəniyyət ünsürləri xalqın tarixini və bu günə qədərki təcrübəsini əks etdirir.*

***Məqsəd*** – tədqiqat işinin məqsədi mədəniyyətlərin milli özünüdərkini sosial-psixoloji kontekstdə araşdırmaq,bununla bərabər milli maddi və mənəvi dəyərlərin milli məzmunu tamamilə qoruyub saxlaması istiqamətində ümumiləşdirmələr aparmaq və nəticələr əldə etmək.

***Metodologiya*** - mədəniyyətlər arasındakı yaradıcılıq münasibətlərinin və elmi-bədii yaradıcı əməkdaşlığın sosial-psixoloji istiqamətdə araşdırılması, tətbiqi formaları və tədqiq edilməsi.

***Tədqiqatın nəticələri*** – Mədəni inkişaf prosesində şəxsiyyətin milli və bəşər mədəniyyətinə bəxş etdiyi töhfələr mərhələlərlə daha dərindən araşdırılmış, sosial-psixoloji və bədii-yaradıcı baxımdan qiymətləndirilmişdir.

**Açar sözlər**: *elitar və kütləvi mədəniyyətlər, sosial-psixoloji mahiyyət, fəlsəfi-estetik məzmun, teatr fəaliyyəti,muzey quruculuğu, musiqi sənətkarlığı*

## Giriş

Mədəniyyətin əsas istiqamət sahələrindən biri olan kütləvi mədəniyyət XX əsrdən etibarən kütləvi informasiya vasitələrinin köməyi ilə inkişafını daha da sürətləndirməyə başlamışdır. Sözügedən dövrdə kütləvi şəkildə qəzetlər, jurnallar, digər təbliğat vasitələri – radio, televiziya, müxtəlif janrlarda çəkilmiş kinofilmlər, internet resursları, müxtəlif texniki vasitələrin inkişafı, telefondan istifadənin həddindən çox sürətli xarakter alması, ayrı-ayrı xalqların folklorunun, əsatir və nağıllarının, hətta adət-ənənələrinin kölgədə qalmasına səbəb olurdu **[161, s. 351].** Pozitiv mənada ayrı-ayrı xalqların kütləvilik müstəvisində bir-birinin tarix və mədəniyyətlərini daha yaxından, dəqiqliklə öyrənmələri, xalqlar arasında mədəni, iqtisadi, ideoloji, sosioloji və psixoloji əlaqələrin yaranması mənəvi yaxınlaşmalara gətirib çıxarır, nəticədə isə “bəşəri mədəniyyət” anlayışı formalaşırdı. Neqativ baxımdan isə müxtəlif xalqların adət-ənənələrinin, folklorunun, mərasimlərinin getdikcə yaddaşlardan silinməsi təhlükəsi ortaya çıxırdı.

Hazırda ölkəmizdə elitar və kütləvi mədəniyyətimizin milli özünüdərk mərhələsinin sürətli inkişaf dövrünü yaşadığı vaxtda bəstəkar, yazıçı, şair, rəssam, dramaturq, rejissor, aktyor, müğənni və digər mədəniyyət xadimlərinin bir qisminin nümunəsində bu məsələyə sosial-psixoloji kontekstdə aydınlıq gətirə bilərik. Belə ki, məsələn, bəstəkar Üzeyir Hacıbəyov tərəfindən bəstələnmiş musiqi əsərləri kütləviləşərək populyar olur, cəmiyyət tərəfindən qəbul olunur, yüksək qiymətləndirilir və illərlə yaşayır. Bu əsərlər psixoloji

dərinliyi və bədii-estetik təsirliliyi ilə milli musiqinin dünya musiqisinə inteqrasiyasını həyata keçirməklə dünyəvi xarakter alır, eyni zamanda dünya musiqisini və mədəniyyətini məhz kütləvilik vasitəsi ilə zənginləşdirir. Digər tərəfdən isə, Azərbaycan mədəniyyətinin dünya mədəniyyətindəki mövqeyinin sosial-psixoloji və fəlsəfi-estetik dəyərləndirilməsinə imkan yaradır. Beləliklə, Üzeyir Hacıbəyov yaradıcılığı vasitəsi ilə həm Azərbaycanda, həm də beynəlxalq aləmdə “kütləvilik estetikası” öz inkişaf xəttini tutur və formalaşır. Digər bəstəkarlardan Tofiq Quliyevin, Şəfiqə Axundovanın, yazıçı və şairlərdən Anarın, Bəxtiyar Vahabzadənin, Qabilin, rəssamlardan Lətif Kərimovun, Kazım Kazımzadənin, Mikayıl Abdullayevin və digər yüzlərlə heykəltəraş, dramaturq, rejissor, müğənni və sair yaradıcıların, elit təbəqə nümayəndələrinin tanınması, populyarlaşması zəminində Azərbaycan xalqının əsərlərinin kütləviləşməsi, bununla da fərdin yaradıcılığının həmin xalq tərəfindən kütləviləşməsi, sonuncunun isə dünyəviləşməsi baş verir. Nəticədə, yaradıcılıq prosesi fərddən dünyəviləşməyə qədərki yolu keçir və tarixə dönür **[18, s.73].**

**Mədəniyyət nümunələrinin tərənnüm istiqamətləri**

Kütləvi mədəniyyətin sosial-psixoloji və estetik təsir gücü əhatəliliyə malik olduğuna görə xalq kütlələrinin şüuruna müvafiq surətdə təsir göstərmək baxımından vacib əhəmiyyət kəsb edir və buna görə mühüm amil kimi özünü biruzə verir. Xalqların illər ərzində özlərinə məxsus yaradıcılıqları sayəsində əldə etdikləri həm elitar, həm də kütləvi mədəniyyət nümunələri əsasən milli məzmunu tərənnüm edir, əks etdirir. Dünya mədəniyyəti tərkibinə inteqrasiyalaşmış milli maddi və mənəvi dəyərlər milli məzmunu tamamilə qoruyub saxlamaqla bərabər, həm də dünya mədəniyyəti nümunəsi kimi ona xas olan xüsusiyyətləri özündə əks etdirir.

Beləliklə, apardığımız müqayisələrdən məlum olur ki, insanın elitar mədəniyyətdəki bədii-estetik yaradıcı mövqeyi, onun elit fərd kimi formalaşması üçün aşağıdakı məsələlərə əməl edilməsi vacibdir:

1. Mövcud təbii-psixoloji, yaradıcı imkanlardan və məlumatlardan, nümunələrdən, materiallardan istifadə etmək bacarığına malik olmaq;
2. Müxtəlif sosial baxışları, əqidələri, həyat tərzlərini müqayisə etməyi, ümumi nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı bacarmaq;
3. Dövrün üzləşdiyi ən aktual problemləri dərk edərək onları dəyərləndirmək, qiymətləndirmək, bir sözlə, obyektiv yanaşma qabiliyyətinə malik olmaq;
4. Zamanın, dövrün sosial-psixoloji ritmini tuta bilmək, baş verəcək hadisələri qabaqcadan sezmək üçün müvafiq nəticələrə nail olmaq bacarığı;
5. İnkişafda olan fərdi şüurla kütləvi şüurun psixoloji kontekstdə fərqli cəhətlərini müəyyən etməyi bacarmaq;
6. Bədii-yaradıcı, sosial-psixoloji baxımdan yetkin intellektual elitanı formalaşdıran şəxsiyyətin yetişməsi üçün lazımi mühiti yaratma mexanizminə nail olmağın yollarını və vasitələrini bilmək;
7. Mövcud adət-ənənə, mənəvi və maddi dəyərləri sosail-psixoloji kontekstdən dəyərləndirmək zəminində fərdin inkişafı istiqamətlərinin təyini.

Beləliklə, fərdin intellektual elitanın üzvü olanadək keçdiyi yol mühitdən, şəraitdən asılı olaraq mürəkkəbliyi ilə fərqlənir.

Tarixilik və varisilik prinsipini özündə bərqərar edən milli mədəniyyət xalqın genetik yaddaşını ehtiva edir. Bu baxımdan da milli mədəniyyət özünüdərk prosesinin reallaşmasında, milli kimlik probleminin həllində mühüm əhəmiyyətə malikdir. Tarix boyu Şərqlə Qərbin qovuşduğu ərazidə mövcud olan milli mədəniyyətimiz müasir qloballaşma prosesində zənginliyini saxlayır. Hazırki elektron informasiya mühitinin sürətli inkişafı,

tərəqqisi, rəqəmsallaşmanın bütün sahələrə, o cümlədən elitar və kütləvi mədəniyyətlərin məzmün və mahiyyət baxımından inkişaf dinamikasına təkanverici təsiri dövründə tələb olunan milli mədəni uğurlara, müasirlik nöqteyi-nəzərindən müsbət dəyişikliklərə imkan yaradılsa da, belə prosesin milli tarixi-mədəni irsə, adət-ənənələrə, ümumiyyətlə mənəvi-əxlaqi dəyərlərə təhlükə yaradılması hallarının qabarıqlığı özünü biruzə verir. Xalqların tarixi mərhələlərlə formalaşma dövrlərini keçirmiş mənəvi, mədəni, əxlaqi dəyər meyarlarını qorumaqla, ondan cəmiyyətin sürətli inkişafı naminə istifadə etmək, milli-mədəni, mənəvi xüsusiyyət və keyfiyyətlərin özlərinə məxsusluğunu gələcəyə ötürmək kimi məsul, çətin, həm də şərəfli yaradıcı missiyanın yerinə yetirilməsi zərurəti bizim üzərimizə böyük məsuliyyət qoyur **[38, s. 35].**

Milli elitar mədəniyyətimizin düzgün istiqamətləndirilməsi, sürətli inkişaf xəttində olması üçün sosial-psixoloji, bədii-estetik əhəmiyyətli müvafiq tədbirlərin həyata keçirilməsi, yaradıcılıq meyllərinə maraqların artırılmasında xalq tərəfindən yetişən, formalaşan milli elitar gücə malik fərdlərin, şəxsiyyətlərin, sənətkarların özlərinə məxsus mövqeləri, təsir gücləri olmuşdur. Azərbaycan Xalq Cumhuriyyəti dövrü də daxil olmaqla sonrakı illər ərzində də yaradıcılığın milli məzmunda inkişafı, tərəqqisi digər sahələrlə yanaşı, mədəniyyət və incəsənət sahəsində elitarlığın vüsət alması, kütləvi mədəniyyətin daha da inkişafı xalqın fəaliyyətinin daxili yaradıcılıq məzmunundan doğmuşdur. Elmin inkişafı, ayrı-ayrı ixtisaslar üzrə mütəxəssis kadr hazırlığı, təhsil sisteminin inkişafı, xarici ölkələrin tanınmış ali təhsil müəssisələri ilə tələbə mübadiləsinin təşkili, ədəbiyyat, dramaturgiya və teatr yaradıcılığının inkişafı, milli muzey quruculuğu, dekorativ tətbiqi sənətkarlığın vüsət alması və digər sahələrdə mədəni quruculuğa rəvac verilməsi tariximizin mədəniyyət salnaməsinə həkk olunmuşdur:

- sosial-yaradıcı mühitə malik elmin ayrı-ayrı sahələri üzrə, müxtəlif ixtisaslar üzrə kadr hazırlığına ciddi diqqət və qayğı göstərilmişdir;
- milli təhsil sisteminin daha da inkişafı istiqamətində, həmçinin ölkəmizin hüdudlarına tələbələrin göndərilməsinə nail olunmuş və bu işə qayğı ilə yanaşılmışdır;
- milli ədəbiyyatımızın və dramaturgiyamızın inkişafına yönəldilmiş tədbirlər həyata keçirilmişdir ki, bu da öz növbəsində milli teatrın fəaliyyətində amil olmuşdur;
- bədii-estetik gücə malik milli teatrın inkişafı istiqamətində mühüm addımlar atılmışdır;
- milli iqtisadiyyatımızın daha da inkişafı sayəsində vacib tədbirlər görül-müşdür;
- milli muzey quruculuğu istiqamətində həyata keçirilən tədbirlər bədii-yaradıcılıq, sosial-psixoloji mahiyyəti əks etdirən dekorativ-tətbiqi sənətkarlıq, tarixi-bədii məzmunu əks etdirən xalçaçılıq, memarlıq, təsviri sənətkarlıq, heykəltəraşlıq və digər incəsənət sahələrinin inkişafına öz müsbət təsirini göstərmişdir.

Beləliklə, qısa zaman ərzində müxtəlif istiqamətlərdə milli elitanın fəal,psixoloji və fəlsəfi məzmuna malik yaradıcılığı üçün müvafiq mühit yaradılmış, milli mədəniyyətdə elitarlığın kütləviləşməsində müsbət təsirə nail olma prinsipi diqqət mərkəzində olmuş və buna qayğı göstərilmişdir.

**Mədəniyyətlərarası dialoqların inkişaf xətti**

2008-2018-ci illər ərzində ölkəmizdə təşkil edilən müxtəlif mövzularda konfranslarda **[50, s. 538]**, mədəniyyətlərarası dialoq forumlarında **[50, s. 534],** Beynəlxalq Humanitar forumlarda insanın inkişafı və yaradıcılığı ilə bağlı ölkə və beynəlxalq əhəmiyyətə malik problemlərin həll edilməsi istiqamətində aktuallıq kəsb edən məsələlər müzakirə edilmişdir.

Araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, keçirilən bütün Forumlarda:

- dünyanın bir sıra ölkə başçıları, Nobel mükafatı laureatları, nüfuzlu alimlər və mütəxəssislər iştirak etmişlər;
- 6-8 istiqamət üzrə ən vacib, bu günlə aktuallıq kəsb edən məsələlərlə əlaqədar, o cümlədən, multikulturalizm, müasir texnologiyalar, elmlər konvergensiyası, iqtisadi inkişaf modelinin sosial-psixoloji və humanitar aspektləri, postmodernist mədəniyyət, məqsəd-yönlü mədəni özünüdərk, müasir dövrün tələblərinə uyğun innovativ yanaşmalar, postmodern dövründə milli özünüdərk, rəqəmsal dövrdə yeni inkişaf meyillərinin formalaşdırılması, inkişaf etdirilməsi, elmlə, təhsillə və digər məsələlərlə bağlı müzakirələr həyata keçirilmişdir. Həmçinin müzakirə edilən məsələlər qloballığı ilə aktualdır, hazırda beynəlxalq aləmdə cərəyan edən ziddiyyətlərin həlli, Qarabağdakı münaqişələr, dünyanın digər münaqişə ocaqlarındakı vəziyyətin həlli, nizama salınması, xalqları təhlükəyə sövq edən terror təhdidləri və digər vacib əhəmiyyətli problemlərin nizama salınmasına həsr edilmişdir.

Eyni zamanda ölkəmizdə tolerantliq, müxtəlif xalqların digər sahələrlə yanaşı, mədəniyyətlərinin qorunması, tədqiqi, bərpası, nəsillərə ötürülməsi istiqamətli təxirəsalınmaz elmi-yaradıcı, təşkilati tədbirlərin yerinə yetirilməsində həm də 2014-cü ildə təsis olunan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rolu böyükdür **[97, s. 181].**

Xalqımız gənclər arasında dəyərlərin aşınmasının qarşısının alınması üçün cənab Prezident İlham Əliyev tərəfindən yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətini dəstəkləyir və dəyərlərin qorunmasını aktual məsələ kimi qəbul edir.

**Milli şüurun təşəkkülünün əhəmiyyəti**

Təfəkkür fəaliyyətində xalqın milli şüurunun təşəkkülü və inkişafında milli özünüdərk prosesinin səmərəlilik və keyfiyyət dərəcəsi, kütlələr arasında müvafiq əhəmiyyətli strategiyaların təşkili əhəmiyyətlidir. Bu cür fəaliyyətlərin qurulması üçün ölkədə lazımi mühitin, şəraitin mövcudluğu və elmi-ideoloji elitanın formalaşması vacibdir. Ölkə daxilindəki ayrı-ayrı xalqların milli özünüdərkə meyillilik mühitinin öyrənilməsi istiqamətində müxtəlif tədqiqat üsullarından istifadə yolu ilə müşahidə, müqayisə, təhlillər və ümumiləşdirmələr həyata keçirilməli, yaş qruplarına müvafiq maarifləndirmə işlərinin aparılması, insanlar arasında mədəni-mənəvi, əxlaqi dəyərlərlə bağlı təbliğat-təşviqat fəaliyyətinin yaradılması və sair işlər mühüm əhəmiyyətə malikdir. İndiyə qədər Azərbaycanda qeyd etdiyimiz istiqamətlərin icrası üçün həm mühit, şərait, həm də elmi-ideoloji potensial, həm də müvafiq texniki vəsait, texnoloji şərait, informasiya-kommunikasiya texnologiyaları və onlardan istifadə imkanları genişdir və bütün bunlara rəğmən həyata keçirilən tədbirlərin də keyfiyyət səviyyəsi çox yüksəkdir.

Milli özünüdərk dərəcəsi doğma Vətənə, xalqına, həmçinin xalqının tarixinə, maddi və mənəvi dəyərlərinə, adətinə, ənənəsinə, bayramlarına, mərasimlərinə, tarixi günlərinə, yubileylərə olan düşüncə, dərketmə tərzində, münasibət bildirmə səviyyəsində bəslənilən sevgi hisslərində ehtiva olunmuşdur. Ümummilli şüurun tərkib hissəsi olan milli özünüdərk fərdiləşdirilmiş termindir. Milli özünüdərkin əhatə dairəsi geniş, aktivlik dərəcəsi yüksək, təsir gücü yetərincə olmalıdır ki, hazırki qloballıq şıraitində ayrı-ayrı xalqların mədəniyyətləri eyniləşdirilməsin, digər xalqların maddi və mənəvi dəyərləri arasında yox olmasın, tarixi qaynaqlarından ayrılmasın. Eyni zamanda xalqların mədəniyyətləri arasındakı dialoqlar yaradıcılıq münasibətlərinin nizamlı şəkildə olması, elmi-bədii yaradıcı əməkdaşlıq mütərəqqiliyə səbəb olur **[50, s. 79]**.

Müxtəlif tarixi mərhələlərdə ayrı-ayrı xalqların mədəniyyətləri qarşılıqlı əlaqədə olduqca, həm də bu mədəniyyətlər biri-birilərinə nüfuz prosesində yəni akkultura-siyada olurlar. Akkulturasiya prosesində mədəniyyətlər vasitəsilə maddi və mənəvi dəyərlərlə

yanaşı, xalqların hərtərəfli öyrənilməsi də baş verir ki, bu da onların birinin digərinə yaxınlaşması, yaradıcı və digər əlaqələrin qurulması ilə nəticələnir. Bütün bunlar beynəlmiləlləşmə üçün mənbəyə çevrilir. Qeyd edək ki, akkulturasiya prosesində mədəniyyətlərin sosial-psixoloji və fəlsəfi-estetik mahiyyətli milli məzmunu müxtəlif formalarda dəyişikliyə uğraması-assimilyasiyası baş verir. Bu proseslər biri-birilərindən fərqli xüsusiyyətlərə malikdir. Müasir dövrdə akkulturasiyanın assimilyasiya ilə fərqliliyinin araşdırılması artıq aktuallığını itirmişdir. Hazırki sürətli inkişaf prosesində akkulturasiya müasir tələblərə uyğun olaraq müxtəlif xalqların mədəniyyətlərinin inteqrasiya prosesində yeni mədəniyyətlərarası yaxınlaşma və aralarında sintezlərin inkişafına imkan yaradan əlaqəlilik kimi əhəmiyyətə malikdir **[14, s. 56].**

Məlumdur ki, hər xalqın tarixində müxtəlif inkişaf mərhələsi mövcud olmuşdur. İnkişaf mərhələlərinin müxtəlifliyi həmin dövrlərdə fərdlərarası, mədəniyyətlərarası ziddiyyətlərə səbəb olmuşdur. Belə ziddiyyətliliyin nəticəsi olan yaradıcılıq “qarşıdurması” sosiallaşma, enkulturasiya, inkulturasiya və assimilyasiya ilə nəticələnir. Beləliklə, tarixi mərhələlərdə köhnə mədəniyyətlərlə yenilərinin “toqquşması” yaranır ki, bu proseslər də öz növbəsində əksliklərin vəhdəti qismində mövcudluğu ilə inkişafa səbəb olur. Cəmiyyət arasındakı belə mərhələlərə fəal, aktiv münasibətin bildirilməsi siyasi mədəniyyətin gücündən bilavasitə asılıdır **[14, s. 56].** Tarixi dövrdə mövcud olan siyasi şüur siyasi mədəniyyətin inkişafında mühüm əhəmiyyətə malikdir. Təbiidir ki, şəxsiyyətin siyasi şüurunun formalaşması, inkişafı, sonra isə mədəni proseslərin gedişatına inkişafetdirici təsir göstərməsi üçün zaman tələb olunur. Eyni zamanda formalaşma üçün lazımi mühit, şərait, maddi və mənəvi yaradıcılığa meyllilik, istiqamətlənmə vasitələrinin mövcudluğu mühümdür. Məhz müxtəlif xalqlara məxsus digər sahələrlə yanaşı, mədəni inkişafın və müxtəlifliyin artması ziddiyyətliliyin də artımını mütləqləşdirir. Bütün bunları milli mədəniyyət nümunələrinin timsalında görmək olar. Şifahi xalq yaradıcılığımız, dastanlarımız, dövlətçilik ənənələrimiz, yaradılmış əsərlərimizdəki qəhrəmanlıq nümunələri, mənəvi-əxlaqi, tərbiyəvi məzmunu əks etdirən hadisələr, obrazlar və sair amillər güclü təsirə malikdir. Bunlar da mövcud milli dəyərlər məzmununda siyasi düşüncə ilə əlaqədardır.

**Mədəni dəyərlərin mənimsənilməsi prosesi**

Müvafiq tarixi dövrün inkişafına uyğun formalaşmaya malik olan siyasi şüur fərdin davranış mədəniyyətinin mənimsəmə səviyyəsi ilə əlaqədardır. Bu prosesdə enkulturasiyanın əhəmiyyətinin mühümlüyü ilə əlaqədar vacib məsələlərdən biri də fərd tərəfindən davranışın mədəniyyət nümunələrini hansı səviyyədə qavramasıdır. Enkulturasiyanın bu prosesdə vacib əhəmiyyəti vardır. Bu anlayışı ilk dəfə amerika antropoloqu, etnoqrafı Melvill Herskovits istifadə etmişdir. O, “enkulturasiya” dedikdə, fərdin mədəniyyətin formasına daxil olmasını, fərd tərəfindən mədəniyyəti təşkil edən təfəkkürün və hərəkətlərin, davranış modellərinin mənimsənilməsini başa düşürdü.

Burada enkulturasiya prosesi ancaq bir tarixi mühitə aid olan mədəni dəyərlərin mənimsənilməsi prosesidir. Melvill Herskovitsin nəzəriyyəsinə görə, bu proses erkən uşaq yaşlarından başlayır və yetkinlik yaş dövrünə qədər iki mərhələdən keçir: 1) uşaqlıq dövrü, 2) yetkinlik dövrü. Beləliklə də müəyyən mədəniyyətdə mövcud olan davranış modelinin, nitq mədəniyyətinin, sosial normaların, vərdişlərin, təfəkkür və düşüncə tərzinin mənimsənilməsindən ibarət enkulturasiya prosesində fərdin şəxsiyyət kimi təşəkkülü baş verir. Bu cəhətdən tədqiqatçıların əksəriyyəti şəxsiyyətlə mədəniyyəti bu nöqteyi nəzərdən eyniləşdirilər **[31].**

Bildiyimiz kimi, elitar mədəniyyət nümunələri kütləvi mədəniyyət nümunələ-rindən fərqli olaraq daha çox klassik formada özünü biruzə verir. Milli özünüdərk prosesi milli

şüurun oyanışı ilə bilavasitə əlaqədardır, lakin bir mühüm məsələni də unutmamalıyıq ki, milli oyanış şovinizimə, ksenofobiyaya, irqçiliyə deyil, humanizm, həmrəylik prinsipinə əsaslanmalıdır. Milli şüurun sağlam mühitdə formalaşması yalnız çoxmədəniyyətlilik, multikulturalizm şəraitində mümkündür.

Alman filosofu Teodor Adornoya görə, müxtəlif etnosların nümayəndələri kütləvi mədəniyyət nümunələrindən aldıqları estetik zövq əsasında biri-birindən fərqlənirlər. Bu baxımdan da milli mədəniyyət nümunələri arasında müxtəliflik mövcuddur.

Qədim və zəngin tarixə, mədəniyyətə malik xalqımızın milli özünüdərkinin formalaşdırılmasından ötrü əvvəlcə milli xarakterin formalaşdırılması diqqət mərkəzində olmalıdır. Ona görə ki, milli özünüdərkin formalaşma yolu keçməsi üçün milli xarakterlə bilavasitə qarşılıqlı əlaqədə olması vacibdir. Milli xarakterlə bağlı aşağıdakı xüsusiyyətlər araşdırmamız baxımından xüsusilə fərqlənir:

- milli-psixoloji xarakter milli özünüdərkə əsaslanır;
- milli-psixoloji xarakter irsiliyə əsaslanaraq tərbiyə əsasında təşəkkül tapır;
- milli-psixoloji xarakter kollektiv fəaliyyət prosesində, xüsusilə də milli-etnik məsələlərin inkişafında, nizamlanmasında, qarşılıqlı əlaqəliliyində özünü biruzə verir;
- milli-etnik psixoloji şüurun inkişafı, formalaşması ilə bağlı bir sıra məsələlər Avropa və rus tədqiqatçıları tərəfindən araşdırılmışdır **[96, s. 42].**

Milli-psixoloji xarakter xalqın milli şüuru, özünümühafizəsi, özünütəsdiqi, milli adət-ənənələri, ideologiyası, mentaliteti, milli psixologiyası, milli özünüdərki ilə sıx bağlıdır. Həmçinin milli xarakterdə maddi və mənəvi mədəniyyət ünsürləri xalqın tarixi keçmişini və bu günə qədərki təcrübəsini əks etdirir. Milli xarakterin formalaşma və inkişafetmə məzmunundan asılı olaraq milli dəyərlərlə bəşəri dəyərlər arasında dialektik vəhdət prosesi nizamlı xarakter alır. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə Azərbaycanda milli psixologiya və ideologiya milli şüurun durmadan sıçrayışlı inkişafına, dirçəlişə səbəb olmuşdur **[87].** Bütün dünyaya bəlli olduğu kimi, İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla qazanılan zəfər nəticəsində torpaqlarımız erməni vandalizmindən azad edilmiş, tamamilə dağıdılmış, şəhərlərimiz, qəsəbələ-rimiz, kəndlərimizdə yenidən quruculuq və bərpa işləri yerinə yetirilməkdədir. Eyni zamanda geniş miqyaslı quruculuq tikinti işləri, bərpa prosesləri yerinə yetirilən digər sahələrlə bərabər tamamilə yox edilmiş teatrlar, muzeylər, mədəniyyət və istirahət parkları, mədəniyyət evləri, klublar, rəsm qalereyaları, sərgi kompleksləri və digər mədəniyyət təsisatlarının **[2, s. 163]** yenidən tikintisinə başlanmış müasir tələblərə uyğun, lakin millilik qorunmaq şərtilə işlər yerinə yetirilməkdədir. Həmçinin məscidlər, tarixi-mədəni abidələr, Xudafərin körpüləri, məbədlər, türbələr, mədrəsələr, arxeoloji abidələr, Şuşa Şəhər Qoruğunun bərpası və dünya mədəniyyətini zənginləşdirən milli mədəniyyətimizin elmi təbliğinə nail olunması istiqamətində mühüm və təxirəsalınmaz proseslər həyata keçirilməkdədir **[50, s. 163-164].**

Ümumiyyətlə ölkəmizdə milli şüurun ümummilli şüurla qarşılıqlı əlaqıli fəaliyyəti, onlar arasında yaxınlığın, oxşar xüsusiyyətlərin mövcudluğu həm də milli özünüdərkdə özünü göstərir. Milli özünüdərk həm milli, həm də ümummilli şüurun fəaliyyətindən bu və digər dərəcədə bəhrələnir. Nəzərə almaq lazımdır ki, milli özünüdərk prosesində həm milli, həm də ümummilli şüurun “əldə etdikləri” dəyərləndirilir, vacib əhəmiyyət kəsb edən informasiya milli özünüdərkin məhsuluna çevrilir.

Qeyd edilən oxşarlıqlar milli özünüdərk prosesində fərqləndirilir. Azərbaycan milli musiqisində musiqinin ahənginin, musiqi abidələrinin bəzilərinin, musiqi janrlarının, musiqi əsərlərinin strukturunun dünya musiqisi ilə oxşarlığı xalqımızın digər xalqların musiqisini başa düşməyə, anlamağa, dərk etməyə geniş imkanlar yaradır.

Milli teatr sənətkarlığımızın səhnələşdirmə, aktyor yaradıcılığı, ayrı-ayrı səhnələrə

musiqi tərtibatının verilməsi, səhnə tərtibatının rəssam tərəfindən işlənilməsi, teatr qayda qanunları və sair bu kimi xüsusiyyətlər dünya xalqları teatrına, dünya teatrına xasdır. Buna görə də dünya teatr yaradıcılığının dərki prosesində də elmi-yaradıcı, texniki oxşarlıq, teatr mühitindəki oxşarlıq dərketmədə mühüm rola malikdir.

Milli muzey fəaliyyətimizlə dünya muzey fəaliyyəti arasında da oxşar cəhətlərin mövcudluğu milli dərketmədə əhəmiyyət kəsb edir. Belə ki, muzeyin qururluşu, ekspozisiyaların elmi ardıcıllığı, eksponatların yerləşdirilməsi mexanizmi, muzey elmi-tədqiqatçılığı, fond işinin elmi təşkili, təqdimatların, digər muzey tədbirlərinin müasir tələblərə uyğun qurulması və digər proseslər demək olar ki, oxşarlıq təşkil edir, bu da dərketmənin məzmun, mahiyyət və keyfiyyətliliyində əhəmiyyətlidir.

Dramaturgiyada, kino sənətində, radio, televiziya, internet resurslarından istifadə, memarlıq, heykəltaraşlıq, təsviri incəsənət, dekorativ-tətbiqi sənətkarlıq, xalçaçılıq sənəti və digər sahələrdə elmi-yaradıcılıq, təşkilati proseslərdə dünya mədəniyyəti, incəsənəti ilə mövcud olan oxşar və yaxın cəhətlər milli özünüdərkdə vacib elementlər sırasındadır. Bütün belə oxşarlıqlarda, yaxınlıqlardan istifadə edilməklə, elmi-siyasi şüurun köməyi ilə dərketmə prosesində milli olanla dünyəvi olan arasında müqayisələr, təhlillər aparılmaqla, millinin bəşəridən üstünlüyü, və yaxud milli olanın bəşər mədəniyyətinin inkişafına, tərəqqisinə nə dərəcədə kömək göstərə biləcəyini təyin etmək, qiymətləndirmək mümkündür. Bundan ötrü isə milli özünüdərkin elmi-tədqiqi səviyyəsinin daha da yüksəldilməsi, müasir rəqəmsal-laşdırma müstəvisində hər an diqqət mərkəzində olmalı, bu istiqamətli strateji tədbirlərin həyata keçirilməsi, intellekt səviyyənin fasiləsiz formalaşdırılması vacibdir.

**Nəticə**

Beləliklə, apardığımız araşdırmalarda aşağıdakı nəticələrə gəlmək olar:

1. Elitar inkişaf prosesində şəxsiyyətin milli və bəşər mədəniyyətinə bəxş etdiyi töhfələr daha dərindən araşdırılmalı, sosial-psixoloji və bədii-yaradıcı baxımdan qiymətləndirilməli, elm, mədəniyyət və incəsənətdə də tərəqqiyə nail olmaq, yeniliyin inteqrasiyasına, təbliğinə daha ciddi diqqət, qayğı göstərilməsi istiqamətində ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi zəruridir.

2. Əsrlər ərzində milli-psixoloji elitar şüurun məhsulu olan maddi mədəniyyət nümunələrinin, milli-mənəvi dəyərlərimizin mühafizəsi, bərpası, o cümlədən işğaldan azad edilmiş ərazilərimizdəki qədim tarixi dövrlər fəaliyyətimizin, inkişafımızın daşıyıcısı, ötürücüsü sayılan tarixi-memarlıq abidələrimizin, digər maddi və mənəvi mədəniyyət nümunələrimizin yenidən bərpası, kütləviləşdirilməsi, bəşər mədəniy-yətinə inteqrasiyasına nail olunması məqsədilə müasir texnologiyanın gücündən, rəqəmsallaşmadan, ayrı-ayrı tədqiqat metodlarından, diaqnostik qiymətləndirmədən istifadəyə önəm verilməlidir.

3. Dövr üçün aktual elmi-mədəni və sosail-psixoloji məzmun kəsb edən məlumatların əldə edilməsi tələbatının ödənilməsi, informasiya mübadiləsinin yaradılması, elmi yeniliklər, bədii yaradıcılıq vərdişləri texnologiya və rəqəmsallığın köməyi ilə ünsiyyət vasitəsilə həyata keçirilmiş, geniş yayılmaya səbəb olmuşdur ki, bunun da sayəsində mədəniyyətin informasiyalılığı ilə kommunikativlik arasında yaranan qarşılıqlı əlaqəlilik elitarlıqla kütləviliyin əlaqəli inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

4. Milli mətbuatın, radio və televiziya kanalları ilə bu günə qədər yayımlanan müxtəlif sosial-psixoloji səpkili elmi-bədii, yaradıcı verilişlərin, xəbərlərin, sənədli və bədii filmlərin, kino sənətkarlığının, teatr sənətinin, təsviri sənətin, dekorativ tətbiqi sənətkarlığın, musiqinin, muzey fəaliyyətinin, ayrı-ayrı elmi-tədqiqat müəssisələrinin, o cümlədən Azərbaycan Dövlət Tərcümə Mərkəzinin fəaliyyətində ünsiyyət amilinin mühüm rolu olmuş, dinləyici, tamaşaçı, oxucu, ümumiyyətlə xalqla səmərəli elmi, yaradıcı əlaqələr yaranmış, inkişaf etmişdir.

5. Ölkəmizdə internetdən istifadə yolu ilə də sosial-psixoloji, bədii-fəlsəfi ünsiyyətin səmərəli təşkilinə xüsusi diqqət yetirilir və bu sahənin dünya standartları səviyyəsində qurulmasına daim qayğı göstərilməkdədir ki, bunun nəticəsində elitar və kütləvi mədəniyyətlərin inkişafında ünsiyyət ötürücü əhəmiyyətə malikdir.

6. Müstəqilliyimizin əldə edilməsi Sovet İttifaqı dövründə, xüsusilə də XX əsrin 80-ci illərindən başlamış müstəqilliyimizin bərpasından sonrakı illərdə, əsas etibarilədə 1993-cü ildən sonra digər sahələrlə bərabər milli mədəniyyətimizin inkişafına qayğı göstərilmişdir. Təkcə 2000-2020-ci illərdə ölkə mədəniyyətinin inkişafı və inteqrasi-yası naminə beynəlxalq forumların, Ümumdünya mədəniyyətlərarası dialoqların təşkili, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, mədəniyyət fondla-rının fəaliyyətə başlaması və digər beynəlxalq tədbirlər elitar şüurun, milli özünüdərkin məzmun, mahiyyət keyfiyyətinin səmərəliliyinə xidmətinin bariz nümunəsidir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Abbasov, N. Mədəniyyət siyasəti və mədəni irs (Kulturoloji təhlil) / N.Abbasov. – Bakı: ADMİU, –2011. –220 s.
2. Cəfərova, M.S. Azərbaycanda elitar və kütləvi mədəniyyətlər milli özünüdərk mərhələsində //- Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. – 2021. №29, - 172 s.s.53-61.
3. Cəfərova, M.S. Elitar və kütləvi mədəniyyətlər: müqayisəli təhlil // - Bakı: Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dövlət və Din ictimai fikir toplusu. - 2019. №01(60), - 120 s.s.71-76.
4. Əliyev, B. Mədəniyyətin intibahı–şəxsiyyətin tənəzzülü. Elektron resurs URL:http://psixologiyajurnali.az/?smode=content&item/15.08.2020
5. Əsədli Minəxanım. Kulturoloji irsin mühafizəsi probleminə dair // Qloballaşma şəraitində kulturoloji iinnovasiyalar və sosial–mədəni inkişaf mövzusunda beynəlxalq konfrans. –Bakı: Təknur MMC, –2012. – s. 34-39.
6. Hüseynov, İ. Dünya mədəniyyəti siyasəti. Ali məktəblər üçün dərslik./ İ.Hüseynov, T.Əfəndiyev, N.Abbasov–Bakı:Mars–Print– NPF,– 2012.–586 s.
7. Ömərov, V. Azərbaycançılıq və milli xarakter. Elektron resurs URL: http://anl.az/down/meqale/ses/2012/fevral/229827.htm.s.13 (müraciət tarixi 23.02.2020)
8. Tağıyev, Ə. Fəlsəfə / Ə.Tağıyev. – Bakı:”Zərdabi LTD”, –2012. – s 384.
9. Tağıyev, Ə. Milli kimlik və multikultural proseslər / Ə.Tağıyev. – Bakı: Gənclik, –2017. –204 s.
10. Руднев, В.Т. Энциклопедический словарь культуры ХХ века / В.Т.Руднев, –М.: Издательство «АЗБУКА–Аттикус», – 2017, –864 с.

**Махсати Джафарова**

## КУЛЬТУРЫ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНА В СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОМ КОНТЕКСТЕ ВНУТРИ НАЦИОНАЛЬНОГО Я

***РЕЗЮМЕ***

Национально-психологический характер в культуре тесно связан с национальным самосознанием, самозащитой, самоутверждением, национальными традициями, национальной психологией, национальным само-сознанием народа. Национальное самосознание в той или иной степени выигрывает от активности как национального, так и национального самосознания. Культурные элементы национального характера отражают историю и опыт народа до наших дней.

***Цель*** – целью исследовательской работы является исследование национального самосознания культур в социально-психологическом контексте, и в то же время обобщение и получение

результатов в направлении полного сохранения национального содержания национального материала и духовные ценности.

***Методология*** – исследование, прикладные формы и исследование творческих отношений культур и научно-художественного творческого сотрудничества в социально-психологическом направлении.

***Результат*** – В процессе культурного развития вклад личности в национальную и общечеловеческую культуру исследовался поэтапно более глубоко и оценивался с социально-психологической и художественно-творческой точек зрения.

***Ключевые слова:*** *элитарная и массовая культуры, социально-психологическая сущность, философско-эстетическое содержание, театральная деятельность, музейное строительство, музыкальное мастерство*

**Mehseti Ceferova**

## CULTURES IN INDEPENDENT AZERBAIJAN IN THE SOCIO-PSYCHOLOGICAL CONTEXT WITHIN THE NATIONAL SELF

### *ABSTRACT*

The national-psychological character in culture is closely related to the national consciousness, self-protection, self-affirmation, national traditions, national psychology, and national self-awareness of the people. National self-awareness benefits to one degree or another from the activity of both national and national consciousness. Cultural elements of a national character reflect the history and experience of the people up to this day.

***Purpose*** – the purpose of the research work is to investigate the national self-awareness of cultures in the socio-psychological context, and at the same time, to make generalizations and obtain results in the direction of completely preserving the national content of national material and spiritual values.

***Methodology*** – research, applied forms and research of creative relations between cultures and scientific-artistic creative cooperation in a socio-psychological direction.

***The results of the research*** – In the process of cultural development, the contributions of the personality to the national and human culture were investigated more deeply in stages and evaluated from the socio-psychological and artistic-creative point of view.

***Keywords:*** *elite and mass cultures, socio-psychological essence, philosophical-aesthetic content, theater activity, museum building, musical artistry*

**UOT 159**

**Günay Ağayeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim*
*E-mail: gunaysherbet@gmail.com*

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA ROLU

*Məqalədə ailədaxili münasibətlərin uşağın şəxsiyyət kimi formalaşmasında rolundan danışılır. Ailədaxili münasibətlərin fərdlərin psixi və fiziki sağlamlığına əhəmiyyətli dərəcədə təsir göstərdiyi vurğulanır. Ailə daxilindəki münasibətlər uşaqları sağlam şəxsiyyət kimi formalaşdırır. Ailədə valideynlər arasında qarşılıqlı hörmət,sevgi, dözümlülük və fədakarlığa söykənən münasibətlərlə böyüyən uşaqlar sağlam şəxsiyyətlər inkişaf etdirirlər.*

***Məqsəd*** – uşaq şəxsiyyətinin formalaşmasına ailə mühitinin təsirini öyrənmək,onların inkişafına təsir edən ailədəki konfliktləri aradan qaldırmaq, uşaqların yanında mübahisə etməmək və ailədə xoş, söz-söhbətsiz, ixlafsız ünsiyyət yaratmaqdır.

***Metodologiya –*** ailədə qarşılıqlı münasibətlər və onun uşaq şəxsiyyətinin formalaşmasına təsiri ilə əlaqədar klassik və müasir psixologiyada irəli sürülən yanaşma və ideyalar,şəxsiyyət keyfiyyətlərinin inkişafı ilə bağlı problemlərin tədqiqi əsasında işlənilən nəzəriyyələr təşkil edir.

***Tədqiqatın nəticələri*** – uşaqların şəxsiyyətinin formalaşmasına təsir edən ailə tərbiyəsi, valideyn-övlad və valideyn münasibətləri təhlil olunmuş, müsbət və mənfi nəticələr müəyyən edilmişdir.

***Açar sözlər:*** *ailə tərbiyəsi, ailədaxili münasibətlər, valideyn-övlad münasibəti, ər-arvad münasibəti, şəxsiyyətin formalaşması, uşağın təlim-tərbiyəsi*

## Giriş

Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin mühüm rolu vardır. Ailə insanın sosiallaşması, tərbiyəsi və psixoloji dəstək almasını,müəyyən həyat tərzi və münasibətlərinin formalaşmasını şərtləndirən institutdur.Ailə ayrıca şəxsiyyətin, eləcə də bütövlükdə cəmiyyətin həyatında mühüm rol oynayır. Ailə psixoterapevtik mühitdir. İnsanlar dərdlərini, kədərlərini ailədə unudurlar.Ailə, uşağın ictimailəşməsində ən vacib və təsirli rolu öz üzərinə götürmüş bir sosial qrupdur. Ailədəki sosiallaşma təməl olub, fərdin daha sonra digər qruplarda öyrəndikləri bu təmələ görə formalaşır. Ailədəki sosiallaşmanın əhəmiyyəti yalnız körpəlikdə və uşaqlıqda deyil, yeniyetməlikdə də davam edir. Hər hansı bir səbəbdən ailənin bütövlüyünün pozulması və ya ailə daxilində qeyri-kafi qarşılıqlı əlaqə sosiallaşma prosesini əhəmiyyətli dərəcədə maneə törədir və uşağın səhv və ya qeyri-kafi bir şəkildə ictimailəşməsinə səbəb olur. Sosiallaşma prosesinə mənfi təsir göstərməsinə səbəb olan ailə quruluşunu araşdırmaq lazımdır. Çünki sosiallaşmanın müvəffəqiyyəti cəmiyyətin ən təməl daşları olan ailə üzvlərinin modelləşdirilməsi və möhkəmləndirilməsi kimi sosiallaşma üsullarından asılıdır.

Ailədə uşaqların ata-ana ilə ünsiyyət tələbatı çox vaxt təmin olunmur. Valideynlər bəzi hallarda uşaqlarla rəftar və davranış zamanı birtərəfli iştirak edirlər.Valideynlərdən

birinin uşağı əzizləməsi,yaxud da ona” hələ uşaqdır düzələr” deməsi uşaqların ailədəki tərbiyəsinə mənfi təsir göstərir. Çünki, ailənin tərbiyə imkanları valideyn və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur. Bu baxımdan ailədə intizam tərbiyəsi çox vacibdir.Ailədə uşaqların həddindən artıq əzizlənməsi buna mane olur.

**Valideynlərin qarşılıqlı münasibətlərinin uşaq şəxsiyyətinin formalaşmasına təsiri.** Hər uşaq doğularkən fərqli irsi xüsusiyyətlərlə doğulur. Ətraf mühit faktorları və valideynlərin münasibətləri onların şəxsiyyətlərini formalaşdırır. Fərdi xüsusiyyətləri nəzərə alınaraq tərbiyə alan uşaqlar özlərinə güvənən şəxsiyyətlər kimi formalaşırlar.Valideyn münasibətləri tamamlayıcı, ziddiyyətli olmayan və uşaqlara həddindən artıq təzyiq və ya boşluq yaratmayan bir keyfiyyət olmalıdır.Valideynlərin münasibətləri, uşaqların şəxsiyyətini irsi xüsusiyyətləri ilə birlikdə inkişaf etdirən,gücləndirən və formalaşdıran ən vacib amildir. Çox vaxt uşaqların davranışının çoxunun 0-6 yaş arasında qazandıqlarını nəzərə alsaq, burada valideynlərin münasibətlərinin nə qədər vacib olduğunu başa düşmək olar.Ailənin uşağa təsiri uşaq ana bətnində olanda başlayır. Ailənin uşağın doğulmasına və ya ananın doğulacak körpənin olmasına çox istəksiz reaksiyalarının intensivliyi hissi, hirs, fiziki və zehni yorğunluq, ümidsizlik kimi şüurlu və ya şüursuz olaraq gələcək anaya təsir edir. Hamilə ana davamlı olaraq hirs, məyusluq, narahatlıq hissləri ilə yüklənmişdirsə,aşırı dərəcədə narahat və qorxu içində olarsa, bu həyəcanlar körpəyə ananın qanı və hormonları ilə ötürülmüş olur.Beləliklə, körpəsi hələ bətnindəykən ananın duyğuları və reaksiyaları körpəyə təsir göstərməyə başlayır .Valideyn münasibətlərinin ən görkəmli iki xüsusiyyəti "emosional münasibət ölçüsü" və "nəzarət ölçüsüdür"."Emosional münasibət" ölçüsü araşdırıldıqda, uşağı qəbul edən münasibətdən, rədd edilməyə qədər geniş bir şəkildə fərqləndiyi görülür.Eynilə, "nəzarət ölçüsü" məhdudlaşdırıcı münasibətdən tolerant münasibətə qədər geniş bir sahəni əhatə edir. Uşaq isti bir şəraitdə valideyn razılığı almağa istəkli olur və onun sevgisini itirməkdən qorxur. Buna görə də sağlam qarşılıqlı təsir mühitində uyğun davranış qaydalarına uyğun olaraq rəhbər tutularkən,intizam qaydalarına baxmağa ehtiyac yoxdur.Sevgi ilə bəslənmə, uşağın ehtiyaclarına həssaslıqla sinonim şəkildə istifadə edilmişdir. Uşaqda valideyn sevgisi, təhlükəsizlik, aşağı narahatlıq səviyyəsi və yüksək mənlik hissi yaradır. Fiziki cəzanın tətbiq olunduğu və ya sevgisiz ailə mühitində yüksək narahatlıq səviyyəsi və gərginlik ön plandadır. Cəzalandırıcı ailənin yaratdığı yüksək gərginlik uşağın sosiallaşma oyununun qaydalarını öyrənməsini çətinləşdirə və ya qarşısını ala bilər.İsti, sevgi dolu ailə mühitində olan valideynlər, laqeyd və sevgisiz valideynlər uşaqlarının davranışlarını, xüsusilə aqressiv davranışlarını idarə etməyə kömək edirlər. Təcavüzkarlığı idarə etmək üçün döymək kimi şiddət metodlarına müraciət edən valideynlər həm uşağı məyus edir, həm də daha çox qəzəbə səbəb olan münasibətlər göstərərək ona təcavüzkarlıq nümunəsi nümayiş etdirirlər.Uşaqların sosial və əqli cəhətdən səriştəli bir şəxs olması istənilirsə,valideyn nəzarəti müəyyən dərəcədə tələb olunur. Unutmaq olmaz ki,ictimailəşmənin əsas məqsədi xarici agentlər tərəfindən idarə olunmaqdan daha çox öz-özünə idarəetmə təmin etməkdir.Valideynlərin həddindən artıq azadlığı və həddindən artıq məhdudlaşdırılması sosial inkişafa mane olur.Bir övlad böyütməkdə və valideynlərin uşaqlara qarşı münasibətini müəyyənləşdirməkdə uşağın inkişaf mərhələlərinin xüsusiyyətlərinin nə olduğunu bilmək çox vacibdir.Uşaq böyüklərin kiçik bir modeli deyildir. Uşaqları böyüklərdən fərqləndirən bir çox xüsusiyyətləri var: uşağın ən güclü nümayiş etdirilə bilən gücü və üstünlüyü öyrənmək üçün motivasiyadır.

Uşaq, Montessorinin "zehni udma" dediyi bir qabiliyyətlə doğulur.Mədəniyyətin, adətin, ideallarin, duyğuların, davranışların və inancların qəbul edilməsi və "mənimsənilməsi",doğum ilə altı yaş arasında " udma zehni "dövründə baş verir. Uşağın öz konsepsiyası, yetkinlərin ona münasibətinin bir əksidir.Bu səbəbdən də valideynlərdən mənfur münasibət, uşağın özünü dəyərsiz hesab etməsi ilə nəticələnir.İstədiyiniz davranışları nümayiş etdirərkən

dəstəklənməyən uşaq, təsdiqlənmiş və təsdiqlənməmiş davranışı ayırd etməkdə çətinlik çəkir. Nəhayət ümidini kəsərək, valideynlərinin razılığını almaq üçün səylərindən imtina edir.Əksinə, istədiyi davranışları göstərdikdə uşağa dəstək olduqda,hansı davranışların olduğunu öyrənir. Bu mühit özünə güvənən və avtonom bir uşaq böyütmək üçün vacib bir şərtdir. (4,s.41)

**Valideyn-uşaq münasibətlərinin psixoloji xüsusiyyətləri.**Uşaq həyatla əlaqəli bilik və bacarıqları valideynlərindən öyrənir. Valideynlərin körpəlikdən uşağa qarşı münasibətləri dərin və qalıcı izlər buraxır. Valideynlərin uşağa göstərdiyi tarazlı sevgi və qoruma hissi onlarda etibar hissini inkişaf etdirməyə kömək edir. Belə olduqda uşaq insanları sevməyi,onlarla münasibət qurmağı öyrənir. Uşaq valideynlərini təqlid edərək sosial həyata alışır. Ailənin içindən seçdiyi nümunə pis bir şəxsiyyət quruluşuna malikdirsə, uşağın içində pis davranışın yaranma ehtimalı artır.Bu səbəbdən də valideynlərin uşağa yaxşı bir nümunə göstərmələri çox vacibdir. Valideynlər sözlərindən daha çox davranışları ilə uşağa nümunə olmalıdırlar.Ana və ya ata - tamamilə şüursuz - uşağa həddindən artıq həvəs göstərməsi həm ailə həyatının xoşbəxtliyini poza bilər, həm də uşağa mənfi təsir göstərə bilər. Yenidən valideynlərin həyata keçirə bilmədikləri şüursuz istək və davranışlarını uşaqlara qarşı əks etdirmələri nəticəsində uşağın şəxsiyyət xüsusiyyətləri; maraqlarını, istək və bacarıqlarını görməzdən gəlmək uşaqda mənfi hisslərə və davranışlara səbəb ola bilər. Uşağın özünə hörməti, fikirlərinin önəmli olması,sözlərinin dinlənilməsi, dəstək və dəyər aldığı bir ailə mühitində inkişaf edə bilməsinə səbəb olur.Valideynlərin uşağı qorxutmadan işbirliyinə əsaslanan onların sağlam ünsiyyət mühiti hazırlaması; uşaqların müsbət düşünən, uyğun, yaradıcı ,özünə nəzarət edə bilən bir fərd olmalarına imkan yaradır.

Doğuşdan sonra uşağın ilk sosial mühiti ailəsidir. Uşaq davranış nümunələrini burada tapır, yaşayır və öyrənir. Yaxşı-pis, düzgün-səhv, günah-yaxşı əməllər və digər sosial dəyərlər burada qazanılır. Bundan əlavə, uşağ fiziki ehtiyacları sığınacaq, qoruma, qidalanma, yuxu, geyinmə, oyun təmin edilərkən, güvən, sevgi, müstəqillik, bir qrupa mənsubiyyət, məsuliyyət, işdə uğur qazanma, qeyri-müəyyənlikdən qorunma, qaydaları, hörmət, hüquq və vəzifələri öyrənmək üçün psixoloji və sosial ehtiyac hissini ilk dəfə bu mühitdə öyrənir.Uşağın sevgi potensialı 0-2 yaşlarında daha sürətlə olur. Ömür boyu paylaşacağı bu isti, sevgi dolu hissi ailə mühitindən alır. Bu mühitdə şəxsiyyətin sağlam təməlləri qoyulur. Sevgi ilə böyüyən uşaq həyata etibar etməyi və digər insanlara məhəbbətlə yanaşmağı öyrənir. Əsas etibar hissi belə bir ailə mühitində inkişaf edir, yetkinləşir və ömür boyu davam edir. Fərdlərin ailə daxilindəki qarşılıqlı əlaqəsi uşağın ailədəki mövqeyini təyin edir. Uşaq sosial bir fərd olaraq özü üçün bir model axtarır və bunu ailədə tapır. İlk modellər valideynlərdir. Ailənin təsiri uşağın şəxsiyyət kimi formalaşmasında vacibdir .Ailə uşaq şəxsiyyətinin formalaşmasında ən vacib ekoloji amildir. Ailədə ana və ata ilə uşaq arasındakı münasibətlərin özəyini təşkil edən "uşaq tərbiyəsi metodları" bu təsiri müəyyənləşdirir. Valideyn-övlad arasındakı qarşılıqlı əlaqə uşağın davranışına və gələcək davranışlarına da təsir edir.Ana-ata-övlad münasibətləri əsasən valideynlərin münasibətindən asılıdır.

Valideyn-övlad münasibətinə təsir edən əsas amillər aşağıdakılardır:

1. Valideynlərin zehinlərində necə bir uşaq istədikləri doğuşdan əvvəl xəyali bir uşaq konsepsiyası formalaşır . Dünyaya gələn uşaq gözlədiklərinə uyğun gəlmirsə, narahatlığın nəticəsi kimi ana və atada uşaqdan imtina münasibəti inkişaf edir.

2. Cəmiyyətin mədəni dəyərləri övladlarının tərbiyəsində valideynlərə təsir göstərir.

3. Götürdükləri valideyn rolundan zövq almaq və vəzifələrini layiqincə yerinə yetirdiklərinə inanan valideynlərin övladlarına qarşı münasibəti, uşaqlarını necə yetişdirməyi bilməyən, özünə inamsız və qeyri-kafi hiss edən valideynlərdən daha müvəffəq və müsbətdir.

4. Övladlarının sayı, cinsi və şəxsiyyət xüsusiyyətlərindən məmnun olan ana və atalar,bu xüsusiyyətlərdən məmmun olmayan valideynlərdən daha uyğun bir münasibətə sahibdirlər.

(4,s.36)

Ailədə uşağın tərbiyəsində ananın rolu kifayət qədər yüksəkdir. Uşağın şəxsiyyəti ananın davranışı ilə müəyyən edilir. Uşaqlar əvvəlcə analarını, sonra atalarını modelləşdirirlər. Daha aydın şəkildə desək, ümumiyyətlə qız uşağı ananı, oğlan uşağı isə atanı model olaraq görür.Modelin uşaq tərəfindən təqlid edilməsinin ən vacib şərti müşahidədir. (5,s.71) Lakin bu, kifayət qədər şərt ola bilməz. Çünki bir çoxlarının davranışı uşaq tərəfindən müşahidə olunur; lakin təqlid edilə bilməz. Uşaq nümunə götürməli olduğunu düşündüyü davranışları seçərkən, özünə görə seçim edə bilər. Model valideynin mənfi davranışı uşaqda böyük bir narahatlığa səbəb olur. Evdə profilaktik və cəzalandırıcı qərarların icrası ataya həvalə olunur. Ata ailədə qorxu və hörmət rəmzi kimi qəbul edilir, bu səbəbdən də patriarxal ailə quruluşunun izləri bu gün də davam edir.Bu vəziyyətdə, ata evə gəldikdə, uşağın gün boyu etdiyi fəsad yalnız ana tərəfindən siyahıya alınmır, həm də atanın uşağı cəzalandırması gözlənilir. Digər tərəfdən ailələrdə bu meyl bir müddətdən sonra atanın evin hökmdarı olması və cəza sistemini idarə etməsi deməkdir. Ölkəmizdə ata övlad böyütmək və təhsil vermək məsuliyyətini anaya həvalə edir və ana ailənin maddi ehtiyaclarını ödəyən şəxs olur. Evin qida və geyim kimi maddi ehtiyaclarını ödəməklə bitdiyini düşünür, bu səbəbdən evə gələndə uşaqların səs-küyündən uzaq olmaq istədiyini,hətta uşaqların səsini eşitməyə dözə bilməyəcəyini və ayrı bir otaqda tək qalmaq istədiyini belə dilə gətirir. Bu, ailə münasibətlərinin zəifləməsinə, ailədəki cinsi rolları və vəzifələri lazım olduğu kimi yerinə yetirə bilməməyə, düzgün olmayan ictimailəşməyə və nəticədə ailənin əsl missiyasını aça bilməməsinə səbəb ola bilər. İndiki ailələrdə valideynlər, xüsusən də atalar özlərini uşaqlarının maddi ehtiyacları üçün böyük ölçüdə məsuliyyət daşıyırlar və nəticədə övladları üçün çox az vaxt ayırırlar. Bu, uşağın bir model olmadan böyüməsinə səbəb olur, beləliklə məsuliyyətin öyrənilməsinə və daxili nəzarət mexanizminin inkişafına mane olur. Bu səbəblədə uşağa erkən yaşlarından ehtiyacı olan şeyləri vermək lazımdır ki,gələcək üçün ümidli ola bilsinlər. Əslində uşaqların ailələrindən gözləntiləri çoxdur. Bir uşağın ən çox ehtiyac duyduğu şeylərə nəzər salsaq, yetərli qidalanma, valideynləri olan bir evdə sevgi və anlayışla baxılması, qorunması, hörmət və barış mühitində böyüməsi, dövrün ehtiyaclarına uyğun bir təhsil almaqdan başqa çox vacib ehtiyaclarının olmadığını görərik .Uşağın yaxşı bir təhsil fürsəti və rol modellərini və olması lazım olan modeli tapdığı zaman inkişaf etməsi, bir şəxsiyyət qazanması, bir peşə qazanması və cəmiyyətin faydalı bir üzvü olması heç də çətin deyil. Unutmaq olmaz ki, bu metodla cəmiyyətə gətirilən uşaqların sayı kifayət qədər çoxdur. Bu məqamda sağlam ailələrdə böyüyən uşaqların daha sağlam olduqlarını, cəmiyyətlə və özləri ilə daha sağlam ünsiyyət və qarşılıqlı mühit qurduqlarını bir daha xatırlatmanın faydalı olduğunu düşünürük.Təəssüf ki, uşağın axtardığı əlverişli şərtlər həmişə bir araya gətirilə bilməz. Uşaqlar çörək tapanda sevgi , sevgi tapanda isə çörək tapa bilməzlər, alçaldıla bilər, əzilir, döyülməkdən şikəst olur, ölməyə belə göz yumur və hətta bəzən ailə üzvləri tərəfindən bu arzuolunmaz vəziyyətə, ailə üzvləri tərəfindən dilənməyə ,pis vərdişlərə məruz qala bilərlər. (4,s.54)

**Ailə tərbiyəsinin uşaq şəxsiyyətinin formalaşmasına təsiri.** Gənc nəslin şəxsiyyət kimi formalaşmasında və cəmiyyət həyatına hazırlanmasında böyük rol oynayan amillərdən biri ailə tərbiyəsidir. Yetişən gənc nəslin ailədə düzgün tərbiyə olunması mühüm pedaqoji problem olmaqla bərabər, həm də cəmiyyətin, dövlətin prioritet məsələlərindən biridir. Çünki cəmiyyətin inkişafı, onun uğurlu gələcəyi bir çox cəhətdən yetişən nəslin tərbiyəsindən asılıdır. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından, valideynlərin isə ən mühüm vəzifələrindən biridir. Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. O,cəmiyyətlə inkişaf edən insan arasında vasitə rolunu oynayır. Məhz ailədə uşaq ilk şəxsiyyətlərarası münasibətlər təcrübəsi qazanır, burada onun həyat mövqeyinin əsasları qoyulur. Uşaqlıqda qazanılan təəssüratlar onun sonrakı bütün həyatı boyu öz təsirini saxlayır.

Ailənin tərbiyə amili kimi böyük rolu və əhəmiyyəti də bununla bağlıdır. Uşağın şəxsiyyətinin bünövrəsi məhz ailədə qoyulur, onun xarakterinin bir çox keyfiyyətləri ailədə formalaşır. Gələcək vətəndaşın dünyagörüşü, tələbat və maraqları,mənəviyyatı ailə tərbiyəsinin düzgün təşkilindən çox asılıdır.İnsanın bir şəxsiyyət kimi formalaşmasına ailənin təsir gücü və müddəti baxımından heç bir digər sosial tərbiyə institutu ailə ilə müqayisə edilə bilməz. Belə böyük imkanlara malik olan ailə həm müsbət, həm də mənfi tərbiyə amili kimi çıxış edə bilər.(3,s.48)

Heç bir ailədə uşaq kortəbii şəkildə tərbiyə edilmir. Hansı valideyn olur olsun, o, uşaqların tərbiyəsində mütləq müəyyən pedaqoji məqsədi rəhbər tutur. Uşağın şəxsiyyətinə ailənin müsbət təsiri onunla bağlıdır ki, heç kəs ata-ana və ailənin digər üzvləri qədər uşağa sevgi və qayğı ilə yanaşa bilməz. Valideynlərin bir qisminin pedaqoji məqsədləri çox vaxt aydın xarakter daşımır, dəqiq olmur. Bu da uşaqların tərbiyəsi işinə böyük ziyan vurur. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, ata-ananın böyük əksəriyyətinin öz qarşısına qoyduqları pedaqoji məqsədlər dəqiqliyi ilə seçilir. Pedaqoqlar valideynlərlə "siz öz uşaqlarınızda, hər şeydən əvvəl, şəxsiyyətin hansı keyfiyyətlərini tərbiyə etmək istərdiniz?” sualı əsasında anket sorğusu keçirilib.Əksər valideynlər belə cavab veriblər: düzlük, xeyirxahlıq, kollektivdə yaşamaq və işləmək bacarığı, böyüklərə hörmət, əməyə məhəbbət, vətəndaşlıq.Uşağın yaxşı adam olmasını istəmək ülvi hissdir, lakin qənaət bəxş deyil. Bu "yaxşı adam” anlayışına hansı xarakter əlamətlərinin, hansı vərdiş, bacarıq, adət, hiss və s. daxil olduğunu bu və ya digər dərəcədə dəqiq aydınlaşdırmaq, uşağı "yaxşı adam” kimi böyütməyin üsul və vasitələrini bilmək lazımdır.(6,s.29)

3-4 yaşlarından başlayaraq uşaqlarda yaşlıların davranışını müşahidə etmək, onların nümunəsi və təsiri nəticəsində xarakterin ilkin və davamlı əlamətləri formalaşmağa başlayır. Bu prosesdə uşağın ilk tərbiyəçiləri olan valideynlərin rolu xüsusilə böyükdür. Uşaqlar üçün müsbət təqlid obyekti olan valideynlər, onların uşağa müsbət münasibəti onun psixikası və davranışına daha əsaslı təsir göstərir. Məktəbəqədər uşaqlıq illərində uşağın şəxsiyyətində davamlı xassələr kimi özünü göstərən xarakterin əsas konturları görünməyə başlayır. Bu əlamətlər uşağın gündəlik praktik fəaliyyətində və adamlarda ünsiyyətində aşkar olaraq görünür. Nümunəvi,xarakterin müsbət əlamətləri kimi məqsədəyönəlmişlik, işgüzarlıq, dözümlülük, məsuliyyətlilik, xeyirxahlıq kimi iradi-əxlaqi hərəkətlər uşağın xarakterində əşyavi-praktik fəaliyyət prosesində özünü göstərir. Şəxsiyyətlərarası ünsiyyət prosesində onlarda istiqanlılıq, xeyirxahlıq,sədaqətlilik, üzüyolalıq və s. kimi xüsusiyyətlər diqqəti cəlb edir. (2,s.149)

**Nəticə.** Informasiyaların sürətli inkişaf etdiyi yeniləşmə və qloballaşma şəraitində kütləvi kommunikasiya və təbliğatın genişlənməsi, cəmiyyətdə özünü göstərən bu və ya digər proseslər ailədaxili məsələlərə də təsir göstərir. Bu kontekstdə ailədaxili və şəxsiyyətlərarası münasibətlər məsələsi də müasir pedaqogika və psixologiyanın aktual problemlərindən birinə çevrilmişdir. Ailədaxili münasibətlərin sağlam peadqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir. Ailə münasibətlərinin əsasını ər və arvad münasibətləri təşkil edir. Onlar ailənin qoşa qanadlarıdır. Ailədaxili münasibətlər kontekstində valideynlərin uşaqları ilə münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu məsələ hələ lap kiçik yaşlarından, məktəbəqədər dövrdən başlayır. Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında, idrak fəallığının inkişafında valideyn-övlad münasibətləri mühüm rol oynayır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində, qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdə önəmlidir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiyanın aktual məsələləri. Bakı:1998.
2. Çələbiyev N. Z. Uşaq psixologiyası. Bakı, 2005, 305s.
3. Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı: 1982.
4. Ayşe Günalp, Tez danışmanı Yrd. Doç. Dr. Abdülkadir Kabadayı, Farklı anne baba tutumlarının okul öncəsi eğitim çağındakı çocukların özgüven duygusunun gelişimine etkisi. Konya-2007
5. Дониченко О.Г., Фелькер Ю.И. Модель психолого-педагогического сопровождения учителя в инклюзивном пространстве общеобразовательного учреждения, ГОУ СОШ № 1323
6. Захаров, А.И. Как предупредить отклонения в поведении ребенка — М.: Просвещение, 1986.— 129 стр.

**Гюнай Агаева**

## РОЛЬ СЕМЕЙНЫХ ОТНОШЕНИЙ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ ДЕТЕЙ

### *РЕЗЮМЕ*

В статье говорится о формировании личности ребенка в семейных отношениях. Подчеркивается, что отношения внутри семьи оказывают существенное влияние на психическое и физическое здоровье личности, отношения внутри семьи формируют детей как здоровую личность. Дети, которые растут в семье с отношениями, основанными на взаимном уважении, любви, терпимости и самопожертвовании между родителями, формируют здоровую личность.

***Цель*** – изучить влияние семейного окружения на формирование личности ребенка, получить научные и теоретические знания по устранению семейных конфликтов, влияющих на развитие детей, воздержанию от споров при детях и созданию благоприятных условий для общения.

***Методология*** – подходы и идеи, выдвигаемые в классической и современной психологии, применимых к семейным отношениям и их влиянию на формирование личности ребенка, теории, основанные на изучении проблем, связанных с развитием личностных качеств ребенка.

***Результаты исследования*** – В рамках исследования были проанализированы семейное воспитание, влияющие на формирование личности детей отношения родителей к детям и родителей между собой, также были выявлены положительные и отрицательные результаты.

***Ключевые слова:*** *семейное воспитание, семейные отношения, взаимоотношения родитель-ребенок, взаимоотношения мужа и жены, формирование личности, воспитание ребенка*

**Gunay Agayeva**

**THE ROLE OF FAMILY RELATIONSHIPS IN THE FORMATION OF CHILDREN'S PERSONALITY**

***ABSTRACT***

The article talks about the formation of the child's personality in family relationships. It is emphasized that relationships within the family have a significant impact on the mental and physical health of individuals. Relationships within the family shape children as healthy personalities. Children who grow up in the family with relationships based on mutual respect, love, tolerance and self-sacrifice between parents develop healthy personalities.

***Purpose*** – to study the influence of the family environment on the formation of a child's personality, to obtain scientific and theoretical knowledge on the elimination of family conflicts that affect the development of children, refraining from arguments in the presence of children and creating favorable conditions for communication.

***Methodology*** – approaches and ideas put forward in classical and modern psychology, applicable to family relationships and their influence on the formation of a child's personality, theories based on the study of problems related to the development of a child's personal qualities.

***Research results*** – The study analyzed family upbringing, influencing the formation of the personality of children, the attitude of parents to children and the parents among themselves, and positive and negative results were also identified.

**Keywords:** *family education, within the family relationships, parent-child relationship, husband and wife relationship, personality formation, child education*

**UOT 316**

**Nuray Qibləliyeva**
*Bakı Dövlət Universiteti, dissertant*
*nuray-qiblaliyeva@mail.ru*

# DƏYƏR İNSAN FƏALİYYƏTİNİN REQULYATİV ƏSASI KİMİ

*Məqalədə dəyərlərin insan fəaliyyətinə və insanın mahiyyətinə yanaşmada yalnız sistemlilik şəraitində dərk edilməsi, requlyativ əsas kimi mümkünlüyü araşdırılmışdır. Qeyd edilmişdir ki, dəyərlər insanın varlığına və faliyyətinə nizam gətirir. Dəyər mədəniyyəti həyatın bütün şərtləri ilə formalaşır, fəaliyyətə daxil olmaqla reallıqla uyğunlaşdırılır, davranışların əsasını təşkil edir və onları tənzimləyir. Fəaliyyət və dəyər arasındakı əlaqə qarşılıqlıdır, fəaliyyət anlayışı dəyər olmadan müəyyən edilə bilməz. İnsan fəaliyyətində isə bölgü yoxdur Subyektiv motivli fəaliyyətlər həmişə obyektiv başa düşülür və həyata keçirilir. Dəyərlərin müxtəlifliyi insan fəaliyyətinin strukturunun müxtəlifliyini tam əks etdirir. Dəyərlər insan fəaliyyətinə yönəlmiş normativ tələblər kimi çıxış edir.*

***Açar sözlər:*** *dəyər, insan, fəaliyyət, davranış,məqsəd, requlyativ əsas, varlıq, nizam*

Müasir dövrdə bəşəriyyət varlığın maddi və humanitar əsaslarını qorumaq kimi ən kəskin problemlərlə üzləşmişdir. Artan texnogen və sosial fəlakət şəraitində keçmişə, dünya müharibələrinin dəhşətlərinə, totalitarizmə nəzər saldıqda insan fəaliyyətinin dəyər əsaslarının yenidən nəzərdən keçirilməsinə təcili ehtiyac yaranır. Aydın olur ki, şüur özünü tənqidsiz yüksəltmə nəticəsində yaranmış layihələr, ictimai quruculuq məqsədləri əsasında həyatı qurmaq iqtidarında deyil. Tarix bizi etiraf etməyə məcbur edir ki, çox vaxt xeyirxah məqsədlər, onların həyata keçirilməsinin rasional şəkildə yoxlanılmış vasitələri cinayətlərə gətirib çıxarır, həyata daxil olanda saf ideyalara nail olmaq qeyri-insani, əxlaqsız ictimai-siyasi təcrübə formalaşdırır. 20-ci əsr açıq şəkildə göstərdi ki, təbiətin, cəmiyyətin rasionalist sxemlərə uyğun olaraq çevrilməsinə, yenidən qurulmasına istiqamətlənmə texnogen mədəniyyətin dominant dəyərinə çevrildi və bunun ardınca (qlobal fəlakətlər təhlükəsi səbəbindən) düzgün seçim məsələsini kəskinləşdirdi. Həyatın təkrar istehsalı üçün sivilizasiyanın əsas texnologiyalarına adekvat dəstək verəcək, sosial nizamın humanitar yüksək standartlarla üzvi birləşməsinə, bilik və dəyərin, həqiqətin və idealın uyğunlaşdırılmasına töhfə verən fəaliyyətin belə əsaslarının inkişafına mühüm ehtiyac vardır. Köklü sosial dəyişikliklərə səbəb olan xeyirxah məqsədlərlə fəlakətli nəticələr arasındakı təhlükəli uçurum aradan qaldırılmalıdır.Bu tədqiqat fəaliyyətin dəyər əsaslarının mücərrəd rasionalist ideallarla deyil, real həyatın imperativləri ilə qidalanmalı olduğunu əsaslandırmağa həsr edilmişdir.

Fəlsəfədə dəyərin insan fəaliyyətinin tənzimləyici, aksioloji prinsiplərinin öyrənilməsinə maraq artmışdır. Dəyərin insan fəaliyyətinin requlyativ əsası kimi təhlili bütövlükdə bölünməmiş münasibətlərin müəyyən aspekti kimi dərk edilir.

İnsan tarixdə gerçəkliyə və özünə antropo-sosial-mədəni genezis prosesi gedişatında formalaşır. İnsan fəaliyyətin strukturunun, dəyərlər və fəaliyyət arasındakı əlaqənin sabitliyinin təhlili real olaraq dəyər yönümlərinin konkret insan fəaliyyətində tutduğu yeri aydınlaşdırır. İnsan fəaliyyətinin təhlili, fəlsəfi səviyyədə şərh edilməsi, obyektlərin aləminə yönəlmiş subyektin fəaliyyətinin digər subyektlərlə qarşılıqlı əlaqəsi, fəaliyyət strukturunun mənəvi

tənzimlənməsi səviyyəsində müəyyən edilir.

Heyvan həyatının bioloji təşkilindən insan fəaliyyətinin sosiomədəni təşkilinə keçid baş vermişdir ki, bu da fərdin davranışının genetik olaraq ötürülən proqramlaşdırılmasını ifadə edir. Fəaliyyət prinsipləri işlənib hazırlanması zamanı insan fəaliyyətinin instinktdən kənar nəzarəti təmin edəcək psixikanın inkişafı tələb olunur. Çünki onun təhlili, obyektlərin dünyasına yönəlmiş subyektin fəaliyyəti kimi, digər subyektlərlə qarşılıqlı əlaqəsi fəaliyyət strukturu kimi fəlsəfi səviyyədə şərh edilməsi və təcrübi, mənəvi tənzimlənmə və praktiki-mənəvi, bədii və yaradıcı səviyyəsində fəal imkanlar və ehtiyaclarla müəyyən edilir. Onun ehtiyacları ilk növbədə təbii mühiti dəyişdirməkdir. Onu maraqlarınıza uyğunlaşdırmaq praktikanın funksiyasıdır. Bu problemləri birgə həll edən subyektlərin qarşılıqlı əlaqəsi - insanlar arasında praktik ünsiyyət. Hər iki hərəkət instinktiv olmadığı üçün, onların idarə edilməsi həyata keçirilməli olan informasiya dəstəyi tələb edir. Bu məqsəd üçün zəruri və kifayət qədər olan aşağıdakı formalar mövcuddur.

“Birincisi, məqsəd qoyma və ya layihələndirmə şəklində, yəni layihələndirmə üzərində yaradılacaq obyektin ideal prototipinin təxəyyül gücü təcrübə və subyektin özünün prototipi, özünü görmək istədiyi kimi olan forma; ikincisi,dünyanın dərk olunması və dünyada özünü anlama forması. Çünki yalnız bilik əsasında insanın dünyanı və özünü məhsuldar dəyişdirmək təcrübəsi mümkündür; üçüncüsü, subyektin fəaliyyətinin dəyər yönümünə istiqamətlən-dirilməsidir ki, onsuz bilik reallaşdırılmamış qalır və layihələr - "tələb olunan gələcəyin modelləri", meydana gəlmir, bu gələcək "lazım olan", arzu olunan, yəni subyekt üçün dəyər kimi tanınınır; nəhayət, dördüncü, subyektlərin mənəvi ünsiyyətində, birgə hərəkətlərdə, dialoqun gedişində yüksək, səmərəli razılıq, qarşılıqlı anlaşma, mənəvi birlik əldə edilməsidir” [4, c.65]. Deməli, insanların dialoq seçimi və məqsədləri onların ünsiyyətinə rəhbərlik edən dəyərlərlə şərtlənir, fərdlərin ünsüyyətlərini praktiki və nəzəri idraka yönəldir. Bu şəkildə seçilən komponentlərin zəruriliyi və kifayətliyi, sistemli, hərtərəfli başa düşülən fəaliyyətlər formal təhlillə təsdiqlənir, mümkün və dəqiq subyekt-obyekt münasibətləri sistemi aşağıdakı elementar formalarda özünü göstərir: subyekt obyektiv münasibətləri və əlaqələri əks etdirə bilər , yəni dünyanı dərk edər; onu dərk etmək dəyərlidir; o, yeni ideal layihə yarada bilər.

Subyekt onun ehtiyaclarını ödəyən, mövcud olmayan, lakin arzu olunan və ya zəruri olan obyektləri dərk edir; subyektlərarası münasibət – dialoq şəklində ünsiyyət ola bilər Sinkretik olaraq qarşılıqlı şəkildə birləşən fəaliyyət forması onun ilkin praktiki forması kimi müəyyən edilir. İnsanın fəaliyyətinin ümumi arxitektonikasında dünyanın dəyər qavrayışının tutduğu yerin qanunauyğunluqları nümayiş etdirilir.

Müasir dövrdə mürəkkəb şəraitdə dəyərlər insan fəaliyyətinin tənzimləyici əsası kimi çıxış edir.Belə ki, indiki zamanda insan fəaliyyətinin dairəsi genişlənmişdir. İnsan bu halda yaranmış mühitə uyğunlaşmalıdır. Bunun üçün isə o, öz fəaliyyət davranış və rəftar sistemində dəyişikliklər yaratmalıdır. ”Təhlillərdən belə nəticəyə gəlmək olar ki, dəyərlər fərdə gerçəkliyi sınağa çəkmək və öz şəxsiyyətini qorumaq şansı verirlər. Hər bir yaş dövrü başqa dəyərlərdən fərqli olaraq istər hissiyyat, istərsə də davranış tərzi baxımındn özünəməxsus xüsusiyyətlərə malikdir. Yaşın müxtəlif dövrlərindəki dəyər sistemi, fərdin cəmiyyətdəki əxlaqi və ictimai meyarlar və qanunauyğunluqlarla uyğunlaşmasına səbəb olur. Hər bir insan davranışında təzahür edən ədəb-ərkan, təmizliyə riayət, ailə və təhlükəsizliyinə qarşıdiqqət, məsuliyyət və s. dəyərləri mənimsəməklə öz şəxsiyyətinin qoruyub möhkəmləndirməyə başlayır.Digər tərəfdən dəyərlər güclü stimullaşdırıcı qüvvəyə malik olduqları üçün, fərdi öz hədəflərini reallaş-dırmağa doğru yönləndirirlər..” [8]

Tarix radikal sosial dəyişikliyə səbəb olan ideallar və dəyərlər arasında uçurum olduğunu göstərmişdir. İdeya və ideallərın qavrayışı ilə insan fəaliyyəti təbii, həyati ehtiyac-lardan uzaq, sosial mexanikləşdirmə praktikasına gətirib çıxarır. İctimai düşüncə, ağıl, iradi

prinsiplər oyanır, istiqamətlənir, ideallara uyğun reallıqlar yaratmaq niyyətləri, hərəkətləri öz əksini tapır. İdeal reallıqdan qopmuş obrazlar sistemini təsbit edən səbəbdir. İdeallar elmin hüdudları daxilində sübut olunmur, çünki dəyərlər kəskin mübarizədə, çox vaxt güc tətbiqi ilə bərqərar olur.

Ədalət və mərhəmət əməli və mənəvi cəhətdən əxlaq, xoş niyyət, məqsədyönlü peşəkar fəaliyyət, ümumbəşəri dəyərlər, hüquq, humanitar dəyərlər, onların real həyata keçirilməsinin mümkün olur. Əxlaq qanunu ilə müəyyən edilən, əxlaqi ideala, peşə borcuna uyğun hərəkət etmək bacarığı insanın daxili böyüklüyünü ifadə edən, xoş niyyət deməkdir. Bununla belə, insan fəaliyyəti yüksək humanitar təməllərə cavab verən şəxslərin varlığının özəyində maraq, praqmatik münasibət, şəxsi meyl üstünlük təşkil edir.

Dəyərlərin şəxsi və sosial müstəvidə daşıdığı əhəmiyyəti aşağıdakı bəndlərdə xülasə etmək mümkündür: “1) Dəyərlər sistemi bu və ya digər cəmiyyətin məqsəd və qayəsini müəyyənləşdirir, fərdi davranış tərzi və maraq dairəsini müəyyən edən meyarlar üçün əsas rolunu oynayır; 2) Dəyərlər sisteminin ənənəvi dəyərlər və yeni həyat tərzi arasında gedən “çəkişmə”ni yumşaltmaq, fərdlərdəki psixoloji gərginliyi azaltmaq funksiyası vardır; 3) Dəyərlər sistemi ilə sosial mədəniyyət arasında birbaşa əlaqə mövcuddur. Dəyərlər sistemi bu əlaqəni möhkəmlədir, vicdan, zəka və davranışları şəxsiyyətin balanslaşdırılmış komponentləri halına gətirir; 4) Dəyərlər bu və ya digər kollektivi (ailə...) qoruyub saxlayır, onun özü üçün müəyyən etdiyi məqsədlərə çatmağında daxili bütövlüyü təmin edir, cəmiyyətin ayrı-ayrı üzvlərinin, müxtəlif qruplarının dəyişməz prinsiplərə bağlılığına imkan yaradır. Məhz bu prinsiplər sağlam ictimai münasibətlərin meydana çıxmasında dəyərlərə bağlılığı zəruri edir; 5) Dəyərlər fərdlərə onlardan tələb olunanı yerinə yetirmək imkanı verir, onlara müsbət uyğunlaşma bacarığı qazandırır. Bu və ya digər kollektivin prinsip və sağlam ideallarına uyğunlaşmaqla fərd özünü həm təmin, həm də təsdiq etməyi bacarır; 6) Dəyərlərə bağlılıq fərddə əmin-amanlıq duyğusu formalaşdırır, nəticədə o, müəyyən psixoloji vəziyyətlərdə, ətraf mühitin təsirləri qarşısında özünümüdafiə mexanizminə sahib olur; 7) Dəyərlər əxlaqi aşınma ilə mübarizədə əvəzsiz vasitələr hesab olunur. Fərdlər, xüsusən gənc nəsil əxlaq dəyərlərini şəxsi və sosial həyatda əsas meyara çevirdikləri təqdirdə əxlaqsız hərəkətlərdən çəkinir, nalayiq ifadələrdən istifadə etmir, ehtiras və cinsi istəyin əsirinə çevrilmirlər. Dəyərlər düşüncə, vicdan və istəklərə nəzarət mexanizmi rolunu oynayır; 8) Dəyərlər fərdləri psixoloji və əxlaqi baxımdan tərbiyə edir, xeyrə, yaxşılığa, fədakarlığa, dürüstlüyə çağırır; 9) Dəyərlərin əhəmiyyəti həm də ondadır ki, insanlara müəyyən vəziyyətlərdə əxlaqi cəhətdən necə hərəkət etməyi öyrədir”.[5]

Dəyər subyektin həm zahiri, həm də daxili mənəvi prinsipinə çevrilir, əxlaqi, intellektual, idraki və s.əhəmiyyət kəsb edir,daha dərin məna daşıyır. Mənəviyyat fərdin sərbəst seçim etmək qabiliyyətində ifadə olunur, mənəviyyat və əxlaq mənaca bir araya gəlir.Mənəviyyat subyektin özünə münasibətdə sərbəst hərəkət etmək qabiliyyətidir,həyat proqramı və davranışın sosial stereotipləridir. Bununla belə, bununla tükənməsə də, onun dini mənası ilə ziddiyyət təşkil etmir. Təcrübənin fərdiliyi onun mənəvi varlıq kimi fərdiliyinin əsasını təşkil edir. Təcrübənin zahiri təzahürü ümumi qəbul edilmiş norma və vəzifələrə tabe ola bilər. Əgər insan yaşamaq qanununa əməl edərək təbii bir orqanizm kimi hərəkət edirsə və nəticəni artırmaq üçün ağıldan istifadə edirsə, buna baxmayaraq təfəkkür və məqsəd qoyma proseslərinin ideal xarakteri, onun fəaliyyəti hələ mənəviyyatın təcəssümü deyil.Dəyər sosial davranış normalarına və müəyyən edilmiş qaydalara təsir edir.İnsanın fəaliyyəti, davranış vərdişləri dəyər tənziminin əsasını adətlər, ənənələr, ayinlər və s. təşkil edir. Bu dəyər normalar insanı tədricən inkişaf etdirir, davranışını nizama salır. Humanizm, sədaqət, mərhəmət, məhəbbət kimi dəyərlər insan fəaliyyətində əsas yer tutur.

“Dəyərlər insan, cəmiyyət və bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən, insan və

cəmiyyətin fəaliyyətinin əsashərəkətverici qüvvəsi olan, subyekt-obyekt münasibətlərində fərdi və sosial baxışları müəyyənləşdirən, maddi vəideal varlıqların sintezini təşkil edən (əşyalar, proseslər, bilik və modellər və s.) rasional və irrasional konstruksiyaların mürəkkəb vəhdət formasıdır.Sosial və mənəvi dəyərlər fərdin digər insanlarla, cəmiyyətlə əlaqəsini təmin edir və bu əlaqə vasitəsilə fərd özvarlığını genişləndirir. Fərd öz varlığını həm cəmiyyətdə, həm də mənəvi sferada genişləndirmək üçün müxtəlif dəyərlərin yaradıcısına çevrilir. Çünki bu yaradıcılıq prosesi, ona öz varlığının fövqünə çıxmağa və əbədiyyətqazanmağa imkan verir. Deməli, insan dəyərləri dəyərləndirmək vasitəsilə individual səviyyədən sosial, sosial səviyyədən ümumbəşəri, ümumbəşəri səviyyədən metafizik səviyyəyə qədər özünü reallaşdıra və təsdiq edə bilir.Bu prosesdə həm də dəyərlərin özü inkişaf edir və şəxsiyyətin bütün mənəvi potensialının təzahürü kimi ortaya çıxır." [6]

Beləliklə, dəyər münasibəti insan fəaliyyətinin subyekt üçün obyekttin əhəmiyyətinin aşkar olunmasının spesifik və zəruri tərəfi kimi dərkolunma sistemilə sübut olunur. Obyekt-subyekt münasibətləri sistemində dəyər münasibəti onun zəruri tərəfidir. Bu o deməkdir ki, dəyər ondan irəli gələn kimi hansısa obyekt, hadisə, proses deyil, mənəvi mahiyyət kəsb edir. Dəyər münasibəti obyektə aid deyil, lakin subyektlə, yəni sosial və mədəni keyfiyyətlərin daşıyıcısı ilə, onun mənəvi fəaliyyətinin fərdi məzmununu müəyyən edir; insan fəaliyyəti və onun kimi çıxış etdiyi real münasibətdir.Dəyər varlıq olmadan, obyekt-subyekt münasibətində yaranır.Dəyər münasibətinə bu yanaşma ilə onu qurmaq, onun struktur modelini nəzərdən keçirmək və buna görə də onu bütöv şəkildə nəzərdən keçirmək mümkün olur.Həqiqətən, dəyər münasibəti qarşılıqlı əlaqədə olan və müəyyən həyata keçirən mənəvi fəaliyyətdir.İnsan fəaliyyəti və dəyər mədəniyyətdə və ictimai həyatda bütöv bir fenomen kimi fəaliyyət göstərir. Onun öyrənilməsinin iki aspekti - daxili və xarici aspektləri nəzərdə tutulur. Daxildən baxsaq, dəyər münasibəti iki tərəfin - dəyər daşıyıcısına çevrilən bəzi obyekt və bir şəxs (və ya qrup müəyyən bir obyekti qiymətləndirən (daha doğrusu, dəyərini təyin edən insanların) münasibətləri ilə formalaşır. Çünki qiymətləndirmə, aksioloji xarakter daşımaya bilər və müəyyən məna kəsb edir. Beləliklə, dəyər obyektin dəyəridir, qiymətləndirmə isə emosional-intellektual əhəmiyyət kəsb edir.

Buradan belə çıxır ki, daxildən baxılan dəyər münasibəti bir növ sistemli bütövlüyün öz məzmunu və forması kimi çıxış edir.

Dəyərin həyatın praktik sferasında -insan fəaliyyətində təzahürü barədə aşağıdakılar göstərilir:

"• mənəviyyat sferasının meydana gəlməsi;

• mənəvi dəyərlərə və məqsədlərə ehtiyacı ifadə edən sabit xarakter əlamətləri kimi şəxsiyyətin fəzilətlərinin formalaşması;

• insanın həssas, bioloji təbiətinə nəzarətin həyata keçirilməsi, fərdin assosial eqoist ehtiyacları ilə mübarizə;

• Başqasına, bütövlükdə dünyaya hörmət və qayğının formalaşdırılması;

• təbiət və cəmiyyət tərəfindən müəyyən edilən, insanın öz həyatın mənasını və fərdin "proqram"a zidd olaraq sərbəst hərəkət etmək qabiliyyətini üzə çıxaran fəaliyyətin mənasızlığına, avtomatik absurdluğuna qarşı çıxmaq;

• yüksəklik forması kimi dini-mistik və fəlsəfi-elmi dünyagörüşünün inkişafı, məhdud şəxsi varlığın hüdudlarını aşmaq üçün şüurun təkmilləşdirilməsi".[2, c.55]

İnsan fəaliyyətinin dəyər əsaslarının onun simvolik komponentinin ideoloji, mənəvi-əxlaqi komponenti kimi sosial-fəlsəfi təhlilinə ehtiyac, dəyərin mahiyyətini müəyyən edən metodoloji vasitələrin aydınlaşdırılması ehtiyacı yaranmışdır.

İnsan fəaliyyətinin dəyər əsaslarının strukturunun və məzmununun sosial-fəlsəfi əsaslandırılmasına ehtiyac, onların strukturlaşdırılması prinsipləri, bu ümumbəşəri dəyərlərin

aydınlaşdırılması diqqəti cəlb edir. Konkret cəmiyyətin davamlı inkişafı və müasir şəraitdə uğurlu qarşılıqlı əlaqə üçün ən əhəmiyyətli olan dəyərlər mövcuddur.

Qloballaşan dünyada öyrənilən dəyər bazalarının çevrilməsinin amillərinin və məzmununun müəyyənləşdirilməsi zərurəti ortaya çıxır. Bu onunla bağlıdır ki, mühüm dəyişikliklərə səbəb olan qlobal proseslər obyektiv olaraq yeni tip insanın formalaşmasına tələbat yaradır və müvafiq insan fəaliyyətinin və onun requlyativ dəyər əsaslarının əhəmiyyətli dərəcədə yenilənməsinə səbəb olur.

İnsan fəaliyyətindəki ziddiyyətləri, habelə müvafiq dəyər bazalarının inkişafı üçün prioritet sahələri əsaslandırmaq yolu ilə onların həlli yollarını müəyyən etmək zərurəti də yaranır.

“Qloballaşan dünyada əxlaq və mənəviyyat nəzəriyyəsi dünya haqqında sistemli elmi bilik, bütövlük, özünütərbiyə və özünüdərk, dönməzlik, insanın təbiətlə dialoqu prosesində cəmiyyətin təkmilləşdirilməsini əsas məqsəd kimi qarşıya qoyur. Bu məqsəd milli xüsusiyyətlər və ümumbəşəri dəyərlər zəminində tarixi köklərinə sadiq qalaraq inkişaf edən Azərbaycan təhsilinin qloballaşma şəraitində şəxsiyyətin cəmiyyətlə münasibətlərini tənzimləyən aparıcı komponenti və dominant dəyərlər sistemidir.” [1]

Dəyərlər (normalarla birlikdə) hər hansı bir mədəni icmanın universal birləşməsidir. Keçmişin və indinin mədəniyyətləri arasındakı fərq, görünür, onlar üçün dəyişməz dəyərlərin fərqli iyerarxik mövqeyi kimi təqdim edilə bilər və müxtəlif formalarda ifadə edilə bilər və onların həyata keçirilməsi yolları. Nəticə etibarı ilə mədəniyyətlər arasındakı fərq onların dəyər sistemlərindəki fərqdə izlənilir.

“Dəyər” anlayışının məzmunu məsələsinə bir neçə yanaşma mövcuddur. Yanaşmaların ayrılması üçün əsas meyar dəyərlər üçün bioloji və ya sosial təbiətin dərk edilməsidir.

Dəyərlərin təbiətinin bioloji (təbii) konsepsiyası psixologiya və biologiyanın eksperimental məlumatlarına əsaslanır ki, bu da onun elmlərarası yanaşmanın tələblərinə uyğunluğu haqqında haqlı olaraq danışmağa imkan verir. İnsan fəaliyyətinin əsas vəzifəsinin müəyyən ehtiyacların ödənilməsinə yönəldilə bilən müəyyən dəyərlərin olması ilə razılaşmamaq çətindir. Eyni zamanda, ehtiyacın və ya marağın ödənilməsi nə qədər çətin olsa, nəticənin özü də bir o qədər vacib (daha qiymətli) olacaq ki, bu da öz növbəsində sonrakı məqsədlərə çatmaqda müəyyən standarta çevriləcək. Bioloji yanaşma fərdi ehtiyac və maraqlara üstünlük verir ki, bu da müasir elmi biliyin bəzi sahələrinin cari hadisələrə fərdi mərkəzçilik nöqteyi-nəzərindən baxmaq meylinə uyğundur.

Bununla belə, dəyərlərin fərdin dünyanın emosional qavrayışının xüsusiyyətlərindən asılılığı onların ikinci dərəcəli təbiətini vurğulayır və onların universallığından danışmağa, mədəniyyətin real mövcudluğunu onlarla əlaqələndirməyə imkan vermir.

“Bir mədəniyyət, yaxud cəmiyyətin formalaşmasında dəyərlər əsas element kimi çıxış edir. Dəyərlər fərdi və ictimai müstəvidə ali ideallar hesab edildiyindən ətraf aləmdə baş verənləri, insanların hadisələrə münasibətini qiymətləndirən normalar rolunu oynayır. Mənəviyyata söykənən dəyərləri qarşılıqlı ictimai münasibətlərin əsaslandığı başlıca “bünövrə” hesab etmək mümkündür. Cəmiyyətin bazis tərkibinin dəyişməsi dəyərlərə təsirsiz ötüşmür, mövcud vəziyyətlə hakimdəyərlərin mübarizəsi qaçılmaz olur.Dəyərlər həyatın bütün (dini, iqtisadi, siyasi, sosial, ideoloji, fəlsəfi) sahələrində başlıca məfhumlar kimi özünü göstərir. Belə ki, bu və ya digər sosial-mədəni, siyasi və dini, ideoloji qrup dəyərləri özünə meyar seçərək fərdlərin, qrup və cəmiyyətin, hətta xalqların düşüncə və davranışlarındakı məna və məzmun yükünə qiymət verir. Bununla yanaşı, dəyərlər stimul və motivasiya rolunu oynayaraq, fərdlərə təsir vasitəsi kimi çıxış edir. Odur ki, davranışlarda dəyərlərin şüurlu və mexaniki “təzahür”ünü açıq şəkildə müşahidə etmək mümkündür.”. [5]

Naturalist yanaşmada ikilik gizlənir,bir tərəfdən... münasibətlərin “biolojiləşdirilməsi”

adı altında bütün cəhdlər mədəni fəaliyyətin bioloji əsaslarını müəyyən etmək üçün şərh edilir. Digər tərəfdən, biolojiləşdirmə ittihamları çox mədəniyyətin bioloji impulsların formalaşması rolunun təyin edildiyi hallara aiddir.

Naturalist yanaşmanın çatışmazlıqları dəyərləri həddindən artıq emosional fərdiyyətçilikdən xilas etmək məsələsinə gətirib çıxardı. Ancaq başqa bir ifrat ortaya çıxdı - dəyərləri "reallıqdan, məkandan və zamandan kənarda olan ideal varlıqlar" kimi qəbul edən "obyektivist" cərəyanlar meydana gəldi. "Obyektivistlərin" araşdırmalarına uyğun olaraq, dəyərlər təcrübədən və insanın özündən asılı olmayan və ümumbəşəri əhəmiyyət kəsb edən bir növ mütləqlik kimi qəbul edilməlidir. Obyektivist anlayışlar yalnız dəyərləri həddindən artıq biolojilikdən azad etmək cəhdləri kimi qəbul edilməlidir, onlar təbiətşünaslarla ciddi rəqabət aparmağa qadir deyillər. Obyektivist nəzəriyyələrin çoxlu sayda zəif tərəfləri var: ideal dəyərin daşıyıcıdan təcrid olunması, dəyərlərin real həyatda işləmə mexanizmini adekvat şərh edə bilməməsi, nəzəri tədqiqatların həddindən artıq spekulyasiyası, digərləri ilə əlaqələrin olmaması, normativ dəyər sistemləri haqqında elmi biliklər sahəsinin qüsurlarından xəbər verir.

Dəyərlər insan fəaliyyətinin əsasını təşkil edir. İnsan fəaliyyətinin strukturu, onun özüntəşkili məhz dəyərlər sistemilə müəyyən olunur. Bu halda şəxsiyyət dəyər sisteminə əsaslanan sosial fərd kimi çıxış edir. Fərdə, insan fəaliyyətinə,onun aksioloji funksiyalar sisteminə şəxsi dəyərlər sistemi təsir edir. Deyilənlərdən məlum olur ki, dəyərlər sistemi insan fəaliyyətinin özülü rolunu oynayır.

”Məhz o,subyektin intensional fəaliyyətinin şəxsi (dəyərlərlə mənalaşdırılmış, dəyərlər baxımından rasional hesab olunan) tiplərini müəyyən edir” [7, s.368].

Naturalist və obyektivist anlayışlar onların biososial mahiyyəti konsepsiyasında təcəssüm olunan dəyər münasibətlərinin dualizminin əlaməti kimi qəbul edilməlidir. Bu yanaşma T.Parsons, R.Merton, E.Şils, Q.Naqqel, Q.Bekker, R.Boskov, H.Blumer və başqalarının əsərləri üçün səciyyəvidir. Bununla bağlı insan iki sistemdə təbii, eyni zamanda mədəni. mövcud olur. Bu başlanğıclardan hər hansı birinin üstünlüyü ilə bağlı müzakirələr çox vaxt bu başlanğıcların bir-birini üzvi şəkildə tamamlamaqla yanaşı, izomorf olması ilə nəticələnir və buna görə də onlar arasında aydın sərhədin yaradılmasından imtina etmək lazımdır.

“Sonra, onlar şəxsiyyətin formalaşması və inkişafının əsas amilidir. Lakin nəzərdə tutulmalıdır ki, bu funksiyalar dəyərlərin bütün növlərində eyni səviyyədə yerinə yetirilmir, bu münasibətdə ciddi fərqlilik özünü göstərir. Başqa sözlə deyilsə, şəxsiyyətin həyatında oynadığı rola görə əsas yeri məqsəd-dəyərlər tutur, vasitə dəyərlər isə ikinci dərəcəliəhəmiyyət kəsb edirlər” [3, s.17].

İnsanın mənəvi fəaliyyətinin dəyərlərlə əməli bağlılığı vardır. Xristian filosofları və ilahiyyatçıları, buddizm, hinduizm, sufizm nəzəriyyəçiləri, müxtəlif istiqamətli mistiklər insanın təbii həyat istəyinin boğulmasını bilavasitə mənəvi təcrübə ilə əlaqələndirirlər. Bunun səbəbi, artıq qeyd edildiyi kimi, təbii həyatın eqoizm, həzz və faydalılıq ifadəsi kimi dərk edilməsidir. Belə münasibət təbiətdə iki qütb və fərdi varlığın başlanğıcının ifadəsi kimi təbii həyat və mənəviyyata qarşı çıxan təfəkkür dualizmi ilə bağlıdır. Həyatın bütövlükdə qavranılması, buradakı mənəvi zənginləşmə mənəvi fəaliyyətə fərqli qiymət verir. Təbii və mənəvi prinsiplərin vəhdəti onların şüursuz və şüurlu şəkildə can atdıqları ümumi məqsədlərlə əlaqələndirilir. Bunlara ilk növbədə azadlıq daxildir. Dünyadakı qarşılıqlı təsir prosesləri də kainatın bu ən mühüm amilini izləməyə əsaslanır. Fiziki və mənəvi bütövlük unikallığı ifadə etməyə, onu başqa hadisələr aləminə gətirməyə meyllidir.

“Mifoloji əsaslardan irəli gələn dəyərin həqiqətlə eyniləşdirilməsi dini şüur və dəyərin faydalılıqla eyniləşdirilməsinə, praqmatist-pozitivist düşüncəyə görə isə, insanın və onun yaratdığı xüsusi mənəvi fəaliyyət sahəsinin fəlsəfi dərk edilməsinə gətirib çıxartdı” [4, c.71]

Buna görə də aksiologiya üçün nəzərdə tutulmuş müxtəlif qiymətləndirmə növlərini fərqləndirən məntiqin köməyi lazımdır. Müəyyən vəziyyətlərdə dəyər və həqiqət münasibətləri,dəyər və faydalılıq münasibətləri kimi, tam olaraq bir-birini tamamlayır.Eyni hadisənin, obyektin, hərəkətin həqiqətinin və ya faydalılığının müəyyən edilməsi, faydalılığın praktikada yaranması, həqiqətin praktikada yoxlanılması baş verir.

“Şəxsiyyətin dəyərlilik məzmununun bütövlük səviyyəsi olmaq etibarı ilə mənəviliyin yaranması ilə bılavasitə bağlıdır. Həmin səviyyə şəxsiyyətin həyat fəaliyyətinin səciyyəsini göstərməklə, özünü dəyərli-rasional əxlaqi davranışda ifadə edir.İntensionallığın (davranış üslubu, həyat tərzi, şəxsiyyətin dəyərlər seçimi sistemi) əsasında duran ilkin müqəddəm şərt insan ilə reallığın dəyərlilik məna sferasını ifadə edən mədəniyyət arasındakı qarşılıqlı təsirdir. Şəxsiyyətin formalaşmasında bu qarşılıql təsir başlıca yer tutur. Öz mahiyyətinə görə şəxsiyyət unikal xarakter daşıyır, özü də unikallığın mənası sadəcə onun təkrarolunmazlığında deyil, həm də bir şəxsiyyət varlığının digəri ilə əvəz oluna bilməməsinə yəqinliyində ifadə olunur. Hər bir fərd onun müəyyən sosial statusunu təmin edən bu və ya digər sosial dəyərlərin seçiminə üstünlük verməklə şüurlu surətdə özünü nə dərəcədə müəyyənləşdirə bilirsə, bir o dərəcədə də şəxsiyyətə çevrilir” [7,s.369].

Beləliklə, dəyərlərdən praktiki olaraq insan fəaliyyətində daim istifadə olunur.Dəyərlər insanın fəaliyyətilə sıx bağlı olub, onun davranış və hərəkətlərinin requlyativ yönüm rolunu oynayır. Dəyər, fərdin azadlıqdan istifadə etmək imkanı, dəyərlərin seçilməsi və varlığın mənası, bu dəyərlərin və mənaların daha yüksək məzmununu, daxili dəyərlərin praktik fəaliyyətə və davranışa çevrilməsi kimi başa düşülə bilər. Buna görə də dəyər anlayışları və hadisələri seçim, mənəvi məqsəd və mənəvi-praktik davranışa təsir edən amil kimi çıxış edir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Abdullazadə, N. Qloballaşma və əxlaqi-mənəvi dəyərlərin qorunması/04.10.2019// https://www.fact-info.az/news?id=7112
2. Баева, Л. В. Информационная эпоха: метаморфозы классических ценностей : монография / Л.В. Баева. – Астрахань, 2008. С.55
3. Hacıyev, Z. Keçid dövrü və sosial dəyərlər // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. 2002, №3-4 ,s.17
4. Каган, М.С. Философская теория ценности**.** — Санкт-Петербург, ТОО ТК "Петрополис", -205 с.
5. Məmmədov, E.Dəyərlər: mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları// https:// scwra. Gov .az/az/ view/articles/362/deyerler-mahiyyeti-ferdi-ve-sosial-heyatda-ehemiyyeti-ve-funksiyalari
6. Rəcəbli V. Dəyər anlayişinin mahiyyətinə dair /21.07.2019 //https: //www. geostra-tegiya. az/news. php?id=50/
7. Rzayev, M.Müasir şəxsiyyət (sosial-fəlsəfi təhlil)- Bakı, 2015,-513
8. Rzayeva, N. Dəyərlərin təşəkkülü: tələbələrin dəyərlər sisteminin formalaşmasının psixoloji xüsusiyyətləri - Psixologiya Elmi-Tədqiqat İns… https: //psixologiya-institutu.az/2020/11/26/dəyərlərin-təsəkkulu-tələbələrin-dəyərlər-sisteminin-forma-lasmasinin-psixoloji-xususiyyətləri-2/ 4/10

**Нурай Киблалиева**

## ЦЕННОСТЬ КАК РЕГУЛИРУЮЩАЯ ОСНОВА ЧЕЛОВЕЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

### *РЕЗЮМЕ*

В статье рассматривается возможность осмысления ценностей как регулятивной основы в подходе к человеческой деятельности и сущности человека только в условиях системности. Было отмечено, что ценности вносят порядок в существование и деятельность человека. Ценностная культура формируется всеми условиями жизни, приспосабливается к действительности, включаясь в деятельность, составляет основу поведения и регулирует их. Отношения между деятельностью и ценностью взаимны, понятие деятельности не может быть определено без ценности. Однако в деятельности человека нет разделения на субъективно-мотивированные виды деятельности которые всегда понимаются и реализуются объективно. Многообразие ценностей в полной мере отражает многообразие структуры человеческой деятельности. Ценности выступают в качестве нормативных требований, направленных на деятельность человека.

***Ключевые слова:*** *ценность, человек, действие, поведение, цель, регулятивная основа, существование, порядок*

**Nuray Qiblaliyeva**

## VALUE AS THE REGULATORY BASIS OF HUMAN ACTIVITY

### *ABSTRACT*

The article examines the possibility of understanding values in the approach to human activity and the essence of man only in the conditions of systematicity, as a regulatory basis.It has been noted that values bring order to human existence and fortune-telling. Value culture is formed by all the circumstances of life, is harmonized with reality, including in activity, forms the basis of behavior and regulates them. The relationship between activity and value is mutual, the concept of activity cannot be defined without value. In human activity, however, there is no division subjectively motivated activities are always objectively understood and carried out. The diversity of values fully reflects the diversity of the structure of human activity. Values Act as normative requirements aimed at human activity.

***Keywords:*** *value, man, activity, behavior, purpose, regulatory basis, being, order*

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 338.48**

**Vilayət İsmayılov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.e.d.*
*ismaylov1953@mail.ru*

**Teymur Kərimov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*magistrant*
*teymur-kerimov@internet.ru*

## AZƏRBAYCANDA TURİZM MÜƏSSİSƏLƏRİ FƏALİYYƏTİNİN PROQNOZLAŞDIRILMASI

*Məqalədə turizm müəssisələrinin gələcək dövr üçün strategiyaları, turizm infrastrukturunun mövcud imkanlarından səmərəli istifadə yolları araşdırılmışdır. Azərbaycanda turizm sektorunun davamlı inkişafına mane olan amillər: hava daşımalarında yüksək qiymətlər və adekvat yaşayış yerlərinin olmaması kimi məsələlərin təhlil edilməsi və onların həlli yolları təklif edilmişdir.*

*Həmçinin, Azərbaycanda mövcud turizm potensialının iqtisadi qiymətləndirilməsi, turizm resurslarından səmərəli istifadənin ümumilikdə regionun sosial-iqtisadi inkişafına müsbət təsir göstərməsi istiqamətində müvafiq təkliflər verilmişdir.*

*Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, mövcud şəraitdə Azərbaycanda turizm resursları potensialından səmərəli istifadə edilərsə gələcək dövr üçün mühüm irəliləyişlərə,ölkə iqtisadiyyatında turizm sənayesinin əsas paya sahib olmasına nail olmaq olar.*

***Məqsəd*** – Azərbaycanda turizm müəssisələrinin gələcək fəaliyyətinin proqnozlaşdırılması, gələcək dövr üçün səmərəli istifadə yollarının araşdırılmasından ibarətdir.

***Metodologiya*** – tədqiqat işində iqtisadi, statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – turizm müəsissələrinin fəaliyyətində proqnozların rolu, gələcək inkişafına təsir göstərən müsbət və mənfi cəhətlərin müəyən olunmasıdır. Bu istiqamətdə aşkar edilmiş problemlərin aradan qaldırılmasına uyğun müvafiq töhfələr qeyd edilmişdir.

***Açar sözlər:*** *turizm, proqnozlar, tendensiyalar, müasir turizm, töhfə, potensial*

### Giriş

Səyahət və turizm sənayesi dünyanın ən böyük sənayelərindən biridir . 2020-ci ildə təxminən 4,9 trilyon ABŞ dolları itkidən sonra (-50,4% azalma), turizm sənayesinin ÜDM-ə töhfəsi 2021-ci ildə 1 trilyon ABŞ dolları (+21,7% artım) olmuşdur. Bu məbləğlər dünya ÜDM-nin 10,4%-nə və bütün iş yerlərinin təxminən 10-dan 1-nə bərabər idi. 2020-ci ildə 62 milyon işçi iş yeri itirilib ki, bu da 18,6% azalma deməkdir. 2021-ci ildə isə 18,2 milyon iş

yeri bərpa edilib ki, bu da illik müqayisədə 6,7% artım deməkdir. 2019-cu ildə Səyahət və Turizm sektoru qlobal ÜDM-ə 10,3% töhfə verib; hərəkətliliyə davam edən məhdudiyyətlər səbəbindən 2020-ci ildə 5,3%-ə qədər azalan pay 2021-ci ildə payı 6,1%-ə yüksəldib [21].

Turizm sektoru Azərbaycan iqtisadiyyatının ən sürətlə inkişaf edən sahələrindən biridir. Ölkənin böyük potensialını nəzərə alaraq, bir çox yerli və beynəlxalq şirkət və təşkilatlar Azərbaycanın turizm məkanı kimi tanıdılması üçün yeni layihə və proqramlara diqqət ayırıblar. 2014-cü ilin payızında dünya bazarlarında xam neftin qiymətinin kəskin ucuzlaşması Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərib. Bu, Azərbaycan milli valyutası manatın qlobal bazarlarda sonrakı iki devalvasiyasına səbəb olub və onu əvvəlki dəyərinin yarısına qədər ucuzlaşdırıb. Bundan əlavə, 2015-ci ilin yanvar ayında əvvəlki ayla müqayisədə 35%, 2014-cü ilin ümumi göstəricisindən isə 16,6% az olan neft gəlirlərinin azalması Azərbaycanın milli gəlirinə böyük zərbə vurdu [23]. Nəticədə Azərbaycan hökuməti yeni strategiyalar elan etdi, o cümlədən: neft sənayesindən asılılığın azaldılması, tükənməz resurslara əsaslanan müasir sənayelərin inkişafı və yerli məhsulların ixracının artırılması hesabına bazarda xarici valyutanın artırılması. Belə ki, turizm sektorunun inkişafı iqtisadiyyatın bərpası və Azərbaycan iqtisadiyyatının daha çox dayanıqlı olması üçün cəlbedici və effektiv variant idi və belə də qalır.

Neft sektorudan asılıllığın azaldılması istiqamətində ölkəyə daha çox ziyarətçi cəlb etməklə əlavə gəlir əldə etmək zərurəti öz növbəsində dövlətin miqrasiya strategiyasına təsir göstərdi. Dövlət Statistika Komitəsinin ilkin məlumatlarına əsasən, son illər turist axını sürətlə artmaqdadır. Pandemiyanı nəzərə almasaq təkcə 2018-ci ildə Azərbaycana 2,605 milyon əcnəbi turist gəlib ki, bu da 2016-cı illə müqayisədə 23% artım deməkdir. 2021-ci ildə turizm sənayesini ölkə ÜDM-nə töhvəsi 6,1-% təşil etmişdir ki buda 2020-ci illə müqayisədə 21,7 % artım deməkdir.

Son illər turistlərin sayında nəzərəçarpacaq artım müşahidə olunur ki, turizm sektorunun aparıcı sahələr sırasında mühüm yeri var.

Sektorun birdən-birə genişlənməsi ziyarətçilərin həcminin lazımi səviyyədə yerləşdirilməsi üçün turizm infrastrukturunun təşkili və idarə olunması baxımından problemləri ön plana çıxarıb.

Azərbaycan dövlətinin miqrasiya strategiyasına diqqəti elit turizmdən sağlamlıq turizmə çevirərək təsir etdi [12]. Buna baxmayaraq ekoturizmin infrastrukturu çox az dəyişmişdir. Hökumət tərəfindən turizm sektorunun strukturunu və turizmin idarə edilməsi sistemində əsasnamələrin dəyişdirilməsi,Mədəniyyət və Turizm Nazirliyinin ləğv edilməsi, Turizm Şurasının və Dövlət Turizm Agentliyinin yaradılması Azərbaycanın turizm siyasətinə təsir göstərən mühüm qanunvericilik və icraedici addımlardır. Buna baxmayaraq, çatışmazlıqlar və zəif nöqtələr sənayenin inkişafına mənfi təsir göstərir və hətta sektorda artımı pozur.

**Turizm fəaliyyətində proqnozlar**

Müəlliflər tərəfindən Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm müəssisələrinin fəaliyyətində gələcək üçün proqnozlar təhlil etmişdir. Ölkədəki turizm resurslarının qiymətləndirilməsi zamanı ədəbiyyat mənbələrində tanınmış ayrı-ayrı metodikalardan istifadə olunmuşdur. Tədqiqatda məlumat mənbələri kimi Dövlət Statistika Komitəsi, Azərbaycan Dövlət Turizm Agentliyinin məlumatları və saytları, Ümumdünya Səyahət və Turizm Şurasının, Ümumdünya Turizm Təşkilatının (UNWTO),həmçinin 2025-ci ilə qədər turizm sferasının inkişafı konsepsiyasının layihəsi və digər mövcud informasiya mənbələrindən istifadə edilmişdir.

Azərbaycanın turizm sektoru 2023-cü il üçün çox ümidverici mənzərə yaradır. COVID-19 pandemiyasından sonra turizm sənayesi sürətlə bərpa olunmağa başlayıb və yerli və xarici

turistlərin sayı artıb. Mədəni və təbii turizm obyektləri populyarlaşdı və davamlı turizm və ekoloji cəhətdən təmiz turizm variantları tələb olundu.

Azərbaycanda turizm müəsissələri turistlərin ehtiyaclarını ödəmək və rəqabət üstünlüyü əldə etmək üçün texnoloji həllərin və virtual tur təcrübələrinin artırılmasına sərmayə qoyublar. Təşkilatlar turizm sektorundakı inkişafları izləyir və müştərilərinə ən yaxşı xidməti göstərmək üçün çalışırlar.

Azərbaycanın turizm sektoru mədəni və təbii turizm attraksionlarının zənginliyi, tarixi və mədəni dəyərləri ilə turistlər üçün cəlbedici seçimə çevrilib. Təşkilatlar turistlərin ehtiyaclarını ödəmək üçün müxtəlif turizm paketləri təklif edir və turistlərin istəyinə uyğun olaraq xüsusi turlar təşkil edirlər.

Azərbaycanın turizm sektoru davamlı turizm təcrübələrinə üstünlük verir. Müəsissələr təbii əraziləri qorumaq üçün davamlı turizm təcrübələri üçün layihələri dəstəkləyir və turistlərin təbii ərazilərin qorunması haqqında məlumatlılığını artırmağa çalışırlar. Azərbaycan turizm sektoru turistlərin ehtiyaclarına uyğun xidmət göstərmək və rəqabət üstünlüyü əldə etmək üçün texnoloji həllərdən istifadə edir. Onlayn rezervasiya sistemləri, virtual tur təcrübələri və mobil proqramlar turistlər üçün səyahət planlamasını asanlaşdırır.

Turizm sektoru ilə bağlı proqnozlar göstərir ki, ötən illərin tendensiyalarına uyğun olaraq turistlərin sayı artmaqda davam edəcək. Bu artım turistlərin ehtiyaclarını ödəmək üçün turizm təşkilatları tərəfindən göstərilən xidmətlərin keyfiyyətindən, qiymət göstəricilərindən və texnoloji həllərdən istifadədən asılıdır.Bundan başaqa turizm sektoru öz nöbəsində turizm və turizm biznesinin birləşməsindən yaranan turizm ekosisteminə öz töhfəsini verir. Bu ekosistem turistlərin səyahət təcrübəsini yaxşılaşdırmaq, turizm müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və turizm sektorunda imkanlardan istifadə etmək üçün nəzərdə tutulub [11.s 36].

Turizm sektoru Azərbaycan iqtisadiyyatı üçün mühüm rol oynayacaq və davamlı investisiyalar və inkişaflarla daha da inkişaf edəcəkdir. Turizm müəssisələri turizm sektorundakı imkanları qiymətləndirmək və turistlərin ehtiyaclarını ödəmək üçün işlərini davam etdirəcəklər.

**Materiallar və metod**

Proqnozlara görə, gələcəkdə neftin qiymətinin aşağı düşməsi Azərbaycan manatının dəyərinə təzyiq yarada bilər və nəticədə növbəti devalvasiyaya səbəb ola bilər. Gələcək devalvasiya və iqtisadi ləngimə təhlükələrini kompensasiya etmək üçün diqqətin qeyri-neft sənayesinə, xüsusən də turizm sənayesinə yönəldilməsi ölkənin tək əmtəədən asılılığının mənfi nəticələrini yumşalda bilər. Turizm sənayesinin mərkəzləşdirilməsi turistlərin yerləşdirilməsi imkanlarının artırılmasını və daha təkmil turizm infrastrukturunun yaradılmasını tələb edəcəkdir.

Turizmlə bağlı dövlət orqanlarının idarəetmə strukturunda dəyişikliklər və Azərbaycanda Turizm Şurasının yaradılması Azərbaycan turizm sektorunda yeni inkişaf mərhələsini qeyd edə bilər. Bundan əlavə, Azərbaycanın imicinin və onun turizm brendinin daha da inkişaf etdirilməsi növbəti illərdə ölkəyə gələn ziyarətçilərin sayını uğurla artıra bilər.

Azərbaycanın “Gerçək zamanlı marketinq (Real-Time Marketing)” yeni marketinq kampaniyasının strateji məqsədlərindən biri də 2023-cü ilə qədər gələn turist axınını ikiqat artırmaqdır. Yeni turizm brendi artan ekspozisiya, o cümlədən Azərbaycanın İngiltərənin ev sahibliyi etdiyi “Excel London” beynəlxalq sərgisində iştirakı ilə üst-üstə düşür. Gələcək üçün Almaniya, Rusiya, BƏƏ, Səudiyyə Ərəbistanı, Hindistan, Çin, Böyük Britaniya, Koreya və Fransa “Real-Time Marketing” kampaniyasını təşviq etmək üçün mərkəzlər kimi göstərilir. Azərbaycanın turizm brendinin beynəlxalq miqyasda nümayiş etdirilməsi həmin ölkələrdən turist axınının artmasına kömək edəcək və Azərbaycanın turizm brendinin daimi yaradılmasına

dəstək verəcək.

Ümumdünya Səyahət və Turizm Şurası 2022-ci ildə Səyahət və Turizmin Azərbaycan İqtisadiyyatına İqtisadi Təsiri adlı nəşr hazırlayıb. [25] Orada son illərin icmalı, eləcə də növbəti 10 il üçün proqnozlar təqdim olunub (Cədvəl 1). Dünya Səyahət və Turizm Şurasının statistikasına əsasən, 2019-ci ildə turizm sənayesinin Azərbaycanın ÜDM-ə birbaşa töhfəsi 7,9 % (ən yüksək nəticə) təşkil edib. Bundan əlavə, 2028-ci il üçün bu göstəricinin 15,6%-ə yüksələcəyi proqnozlaşdırılır. Statistikaya əsasən, 10 ildən sonra Azərbaycan İspaniya, İtaliya, Şri-Lanka (turizm sənayesinin iqtisadiyyata birbaşa töhfələri yüksək olan ölkələr) kimi ən çox tələb olunan turizm ölkələri siyahısında yer alacaq [25].

Ümumdünya Səyahət və Turizm Şurasının proqnozlarına görə, istirahət xərcləri təxminən üç dəfə artacaq. Bundan əlavə, biznes xərclərinin 2028 ci ilə qədər 5 dəfə artması da gözlənilir. Lakin qısa müddətdə turistlərin sayının kəskin artması yüksək turizm sıxlığına səbəb ola bilər və sektorun daşıma qabiliyyətindən çox ola bilər [25].

Turizmin sürətli inkişafı destinasiyalara mənfi təsir göstərə bilər, vətəndaşların həyatına yük yarada bilər və ziyarətçilərin səyahət keyfiyyətini aşağı sala bilər. Ölkədə mövcud turizm strategiyaları və məqsədlərini həyata keçirmək həm yerli, həm də xarici turistlər üçün müsbət artıma nail olmaq məqsədilə turizmə kapital qoyuluşunun artırılması gözlənilir.

***Cədvəl 1.*** **Azərbaycan üzrə turizm göstəricilərində proqnoz**

| Göstəricilər və proqnoz | 2019, milyon. dollar | ÜDM-in strukturunda xüsusi çəkisi, % | 2021, milyon. dollar | ÜDM-in strukturunda xüsusi çəkisi, % | 2028, Proqnoz, %-lə | 2021-ci ilə nisbətən 2028-ci idə artım proqnozu, dəfə |
|---|---|---|---|---|---|---|
| ÜDM-ə birbaşa töhfə | 4,111.3 | 7,9 | 1,580.4 | 3.0 | 15.6 | **+5,2** |
| ÜDM-ə ümumi töhfə | 9,630 | 10,3 | 5,812 | 6,1 | 19.3 | **+3,1** |
| Məşğulluğa ümumi töhfə | 4,267.4 | 8.2 | 5,907 | 6.2 | 18.1 | **+2,9** |
| Turist ixracı | 2,193.1 | 8.3 | 241.6 | 1.0 | 19.6 | **+19,6** |
| Daxili xərclər | 1,443.0 | 2.7 | 1,093.1 | 1.1 | 3,5 | **+3,1** |
| İstirahət xərcləri | 3,078.1 | 5.9 | 1,219.6 | 1,2 | 4.5 | **+3,75** |
| Biznes xərcləri | 504.0 | 0.9 | 115.1 | 0.2 | 1.1 | **+5,5** |

*Mənbə:* Dünya Səyahət və Turizm Şurası, Turizmin Azərbaycan İqtisadiyyatına təsiri 2022-ci il
*Qeyd:* müəlliflər tərtib etmişdir

**Müzakirə**

Bu bölmədə turistlərin yerləşdirilməsi, otaqların və çarpayıların sayı baxımından Azərbaycanın turizm potensialının mövcud vəziyyəti təsvir edilmiş və təhlil edilmişdir. Bundan əlavə, yuxarıda qeyd olunan məlumatlar Bakını Azərbaycanın digər bölgələri ilə müqayisə etmək, eləcə də yaşayış yeri tutan şəxslərin mənşəyini müqayisə etmək, Azərbaycan hökumətinin strategiyasının uğurları barədə nəticə çıxarmaq üçün təqdim olunur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ildə qəbul edilən turistlərin sayı 791 min 751 nəfər olub ki, bu da 2020-ci illə müqayisədə 3,971 min nəfər azdır.

Bundan əlavə, rəsmi olaraq ayrılmış turist yerlərində çarpayıların sayı eyni illərdə 2362 ədəd artaraq 2020-ci ildə 50687-dən, 2021-ci ildə 53049-a yüksəlib. 2021-ci ildə qəbul edilən turistlərin sayı son bir ildə təxminən 0,49% azalıb, son iki ildə isə 75% (2019-2021) azalma müşahidə olunur. Qlobal pandemiyanın dünya iqtisadiyyatına önəmli mənfi təsirini nəzərə alsaq bu göstəricilər normal qəbul edilə bilər.Buna baxmayaraq 2019-2021-ci illər arasında təxminən 6,1 % artım təşkil edən çarpayı sayı müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, ziyarətçilərin əsas turizm təsnifatını istirahət, işgüzar və tibbi turistlər təşkil edir - bütün kateqoriyalar son illərdə getdikcə daha da artmaqdadır və bu, sənayenin turizm potensialının bütün tendensiyalar nəzərə alınmaqla genişləndirilməli olduğunu əyani şəkildə göstərir.

Aşağıda 2016-2021-ci illər arasında turistlərin yaşayış yerlərində qonaqların gecələmələri verilir (diaqram 1). Məlumatlara əsasən, 2016-cı ildə turizm müəssisələri əsasən, xarici turistlər tərəfindən məşğul olub, 2020-ci ilə qədər xarici turistlərin sayı yerli turistləri üstələyib, bundan sonra xarici turistlərin gecələmələrində artım yerli turistlər tərəfindən xeyli üstələnib. Qrafikdən göründüyü kimi pandemiyaya qədər xarici vətəndaşların ölkədə qalmalarının sayının artmasının mühüm səbəbləri turizm sənayesinin, o cümlədən vizaların inkişafı məqsədilə hökumətin daha liberal turizm qaydalarını qəbul etməsi,ölkədə baş verən iqtisadi siyasi sabitlik,mühüm tədbirlərin,yarışların və s keçirilməsi olub.




***Diaqram 1.*** **Yerli və əcnəni turistlərin ölkədə illər üzrə gecələmələrinin sayı, adam gecə**
*Mənbə:* [8, s. 24] əsasında müəlliflər tərtib etmişdir

Cədvəl 2-də 2011-2021-ci illərdə Bakıda mehmanxanaların, çarpayıların və otaqların sayının növbəti bölgüsü göstərilir. Şəkil son 11 ildə hər üç göstəricinin təxminən iki dəfə artdığını göstərir. Bu cür artım perspektivli sayıla bilər. Otellərdə, otaqlarda və çarpayılarda müşahidə edilən artım, bütün tendensiyalar sabit saxlanılarsa, turistlərin cari artımını qarşılamaq üçün hələ də kifayət etməyəcək. Bundan əlavə, statistik məlumatlara görə, Bakıdan kənar bütün regionlarda turizm müəssisələrinin tutumu 2021-ci il üzrə (53049-21885) 31164 çarpayı təşkil edir ki, bu da ümumi tutumun yarıdan bir qədər çoxunu təşkil edir ki, bu da hökumətin turizm sahəsinə diqqətini nəzərə alsaq, bu sektorda gələcək turist

artımını təmin etmək üçün kifayət etməyəcək.

Azərbaycana gələn turistlərin ümumi sayının 33%-ni yaxınları və qohumları təşkil edir ki, onlar əsasən qonşu ölkələrdən, o cümlədən Rusiya, Türkiyə və İrandandırlar. Bu tip turistlər əsasən fərdi yaşayış yerlərində qalmağa üstünlük verirlər. Bundan əlavə, qonşu ölkələrdən gələn turistlər qısamüddətli və ya gündəlik səyahətləri seçirlər ki, bu, ölkənin turizm imkanlarına ciddi təsir göstərməsin. Hökumətin əsas turizm məqsədlərindən birinin müxtəlif ölkələrdən turist cəlb etmək olduğunu nəzərə alsaq, daha çox turist yerləşdirmə yerlərinə ehtiyac olacaq. Lakin istirahət və digər məqsədlərlə turist axınının durmadan artması Azərbaycanın regionlarında turizm potensialının çatışmazlığına səbəb ola bilər.

***Cədvəl 2.*** **Ölkə və Bakı şəhəri üzrə mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əsas göstəriciləri**

| İllər | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | **2011-ci illə müqayisədə 2021-ci ildə artım, % və ya dəfə** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid, ölkə üzrə | 508 | 514 | 530 | 535 | 536 | 548 | 563 | 621 | 670 | 682 | 712 | 40.1% |
| Bakı şəhəri, mehmanxana tipli obyektərin sayı.vahid. | - | - | - | - | - | - | - | 188 | 223 | 229 | 243 | - |
| Birdəfəlik tutum, yer, ölkə üzrə | 31979 | 32834 | 33951 | 35652 | 37278 | 40042 | 41611 | 46693 | 49980 | 50687 | 53049 | 65.8% |
| Bakı şəhəri, birdəfəlik tutum, yer. | 10291 | 10217 | 10521 | 11792 | 12779 | 14020 | 14861 | 18637 | 20740 | 21151 | 21885 | 2,13 dəfə |
| Nömrələrin sayı, vahid,ölkə üzrə | 14815 | 15898 | 16559 | 17363 | 17953 | 20330 | 20778 | 22192 | 23865 | 24195 | 25445 | 1,72 dəfə |
| Bakı şəhəri, nömrələrin sayı,vahid. | 5607 | 6386 | 6837 | 7491 | 7656 | 8692 | 9496 | 10233 | 11329 | 11533 | 11985 | 2,14 dəfə |

*Mənbə:* [8, s. 45-49] əsasında müəlliflər tərtib etmişdir

Bakı şəhəri mehmanxanaların sayı və tutumuna görə Azərbaycanın 14 iqtisadi rayonu arasında birinci yerdədir. Ən inkişaf etmiş iqtisadi rayon olması, paytaxt amili və ölkə ərazisindən keçən bütün əsas nəqliyyat marşrutlarında yerləşməsi Bakını Azərbaycanın turizm infrastrukturu baxımından da ən inkişaf etmiş bölgəsinə çevirir. Bütün turizm obyektlərinin tutumunun 40%-i Bakıdadır. Nəticə etibarı ilə turistlər daha çox Bakıya səfər edir və orada qalırlar ki, bu da turist sıxlığı kimi problemlərə səbəb ola bilər ki, bu da şəhərin “turizmdən” əziyyət çəkməsinə səbəb ola bilər. 2021-ci ildə Bakı mehmanxanalarında 227714 əcnəbi və vətəndaşlığı olmayan turistlər yerləşdirilmişdir ki, bu da bütün Azərbaycanda mehmanxanalarda yerləşdirilən əcənəbi və vətəndaşlığı olmayan turistlərin ümumi sayının 84 faizini təşkil edir ki, bu da regional infrastrukturdan kifayət qədər istifadə olunmamasını göstərir [13].

Azərbaycanda mehmanxanalara ulduzların verilməsi könüllü olduğu üçün turizm müəssisələrinin strukturlaşdırılmış təsnifatı və müvafiq məlumatları kifayət qədər deyil. Ona görə də mehmanxanaları təsnifat və onların xidmət,qiymət balansına görə təhlil etmək mümkün deyil. Bununla belə, qeyd etmək lazımdır ki, 2021-ci ildə ümumilikdə 271563

əcnəbi vətəndaş 414404 gecə keçirmiş, otellərə gecələmə və digər xidmətlərə görə ümumilikdə 47 342,1min manat ödənilmişdir [8]. Ödənilmiş pulla gecələmələrin ümumi sayını müqayisə etdikdə, turistlərin yerləşdirilməsi üçün çox yüksək qiymətlərin olduğu görünür.

**Nəticə**

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın turizm sektorunda müəyyən edilmiş strateji inkişafların zəif tərəflərinə aşağıdakılar aid edilə bilər:

- turizm strukturlarının əsasən Bakıda cəmləşməsi – gələcəkdə turistlərin paytaxtdan həddindən artıq istifadə etməsi sıxlıq yarada bilər. Nəqliyyat və yaşayış yerlərindən həddindən artıq istifadə yerli əhaliyə mənfi təsir göstərə bilər;
- ölkənin regionlarında infrastruktur çatışmazlığı – yaxın 10 ildə gözlənilən turist axınının ikiqat artımını nəzərə alaraq, regionlarda turizm müəssisələrinin potensialının olmaması gözlənilir. Xidmətlərin və infrastrukturun keyfiyyətinin aşağı olması ilə bağlı narazılıqlar, xüsusən yaşayış yerləri nəzərə alınmaqla, regionlarda sıxlıq yarana bilər;
- müxtəlif beynəlxalq istiqamətlərə, müxtəlif istiqamətlərdən və regionlardan Azərbaycana uçuşların olmaması və Azərbaycanın hava nəqliyyatı sistemində rəqabət qabiliyyətinin aşağı olması aviabiletlərin bahalaşması ilə nəticələnir ki, bu da turist axınına təsir göstərə bilər;
- yerləşdirmə və digər turizm infrastrukturunun qeyri-kafi olması, differensasiya və diversifikasiyanın olmaması və mehmanxanaların strukturlaşdırılmış təsnifat sisteminə malik olmaması. Bölgələrdəki əksər turist yerləri qiymətləri süni şəkildə bahalaşdırır, isti mövsümdə turistləri uzaqlaşdırır;
- bir çox ölkələrə viza rejimlərinin tətbiqi

Beləliklə, Azərbaycanda turizm sferasının inkişaf edirilməsi istiqamətində aşağıdakı tövsiyələr verilə bilər:

- turizm baxımından Azərbaycanın digər bölgələrinə diqqət yetirilməsi, ölkənin hər bir turizm regionu üçün düzgün marketinq strategiyalarının həyata keçirilməsi;
- regionlarda yeni infrastrukturun yaradılması, turizm məhsul və xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;
- turizmin qurulması üçün Azərbaycanın təhlükəsiz ölkə kimi təbliği, regionda sülhün əldə edilməsi;
- turizm müəssisələrinin dəqiq sertifikatlaşdırılması, onların büdcəsi əsasında yeni turistik yerləşdirmə obyektlərinin yaradılması;
- uristlər üçün səyahət öncəsi prosesi daha rahat etmək üçün ölkə sərhədinə girişdə endirimlərin verilməsi.

Sonda belə bir ümumiləşdirilmiş nəıticəyə gəlmək olar ki, Azərbaycanda ən yüksək göstərici üzrə 2019-cu ildə qəbul edilmiş xarici turistlərin sayından 2,5-3 dəfə çox təristqəbul etmə, yerləşdirmə imkanı vardır. Əgər, işğaldan aşad edilmiş ərazilər də turizm potensialının mövcudluğu və ondan səmərəli istifadənin təşkili mexanizmi düzgün qurularsa turizm sektorunun inkişafına maksimum səviyyədə nail ola bilərik.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. “Turizmin tarixi” (Dərslik) - B.Ə. Bilalov “Mütərcim”, -Bakı, - 2008, -188 s.
2. Soltanova H.B.Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı-2015. Səh.475
3. “Turizmin iqtisadiyyatı və idarə edilməsi” - Ə.Q. Əlirzayev, -Bakı, - 2011, -122 s.

4. “Müalicə-sağlamlıq turizminin inkişaf etdirilməsi istiqamətləri”. N.S.Musayev, -Bakı: Əmək və Sosial Münasibətlər Elmi praktiki jurnal, -2019, №1 (11), -s.113-122
5. İsmayılov V.İ. Beynəlxalq turizmin coğrafiyası.-Bakı, -2021: Kooperasiya Nəşriyyatı,-264 s.
6. “Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri” - E.Q. Məmmədov, -Bakı, -2013, -s.72; -s. 239-251
7. “Turizmin əsasları” - B.Ə. Bilalov, Ç.G.Gülalıyev, Bakı, - 2015, - 150 s.
8. “Azərbaycanda turizm”- Statistik məcmuə, -Bakı, -2022.
9. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" çərçivəsində Turizm üzrə Alt-işçi qrupunun Hesabatı, -Bakı, -2016, -s. 13-15
10. Шаповал Г.Д. История туризма. Минск, ИП, «Энoперспектива»,-1999, -184 с.
11. Jos van der Sterren, (2008) Financial Markets, Microfinance and Tourism in Developing Countries.
12. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət proqramı. Azərbaycan Respublikasının Qanunvericiliyi toplusu. II cild, Bakı: “Avrasiya press”, 2011.
13. Azərbaycan Respublikasının Dövlət Statistik Komitəsi - www.stat.gov.az
14. “Azərbaycanda turizm” - www.azerbaijan.travel
15. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi - www.mct.gov.az
16. Azərbaycan Respublikası - www.azerbaijan.az
17. Azərbaycan Milli Kitabxanası “Azərbaycanın daxili turizm potensialı” - www.anl.az
18. Azərbaycan İnformasiya Agentliyi - www.azerbaycaninfo.az
19. World Tourism Organization - www2.unwto.org
20. www.turizm.az
21. https://wttc.org/research/economic-impact 2022.
22. World Travel & Tourism Council, 2019, “Travel & Tourism, Global Economic Impact and Issues 2019”, https://www.wttc.org/-/media/files/reports/economic-impact-research/regions-2019/world2019.pdf
23. State Oil Company of Azerbaijan Republic (SOCAR), “Financial Reports Consolidated to the International Financial Reporting Standards”, Baku, 2015.
24. World Tourism Organization, 2022, Tourism Statistics in Azerbaijan.
25. https://wttc.org/DesktopModules/MVC/FactSheets/pdf/704/65_20220613154359_Azerbaijan2022_.pdf

**Вилаят Исмайлов**
**Теймур Керимов**

## РОЛЬ ТУРИСТСКИХ РЕСУРСОВ В ДЕЯТЕЛЬНОСТИ ТУРИСТСКИХ ПРЕДПРТЯТИЙ

### *РЕЗЮМЕ*

В статье рассматриваются стратегии туристических предприятий на перспективный период, пути эффективного использования имеющихся возможностей туристической инфраструктуры. Были проанализированы факторы, препятствующие устойчивому развитию туристического сектора в Азербайджане: высокие цены на авиаперевозки и отсутствие адекватного жилья и предложены решения.

Также были сделаны соответствующие предложения в направлении экономической оценки существующего туристического потенциала Азербайджана, эффективного использования туристических ресурсов для оказания положительного влияния на социально-экономическое развитие региона в целом.

В результате исследования было определено, что в нынешних условиях, при эффективном использовании потенциала туристических ресурсов в Азербайджане, в будущем периоде может быть достигнут значительный прогресс, и индустрия туризма будет

иметь большую долю в структуре доходов страны  экономика.

***Цель*** – Прогнозирование будущей деятельности туристических предприятий в Азербайджане состоит из исследования путей эффективного использования на будущий период.

***Методология*** – В работе использовались методы экономического, статистического и сравнительного анализа.

***Результаты исследования*** – Роль прогнозов в деятельности учреждений туризма заключается в определении положительных и отрицательных моментов, влияющих на их дальнейшее развитие. В этом направлении отмечены соответствующие вклады в устранение выявленных проблем.

***Ключевые слова:*** *туризм, прогнозы, тенденции, современный туризм, вклад, потенциал*

**Vilayat Ismayilov**
**Teymur Karimov**

## THE ROLE OF TOURIST RESOURCES IN THE ACTIVITIES OF TOURIST ENTERPRISES

### *ABSTRACT*

In the article, the strategies of tourism enterprises for the future period, the ways of effective use of the existing opportunities of the tourism infrastructure are examined. Factors hindering the sustainable development of the tourism sector in Azerbaijan: high prices in air transportation and lack of adequate accommodation were analyzed and solutions were proposed.

Also, relevant proposals were made in the direction of the economic assessment of the current tourism potential in Azerbaijan, the effective use of tourism resources to have a positive effect on the socio-economic development of the region in general.

As a result of the research, it was determined that in the current conditions, if the potential of tourism resources in Azerbaijan is used effectively, important progress can be made for the future period, and the tourism industry will have a major share in the country's economy.

***The purpose –*** Forecasting the future activity of tourism enterprises in Azerbaijan consists of investigating ways of efficient use for the future period.

***Methodology*** – economic, statistical and comparative analysis methods were used in the research work.

***The results of the study*** – the role of forecasts in the activity of tourism institutions is to determine the positive and negative aspects that affect their future development. Corresponding contributions to the elimination of the identified problems have been noted in this direction.

***Keywords****: tourism, forecasts, trends, modern tourism, contribution, potential*

**UOT 33.63**

**Hicran Mirzəyeva**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.f.d., dosent*
*akademiya_sm@mail.ru*

# RESURS TƏMİNATI VƏ AQRAR SAHƏDƏ İNNOVASİYALI İNKİŞAF İMKANLARI

*“Azərbaycanda iqtisadiyyatın və sosial sahənin inkişafı biznesin inkişafından asılıdır, özəl sektorundan asılıdır. Ancaq özəl sektorun Azərbaycanda iqtisadiyyatın bütün sahələrini biz istədiyimiz səviyyədə əhatə edə bilsək, səmərəli iş görə bilsək, onda həqiqətən bazar iqtisadiyyatı kimi iqtisadiyyatımız keçmiş mərkəzləşdirilmiş iqtisadiyyatından qat-qat üstün olacaqdır”*

(25 aprel 2002-ci il. Azərbaycan Prezidenti Heydər Əliyevin yerli sahibkarlarla görüşü)

*Bazar iqtisadiyyatına keçid əsasında aparılan aqrar islahatların ilkin mərhələsində əldə olunan müsbət nəticələr ölkənin ərzaq təhlükəsizliyinin yaxşılaşdırılmasında ciddi irəliləyişlər yaratsada onu tam təmin edə bilmədi. Bunun çoxsaylı obyektiv və subyektiv səbəbləri vardır. Aqrar islahatlardan sonra torpaq paylarının əsasən kiçik həcmliyi, su ehtiyatlarının məhdudluğu, maliyyə çətinlikləri, innovasiyalı istehsalın qurula bilməməsi istehsalın səmərəliliyini təmin edə bilmir, kənddə hələ də həyat tərzini çətinləşdirir. Tarixən əhalisinin təqribən yarısına qədərinin kənd yerlərində yaşadığını, torpağa bağlılığını nəzərə aldıqda məsələnin həlli çeşidli yanaşmaları şərtləndirməkdədir. Ona görə də aqrar sahənin, o cümlədən kənd təsərrüfatı istehsalının yüksək səmərəliliyinin təmin olunması məqsədilə bu sahədə innovasiyalı fəaliyyətin intensivləşdirilməsinə nail olunmalıdır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, resurs potensial, kəndli, pay torpaq, innovasiya, intensiv inkişaf*

## Giriş

Bir ictimai formasiyadan digərinə keçid çox çətin, mürəkkəb və uzun zaman tələb edən bir prosesdir. Azərbaycanda bazar iqtisadiyyatına keçid radikal islahatlarla həyata keçirildiyindən əlahiddə hal kimi çoxda üzun sürməyən bir müddətdə təşəkkül tapdı. Lakin bu keçid zamanın çağırıçları ilə daima yeniləşmə, təkmilləşdirmələr tələb edir. Bu baxımdan XXI əsrin çağırışları və o cümlədən 4-cü sənaye inqilabı iqtisadi reallıqların tələblərindən irəli gəlir.

Sosial iqtisadiyyatın şərtləri kənd yerlərində əhalinin rifah halına münasibətdə texnoloji imkanlardan istifadəni zərurətə çevirir. Həmçinin, ölkələrarası ticarət-iqtisadi əlaqələrin liberallaşdırılması fonunda daxili ərzaq bazalarının zərərli dempinq təzahürlərinə məruz qalması rəqabət qabiliyyəti aşağı olan aqrar sahədə riskləri artırır, mövcud durumu daha da mürəkkəbləşdirir. Bu səbəbdən kənddə sosial durumun sabitləşdirilməsi, əhalinin dolanışıq səviyyəsinin dinamikasının təmin edilməsi sayəsində gənclərin kənd həyatına bağlılığının

artırılması indiki halda dövlətin və cəmiyyətin qarşısında duran ən təxirə salınmaz vəzifələrdəndir. Ona görədə “keçid dövrü”ndə əldə olunan nəticələrin qənaətbəxşliyindən asılı olmayaraq milli maraqların yeni çağırışlara adekvatlığının təmin olunması məqsədilə keçilən yolun təhlili və vaxtaşırı təkmilləşdirici tədbirlərin qərarlaşdırılmasına və həyata keçirilməsinə daima ehtiyac vardır. Nəzərə alsaq ki, milli genefondun qorunmasıda kənddə sosial həyatın bərqərar olunmasından və iqtisadi təhlükəsizliyin qorunmasından irəli gəlir, onda problemin ciddiliyi artır.

**Kənd əhalisinin dolanışıq səviyyəsi və gəlir mənbələri**

Ölkəmizdə həyata keçirilməkdə olan aqrar islahat tədbirləri, qanunverici hüquqi bazanın formalaşması torpaq islahatlarının və özəlləşdirənin başa çatdırılması 2003-cü ildən etibarən dərinləşdirici aqrar siyasət kursunun başladılmasına rəvac verildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və uğurlu islahatlar nəticəsində kənd təsərrüfatında da biznes imkanları genişləndirildi. Lakin bu əsasda aqrar sahənin dövlət tənzimlənməsi yönümündə çeşidli dövlət proqramlarının həyata keçirilməsi, kənd təsərrüfatının maddi texniki bazasının gücləndirilməsi, istər istehsalda, istərsə də iqtisadi səmərəliliyinin artımında nəzərə çarpacaq irəliləyişlərlə nəticələnsə də ölkənin ərzaq təhlükəsizliyinin tam təmin olunmasında, ixrac potensialının formalaşmasında dayanıqlı fəaliyyət sisteminə nail olunmasında ciddi və daha uzunmüddətli fəaliyyətə ehtiyac olduğunu şərtləndirməkdədir.

Çeşidli təhlillər əsasında belə bir qənaətə gəlinir ki, aqrar sahənin dayanıqlı inkişafının təməl prinsiplərinə daxil olan kəndin sosial və iqisadi problemlərini əsaslı surətdə həll etmədən, kənd iqtisadi sistemini işlək hala gətirmədən kənd təsərrüfatı iqtisadiyyatının dayanıqlı inkişafını təmin etmək mümkün olmayacaqdır. Kəndin sosial problemləri dedikdə əsasən aşağıdakı üç amil nəzərdə tutulur:

- sahədə çalışan işçilərin həyat səviyyəsinin aşağı olması;
- kənd yerlərində işsizlik səviyyəsinin yüksək olması;
- sosial infrastuktunun inkişaf səviyyəsinin yetərsizliyi.

Son 20 ildə ölkəmizdə aparılan geniş miqyaslı quruculuq – abadlıq işləri iri şəhərlərlə yanaşı regionlarda da müsbət ciddi dəyişikliklər yaratmışdır. Kəndlə - şəhər arasındakı sosial fərqliliklər nəzərə çarpacaq dərəcədə azaldılmaqdadır. Lakin bütün bunlar kəndə sahibkarlıq mühitinin müasir tələblər səviyyəsində gətirilməsini təmin edə bilməmişdir.

Araşdırmalar göstərir ki, mövcud yeni iqtisadi şəraitdə aqrar sahədə sahibkarlıq mühitinin əlverişli olmaması müəyyən qədər aşağıdakı amillərin mövcudluğu ilə şərtlənir:

- ailə-kəndli, kiçik və orta səviyyəli sahibkarların istifadələrində lazımi qədər torpaq və su ehtiyatlarının olmaması;
- maliyyə çətinlikləri;
- sahədə inhisarlığın mövcudluğu;
- ölkədə azad rəqabət mühitinin yetərsizliyi;
- emal və aralıq kontinqentlərin təzyiqləri ilə üzləşmələr;
- sivil aqrar bazarın formalaşdırılmaması.

Nəticədə bu sahədə məhsul istehsalçılarının mənfəəti azalır və bütövlükdə aqrar-əmtəə istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyəti zərərlə başa çatır, geniş təkrar istehsal təmin oluna bilmir və onlar imkanları daxilində ailə tələbatlarının ödənilməsi üzrə məşğul fəaliyyətlə kifayətlənməli olurlar.

Ölkənin ayrı-ayrı bölgələrində son illərdə yaradılan 40-a yaxın aqroparklar istehsalın təmərküzləşməsinə, investisiya cəzbediciliyinin artması hesabına aqrar sahədə investisiya mühitinin yaxşılaşmasına imkanlar yaratsa da çoxsaylı ailə-kəndli və kiçik sahibkarlıq

qurumlarının müflisləşməsi davam edir, pay torpaqlarından başqa bir gəlir mənbəyi olmayan kəndli ailəsi iş tapmaq məqsədilə şəhərlərə üz tutur, ölkədə urbanizasiya prosesi güclənir.

ÇXR-da dövlətin kənd təsərrüfatına birbaşa müdaxiləsi tendensiyası mövcuddur. Bu prosesin daimi xarakterliyi sosial və təsərrüfat sahələrində qəfil tərəddüdlərin qarşısının alınmasına imkan verir. Dövlət eyni zamanda kənd təsərrüfatının stabil inkişafını təmin edən qərarlar qəbul edir. Dövlət öz üzərinə kənd təsərrüfatı müəssisələrinə və kənd təsərrüfatında çalışanlara maliyyə və informasiya yardımları göstərir, onları material və xammalla təmin edir (1).

Məlumdur ki, bu gün bütün sahələrdə olduğu kimi aqrar sahədə də ciddi nailiyyətlərə nail olunmuş ÇXR-da sosialist təsərrüfatçılıq sisteminin sosialist – kapitalist formasiyalarının əsas prinsiplərinin simbiozundan müvəffəqiyyətlə istifadə edilməsi nəticəsində əldə olunmuşdur. Bu özlüyündə təbiətinə görə riskli sahə sayılan aqrar sahəyə sistemli və dayanıqlı dövlət qayğısının tətbiqini özündə ehtiva edir. Sahəyə dövlət qayğısı təkcə ünvanlı maliyyə dəstəyi ilə bitməməli idarəetmə, təşkilatlanma, bazarlara çıxışın formalaşdırılması, gəlirlərin ədalətli bölünməsi, sosial qeyri – bərabərliyin minimumlaşdırılması və i.a. məsələlərinin həllidə bu ölkədə dövlət tənzimlənməsinin əsas postulatlarıdır.

Bütün bu qeyd olunanlar Cin aqrar strategiyasında və reallığında öz əksini tapmaqdadır. Yəni fəaliyyət sahəsindən asılı olmayaraq sahibkar seçdiyi istehsal sahəsində sərbəst iş qurmaqla, innovativ fəaliyyət imkanlarına malik olduğu üçün nəticədə fəaliyyətini mənfəətlə yekunlaşdıra bilir. Çin Xalq Respublikasının iqtisadiyyatında sistem dəyişikliyinin bir xarakterik cəhəti ondan ibarət olmuşdur ki, burada “keçid dövrü” radikal prinsiplər əsasında deyil, “qradalizm siyasəti”nə əsaslanan təkamül yolu ilə həyata keçirilmişdir.

Təhlillər əyani olaraq göstərir ki, ölkəmizdə beş nəfərdən ibarət kəndli ailəsinin ərzaq və digər təlabatının ödənilməsi üçün istifadə etdikləri (mülkiyyətlərində olan) əkinəyararlı torpaq sahələrinin həcmi mövcud məhsuldarlıq şəraitində kifayət həcmdə deyildir. Bu bir daha onu göstərir ki, inkişaf etmiş ölkələrdə olduğu kimi kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsi, məşğulluğun yaxşılaşdırılması üçün alternativ məşğulluqdan, xidmətyönümlü müxtəlif çeşidli iş yerlərinin açılması variantından geniş istifadə edilməsi zəruridir.

Statistik məlumatlara nəzərən 2021-ci ildə ölkəmizdə əhali sayı 10119,1 nəfərə çatmışdır. Bu 2017-ci ilə nisbətən 309,1 min nəfər artım deməkdir. 2017-ci ildə əvvəlki ilə nisbətən əhali artımı 1,07 faiz təşkil etsə də sonraki illərdə mütənasib olaraq bu artım 0,89%; 0,84%; 0,86%; 0,52% olmuşdur. Həmin dövrdə adambaşına əkinə yararlı torpaq sahəsi 0,20 ha ondan suvarılan torpaq həcmi isə 0,123 ha təşkil etmişdir. Yəni ölkə əhalisinin ərzaq təminatının mövcud torpaq resurslarından istifadə tərzi tamamilə yenidən daha mütərəqqi prinsiplər əsasında qurulmalı, dövrün çağırışlarına adekvat şəkildə resurs əsaslı aqrar istehsaldan innovasiyalı istehsala keçid obyektiv zərurətə çevrilməlidir. Bu baxımdan, ilk növbədə torpaq və su resurslarının vəziyyəti tədqiq olunmalıdır. Son beş ilin təhlilləri göstərir ki, dünyada baş verməkdə olan ekoloji dəyişikliklər respublikada da kənd təsərrüfatında su qıtlığına səbəb olmaqdadır. Əksər əkinlərin (taxıl, pambıq) vegetasiya tələblərinə uyğun su təminatı ilbəil çətinləşir. 3-5 dəfəlik suvarma tələbləri 1-2 dəfə ilə kifayətlənir və bu da əkin məhsuldarlığına ciddi mənfi təsir göstərir. Hesablamalar göstərir ki, bir orta statistik kəndli ailəsinin (5 nəfərdən ibarət) mövcud real məhsuldarlıq şəraitində tabeliklərində olan pay torpaqları kifayət qədər olmadığından onların əlavə torpaq sahələrinə ehtiyacı vardır. Lakin heç də bütün ailə - kəndli subyektlərinin əlavə torpaq sahəsi almaq və yaxud icarəyə götürmək imkanları yoxdur.

Cədvəldən göründüyü kimi, real istehlak xərcləri çərçivəsində 1 kəndli ailəsinin (5 nəfər) normal yaşayışı üçün taxıl əkdikdə 15.3 ha, arpa əkinində 20.9 ha pambıq əkinində isə 16.1 torpaq sahəsi olmalıdır. Əks təqdirdə istehlak tələbatını yalnız böyük əksəriyyəti kartof və

tərəvəz istehsalı ilə ödəyə bilərlər. Bu isə əksər regionlar üçün məqbul deyildir. Yəni ölkədə hər bir kəndli ailəsinin pay torpaqdan istifadə ilə ənənəvi təsərrüfatçılıq şəraitində öz daxili istehlak tələbatını ödəməsi mümkün görünmür. Belə vəziyyət yuxarıda qeyd edildiyi kimi regionlarda istehsal subyektlərinin digər gəlir mənbələri axtarışı məsələsini aktuallaşdırır.

**Aqrar sahənin innovasiyalı inkişaf prioritetləri**

Kənd yerlərində alternativ gəlir əldə etmək üçün start kapitalı zəruridir. Bu məqsədlə, kiçik aqrar emal və ya xidmət fəaliyyətinə başlamaq olar. Lakin fermerlərin kreditə çıxış şərtləri, əlverişli deyildir (3). Digər maneə əhalinin biznes təcrübəsinin və vərdişlərinin olmamasıdır. Odur ki, yerli özünüidarəetmə orqanlarının köməyi ilə kənd əhalisinin maarifləndirilməsi və pilot layihələr əsasında onlara nümunə göstərilməsi işi nəticəyönümlü əsasda qurulmalıdır.

Belə bir imkan 44 günlük vətən müharibəsində azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında öz əksini tapa bilər. Hazırda bu ərazilərdə yaradılmış aqroparklarda yeni, müasir üsullarla böyük ölçülü əkin sahələrində innovativ əsaslı istehsal texnologiyalarından istifadəyə başlanmışdır.

***Cədvəl 1.* Azərbaycanda bir kəndli ailəsinin normal yaşaması üçün tələb olunan istehsal istiqamətlərinə uyğun torpaq sahəsi, ha**

| | 2021-ci ildə Respublika üzrə orta məhsuldarlıq, t/ha | 1 tonun sahədən satış qiyməti, manat | Satışdan daxil olan vəsait, manat | 1 ha-ya verilən subsidiya, manat | Cəmi gəlir, manat | 1 ha-ya çəkilən xərc, manat | Əldə edilən subsidiya ilə birlikdə mənfəət, manat | 14760 manatı əldə etmək üçün tələb olunan əkin sahəsi, ha | 21600 manatı əldə etmək üçün tələb olunan əkin sahəsi | Bir ailəyə düşən orta statistik pay torpağı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Buğda | 3,3 | 600 | 1980 | 280 | 2260 | 850 | 1410 | 10,5 | 15,3 | 0.1 – 3.0 |
| Arpa | 3,1 | 500 | 1550 | 280 | 1830 | 800 | 1030 | 14,3 | 20,9 | |
| Kartof | 18,4 | 600 | 11040 | 280 | 11320 | 3500 | 7820 | 1,9 | 2,8 | |
| Pomidor* | 20,4 | 500 | 10200 | 260 | 10460 | 3400 | 7060 | 2,1 | 3,06 | |
| Xiyar* | 16,5 | 450 | 7425 | 260 | 7685 | 3200 | 4485 | 3,3 | 4,8 | |
| Baş soğan* | 25 | 200 | 5000 | 260 | 5260 | 3200 | 2060 | 7,2 | 10,5 | |
| Pambıq | 2,9 | 700 | 2030 | 260 | 2290 | 950 | 1340 | 11,0 | 16,1 | |
| Tütün | 2,1 | 3000 | 6300 | 260 | 6560 | 3200 | 3360 | 4,4 | 6,4 | |
| Alma | 10,3 | 600 | 6180 | 250 | 6430 | 1500 | 4930 | 3,0 | 4,4 | |
| Fındıq | 1,4 | 3000 | 4200 | 250 | 4450 | 1200 | 3250 | 4,5 | 6,6 | |
| Üzüm | 9,8 | 600 | 5880 | 250 | 6130 | 3500 | 2630 | 5,6 | 8,2 | |

***Qeyd:*** **** Cədvəl müəllif tərəfindən tərtib edilmişdir.***
**** 2023-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manat, əmək qabiliyyətli əhali üçün 261 manat, pensiyaçılar üçün 199 manat, uşaqlar üçün 220 manat müəyyən edilmişdir.***
***- ailə üzvlərinin sayı 5 nəfər olduqda, ildə yaşayış üçün tələb olunan vəsait müəyyən edilən minimuma uyğun olaraq illik 14760 manat təşkil edir;***
***- real götürdükdə isə aşağı səviyyədə 360 manat təşkil edir. Tələb olunan illik vəsait ailə üçün 21600 manat təşkil edir;***
***- bir nəfər üçün illik ərzaq xərcləri istehlak normalarına (Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmişdir) uyğun olaraq mövcud qiymətlərlə aylıq 200 manat təşkil edir.***

***Real olaraq kəndlərdə mavi yanacaq xərci noyabr-aprel aylarında adambaşına aylıq 30 manat təşkil edir. Digər istehlak xərcləri isə adambaşına minimum olaraq 130 manat həcmindədir.***
****Tərəvəz açıq sahədə nəzərdə tutulur.***
***2022-ci ilin yanvar –noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,6% artaraq 829,9 manat olub. “2023-cü ildə orta aylıq əmək haqqının 898 manat olması planlaşdırılır (http://apa.az/az/az/social/azerbaycanda-2023-cü il .***

Əldə olunan nəticələr bu regionlarda aqrar sahədə innovasiyalı fəaliyyətlərin intensivləşdirilməsi və onların dayanıqlı inkişaf tələblərinə uyğunlaşdırılması müsbət nəticələr verməkdədir. Aqrar innovasiyalı inkişafın bilavasitə torpaq sahələrinin ölçülərindən asılı olmayan istiqamətləri bu baxımdan, xüsusi diqqət çəkir. Eyni zamanda, dəqiq əkinçilik, proqramlı təsərrüfatçılıq, rəqəmsal texnologiyaların yaratdığı imkanların reallaşdırılması kimi məsələlərin həlli də gündəlikdə olmalıdır. Həmçinin, kənd yerlərində innovasiya fəallığının dəstəklənməsi gəncləri burada, o cümlədən aqrar istehsalda çalışmasının təşviqi ilə müşayiət olunmalıdır (4).

Bir sıra tədqiqatçılar kənd əhalisinin “yaşlanmasını” qlobal və milli miqyasda ərzaq təhlükəsizliyinə ciddi təhdid hesab edirlər. Tədqiqatlar göstərir ki, gənc fermerlərin innovasiyalara açıqlığın motivləşdirilməsi və dəstəklənməsi əhəmiyyətli nəticələr verə bilir. Gənc fermerlər “təsərrüfatın iarə edilməsi, məcmu səmərəlilik, seleksiya, informasiya texnologiyaları və ya məhsuldarlığın monitorinqinə innovativ yanaşmalara görə əhəmiyyətli dərəcədə və müsbət mənada fərqlənirlər” (6).

Gənc fermerlərin aqrar sahədə fəaliyyətinin təşviqi, innovasiyalı fəaliyyətin dolayı stimullaşdırılması yoludur. İqtisadi motivlərin daha güclü olduğu inkişaf etmiş ölkələrdə belə aqrar sahəyə gənclərin cəlb olunması məsələsi aktual olaraq qalır. Bu baxımdan maraqlı məqamlardan biri gənclərin çalışdığı xırda təsərrüfatlarda belə innovasiyalı inkişaf potensialı formalaşdıra və onu reallaşdıra bilməsi barədə əldə olunan nəticədir (5,7).

Əhalinin sosial-iqtisadi problemlərinin həlli baxımından kənd ərazilərində qeyri-kənd təsərrüfatı fəaliyyətləri üçün şərait yaradılması həlledici əhəmiyyətə malik vəzifədir. Həmin fəaliyyətlər müxtəlif istiqamətli və xarakterli ola bilər.

Kənd ərazilərində torpaq resurslarının həcmindən bilavasitə asılı olmayan digər fəaliyyət istiqaməti kənd turizminin müxtəlif növlərinin inkişafının təşviqdir (8).

Yeri gəlmişkən, kəndlinin istehsal fəaliyyəti ilə bilvasitə əlaqədar olan aqroturizmi də bura aid etmək olar. Araşdırmalar göstərir ki, məhz kənd turizmi, qloballaşma proseslərinin intensivləşditi indiki şəraitdə rəqabətə dözməyən kiçik ölçülü fermer təsərrüfatlarına əhəmiyyətli inkişaf imkanları verə bilər (8).

Ümumiyyətlə kənd təsərrüfatının çoxfunksiyalılığından irəli gələn fəaliyyətlər, o cümlədən, yabanı bitki və məhsulların satışı, xalq sənətkarlığının inkişafı və s. kənd əhalisinin social-iqtisadi problemlərinin həllində mühüm rol oynamışdır. Aşağıdakı mənbədə göstərildiyi kimi kənd təsərrüfatının çoxfunksiyalılığı “sahənin yalnız qida məhsulları və xammal istehsalına deyil, həmçinin maddi və bazar qiymətinin müəyyənləşdirilməsi çətin olan, yaxud mümkün olmayan qeyri-maddi nemətlərin yaratmasına da əsaslanır. Yeni iqtisadi münasibətlər sistemində kənd təsərrüfatı istehsalı bir sıra yeni kəmiyyət və keyfiyyət göstəricilərini əhatə edir. Bu baxımdan ətraf mühitə və kənd ərazilərində yaradılan mədəni və mənəvi dəyərlərə olan yeni münasibət diqqəti xüsusilə cəlb edir” (2).

Qlobal iqlim dəyişikliklərinə uyğunlaşma üzrə milli və qlobal miqyasda həyata keçirilən tədbirlərdə kənd icmalarını səfərbər etməklə yanaşı, onların əlavə gəlir mənbəyi də ola bilir (9). Odur ki, kənd ərazilərinin inkişafı üzrə proqramların icrasında, o cümlədən biomüxtəlifliyin qorunması layihələrində fəal iştirakın təşviqi əhalinin social rifahına müsbət təsiri amili də

diqqət mərkəzində olmalıdır.

Aqrobiznes subyektləri ilə əməkdaşlıq perspektivləri aqrar istehsalçıların təşkilatlanması vəziyyəti ilə bilavasitə əlaqədardır. Kənd icmalarının bazara və maliyyəyə çıxış baxımından bu əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Bununla belə, aqrar istehsalçıların maliyyə durumu, onların rəqabətə davamlı olması üçün innovasiya ehtiyaclarını ödəmək baxımından əsasən qənaətbəxş hesab edilmir. Odur ki, həmin icmaların aqrar sahənin və kənd ərazilərinin inkişafı üçün nəzərdə tutulan dövlət-özəl bölmə tərəfdaşlığı layihələrində iştirakı məqsədəuyğundur. İnnovasiyalı aqrar istehsalda dövlət-özəl bölmə tərəfdaşlığının səmərəliliyinin yüksəldilməsi üçün müvafiq normativ-hüquqi baza təkmilləşdirilməli, standartlar, habelə norma və qaydaların işlənib hazırlanması sürətləndirilməlidir. Təbii ki, bu məsələdə rəqəmsal texnologiyalardan fəal istifadə edilməlidir.

Aqrar sahədə özəl sektor, təşkilatlanmış surətdə təmsil olunmalıdırlar. Onlar üşün dövlət strukturları ilə real dialoq meydançalarının yaradılmasında rəqəmsal platformalardan fəal şəkildə istifadə edilməlidir. Qabaqcıl xarici təcrübədən məlum olduğu kimi, həmin platformalarda dövlət-özəl bölmə tərəfdaşlığı seçilmiş modeldən asılı olmayaraq şəffaflığın məqbul tələblərinə cavab verə bilir. Onu da unutmaq olmaz ki, innovasiyalı inkişaf məqsədləri ilə əsas “iştirakçıların qarşılıqlı əlaqəli fəaliyyətləri üçün məqbul şərait yaradan rəqəmsal platformalar əslində çoxsəviyyəli rəqəmsal çərçivələri ifadə edir. Eyni zamanda, müasir rəqəmsal platformalar iqtisadi agentlərin qarşılıqlı münasibətlərini yüngülləşdirir” (10).

Aqrar və digər fəaliyyətlərin şaxələndirilməsi, klaster təşəbbüslərinin dəstəklənməsi istiqamətində atılan addımlar, hələ ki, davamlı gəlir mənbəyi kimi özünü doğrultmamışdır. Bununla belə, şaxələndirmənin perspektivlərinin tədqiqi davam etdirilməlidir. Qabaqcıl təcrübə bu baxımdan inandırıcı dəlillər verir. Deyək ki, Almaniyada hər iki fermerdən biri şaxələndirmə tədbirləri sayəsində kənd təsərrüfatından başqa ən azı bir gəlir mənbəyinə malikdir (11). Həmin mənbələr qismində təsərrüfatdaxili aqrar emal, icma daxilində xidmətlər üzrə ixtisaslaşma, yeni (ekzotik) məhsul istehsalı, aqroturizm və sair göstərilə bilər.

İtkilərin azaldılması və resursların təkrar emalı alternativ gəlir mənbəyi ola bilər. Bu məqsədlə, son məhsulun bazara çıxışında kənd əhalisinə bütün səviyyələrdə, heç olmasa ilk illərdə himayə göstərilməlidir. Həmin himayə məqsədli proqramlar və innovasiya fondlarından maliyyələşən uzunmüddətli layihələr əsasında rhəyata keçirilə bilər (12).

Dünya praktikasında hər şeydən əvvəl müştərək təsrrüfatçılıq sistemi və azad rəqabət mühitini formalaşdırmaq məqsədilə səmərəli antiinhisar tədbirlərinin qüsursuz həyata keçirilmsəini özündə əks etdirir. Beynəlxalq mühitdə məhsulların (iş və xidmətlərin) informasiyaların bollaşması, azad ticarət və alqı-satqı aktlarının genişləndirilməsi kimi dəyərləndirilir. Lakin bütün bunlarla yanaşı qloballaşma prosesinin müdaxiləsiz və sürətli inkişafı mülki dövlətlərin suverenlik funksiyalarının məhdudlaşdırlmasına xarici bazzarlara çıxış imkanlarının azaldılmasına gətirib çıxarır ki, bu da özlüyündə müasir qlobal inkişaf tendensiyasının mənfi təzahürü kimi dəyərləndirilə bilər (1).

**Nəticə**

Ona görə də yuxarıda qeyd olunanlar ölkəmizdə mövcud olan münasib qanunvericilik bazası əsasında formalaşdırılmış dövlət dəstəyinin sistemli tətbiq mexanizmi və təkmilləşdirilmiş idarəetmə əsasında aşağıda qeyd edilən məqsədli proqramların həyata keçirilməsinə ehtiyac vardır:

- kənd təsərrüfatının çox funksiyalılıq imkanlarından məharətlə yararlanması üçün dövlət tənzimlənməsinin real tətbiq mexanizmləri həyata keçirilməli;
- kənd təsərrüfatı və sənaye məhsullarının qiymətləri arasında paritetliyin qorunması;
- regional tədarük fondlarından istifadəyə nail olunması;

- kənd təsərrüfatı və emal müəssisələrinə investisiya və innovasiya yönümlü sistemli köməkliklərin göstərilməsi;
- xarici bazar təsirlərinin yumşaldılması.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. S.V.Salahov (Aqrar sahənin dövlət tənzimlənməsi problemləri), Nurlar, Bakı 2004-cü il. səh 336-337.
2. Ramil Hüseyn. Kənd təsərrüfatının çoxfunksiyalılığı: qlobal iqtisadi sistemdə onun yeri və rolu. Bakı, “MBM” Nəşriyyatı, 2008,336 s., s.14-15.
3. Булгучев Мурат Хамзатович Альтернативная деятельность мелких товаропроизводителей //Вестник РГЭУ РИНХ. 2011. №34. https://cyberleninka.ru/article/n/alternativnaya-deyatelnost-melkih-tovaroproizvoditeley (дата обращения: 05.04.2023.
4. Zulauf. C. Age of US Farmers: Is the Wrong Issue Being Addressed? Farmdoc daily; Department of Agricultural and Consumer Economics, University of Illinois at Urbana-Champaign: Urbana, IL, 2020; Vol 10, issue 35, February 26, 2020.
5. McKillop, J.; Heanue, K.; Kinsella, J. Are All Young Farmers the Same? An Exploratory Analysis of On-Farm Innovation on Dairy and Drystock Farms in the Republic of Ireland. J. Agric. Educ. Ext. 2018, 24, 137– 151, DOI: 10.1080/1389224X.2018.1432494, s.137.
6. Rovny, P. The Analysis of Farm Population with Respect to Young Farmers in the European Union. Procedia-Soc. Behav. Sci. 2016, 220, 391–398, DOI: 10.1016/j.sbspro. 2016. 05.513.
7. Proctor, F.; Lucchesi, V. Small-Scale Farming and Youth in an Era of Rapid Rural Change; International Institute for Environment and Development/ HIVOS: London, UK/The Hague, Netherlands, 2012.
8. Emerging Markets Queries in Finance and Business Advantages and Limits for Tourism Development in Rural Area. Gavrilă-Paven Ionelaa, Bârsan Mircea Constantinb, Lia-Dorica Dogaruc// Procedia Economics and Finance 32 (2015) 1050 – 1059, s.1051.
9. Lima Phom. Effective Community Participation in Biodiversity Conservation Strategies. Published: 23 May 2022// https://panorama.solutions/en/ solution/effective-community-participation-biodiversity-conservation-strategies.
10. Рихтер К.К., Пахомова Н.В. Цифровая экономика как инновация XXİ века: вызовы и шансы для устойчивого развития//Проблемы современной экономики. 2018, № 2(66), с.22-31, с. 26.
11. "Deutsch-Russischer Agrarpolitischer Dialog" Kooperationsprojekt des Bundesministeriums für Ernährung und Landwirtschaft der Bundesrepublik Deutschland Büro Moskau: 105064 Moskau, Kasakova 10/2, Tel./Fax: +7 495 632 25 08, www.agrardialog.ru
12. Далисова Н.А., Степанова Э.В. Диверсификация сельскохозяйственного производства на основе ресурсосбережения // Вестник Алтайской академии экономики и права.2018. № 6, с.58-68; URL: https://vaael.ru/ ru/article/ view?id =127 (дата обращения: 05.04.2023)


**Хиджран Мирзоева**

## РЕСУРСНОЕ ОБЕСПЕЧЕНИЕ И ВОЗМОЖНОСТИ ИННОВАЦИОННОГО РАЗВИТИЯ В АГРАРНОЙ СФЕРЕ

### *РЕЗЮМЕ*

Положительные результаты, достигнутые на начальном этапе аграрной реформы на основе перехода к рыночной экономике, не смогли полностью обеспечить ее, хотя и создали серьезные успехи в улучшении продовольственной безопасности страны. На это есть множество объективных и субъективных причин. После аграрной реформы в основном

малый объем земельных наделов, ограниченность водных ресурсов, финансовые трудности, невозможность наладить инновационное производство не могут обеспечить эффективность производства, что все еще затрудняет образ жизни на селе. Исторически сложилось так, что в сельской местности проживает около половины населения, решение вопроса обусловливает разнообразие подходов, если учесть их привязанность к земле. Поэтому с целью обеспечения высокой эффективности аграрного сектора, в том числе сельскохозяйственного производства, должна быть достигнута интенсификация инновационной деятельности в этой сфере.

***Ключевые слова:*** *сельское хозяйство, ресурсный потенциал, крестьяне, земельный пай, инновации, интенсивное развитие*

**Hicran Mirzayeva**

## RESOURCE PROVISION AND OPPORTUNITIES FOR INNOVATIVE DEVELOPMENT IN THE AGRICULTURAL SECTOR

### *ABSTRACT*

The positive results achieved at the initial stage of agrarian reform based on the transition to a market economy could not fully ensure it, although they created serious successes in improving the country's food security. There are many objective and subjective reasons for this. After the agrarian reform, mainly the small amount of land plots, limited water resources, financial difficulties, the inability to establish innovative production cannot ensure production efficiency, which still complicates the way of life in rural areas. Historically, about half of the population lives in rural areas, the solution of the issue determines a variety of approaches, taking into account their attachment to the land. Therefore, in order to ensure high efficiency of the agricultural sector, including agricultural production, the intensification of innovation activities in this area should be achieved.

***Keywords:*** *agriculture, peasant, resource potential, share land, innovation, intensive development*

**UOT 33.338**

**Nurəngiz Mikayılova**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,*
*i.f.d., dosent*
*nurengiz.mikayilova@mail.ru*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN İQTİSADİYYATINA VERDİYİ TÖHFƏLƏR

*Məqalədə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi I və II dövrdə ölkənin iqtisadi yüksəlişi və əhalinin sosial rifahının yaxşılaşması məsələləri statistik göstəricilərlə təhlil edilmişdir. Eyni zamanda müstəqillik qazanıldıqdan sonra Azərbaycan iqtisadiyyatının tam tənəzzülə uğraması, əlaqələrin qırılması, qanunvericilik bazasının yoxluğu kimi problemlər işıqlandırılmış, Heydər Əliyev tərəfindən aparılmış iqtisadi islahatlar və onların nəticələri cədvəl və qrafik şəklində öz əksinin tapmışdır.*

***Məqsəd*** – Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan iqtisadiyyatına verdiyi töhfələrin öyrənilməsi

***Metodologiya*** - Tədqiqat işində sistemli yanaşma, iqtisadi-statistik təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri-*** Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan iqtisadiyyatına verdiyi töhfələr müəyyən edilmişdir.

***Açar sözlər***: Heydər Əliyev, Azərbaycan iqtisadiyyatı, islahatlar, dinamik inkişaf

## Giriş

Yaşadığımız müstəqil Azərbaycanda elə bir sosial-iqtisadi sahə yoxdur ki, orada Öndər Heydər Əliyevin əl izləri olmasın. Dövlətin iqtisadi inkişafını və hərbi gücünü daim diqqət mərkəzində saxlayan Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün I mərhələsi (1969-1982-ci illər) respublikamızda nəinki iqtisadi yüksəliş, eyni zamanda quruculuq, abadlaşdırma, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi dövrü kimi qiymətləndirilir.

Azərbaycan iqtisadiyyatının əsl yüksəlişi 70-80-ci illərin 1-ci yarısında baş verdi. Belə ki, respublikaya rəhbərlik edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına böyük həcmdə vəsait və resurslar ayrılmasına nail oldu. 1970-85-ci illərdə Azərbaycan üçün ayrılmış maliyyə vəsaiti sovet dövrünün bütün əvvəlki 50 ilində istifadə olunan vəsaitdən 1,4 dəfə çox idi. 1920-69-cu illərdə Azərbaycanın sosial-iqtisadi inkişafına ildə orta hesabla cəmi 340,5 min rubl vəsait sərf edildiyi halda, 1970-85-ci illərdə onun həcmi orta hesabla 1,5 mird rubla bərabər oldu və bütün sosial-iqtisadi sahələrin inkişafına imkan verdi [3, s.18].

## 1. Azərbaycana rəhbərliyin I dövrü

Əminliklə demək olar ki, Azərbaycan Sovet İttifaqında müəyyən inkişaf səviyyəsinə çatmışdır, lakin bu müddətdə Azərbaycan qazandığından çox itirdi. Sözügedən dövrdə iqtisadi planlaşdırmanın mərkəzləşdirilməsi ölkənin iqtisadi şəraitinə məhəl qoymamağın fəsadlarını üzə çıxardı. Xam və ya emal olunmuş bir çox məhsul üzv ölkələrə ucuz qiymətə satılır, sonra isə hazır məhsul kimi Azərbaycana gətirilirdi. Digər tərəfdən, ölkənin əsas gəlir mənbəyi olan

neft və neft məhsullarının ixracatçısı olan respublika pambıq, tütün və şərabın ixracından əldə olunan gəlirlərdən çox az bəhrələnirdi, bütün gəlirlər birlik daxilində vahid mərkəzdə toplanırdı. 1969-cu ilin iyul ayında hakimiyyətə gələn Heydər Əliyev ölkədə emal müəssisələrinin yaradılmasına nail olaraq, respublikanın müəyyən qədər xammal ixracatçısından hazır məhsul ixracatçısına çevirməyə nail oldu.

70-ci illərdə və 80-ci illərin birinci yarısında Azərbaycanda yeni sənaye müəssisələrinin istifadəyə verilməsi, yeni maşın və avadanlıqların alınması bütövlükdə SSRİ-də olduğuna nisbətən daha sürətlə həyata keçirildiyindən əsas kapital da burada daha böyük həcmdə artmış və işçilərin fondla silahlanma səviyyəsi daha yüksək olmuşdur. *“Bir işçiyə düşən əsas fondların dəyəri keçmiş SSRİ üzrə 1980-ci ildə 13,3 min rubl, 1985-ci ildə 17,8 və 1990-cı ildə 24,2 min rubl təşkil edirdisə, Azərbaycanda bu göstəricilər xeyli yüksək olub, müvafiq surətdə 1980-ci ildə 19,5 min rubl, sonrakı illərdə 24,5 və 33,4 min rubla bərabər olmuşdu. Azərbaycan SSR-in vəsaiti və ondan göndərilən xammalla işləyən bir çox müəssisələr Ukrayna, Rusiya və digər respublikalarda fəaliyyət göstərirdi. 80-ci illərin ortalarında Azərbaycanda güclü istehsal potensialı yarandığını başqa faktlar da sübut edir. Misal üçün, 80-ci illərdə Azərbaycandan ittifaq fonduna ayrılan məhsul Azərbaycana gətiriləndən hər il orta hesabla 2,0 milyard rubl, ayrı-ayrı illərdə isə daha çox olmuşdur[6, 7].”*

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 250 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

70-80-cı illər Azərbaycanın sosial-iqtisadi həyatında “dönüş” illəri kimi qiymətləndirilərək milli gəlirin 2 dəfə, sənaye məhsulu istehsalının 3 dəfə artımı ilə müşayət olunur. Həmin illərdə ölkənin əsas istehsal sahələrində innovativ və mütərəqqi texnologiyaların tətbiqinə başlanılmış, ümumilikdə respublikada 250- dən artıq istehsal sahələri istifadəyə verilmişdir. *“Bu dövrdə Azərbaycanda 40-dan artıq maşınqayırma və metal emalı müəssisəsi istismara verilmişdir ki, onlar da 12 orta və kiçik şəhər və rayonlarda yerləşdirilmişdir. Qısa bir müddətdə respublika nəhəng tikinti meydanına çevrilmişdir ki, bu da Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və digər şəhər, rayon və kəndlərdə geniş quruculuq və abadlıq işləri, həmçinin məktəblər, mədəniyyət evləri, inzibati binalar, yaşayış evləri, səhiyyə ocaqları, suvarma kanallarının tikilib istifadəyə verilməsi ilə öz təsdiqini tapır [5,s.1].”*

1982-ci ildən Moskvada SSRİ Nazirlər Sovetinin sədr müavini kimi çalışan Heydər Əliyev daim Azərbaycanı düşünmüş, 20 yanvar faciəsinə etirazını mərd şəkildə bəyan edərək Vətənə qayıtmış və Azərbaycanda dövlət quruculuğunun sürətlənməsi, beynəlxalq arenada nüfuzunun artması, sosial-iqtisadi inkişaf, daxili sabitlik kimi məsuliyyətli bir fəaliyyətlə məşğul olmağa başlamış, qətiyyəti, əzmkarlığı, geniş dünyagörüşü ilə Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdı. Heydər Əliyevin fəaliyyəti ilə müstəqil Azərbaycan dövləti möhkəmləşmiş və güclənərək iqtisadi və siyasi qüdrətini artırmışdır.

## 2. Azərbaycana rəhbərliyin II dövrü

Müstəqillik qazandıqdan sonra Azərbaycanda iqtisadiyyatı ilk illərdə tamamilə tənəzzülə uğradı. Belə ki, iqtisadi əlaqələrin qırılması, qanunvericilik bazasının yoxluğu, müharibə şəraiti, çoxsaylı qaçqın və köçkünlərin olması müstəqillik qazanılan illərin ən böyük problemlərinə çevrilmişdir.

SSRİ-nin dağılması ilə Azərbaycan bazarlarını itirmiş, xammal, yarımfabrikat, təchizat, maliyyə və müəssisələrin idarə edilməsi barədə köhnə mərkəzi planlaşmaya əsasən bir çox müəssisədə istehsal ya dayanmış, ya tam səmərəsiz fəaliyyət göstərirdi. Köhnə SSRİ-dəki müəssisələrlə iqtisadi əlaqələrin qırılması və ölkənin digər respublikalardakı bazarını itirməsi

istehsal səviyyəsində kəskin azalmalara gətirib çıxarmışdı. *“1991-ci ildə ümumi daxili məhsul (ÜDM) 2,7 milyard manat olmuş, 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5% azalmışdı. Bunun nəticəsi olaraq əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəricisi olan əhalinin pul gəlirləri real ifadədə 3,3 dəfə, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdür. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi xeyli yüksəlmişdir.1991-93-cu illərdə ölkədə ÜDM-də sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 40%, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdır [3, s.26].”*

Ölkədə vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlərin nəticəsi kimi Azərbaycana xarici investisiyaların cəlb olunması, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi, xalqın rifah halının yüksəldilməsi və s. kimi uğurlar əldə edilmişdir.

Müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri olmuşdur. Bu müqavilələr Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açmış, neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizmlərini də hərəkətə gətirmiş, ölkəmizin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını təmin etmişdir.

İqtisadiyyatda geriləməni dayandırmaq uçün ilk olaraq iqtisadi islahatlar proqramlarının işləyib hazırlamaq, sərbəst bazar iqtisadiyyatını inkişaf etdirmək, özəlləşdirməni genişləndirmək, gömrük, vergi sistemini qurmaq, təhsil və səhiyyə sisteminin inkişafı üçün yeni infrastruktur formalaşdırmaq, ən ümdəsi, bütün bu kimi fəaliyyətlər üçün hüquqi bazanı formalaşdırmaq mühüm əhəmiyyət kəsb edirdi.

Xalqın iradəsi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatına önəmli uğur qazandırmış beynəlxalq neft müqavilələri ilə xarici neft şirkətlərini Azərbaycana cəlb etdi. Uğurla aparılan iqtisadi islahatlar, dünya iqtisadiyyatına sürətli inteqrasiya, siyasi sahədə sabitliyin təmin olunması sosial-iqtisadi inkişafda bir yeni modelin - Azərbaycan modelinin yaranmasına gətirib çıxartdı. Rəqabətədavamlı və dinamik inkişafa əsaslanan bu model özündə bütöv bir iqtisadi sistemin formalaşması, ölkədə mövcud olan resursların iqtisadi inkişafa cəlb edilməsi, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiya edilməsi kimi strateji prioritetləri birləşdirir.

Büdcə prosesləri istənilən dövlətdə büdcə qanunları ilə tənzimlənir. Azərbaycan Respublikasının büdcə qanunvericiliyi dedikdə Azərbaycan Respublikasının Konstitusiyası, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu, “Büdcə sistemi haqqında” Qanuna uyğun olaraq qəbul edilmiş dövlət büdcəsi haqqında qanunlar və digər normativ-hüquqi qanunlar başa düşülür. Heydər Əliyevin rəhbərliyi altında büdcı sisteminin formalaşması məqsədilə çoxsaylı tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir.

Dövlət büdcəsi vasitəsilə hökumət sosial-iqtisadi siyasəti həyata keçirir və proqram prioritetlərini reallaşdırır. Büdcə təsdiq edildikdən sonra ayrı-ayrı fəsillərin vəsaitlərinin istifadəsi dövlət nazirliklərinin və digər qurumların ixtiyarında olur. Dövlət büdcəsinin gəlirləri əsasən vergilər, gömrük rüsumları, ödənişlər və digər gəlirlərdən ibarətdir. Dövlət büdcəsinin xərcləri dövlətin qanun, yaxud konstitusiya ilə müəyyən edilmiş fəaliyyətini əhatə edir. Büdcə özlüyündə dövlət proqramları üçün vəsait ayırmır, ona görə də əlavə qanunvericilik tədbirlərinə ehtiyac yaranır. Büdcə sistemi ümumi prinsiplərə və bu büdcə sisteminin üzvlərinin müstəqilliyinə əsaslanan fəaliyyətə əsaslanır. Büdcə sisteminin vəhdəti tənzimləyici gəlir

mənbələrindən istifadə, məqsədli büdcə fondlarının yaradılması, maliyyə resurslarının müxtəlif səviyyəli büdcələr arasında bölüşdürülməsi yolu ilə büdcələr arasında münasibətlərə əsaslanır.

Büdcə sisteminin vəhdəti eyni büdcə təsnifatı, eyni büdcə sənədlərindən və formalarından, büdcənin icrası haqqında dövri hesabatlardan istifadə etməklə və büdcə hesabatının icmalının tərtib edilməsi və qanunla müəyyən edilmiş qaydada təqdim edilməsi ilə təmin edilir. Büdcələrin müstəqilliyi mövcud qanunvericiliyə uyğun olaraq, vahid büdcə təsnifatı çərçivəsində gəlir mənbələrini və xərclərin istiqamətlərini müəyyən etmək hüququna uyğun olaraq təmin edilir.

Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə dövlət büdcəsinin inkişafına, onun gəlirlərinin formalaşmasına və xərclərin daha məqsədəuyğun xərclənməsinə xüsusi diqqət yetirirdi. 1995-ci ildən başlayaraq dövlət büdcəsi daha səmərəli istifadə edilməyə başlanıldı.

Statistik göstəricilərə nəzər saldıqda aydın olur ki, 2002-ci ildə dövlət büdcəsinin gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artmışdır (910,2 milyon manat). Xərclər isə öz növbəsində 71,7 dəfə artmış və 931,8 milyon manat olmuşdur. Dövlətin kecirtdiyi tədbirlər planının nəticəsi olaraq sosial müdafiəyə və sosial təminata olan xırclər daim artırılmış, 1993-cü il ayırmaları olan 1,1 milyon manat 2002-ci ildə 190,3 milyon manata çatmışdır.

Heydər Əliyevin səyləri nəticəsində 1994-cü ildın başlayaraq Azərbaycana xarici sərmayə axını ilbəil artaraq 2002-ci ildə 2.2 milyard ABŞ dolları olmuşdur. 1993-2002-ci illər ərzində Azərbaycan iqtisadiyyatına xarici şirkətlər tərəfindən 1,6 milyard ABŞ dolları vəsait qoyulmuşdur.

“İnvestisiya fəaliyyəti haqqında” Qanun imzalandıqdan sonra Azərbaycanda investisiyalaşmanın hüquqi əsasları formalaşdı və ölkə iqtisadiyyatı həm daxili, həm də xarici mənbələrdən maliyyələşməyə başlandı. Maliyyə institutlarının ölkəyə cəlb edilməsi, neft müqavilələri nəticəsində olkəyə daxil olan xarici valyuta axını milli iqtisadiyyatın dircəlməsinə təkan verdi.




| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gəlirlər | 316,9 | 402,6 | 513 | 465,5 | 559,5 | 714,6 | 784,8 | 910,2 | 1220,9 | 1509,5 | 2055,2 |
| Xərclər | 428,4 | 481,9 | 588,7 | 528,3 | 651,4 | 764 | 807,5 | 931,8 | 1234,5 | 1502,1 | 2140,7 |

**Şəkil 1. 1995-2005-ci illərdə dövlət büdcəsinin gəlir və xərcləri (milyon manatla)**
*Mənbə:* “Azərbaycanın statistik göstəriciləri -2006” istinad edilərək müəllif tərəfindən hazırlanmışdır

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası dünyanın ən böyük neft şirkətləri ilə “Əsrin müqaviləsi” imzaladı. Bu, ölkənin ağır vəziyyətdən yeganə çıxış yolu idi. Müstəqil Azərbaycan digər neft hasil edən ölkələrin yolu ilə getməmiş, öz milli inkişaf modelini seçmişdir.

“Əsrin müqaviləsi”nin imzalanmasından sonra ölkədə makrosabitliyin təmin edilməsi, neft strategiyasının həyata keçirilməsi, respublika iqtisadiyyatının yaxşılaşdırılması, ölkəyə xarici investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər nəticəsində sənaye müəssisələrində və xidmət sektorunda mövcud gərginlik nisbətən rahatlaşdı.

Azərbaycan dünyanın ən nüfuzlu maliyyə institutları olan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniya İnkişaf Bankı KfW, Ərəb fondları (Küveyt Fondu, Abu-Dabi, Səudiyyə Ərəbistanı Fondu, OPEC Fondu), Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və digər beynəlxalq maliyyə institutları faydalı əməkdaşlıq etməyə başladı.

1995-ci ildə olkənin sosial-iqtisadi inkişafına 480,7 milyon manat, o cumlədən, 331,4 milyon manat xarici, 149,3 milyon manatı daxili mənbələr hasabına maliyyələşmişdir. Heydər Əliyev iqtisadi islahatlar, istər ölkə daxili, istərsə də beynəlxalq arenada nüfuzundan istifadə edərək investisiya qoyuluşunun hər il sürətlə artmasına nail olurdu. Belə ki, 2004-cu ildə 1995-ci ilə nisbətən investisiya qoyuluşu 12,1 dəfə, o cumlədən, xarici investisiya qoyuluşu 13,5 dəfə, daxili investisiyalar 8,9 dəfə artmışdır.

*“Dövlət əmlakının özəlləşdirilməsi prosesi nəticəsində xüsusi mülkiyyət formalı müəssisələrin sayı xeyli artmışdır. 1996-cı ildə Statistik vahidlərin Dövlət reyestrində 29629, 2002-ci ildə isə 40773 xüsusi mülkiyyət formalı müəssisə qeydiyyatdan keçmişdir. 1996-cı ildə ölkədə fəaliyyət göstərən 100 faiz xarici investisiyalı müəssisələrin, onların filial və nümayəndəliklərinin sayı 602, 2002-ci ildə isə 3,5 dəfə artaraq 2104 olmuşdur. Bu dövr ərzində xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı 2 dəfə artaraq 957-yə çatmışdır” [1,103].*

1993-cü ildən etibarən həyata keçirilən islahatlar Azərbaycanın ictimai, siyasi və iqtisadi həyatında sabitliyə nail olmaq imkanı yaratdı. Ölkədə bank sektorunun və maliyyə sisteminin qurulması istiqamətində mühüm addımlar atıldı, azad bazar iqtisadiyyatının yüksəldilməsi istiqamətində görülən tədbirlər Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini genişləndirdi.

***Cədvəl 1***

**Ölkəyə kapital qoyuluşları**

| | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **2001** | **2002** | **2003** | **2004** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Xarici və daxili sərmayə** | | | | | | | | | | |
| mlyn.manat | 480,7 | 800,8 | 1351,2 | 1495,1 | 1293,8 | 1289,8 | 1454,5 | 2718,9 | 4249,3 | 5820,3 |
| mlyn.dollar | 544,1 | 932,1 | 1694,5 | 1932,2 | 1571,0 | 1441,4 | 1561,8 | 2796,6 | 4326,3 | 5922,8 |
| **Xarici sərmayə** | | | | | | | | | | |
| mlyn.manat | 331,4 | 533,1 | 1042,4 | 1139,0 | 898,6 | 829,5 | 1016,8 | 2172,8 | 3311,0 | 4496,3 |
| mlyn.dollar | 375,1 | 620,5 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 | 1091,8 | 2234,9 | 3371,0 | 4575,5 |
| **Daxili sərmayə** | | | | | | | | | | |
| mlyn.manat | 149,3 | 267,7 | 308,8 | 356,1 | 395,2 | 460,3 | 437,7 | 546,1 | 938,3 | 1324,0 |
| mlyn.dollar | 169,0 | 311,6 | 387,2 | 460,2 | 479,9 | 514,4 | 470,0 | 561,7 | 955,3 | 1347,3 |

*Mənbə:* “Azərbaycanın statistik göstəriciləri -2006” istinad edilərək müəllif tərəfindən hazırlanmışdır.

Bu illər ərzində bir çox xidmət sahəsi özəl sahibkarlığa verilmiş, orta ölçülü istehsal müəssisələrinin özəlləşdirilməsinə başlanılmış, makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatda durğunluq dövrü başa çatmış və yeni inkişaf mərhələsi başlamışdır. Eyni zamanda torpaq islahatına nail olunmuş, kolxozlar və sovxozların əmlakı özəlləşdirilmişdir.

*Cədvəl 2*

**Sənayenin inkişafı (milyon manatla, *min manatla)**

| | 1990* | 1993* | 1994 | 1995 | 1996 | 1997 | 2000 | 2001 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **244,0** | **24602,5** | **227,6** | **1771,2** | **2392,8** | **2742,7** | **3639,6** | **3769,0** | **4982,1** | **5961,4** |
| dövlət sektoru | - | 24135,1 | 222,8 | 1673,8 | 2213,3 | 2053,2 | 1879,4 | 1840,8 | 2153,0 | 2492,8 |
| qeyri-dövlət sektoru | - | 467,4 | 4,8 | 97,4 | 179,5 | 689,5 | 1760,2 | 1928,2 | 2829,1 | 3468,6 |
| **Mədənçıxarma sənayesi** | **12,9** | **1888,6** | **19,0** | **346,5** | **591,4** | **651,3** | **1625,8** | **1844,7** | **2346,6** | **2958,3** |
| Xam neft və təbii qaz hasilatı | 11,8 | 17,7 | 18,4 | 344,3 | 496,7 | 543,4 | 1420,7 | 1769,0 | 2218,1 | 2729,5 |
| Metal filizlərinin hasilatı | 0,4 | 71,8 | 0,1 | 0,7 | 0,8 | 0,4 | 0,2 | 0,1 | 0,2 | 0,6 |
| **Emal sənayesi** | **219,7** | **19807,4** | **166,6** | **1051,7** | **1434,2** | **1738,9** | **1552,6** | **1542,4** | **2219,1** | **2542,4** |
| Qida məhsullarının istehsalı | 60,1 | 3959,5 | 38,5 | 179,5 | 386,6 | 643,9 | 657,1 | 703,1 | 959,0 | 986,6 |
| Toxuculuq sənayesi | 34,2 | 2932,4 | 22,1 | 148,7 | 174,2 | 94,1 | 24,6 | 17,8 | 20,7 | 19,7 |
| Geyim istehsalı | 9,2 | 438,1 | 2,5 | 12,5 | 10,1 | 6,1 | 8,1 | 11,2 | 12,3 | 9,9 |
| Kimya sənayesi | 12,8 | 1651,4 | 9,6 | 52,9 | 88,8 | 73,7 | 101,7 | 107,6 | 136,7 | 179,3 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **10,1** | **2697,3** | **38,1** | **340,6** | **364,7** | **349,4** | **411,7** | **338,5** | **377,0** | **413,2** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **1,3** | **209,2** | **3,9** | **32,4** | **2,5** | **3,1** | **49,5** | **43,4** | **39,4** | **47,5** |

*Mənbə:* “Azərbaycanın statistik göstəriciləri -2006” istinad edilərək müəllif tərəfindən hazırlanmışdır

*“1997-ci ilin noyabr ayında ”Əsrin müqaviləsi”nın ilkin nəticəsi olan “Çıraq” yatağının ilk quyusundan neft fontan vurmuş və 2002-ci ilin sonunadək həmin yataqdan 24,5 milyon ton xam neft və 3,5 milyard kubmetr qaz hasil edilmişdir. 1997-2002-ci illərdə sənaye məhsulu istehsalı 23,6 faiz və ya orta hesabla hər il 3,6 faiz artmışdır. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft emal sənayesi də inkişaf etmişdir. 1999-2002-ci illər ərzində emal sənayesi sahələrində məhsul istehsalı 13,6 faiz artmışdır [1, s. 145]”.*

1993-2003-cü illəri əhatə edən statistikalar göstərir ki, ölkədə bazar münasibətləri sisteminin əsasları ardıcıllıqla qurulmuş, onun genişlənməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Özəl sektorun iqtisadiyyatda rolu ildən-ilə artmaqda davam etmiş, artıq 2003-cü ildə ÜDM-in 73%-dən çoxu (sənayedə 62%-i, kənd təsərrüfatında 99,7%, ticarətdə 98,5%, pullu xidmətdə 71%-i, tikintidə 98%-i) onun payına düşmüşdür. 1996-2003-cü illərdə Azərbaycanda ÜDM-in artımı 1,9 dəfə, sənaye məhsulu istehsalının həcmi 25%, kənd təsərrüfatının istehsalı 1,6 dəfə, yük daşınması 2,6 dəfə artdı. İqtisadiyyatın həlledici sahələrində baş verən əsaslı yüksəliş nəticəsində əhalinin otra aylıq əmək haqqı isə 4,5 dəfə artdı.

Sənaye 26,2 dəfə, mədən sənayesi 8,5 dəfə, emal sənayesi 15,5 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı 40,8 dəfə, su təchizatı, tullantıların təmizlənməsi və emalı 36,5 dəfə artmışdır.

1995-ci ildə “Aqrar islahatın əsasları haqqında” Azərbaycan Respublikasının Qanunu, “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanunu, 1999-cu ildə “Azərbaycan Respublikasının Torpaq Məcəlləsi”, 1999-cu ildə “Bələdiyyə mülkiyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 2001-ci ildə “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş və qanunlardan irəli gələn fəaliyyət

mexanizmləri müəyyənləşdirilmişdir.

Keçirilən çoxsaylı dövlət tədbirləri, torpaq islahatlarının dərinləşməsi, aqrar sahəyə ayrılan investisiyalar bu sahənin də inkişafına təkan verdi. Belə ki, istər kənd təsərrüfatı müəssissələrində, istərsə də ailə-kəndli təsərrüfatlarında bitkiçilik və heyvandarlıq məhsulları istehsalında nəzərəcarpacaq dərəcədə artım əldə olundu.

***Cədvəl 3***

**Kənd təsərrüfatının umumi məhsulu, milyon manatla**

| İllər | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|---|---|
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| Kənd təsərrüfatı müəssisələri | | | | Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları | | |
| **1990** | 0,062 | 0,046 | 0,016 | 0,040 | 0,019 | 0,021 |
| **1991** | 0,111 | 0,084 | 0,027 | 0,087 | 0,041 | 0,046 |
| **1992** | 0,780 | 0,673 | 0,107 | 0,780 | 0,383 | 0,397 |
| **1993** | 4,205 | 3,115 | 1,090 | 6,521 | 2,500 | 4,021 |
| **1994** | 48,3 | 40,7 | 7,6 | 95,4 | 52,4 | 43,0 |
| **1995** | 233,6 | 194,7 | 38,9 | 493,2 | 223,4 | 269,8 |
| **1996** | 295,9 | 246,6 | 49,3 | 629,4 | 283,1 | 346,3 |
| **1997** | 213,7 | 178,1 | 35,6 | 639,8 | 308,4 | 331,4 |
| **1998** | 59,6 | 54,7 | 4,9 | 862,0 | 483,9 | 378,1 |
| **1999** | 37,6 | 33,4 | 4,2 | 951,5 | 508,3 | 443,2 |
| **2000** | 23,9 | 17,8 | 6,1 | 1088,5 | 599,9 | 488,6 |
| **2001** | 22,9 | 14,9 | 8,0 | 1219,3 | 703,7 | 515,6 |
| **2002** | 22,8 | 11,0 | 11,8 | 1320,1 | 763,1 | 557,0 |
| **2003** | 41,6 | 10,3 | 31,3 | 1408,9 | 796,7 | 612,2 |
| **2004** | 63,2 | 13,0 | 50,2 | 1509,5 | 861,8 | 647,7 |

*Mənbə:* “Azərbaycanın statistik göstəriciləri -2006” istinad edilərək müəllif tərəfindən hazırlanmışdır

Yenidən hakimiyyətə gələn Heydər Əliyev əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məsələsində daxili imkanları səfərbər etməyə üstunluk verdi. Pay torpaqlarının bölgüsü prosesi uğurla başa çatdı və əhalinin pay topraqlarının becərilməsi üçün onlara zəruri avadınlıqların, toxum, gübrə kimi vacib məhsulların alınması məqsədi ilə yardımların və subsidiyaların verilməsi prosesinə başlanıldı. Çox keçmədi ki, görülən tədbirlər öz bəhrəsini verdi. Aqrar sahənin statistikasına nəzər saldıqda görürük ki, 1992-2004-cü illər ərzində kənd təsərrüfatı müəssisələrində bitkiçilik məhsulları 19,3 dəfə, heyvandarlıq məhsulları isə 50 dəfə artmışdır. *“2002-ci ildə kəsilmiş çəkidə ət istehsalı 172,8 min tona, süd istehsalı 1119,8 min tona, yun istehsalı 11,8 min tona çatmaqla 1993-cü ilin səviyyəsini 46,1 faiz, 40,2 faiz və 21,6 faiz üstələmişdir. 2002-ci ilin sonuna ölkədə 2,2 milyon iribuynuzlu mal-qara, 7,0 milyon baş qoyun və keçi mövcud olmuşdur [1, s. 284]”.*

2002-ci ildə hər nəfərə düşən orta aylıq pul gəlirləri 43,9 manat olmuşdur. 1995-2002-ci illər ərzində orta aylıq əmək haqqı 5 dəfədən çox artaraq 63,1 manat təşkil etmişdir. 2002-ci ildə qeyri-dövlət bölməsində işləyənlərin orta aylıq əmək haqqı 122,2 manat təşkil etmiş və ümumi ölkə göstəricisindən 1,9 dəfə çoxdur. Əhalinin pul gəlirlərinin artması onların banklarda əmanətlərinin artmasına gətirib çıxartdı. Belə ki, 1994-cü ildə əhalinin banklarda 8.4 mln. manat əmanəti mövcud olmuşdur. 2000-ci ildə bu rəqəm 79,3 milyon manat, 2004-cü ildə isə 403,1 milyon manat təşkil etmişdir ki, bu da 1994-ci ilə nisbətən ildə 47,9 dəfə çox olmuşdur. Bu da əhalinin həyat səviyyəsinin həmin dövrdə artmasını göstərən əsas amillərindən biridir.







**Şəkil 2. Əhalinin banklarda əmanəti (mlyn. manatla)** **Şəkil 3. Əmanətlərin artımı (faizlə)**

*Mənbə:* “Azərbaycanın statistik göstəriciləri -2006”istinad edilərək müəllif tərəfindən hazırlanmışdır

**Nəticə**

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə ölkənin sosial-iqtisadi həyatına misilsiz töhfələr vermişdir. Azərbaycana rəhbərlik etdiyi I dövrdə respublikada yüzlərlə yeni texnologiyalara əsaslanan istehsal müəssisələri yaradılmış, xüsusilə maşınqayırma sahəsinin bir çox növündə Sovet İttifaqında aparıcı mövqeyə malik olmuşdur. Məhz Heydər Əliyevin ciddi səyi nəticəsində Azərbaycanda istehsal olunan 350 növ məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi.

Öndərin ölkəyə rəhbərliyinin ikinci dövründə həyata keçirilən tədbirlər sayəsində kiçik müəssisələrin özəlləşdirilməsi başa çatdırılmış, xidmət sahəsi əsasən özəl sahibkarlığa verilmiş, orta və iri müəssisələrin özəlləşdirilməsinə başlanılmış, makroiqtisadi sabitlik əldə edilmişdir. “Əsrin müqaviləsi” imzalanmış, ölkəyə iri neft şirkətləri cəlb edilmişdir. Bank sektoru inkişaf etdirilmiş, sığorta, lizinq, birja və faktorinq şirkətləri yaradılmışdır ki, bu da öz növbəsində həm iqtisadi inkişafa, həm də investisiya fəaliyyətinə təkan vermişdir. Vergi sahəsindəki inkişaflarla yanaşı, vergi dərəcələrinin yaxşılaşdırılması prosesinə də nail olunmuşdur. Neft sekroru ilə yanaşı sənaye, kənd təsərrüfatı, turizm, qida sənayesi  də inkişaf etmişdir.

1994-cü ildən etibarın Azərbaycana xarici investisiyaların axını hər il artaraq 2002-ci ildə 2,2 milyard dollara çatmışdır. Bu illər ərzində birgə və tamamilə xarici investisiyalar hesabına Azərbaycan iqtisadiyyatına 1,6 milyard ABŞ dolları məbləğində vəsait qoyulmuşdur.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. Dövlət Statistika Komitəsi “Qurtuluşdan tərəqqiyə”, 2019 9№-li kiçik müəssisə, 767səh.
2. Azərbaycanın statistik göstəriciləri -2006”, 9№-li kiçik müəssisə, 576 s.
